ISSN 2079-4150

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

**№ 1 (42) * 2018**

*Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin
2010-cu il 30 aprel tarixli (protokol №10-R) qərarı ilə təsdiq olunmuşdur.*

**1997-ci ilin oktyabrından nəşr olunur**

**BAKI – 2018**

*KBT – 78*
*K 73*

**Təsisçi və baş redaktor:**
*Professor Xəlil İSMAYILOV*
*Dosent Nadir İSMAYILOV (Baş redaktorun müavini)*

**Redaksiya heyəti:**
*1. Professor Abuzər XƏLƏFOV*
*2. Professor Zöhrab ƏLİYEV*
*3. Professor Bayram ALLAHVERDİYEV*
*4. F.e.d. Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ*
*5. Professor Kərim TAHİROV*
*6. Dosent Knyaz ASLAN*
*7. Dosent Sevda XƏLƏFOVA*
*8. Tamella İSMİXANOVA*
*9. Mələk HACIYEVA*
*10. Rəşad QARDAŞOV (Məsul katib)*
*11. Elçin Arif oğluƏHMƏDOV (korrektor)*

K 73 **Kitabxanaşünaslıq və biblioqrafiya:** ***elmi-nəzəri, metodik və təcrübi jurnal.*** – Bakı: Mütərcim, 2018. – № 1 (42). s.

*Redaksiyanın ünvanı:*

AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,
2 №-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,
“Kitabxanaşünaslıq və biblioqrafiya” jurnalının redaksiyası
Telefon: 510-17-60

**© “Kitabxanaşünaslıq və biblioqrafiya”, 2018**

ISSN 2079-4150

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ

# БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФИЯ

Научно-теоретический,
методический и практический журнал

**№ 1 (42) * 2018**

*Утвержден решением Президиума Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики от 30 апреля 2010 года (протокол № 10-R)*

**Выходить с октября 1997 года**

**БАКУ – 2018**

*ББК – 78*
*К 73*

**Учредитель и главный редактор:**
*Профессор Халил ИСМАИЛОВ*
*Доцент Надир ИСМАИЛОВ (зам главного редактора)*

**Редакционная коллегия:**
1. *Профессор Абузар ХАЛАФОВ*
2. *Профессор Зохраб АЛИЕВ*
3. *Профессор Байрам АЛЛАХВЕРДИЕВ*
4. *Д.ф.н. Айбениз АЛИЕВА-КЕНГЕРЛИ*
5. *Профессор Керим ТАХИРОВ*
6. *Доцент Князь АСЛАН*
7. *Доцент Севда ХАЛАФОВА*
8. *Тамелла ИСМИХАНОВА*
9. *Мелек ГАДЖИЕВА*
10. *Рашад ГАРДАШОВ (овт. секретарь)*
11. *Эльчин А. АХМЕДОВ (корректура)*

К 73 **Библиотековедение и библиография:** ***научно-теоретический, методический и практический журнал.*** – Баку: Мутарджим, 2017. – № 1 (42). s.

*Адрес редакции:*

AZ-1073/1 г. Баку, ул. Захида Халилова 23,
учебный корпус №2, этаж IV, Библиотечно-информационный факультет, редакция журнала «Библиотековедение и библиография»
Тел.: 510-17-60

**© «Библиотековедение и библиография», 2018**

ISSN 2079-4150

MINISTRY OF EDUCATION
OF AZERBAIJAN REPUBLIC

BAKU STATE UNIVERSITY
LIBRARIANSHIP AND INFORMATION DEPARTMENT

# LIBRARIANSHIP AND BIBLIOGRAPHY

Scientific and theoretical, methodical
and practical journal

**№ 1 (42) * 2018**

*Approved by the decision of the Presidium of the Supreme Attestation Commission*
*Under the President of the Republic of Azerbaijan from 30 April 2010*
*(protocol № 10-R)*

**Publishing since October 1997**

**BAKU – 2018**

*LBC – 78*
*K 73*

**Founder and editor in chief:**
*Professor Khalil ISMAILOV*
*Docent Nadir ISMAILOV (assistant editor in chief)*

**Editorial board:**
*1.Professor Abuzar KHALAFOV*
*2.Professor Zohrab ALIYEV*
*3. Professor Bayram ALLAHVERDIYEV*
*4.Ph.D. Aybeniz ALIYEVA-KANGARLI*
*5.Professor Karim TAHIROV*
*6.Docent Knyaz ASLAN*
*7.Docent Sevda KHALAFOVA*
*8.Tamella ISMIKHANOVA*
*9.Melek HAJIYEVA*
*10.Rashad GARDASHOV (executive secretary)*
*11. Elchin A. AHMADOV (Proofreader)*

K 73 **Librarianship and bibliography:** ***The scientific-theoretical, methodical and practical journal.*** – Baku: Mutarjim, 2017. – № 1 (42). p.

*Editorial address:*

AZ-1073/1, Baku, st. Zahid Khalilov, 23, an educational building №2,
Floor IV, Librarianship and information department,
Edition of "Librarianship and bibliography" journal;
Tel.: 510-17-60

**© "Librarianship and bibliography", 2018**

## MÜNDƏRİCAT


**X.İsmayılov** Azərbaycan kitabxanalarında informasiya texnologiyalarının tətbiqinin bəzi məsələləri..........16

**X.İsmayılov, N.İsmayılov, D.Məmmədli** Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionununda biblioqrafik fəaliyyətin təşkilinin bəzi məsələləri.......................................23

**N.İsmayılov**Biblioqrafiya haqqında müasir konsepsiyalar.........37
**X.Ağayeva**
**H.Babazadə**

**R.Qardaşov**Xəzər universitetinin kitabxana-informasiya mərkəzinin elektron kataloqu................................43

**S.İsmayılova**Ədəbiyyatşünaslıq üzrə elektron biblioqrafik resurs....................................................................52

**V. Mammadova**Akademik kitabxanalarda fond quruculuğu və komplektləşdirmə məsələləri...............................57

**İ.Bayramova**Azərbaycan Respublikası TəhsilNazirliyi sisteminin kitabxanaları.........................................71

**E.Əhmədov**Kitabxana-informasiya müəssisələri üçün RFİD texnologiya.................................................79

**K.Məmmədova**Kitabxana marketinqinin Azərbaycan modeli (müşahidələr, proqnozlar və təkliflər)......................86

**E.Gülalıyev**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında saxlanılan nadir və qiymətli kitablar.................................................92

**L.Abasova**Kitabşünas alim professor Bayram Allahverdiyevin yaradıcılığında yeni nailiyyət.................................104

**A.Səfərova**Kitabxanaların monumental funksiyası...................110
**Ə.İsmayılova**Azərbaycan Milli Kitabxanasında kitabxana-informasiya xidmətinin formalaşmasının tarixi təcrübəsi....................................................117

**V.Xudiyeva**Əli Bəy Hüseynzadənin arxivinin təsviri..............122

**F.Saniyeva**Elmi kitabxanalarda elektron kataloqun yaradılması və tətbiqi vəziyyəti..............................................129

**S.Hacıyeva** Kitabxana işinin idarəetmə mədəniyyəti................136

**S.Kərimova**İqtisadiyyat sahəsində qanunvericilik məsələləri üzrə sənəd axınının inkişafı..................................140

**G.Bağırova-Hüseynova** Kitabxanalarda Heydər Əliyev irsi üzrə biblioqrafik informasiya xidmətinin təşkili problemləri...........145

**Ə.Cəfərova** Azərbaycanda sənədlərin biblioqrafik uçotunun tarixinə dair.........................................................153

# СОДЕРЖАНИЕ

**Х.Исмаилов** Некоторые вопросы применения информационных технологий в Азербайджанских библиотеках..........16

.

**Х.Исмаилов**Некоторые вопросы организации библиографической
**Н.Исмаилов**деятельности в Шеки-Загатальском экономическом
**Д.Мамедли**районе Азербайджанской Республики........................23

**Н.Исмаилов**Современные концепции о библиографии................37
**Х.Агаева**
**Г.Бабазада**

**Р.Гардашов** Электронный каталог Информационного центраинформационного центра
Хазарского университета.........................................43

**С.Исмаилова** Электронные библиографический ресурс по литературоведение...................................................52

**В.Мамедова** Вопросы разработки коллекций и комплектования в академических библиотеках.....................................57

**И.Байрамова** Система библиотек МинистерствоОбразования Азербайджанской Республики.................................71

**Э.Ахмедов** RFİD технология для библиотечно-информационных центров........................................79

**К.Мамедова** Азербайджанская модель библиотечного маркетинга (наблюдения, прогнозы и предложения)...................86

**Э.Гюлалиев** Редкие и ценные книги хранятся в Центральной научной библиотеке Национальной
академии наук Азербайджана................................92

**Л.Аббасова** Новые достижения в работе книговеда профессора Байрама Аллахвердиева.......................................104

**А.Сафарова** Монументальная функция библиотек.............110
**А.Исмаилова** Исторический опыт формирования библиотечной информационной службы в Национальной библиотеке Азербайджана.....117

**В. Худиева** Описание архива Али Бэй Хусейнзаде...........122

**Ф.Саниева** Научных библиотеках, создание и внедрение электронного каталога ситуацию....................129

**С.Гаджыева**Культура управления библиотечной работой...........................................................136

**С.Каримова** Развитие документального потока по вопросам законодательства в области экономики........140

**Г.Багирова-Гусейнова** Проблемы организации библиографической информационной службы по наследию ГейдараАлиевавбиблиотеках..................................
......145

**А.Джафарова**Об истории библиографического учета документоввАзербайджане............................153

## CONTENTS

**Kh.Ismailov** Some problems of application of information technologies in Azerbaijani libraries..............16

**Kh.Ismailov** Some problems of organization of bibliographic
**N.Ismailov** activity in Shaki-Zagatala economic region
**D.Mammadli** of the Azerbaijan Republic..............................23

**N.Ismailov** Modern consepts about bibliography...............37
**Kh.Aghayeva**
**H.Babazada**

**R.Gardashov** Electronic catalog of Library Information Center of the Khazar University.........................43

**S.Ismailova** Electronic biblioqraphic resaures on literature science................................................52

**V.Mammadova** Collection development and acquisitions issues in academic libraries..........................................57

**I.Bayramova** The library system of ministry of Education of the Azerbaijan Republic................................71

**E.Ahmadov** RFID technology for library-information centers...............................................................79

**K.Mammadova** Azerbaijan model of library marketing (observations, forecasts and proposals).............86

**E.Gulaliyev** Rare and valuable books that kept at the Central Scientific Library of the Azerbaijan National Academy of Sciences.......................92

**L.Abasova** New achivement in the work of bibliologist professor Bayram Allahverdıyev....................104

**A.Safarova** Monumental functıon of libraries.................110

**A.Ismailova** Historical experience of formation of library information service in Azerbaijan National Library............................................117

**V.Khudieva**Description of Ali Bey Husseinzade's archive...........................................................122

**F.Sanieva**In the establishment and application of research libraries electronic catalog.............................129

**S.Hajiyeva** The management culture of library work......136

**S.Karimova**Development of documentary flow on issues of legislation in the field of economics.............140

**G.Bagirova-Huseynova**Organization problems of bibliographic information service on Heydar Aliyev's heritage in libraries.......................................145

**A.Jafarova**On the history of bibliographic registration of documents in Azerbaijan.............................153

***Jurnalın bu nömrəsi Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinə həsr olunur.***

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

16 May 2017, 18:40

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 May 2017-ci il.

# AZƏRBAYCAN KİTABXANALARINDA İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİN BƏZİ MƏSƏLƏLƏRİ

***Xəlil İsmayılov***
*BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri, Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru, professor*

***Некоторые вопросы применения информационных технологий в Азербайджанских библиотеках***
***Резюме:****В статье обсуждается текущее состояние применения информационных технологий в республиканских библиотеках в контексте современного информационного общества, выявление существующих проблем в этом направлении, их научные и теоретические решения, а также обобщение будущего вокруг будущих успехов.*
***Some problems of application of information technologies in Azerbaijani libraries***
***Resume:*** *The article is analysed about application of information technologies in the libraries of republic in the context of modern information society, revealing existing problems showen in this direction and their scientific and theoretical solutions, as well as summarizing the future perspectives on basis around future successes.*
***Açar sözlər:*** *kitabxana, informasiya, informasiya texnologiyası, kitabxana texnologiyası, sənəd, fond*
***Ключевые слова:*** *библиотека, информация, информационные технологии, библиотечные технологии, документы, фонд*
***Key words:*** *library, information, information technology, library technology, document, stock*

Müasir Azərbaycan kitabxanaları yeni texnologiyaların tətbiqi sahəsində bir sıra müvəffəqiyyətlər əldə etmişlər. XX əsrin sonları və XXI əsrin əvvəllərindən başlayaraq kitabxana təcrübəsində yeni inkişaf, xüsusilə kompüter texnologiyalarının tətbiqi sahəsində yeni kommunikasiya texnologiyalarından istifadə etməklə, yeni proseslər - komplektləşmə, kitabişləmə, informasiya xidməti, fondun qorunması sahəsində bir sıra yeniliklər həyata keçirildi.

Bu sahədə, yəni kitabxana işində struktur dəyişikliklərin həyata keçirilməsi məqsədilə çox mühüm dövlət qərarları qəbul edilmişdir ki, bunlar kitabxana işinin inkişafına xüsusi istiqamət verməkdədir.[1;2;3;4;5;6;7]

Dünya təcrübəsində olduğu kimi, respublikamızda da müasir kitabxanalar bu prosesdə olduqca fəal iştirak edir, vahid informasiya fondunun yaradılmasına xidmət edir. İnformasiya texnologiyaları yeni biliklərin əldə edilməsində, informasiyanın toplanmasında, həmçinin yeni biliklərin əldə edilməsində və yayılmasında həlledici rol oynayır.

Bunlar müasir dövrdə kitabxanaların strateji inkişafında həlledici rol oynayır. Ona görə də informasiya texnologiyalarının dərindən mənimsənilməsi və onun

tətbiq edilməsi müasir kitabxanalar üçün olduqca aktual problemlərdən biri kimi Azərbaycan kitabxanalarının və geniş kitabxana ictimayyətinin qarşısında duran vacib məsələlərdən biridir.

Hazırda respublikamızın iri elmi kitabxanalarında, xüsusilə Milli Kitabxananın fəaliyyətində, eləcə də digər respublika əhəmiyyətli kitabxanalarda bu sahədə nəzər-diqqəti cəlb edən iş təcrübəsi formalaşmaq üzrədir. Son illərdə bu kitabxanaların əsas prioritet fəaliyyət istiqaməti, demək olar ki, yeni istiqamətdə dəyişmiş və inkişaf etdirilmişdir. Bu istiqamətdə aparılan fəaliyyətin nəticəsi olaraq kitabxana praktikasında yeni informasiya texnologiyalarının tətbiqi ilə əlaqədar olaraq komplektləşmə və kitabişləmə prosesləri, həmçinin fondun qorunması və saxlanılması işində bir sıra yeniliklər özünün vacib olan həllini tapmışdır.

Kitabxana fondlarının avtomatlaşdırılması prosesləri, hansı ki, son onilliklər ərzində həyata keçirilir, kompüter texnologiyalarının tətbiqini mənimsənilməsinə nail olunmuş və xeyli iş yerlərinin açılmasına, həmçinin fiziki işlə məşğul olan kitabxana işçilərinin əl əməyindən azad olunmasına və lazımsız iş yerlərinin boşalmasına şərait yaratmışdır. İnternet resurslarından istifadə edilməsində, mükəmməl texnologiyaların yaradılmasında, həmçinin şəxsi saytların və müəssisələrin saytlarının yaradılması öz nəticələrini vermiş, kitabxana saytlarından istifadə nəzərə çarpacaq dərəcədə yaxşılaşdırılmışdır, veb-servislərdən istifadə edilməsi ənənəvi iş formasına çevrilmişdir. [11;12;13;14]

Veb-saytlar vasitəsi ilə virtual oxucular bütün informasiya növlərindən azad istifadə imkanlarını əldə edirlər. Beləliklə, informasiya xidməti getdikcə genişlənir, yeni inkişaf mərhələsinə çatır, oxucular və ictimaiyyət tərəfindən kitabxanaların imici və statusu genişlənir. Bu yeniliklərin nəticəsi olaraq kitabxana saytlarında nəinki ayrıca bir kitab haqqında məlumat əldə etmək, həmçinin region mərkəzində keçirilən hər hansı bir kitabxana tədbiri yaradıcı tədbirlər haqqında müfəssəl məlumatlar əldə etmək, bununla yanaşı, onlayn rejiminə girməklə, abonoment vasitəsilə alınan kitabların kitabxanaya gəlmədən müddətini uzatmaq, elektron versiyalarda kitabların özünü əldə etmək, virtual məlumat xidmətindən istifadə etməklə elektron kitabxanadan istifadə etmək mümkünlüyü artmışdır. Əlbəttə, bütün bunlar olduqca müsbət keyfiyyətlər kimi qiymətləndirilsə də, hələ bu sahədə bir sıra yeniliklərin aparılmasına çox ciddi ehtiyac vardır. [8, s.90]

Kitabxanaların fəaliyyətində son onilliklərdə həyata keçirilən kitabxana islahatlarında əldə olunan naliyyətlərdən, bu sahədə aparılan tədbirlərdən, kitabxanaların maddi-texniki bazalarından, yeni kitabxana proqramlarından və onların tətbiqindən, korporativ kitabxanaların yaradılmasından və s. problemlərdən danışmaq nəzərdə tutulur.

İnformasiya fəaliyyətinin əsas prioritet cəhətlərindən danışarkən qeyd etmək lazımdır ki, Azərbaycan kitabxanalarının fəaliyyətində bir sıra keyfiyyət dəyişiklikləri baş vermişdir. Yeni kitabxana texnologiyalarının mənimsənilməsi və tətbiqi sayəsində, həmçinin onun kitabxana təcrübəsinə tətbiqində, fondun komplektləşdirilməsində, kitabişləmə prosesində və fondun mühavizəsində və s.-də nəzərə çarpan yeniliklər meydana çıxmışdır. Kitabxana proseslərinin

respublikamızda avtomatlaşdırılması prosesləri, hansı ki son iki onilliklər dövründə keçirilir, öz bəhrəsini vermiş, texniki hesablamalara görə bütün kitabxanalar üzrə 5000-ə yaxın kompüter işçi yerinin yaradılmasına imkan yaratmışdır.

Artıq mükəmməl internet resurslarından istifadəyə şərait yaradılması, həmçinin kitabxanaların hər birinin ayrıca internet saytlarının formalaşması artıq öz bəhrəsini verməkdədir. Belə ki, veb-servis xidmətləri virtual tələbatçılar üçün daha önəmli proseslərdən biri kimi qəbul edilir. Bu xidmət növləri oxucuların sərbəst kitabxana fondlarından istifadəsinə şərait yaradır, açıq informasiya daşıyıcılarından istifadə etməklə öz tələbatını ödəmək imkanı əldə edirlər. Ayrı-ayrı kitabxanaların saytlarından təkcə fondda olan kitablar və yeni informasiya daşıyıcıları haqqında məlumatları əldə etməklə yanaşı, ölkədə baş verən maraqlı kitabxana tədbirləri, regional kitabxana mərkəzlərində baş verən yeniliklər haqqında məlumatları əldə etməklə yanaşı, online rejimi ilə oxucuların əlində istifadədə olan kitabların vaxtının uzadılmasının və elektron sənədlərin istifadəsini həyata keçirə bilərlər. [7, s.99]

Qeyd etmək olar ki, dünya təcrübəsində olduğu kimi, artıq Azərbaycan kitabxanalarında olan innovativ inkişaf meylləri geniş vüsət almağa başlamışdır. Hazırda respublikanın bütün sahələrində sənaye istehsalında yüksək texnologiyaların tətbiq olunduğu bir vaxtda elmi-sənaye sferalarında, prioritet vəzifələrin yerinə yetirilməsində informasiya orqanlarının üzərinə də mühüm vəzifələr düşür. Bütün bu kimi aktual məsələlərin həllində informasiya təminatının olduqca mühüm əhəmiyyəti vardır. Kitabxana sferasında sistemli kataloqdan elektron kataloqa keçid mərhələsində nəzəri və praktiki cəhətdən bir çox yeniliklər baş vermişdir.

Artıq qeyd etmək olar ki, bir neçə onillikdir ki, bu proseslər kitabxana təcrübəsində həyata keçirilir. Dünyanın bütün kitabxanalarında olduğu kimi, artıq kitabxanalarımızda, xüsusilə, kataloqlaşdırma işinə, elektron informasiya sistemlərində, kommunikasiya sistemlərinin idarə edilməsində, gənc mütəxəssislər, yaradıcı işçilər çalışırlar. Təəssüflə qeyd etmək istərdim ki, dünya təcrübəsindən fərqli olaraq, respublikamızda hələ də ənənəvi kataloq-kartateka sistemlərindən istifadə etmək məcburiyyətində qalırlar.

Respublikanın bütün kitabxanalarında elektron kataloqun tətbiqində müəyyən çatışmamazlıqların olması ucbatından hələlik ənənəvi kataloqlardan istifadə edilir. Əlbəttə, elektron kataloqlarının fəaliyyəti tam, bütün məlumatları özündə əks etdirməklə işlək vəziyyətdə olsaydı, məlumat axtarış işi olduqca keyfiyyətli və asan başa gələrdi.

Hazırda Respublikamızın kitabxana fondlarına istənilən qədər çap məmulatı, sənədlər daxil edilir. Bu sənədlərin xeyli hissəsi kitabxana konsorsium və qrantlar yolu ilə əldə edilir. Xarici ədəbiyyat fondunun yaradılmasında çalışan, onların elektron kataloqda yerləşdirilməsi xarici dilləri bilən mütəxəssislər tərəfindən həyata keçirilir. Əlbəttə, belə mütəxəssislərin hazırlanmasında da müəyyən problemlər hələ də yaşanılır. Əvvəlki illərdə linqivistik problemlərin həllinə ciddi əhəmiyyət verilməsə də, indi bu problemin həllinə ciddi ehtiyac olduğu ortaya

çıxır. Bunun üçün respublika əhəmiyyətli tədbirlərin görülməsi günün vacib məsələlərindən biri kimi qarşıda durur. Xarici dilin öyrənilməsi sahəsində respublikada ardıcıl olaraq məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, Bakı Dövlət Universitetində, Naxçıvan və İncəsənət universitetlərində və bir sıra lisey və orta ixtisas məktəblərində xüsusi ingilis dilli qrupların yaradılması üzrə mütəxəssis hazırlığı və xüsusi kurslarda xarici dillərdə kursların keçirilməsi diplom və sertifikatlar alınması və həyata keçirilməsi bu işdə xüsusilə kompleklәşmə və xidmət işi sahəsində xeyli irəliləyişə səbəb olmuşdur. Son illərdə xarici dil bilən, ixtisasına və peşəsinə xüsusi maraq və həvəs göstərən gənclər kitabxanalara cəlb olunurlar ki, bu da öz töhfəsini verməkdədir. [12; 13]

Hazırda respublikamızın, demək olar, bütün kitabxana şəbəkələrində və sistemlərində kitabxanaların avtomatlaşdırılması əsasən iki istiqamətdə həyata keçirilir: birinci, ənənəvi kitabxana fəaliyyətinə onun informasiya təminatına köməklik göstərmək, ikinci, tam mətni elektron bazalarının yaradılması rəqəmsal kitabxana fondlarının yaradılması yolu ilə tələbatçıların internet vasitəsi ilə tam mətnli informasiya materialları ilə təmin etmək ən başlıca məqsəd kimi həyata keçirilir.

Müasir dövrdə yeni çap olunan və kitabxanalara komplektləşmə yolu ilə daxil edilən sənədlər elektron kataloqlara daxil edilir. Onların elektron versiyaları hazırlanır. Axtarış zamanı təkcə sənədlərin adları, müəllifi, nəşr ili, nəşr yeri və s. ilə yanaşı, fonda daxil edilən sənədlərin bütövlükdə mətni elektron versiyada təqdim edilir. Beləliklə, oxucuların tələbatı ənənəvi məlumat axtarışından fərqli olaraq onlar bütöv informasiyanı əldə etməklə ondan istifadə edirlər.

Müasir kitabxanalar cəmiyyətin inkişafının sosial-iqtisadi şərtləri və elmi-texniki səviyyəsi ilə müəyyənləşən, öz potensialı vasitəsilə informaiya sənayesinin inkişaf prosesinə birmənalı şəkildə təsir və inteqrasiya etmək, informasiya məhsulunun çeşidini genişləndirmək, məzmununu zənginləşdirmək, ənənəvi məlumat məhsulları ilə bərabər, avtomatlaşdırılmış kitabxana informasiya sistemlərinin tətbiqindən bəhrələnərək müasir məzmunlu məlumatları əldə etmək, qorumaq və ötürmək vəzifələri yerinə yetirilir.

XXI əsrin əvvəllərindən başlayaraq sivilizasiyanın yüksək sürətlə inkişafı, internetin meydana gəlməsi kitabxanaların yeni informasiya texnologiyalarından, kompüterləşmiş iş vasitələrindən, durmadan artan informasiya ötürücülərindən, operativ kommunikasiya şəbəkələrindən maksimal səviyyədə istifadəni zəruri etmişdir. Hazırda bəşəriyyət tərəfindən toplanmış bilik və informasiyalar ənənəvi çap məhsulu ilə yanaşı, həm də elektron (rəqəmsal) formada təqdim olunmaqdadır. Bütün bunlar da öz növbəsində oxucuları bütün bəşəri informasiyaları müasir üsullarla qavramağa istiqamətləndirilir ki, nəticədə insan fəaliyyətinin əsas məhsullarından sayılan informasiya qloballaşaraq, tələbatçının başlıca axtarış və mənbə mərkəzinə çevrilməkdədir. [9, s.29]

Ənənəvi kitabxanaların inkişaf prespektivləri və müasir kitabxanaların iş prinsipləri göstərir ki, indi kitabxanaların funksiyaları daha da artmışdır. Bu səbəbdəndir ki, müasir kitabxanaların iş meyarlarını səciyyələndirən amillərə

müasir elektron informasiya vasitələrindən istifadə etmək kimi proseslər də daxil olmuşdur və bu proses daha da genişlənməkdədir.

Müasir şəraitdə kitabxanaların xidmət sisteminə ancaq müxtəlif tipdən və növdən olan qiraət zallarında və abonement şöbələrində kitab, kartoçka kartotekalar ilə işləmək deyil, həmçinin ən müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə ənənəvi fəaliyyətin keyfiyətini yüksəltmək, internet informasiya resursları, elektron kataloq və elektron kitabxana vasitəsilə informasiya xidmətini həyata keçirmək, elektron məlumat bazaları yaratmaq, elmi kommunikasiyaların inkişafına təkan vermək kimi işlər aid edilir.

İnformasiya xidməti formaca yeni bir xidmət növü kimi səslənsə də, məzmunca ənənəvi "kitabxana xidmətinin" davamıdır. Elektron informasiya xidməti oxucuların informasiya təlabatına tam cavab verə bilən müasir informasiya texnologiyasının tətbiqi və ondan istifadə əsasında internet vasitəsilə dünya müstəvisinə çıxan, elektron informasiya vasitələrinin köməyi ilə oxucuların qarşısında böyük informasiya məkanı yaradan, bəşəri biliklər xəzinəsi, xəyali-virtual kitabxananın köməyi ilə oxucuların xidmətinə verilə bilən xidmət növüdür. İnformasiya xidməti oxucuların informasiya tələbatını ödəməyə yönəlmiş fəaliyyət sahəsidir.

İnformasiyalaşdırılmış cəmiyyətdə oxucu sorğularının öyrənilməsi sahəsində həm ənənəvi, həm də elektron informasiya xidmətindən qarşılıqlı şəkildə istifadə edilir. Yüksək ixtisaslı mütəxəssis hazırlığının təşkili və həyata keçirilməsində ali məktəblərin struktur bölmələri olaraq, fəaliyyət göstərən ali məktəb kitabxanalarının rolu və əhəmiyyəti əvəzsizdir. Bu kitabxanalar ali məktəblərin soraq-informasiya və tədris bazaları kimi çıxış edərək, elmin inkişafında iştirak edən bütün struktur bölmələrinə yaxından kömək edirlər. Respublikamızın bütün tip və növlərindən olan kitabxanalar kimi ali məktəb kitabxanaları da gənc nəslin təhsil, təlim və tərbiyə məsələlərinin həllində yaxından və fəal şəkildə iştirak edirlər.

Bu kitabxana şəbəkəsinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onlar respublikada elm və mədəniyyəti, iqtisadiyyatın müxtəlif sahələri üçün yüksək ixtisaslı kadrlar hazırlanmasına kömək edən ali məktəbin bölməsi kimi fəaliyyət göstərən kitabxanalardır. Başqa sözlə, ali məktəb kitabxanaları öz fondunu ali məktəbin profilinə uyğun komplektləşdirir, professor-müəllim heyətini, tələbələri elmi ədəbiyyatla, dərslik və dərs vəsaitləri ilə təmin edir, ali məktəbin illik elmi-tədqiqat işi haqqında hesabatlarını, elmi və elmi-konfrans materiallarını, ali məktəbin hazırladığı metodik materialları, habelə müdafiə olunmuş dissertasiyaları toplayır və mühafizə edir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin təstiq etdiyi ali məktəb kitabxanalarının əsasnaməsində deyilir: "Kitabxana ali məktəbin aparıcı struktur bölmələrindən biri olub, təlim-tərbiyə və elmi-tədqiqat prosesini, tədris elmi-metodiki ədəbiyyatla və informasiya materialları ilə təmin edən və bilikləri təbliğ edən mənəvi və intellektual əlaqələrin yayılması mərkəzidir" [7, s.19]. Hazırda respublikamızın bir çox ali məktəb kitabxanaları dünyanın modern kitabxanalarına çevrilməklə oxuculara tam müasir xidmət göstərilməsinə şərait yaradır, oxucu

xidmətinin müasir informasiya texnologiyası ilə təmin edilməsi sahəsində xeyli tədbirlər görür. Kitabxanaların internet şəbəkəsinə qoşulması, oxucular üçün ümumaçıq informasıya məkanının formalaşdırılması, xidmət prosesində elektron sənədlər və kataloqlardan, elektron poçt, CD-ROM və s. informasiya texnologiyalarının tədbiqini təmin edən tədbirlər həyata keçirirlər. Ali məktəb kitabxanalarında oxuculara elektron informasiya vasitələri ilə xidmət işinin təşkili qloballaşan informasiya cəmiyyətinin tələbləri kimi qarşıya çıxmışdı.

XX əsrin sonlarında informasiya əsrini və informasiya iqtisadiyyatını səciyyələndirən proseslər az bir müddətdə kitabxana proseslərinə, o cümlədən ali məktəb kitabxanalarında xidmət işinə təsir etməyə başladı və günün tələbinə çevrildi. 1960-70-ci illərdə bir sıra elektron vasitələrin mövcud olmasına, bu vasitələrlə bir sıra fəaliyyətlərin göstərilməsinə, hərbi-müdafiə sənayesində, dövlət təhlükəsizliyi, kosmik araşdırmalarda tədbiq olunması haqqında fikirlərə mütəxəssislərin əsərlərində rast gəlirik. Kitabxana-informasiya proseslərində də elektron vasitələrin tətbiqi məhz 1960-cı illərin ortalarında başlamış və texnologiyanın kompleks inkişafı ilə nəhayət 1990-cı illərin ortalarında kütləvi istifadəyə daxil olmuşdur. Nəhayət, 90-cı illərin ortalarında informasiyalaşdırma fəaliyyətinin prinsipləri işlənib hazırlandı ki, bu elektron vasitələrdən çoxistiqamətli istifadənin elmi-nəzəri əasları müəyyənləşdirildi. [10, s.19]

1998-ci ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunmasından [6] sonra, yəni 90-cı illərin sonlarından etibarən Azərbaycan kitabxanalarında, o cümlədən ali məktəb kitabxanalarında komplektləşdirmə işinə, oxuculara müasir formada xidmət işinə başlandı. Kitabxanalarda elektron vasitələrlə yüksək keyfiyyətli xidmət işinin təşkili yalnız kitabxana-informasiya proseslərinin tam komplektləşdirilməsi hesabına mümkün oldu. Bu baxımdan XX əsrin 90-cı illəri problemin həllində açar mərhələ oldu. İnformasiyalaşdırmanın prinsiplərini Rusiya kitabxanaşünas alimləri aşağıdakı kimi müəyyənləşdirir:

- İnformasiyalaşdırma strategiyasının işlənməsi (məqsəd, vəzifə, vasitə, mərhələ, heyətin təlimi və s.);
- kompleks yanaşma (bütün əsas kitabxana-informasiya proseslərinin kompüterləşdirilməsi, yerli hesablama göstəricilərinin yaradılması);
- istifadəçi tələbatlarının mərkəzləşdirilməsi;
- kitabxana ictimaiyyəti tərəfindən toplanan təcrübənin öyrənilməsi;
- internetə çıxış məqsədilə telekommunikasiya imkanlarından istifadə edilməsi;
- kitabxanalarda elektron vasitələrlə işləmək üçün psixoloji və peşəkar hazırlığın formalaşdırılması;
- sanitar-gigiyenik qayda və normaların tətbiqi əsasında əməyin rasional şərtlərinin yaradılması. [7, s.89]

Hazırda Azərbaycan kitabxanalarının çoxunda informasiya texnologiyaları əsasında, elektron informasiya resursları yaradılır, hansı ki, onun əsasında analitik-sintetik nəşrlər toplum halda təqdim olunur, informasiya mətnləri illüstrativ sənədlər, faktiki olaraq bütün biblioqrafik materialları əldə etmək olar. Kitabxananın saytında fonda daxil olmaq üçün bir sıra proqramlar mövcuddur. Bu proqramlar vasitəsilə müxtəlif mövzularda ölkəşünaslıq üzrə sənədlərin axtarışı xüsusi əhəmiyyət kəsb edir. Respublika kitabxanalarında istifadə olunan layihələr içərisində professional qiymətləndirən proqramlarda əsasən respublikada nəşr olunan sənədlərin axtarışına üstünlük verilir. Həmçinin ayrı-ayrı mövzularda, onun aktual problemlərinə həsr olunmuş məlumat bazaları və onların proqramları üzrə məlumat axtarış bazası yaradılır və ondan istifadə olunur.

**Ədəbiyyat**


1. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 aprel 2007-ci il tarixli sərəncamı // Azərbaycan, 2007, 21 aprel.
2. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" // "Azərbaycan" qəzeti, 2005, 21 oktyabr, s. 4-6.
3. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1998, 17 s.
4. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, 2008, №2, s.7-30.
5. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli strategiya (2003-2012-ci illər)" // "Azərbaycan" qəzeti, 2003, 18 fevral, S.3.
6. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan, 1998, 19 iyun, S.2-4.
7. İsmayılov, X.İ. Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti, Bakı: 2009, 319 s.
8. Мотрененко, И.Л. Традиционные и электронные каталоги: дифференцированный подход // Библиография, 2001, №2, с.59-67.
9. Шрайберг, Я.Я. Библиотеки элэктронная информация и меняющееся обшество в информационном веке, Москва, 2006, 35 с.
10. Павлова, Л.П. Библиотека и новые информационные технологии/ Л.П.Павлова // Научно-технические библиотеки, 1999, № 6, С. 15-21.
11. http://www.anl.az
12. http://library.azmiu.edu.az
13. http://www.bsu.az/lib
14. http://www.elm.az/az/presidium/library/index.htm

# AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏKİ-ZAQATALA İQTİSADİ REGİONUNUNDA BİBLİOQRAFİK FƏALİYYƏTİN TƏŞKİLİNİN BƏZİ MƏSƏLƏLƏRİ

***Xəlil İsmayılov***
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Əməkdar mədəniyyət işçisi, tarix üzrə elmlər doktoru, professor*
***Nadir İsmayılov***
*Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
***Daşqın Məhəmmədli***
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi*

***Некоторые вопросы организации библиографической деятельности в Шеки-Загатальском экономическом районе Азербайджанской Республики***
***Резюме:****Статья посвящена библиографической деятельности, методологии ее организации и научно-теоретическому обобщению состояния организации библиографической деятельности в Шеки-Загатальском экономическом регионе. Анализируются библиографические информационные ресурсы региона, функциональные возможности библиографической деятельности в библиотечно-информационной инфраструктуре, обобщаются перспективы существующих проблем и их решений.*
***Some problems of organization of bibliographic activity in Shaki-Zagatala economic region of the Azerbaijan Republic***
***Abstract:*** *The article is deals with the bibliographic activity, the methodology of its organization and showen the scientific-theoretical summarization of the organization of bibliographic activity in the Shaki-Zagatala economic region.The bibliographic information resources of the region, the functional capabilities of bibliographic activity in the library-information infrastructure system are analyzed on the existing problems in this fields and their solutions is showen and perspective problems generalized*
***Açar sözlər:*** *biblioqrafiya, bibliqrafik informasiya, biblioqrafik fəaliyyət, Şəki-Zaqatala İqtisadi regionu, informasiya, sənəd, kitabxana, MKS, kitabxanaçı.*
***Ключевые слова****:библиография, библиографическая информация, библиографическая деятельность, Шаки-Загатальский экономический район, информация, документ, библиотека, ЦБС, библиотекарь*
***Keywords:*** *bibliography, bibliographic information, bibliographic activity, Shaki-Zagatala Economic region, information, document, library, MLS, librarian*

Yeni informasiyalaşdırılmış cəmiyyət şəraitində Azərbaycan Respublikasında kitabxana quruculuğunun müasir mərhələsinin qanunauyğunluqlarına müvafiq olaraq kitabxanaların funksiyaları mürəkkəbləşmiş, cəmiyyətin həyatında,

informasiya işinin ümumi sistemində onların rolu yüksəlmişdir. Bununla əlaqədar olaraq kitabxanalar qarşısında yeni-yeni tələblər qoyulur. Bu tələblərdən biri əhaliyə göstərilən biblioqrafik xidmətin səviyyəsini yüksəltməkdən ibarətdir.

Elmin inkişafı, onun yeni problemlərinin yaranması biblioqrafik xidmətin təşkilinin forma və məzmununa tələbatın artması zərurətini yaradır. Bu işdə isə biblioqrafiyanın əsas vəzifəsi oxucuya onu maraqlandıran ədəbiyyata dair tam, dolğun, dəqiq və operativ məlumatı çatdırmaqdır. Bunun üçün isə hər bir kitabxanada olduğu kimi, Mərkəzləşdirilmiş Kitabxana Sistemində də (MKS) biblioqrafik işi düzgün təşkil etmək və elmi şəkildə əsaslandırılmış soraq-biblioqrafiya aparatı yaratmaq lazımdır.

MKS-də biblioqrafik fəaliyyətin təşkili dedikdə, bütün biblioqrafik vasitələrdən istifadə etməklə kitabxananın öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirilməsinə yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur [6, s.92]. Bu işin təşkilati-funksional quruluşu bir sıra xarici və daxili amillərdən asılıdır. Birinciyə kitabxananın tipi, onun əsas vəzifələri, idarə mənsubiyyəti fərdi və kollektiv abonentlərin tərkibi və fondun həcmi daxildir. Daxili faktorlardan aşağıdakıları göstərmək olar: fondun miqdarı, ştatda olan işçilərin sayı, onların peşə hazırlığının səviyyəsi, avtomatlaşdırma vasitələrindən istifadə dərəcəsi və s.

Bütün tip kitabxanalarda olduğu kimi MKS-lərdə də biblioqrafik fəaliyyətin əsas istiqamətlərinə aşağıdakılar daxildir:

- soraq-biblioqrafiya aparatının (SBA) təşkili;
- biblioqrafik vəsaitlərin tərtibi;
- biblioqrafik informasiya xidməti;
- soraq-biblioqrafiya xidməti;
- tövsiyə biblioqrafiya fəaliyyəti;
- metodiki iş və məsləhətlər;
- biblioqrafik biliklərin təbliği;
- kitabxanaların elmi-tədqiqat fəaliyyəti. [5, s.22]

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonlarının MKS-lərində biblioqrafik fəaliyyətin səmərəli təşkili üçün aşağıdakılar nəzərə alınır:

Biblioqrafik işin elmi əsaslandırılmış planlaşdırılması; şöbələr arasında səmərəli iş bölgüsü; kadrların düzgün yerləşdirilməsi; biblioqrafiya işinin əlaqələndirilməsi; əməyin elmi təşkili; biblioqrafik proseslərə normaların tətbiqi; əməkdaşların ixtisaslarının artırılması. [5, s.24].

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonlarının MKS-lərində biblioqrafik işin təşkilinin özünəməxsus xüsusiyyətləri vardır. Onlar aşağıdakılardır:

1. Bütün sistem üzrə biblioqrafik fəaliyyətə rəhbərlik edən mərkəzi kitabxananın təşkiledici rolu.
2. Ayrı-ayrı biblioqrafik proseslərin mərkəzləşdirilmiş şəkildə yerinə yetirilməsi.
3. Sistemin yarımbölmələrinin ixtisaslaşmış fəaliyyəti.
4. Texnoloji sənədlərin vahidləşdirilməsi.
5. Sistemin mərkəzi kitabxanası ilə, filial kitabxanaları arasında ciddi istehsalat əlaqəsinin olması.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərinin biblioqrafiya şöbələri öz işini vahid plan əsasında aparır, hər il görəcəyi işi planlaşdırır və bu plan əsasında da fəaliyyət göstərir.

Mərkəzləşmiş kitabxanalar bir-birindən ayrılıqda deyil, bir-biri ilə əlaqədar, bir-birini tamamlayan vahid sistem kimi fəaliyyət göstərir. Zəngin və böyük fonda, güclü Soraq Biblioqrafiya Aparatına (SBA), informasiya işinin təşkili imkanına malik olan mərkəzləşmiş sistemlər əhaliyə biblioqrafik xidmət prosesini keyfiyyətcə yeni mərhələyə qaldırdı. Mərkəzləşmə kütləvi kitabxana şəbəkələrinin idarə olunmasına, kitabxanalarda əməyin elmi əsaslar üzərində yenidən qurulmasına səbəb oldu. Mərkəzi kitabxana ilə filiallar arasında daha operativ əlaqənin yaranması oxucu sorğularının daha operativ ödənilməsinə şərait yaradır.

Bütün bunlarla yanaşı, biblioqrafik fəaliyyətin təşkilində MKS-lər üçün eyni olan bir sıra faktorlar vardır. Onlar aşağıdakılardır:

- bütün sistem üzrə biblioqrafik fəaliyyətə rəhbərlik edən mərkəzi kitabxananın təşkiledici rolu;
- ayrı-ayrı biblioqrafik proseslərin mərkəzləşdirilmiş şəkildə yerinə yetirilməsi;
- sistemin yarımbölmələrinin ixtisaslaşdırılımış fəaliyyəti. [11, s.83]

Mərkəzləşdirilmiş kütləvi kitabxanalar sistemində xüsusi metodiki-bibllioqrafiya şöbəsi yaradılır. Bununla əlaqədar olaraq biblioqrafik sistemin təşkili yeni keyfiyyətlər kəsb etməyə başlayır. MKS-lərdə biblioqrafik fəaliyyətin müasir vəzifələri onun təşkilinə, həcminə və eləcə də kitabxanaçının hazırlıq dərəcəsinə qarşı yeni tələblər irəli sürür.

Kütləvi kitabxanaların mərkəzləşdirilməsi soraq-biblioqrafiya və biblioqraifk məlumat xidmətinin keyfiyyətini daha da artırmağa, mərkəzi kitabxana ilə filialların vəzifələrini dəqiqləşdirməyə, daha təkmilləşdirilmiş soraq-biblioqrafiya aparatının təşkilinə, başqa sistem və idarə kitabxanalarının biblioqrafik fəaliyyətlərini əlaqələndirməyə imkan verir.

MKS-in biblioqrafiya işi biblioqrafiya şöbəsi tərəfindən işlənmiş vahid plan əsasında aşağıdakı istiqamətlərdə aparılır:

Soraq-biblioqrafiya aparatının təşkili, soraq və biblioqrafik informasiya xidməti, mütaliəyə rəhbərlikdə tövsiyə vəsaitlərindən istifadə olunması, filiallara metodiki köməklik, kitabxana işçilərinin biblioqrafik ixtisasının artırılması. [4, s.87; 8, s.29]

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərinin biblioqrafiya şöbələri sistemin bütün oxucularına biblioqrafik xidmət göstərir. Biblioqrafiya şöbəsi filiallarla birlikdə soraq-biblioqrafiya aparatının tərkibini müəyyənləşdirir, filalların bütün sistem üzrə biblioqrafiya işlərinin əlaqələndirilməsini təşkil edir.

Mərkəzi kitabxana başqa idarə kitabxanalarının biblioqrafik fəaliyyətlərinin əlaqələndirilməsini həyata keçirir ki, bu da oxuculara biblioqrafik xidmətin keyfiyyətini yaxşılaşdırır,  təkrarçılıq və paralelizmi aradan qaldırır. Kitabxanalar arasında biblioqrafik fəaliyyətin inkişaf etdirilməsinin əsas mənbəyi şəhər və rayonlarda xüsusi əlaqələndirmə şuralarının yaradılmasıdır. [7, s.99]

MKS-də biblioqrafiya işinin optimal təşkili, həm də texnoloji proseslərin normativləşdirilməsindən və işçilərin dəqiq iş rejimindən də asılıdır.

Ümumiyyətlə, hər bir MKS-nin təşkili və fəaliyyəti aşağıdakı sənədlərlə tənzimlənir.

1. Dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi haqqında Əsasnamə.
2. Mədəniyyət orqanlarının əmr və sərəncamları.
3. Metodiki mərkəzlərin tövsiyələri.
4. Mərkəzi kitabxana, MUK və kitabxana-filiallar haqqında Əsasnamə.
5. Şöbələr, bölmələr, qruplar haqqında Əsasnamə.
6. MKS işçilərinin vəzifə təlimatları.
7. Kitabxanadan istifadə qaydaları.
8. Daxili əmək intizamı qaydaları.
9. Əsas texnoloji proseslərin təşkili üzrə təlimatlar. [7, s.39; 16, s.28]

MKS-in quruluşu oxuculara kitab verilişinin tərkibindən və miqdarından, sistemə daxil olan kitabxana filialların sayından asıldır. Şəki-Zaqatala iqtisadi regionuna daxil olan iqtisadi rayonların MKS-lərinin baş müəssisəsi hər rayonun özünün mərkəzi kitabxanası hesab olunur. O, bütün kitabxanaların fəaliyyətinə rəhbərlik edir: mərkəzləşdirilmiş sistemin işinə dair plan və hesabatları tərtib edir, müəyyən müddətdə onları baxılmaq və təsdiq etmək üçün mədəniyyət şöbəsinə təqdim edir; yeni ədəbiyyatın komplektləşdirilməsini və işlənməsini mərkəzləşdirilmiş şəkildə həyata keçirir, onların uçotunu və operativ şəkildə kitabxana-filiallara çatdırılmasını təmin edir; sistemin bütün oxucularının istifadə etməsi üçün mərkəzi kataloq və kartotekalar təşkil edir, informasiya bülletenləri çap etmək, yerli mətbuatda siyahılar dərc etmək yolu ilə MKS-nin fondunda olan ədəbiyyatın təbliğini təşkil edir; ümumiləşdirir, yayır və tətbiqinə nəzarət edir; kitabxana filialların bədii tərtibat işinə kömək edir, onların avadanlıq və kitabxana texnikası ilə təmin edilməsi üçün cavabdeh olur; yuxarı metodik mərkəzlə, digər idarə və sistemlərin kitabxanaları və MKS-ləri ilə əlaqəni həyata keçirir.

Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan rayonların mərkəzi kitabxanalarının əsas struktur bölmələri əsasən eynidir:

1. Oxuculara xidmət şöbəsi
2. Ədəbiyyatın komplektləşdirilməsi və işlənməsi şöbəsi.
3. Vahid fondun təşkili və KAA şöbəsi.
4. Metodiki və biblioqrafik işlər şöbəsi.
5. Regional kitabxana-informasiya mərkəzi. [14]

Yerli şəraitdən asılı olaraq oxuculara fərqli xidməti təkmilləşdirmək məqsədilə mərkəzi kitabxanada ixtisaslaşdırılmış bölmə və şöbələr yaradılmışdır.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində işin təşkili, fondun yeni ədəbiyyat üzrə komplektləşdirilməsi sahəsində Mədəniyyət və Turizm Nazirliyinin M.F.Axundov adına Milli Dövlət Kitabxanası tərəfindən verilmiş göstərişlərin və tövsiyyələrin əhəmiyyəti böyük olmuşdur.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonlarının MKS-lərində müvafiq iş planına uyğun olaraq vahid fonda daxil olmuş yeni ədəbiyyatın komplektləşdirilməsi, uçotu və təbliği ilə əlaqədar tədbirlər həyata keçirilmişdir.

Həmçinin vahid fondu əhatə edən çap əsərlərindən digər informasiya daşıyıcılarından istifadə etməklə kitabxana, biblioqrafiya və infomasiya xidmətləri göstərilmişdir.

Əhaliyə kitabxana xidmətinin təşkili məqsədilə Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində kitabxana proseslərinin məzmun etibarı ilə müasir formalarda tədbirlər keçirilmişdir. Bu məqsədlə müntəzəm olaraq oxucu qurupları təhlil edilir, onların maraqları öyrənilərək müvafiq kütləvi iş aparılır. Oxuculara xidmətin operativ təşkili məqsədilə onların müxtəlif istiqamətlərdəki sorğularının yerinə yetirilməsi, fondların mühafizəsi işləri aparılmış, kütləvi tədbirlər keçirilmişdir.

Balakən MKS-nin nümunə kimi götürsək, MKS-in vahid fondunda 2006-cı ildə 666583 nüsxə ədəbiyyat vardır. Vahid fonda hesabat ilində 4513 nüsxə kitab daxil olmuşdur. Daxil olmuş ədəbiyyatın 4077 nüsxəsi latın qrafikası ilə nəşr edilmiş Azərbaycan dilində ədəbiyyat olmuşdur. [14]

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların mərkəzləşdirilmiş kitabxana sisteminə 2009-cu ildə müxtəlif mənbələrdən ədəbiyyat daxil olmuşdur: Prezidentin sərancamına əsasən, ABŞ səfirliyindən, Mədəniyyət və Turizm Nazirliyindən, Mədəniyyət və Turizm şöbəsindən, Dövlət İdarəçilik Akademiyasından, F.Köçərli adına kitabxanadan, Həmkarlar İttifaqından, Müəlliflər tərəfindən və s. daxil olmuşdur.

Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan rayonlarının MKS-lərində biblioqrafik işin təşkili məsələlərindən danışarkən, birinci növbədə, sistemin SBA-nın təşkili və onun tərkib hissələrindən ayrı-ayrılıqda danışmaq lazımdır.

Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan rayonların MKS-lərində SBA-nın tərkibinə aşağıdakılar daxildir.

1. Soraq və biblioqrafik nəşrlər fondu
2. Kataloq və kartoteka sistemi.

Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan rayonların MKS-lərində mərkəzi kitabxananın soraq və biblioqrafik nəşrlər fondu dörd tərkib hissədən ibarətdir. Bu fond metodiki biblioqrafiya şöbəsində açıq rəf üsulu şəraitində yerləşdirilmişdir. Soraq nəşrlərinin vahid nüsxələri oxucular tərəfindən yalnız kitabxananın daxilində istifadə edilir və evə verilmir.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində mərkəzi kitabxanasının soraq və biblioqrafik nəşrlər fondunun birinci tərkib hissəsini əsas və direktiv xarakterli nəşrlər, ikinci qrup materiallara məlumat nəşrləri, üçüncü qrupa biblioqrafik nəşrlər, dördüncü qrupun tərkibinə ödənilmiş arayışlar fondu daxildir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların MKS-lərində mərkəzi kitabxanasının soraq və biblioqrafik nəşrlər fondunda rəsmi sənədlər, Azərbaycan Respublikasının Konstitusiyası, müxtəlif mövzu məcmuələri və Azərbaycan Respublikasının qanun və qərarlar məcmuəsi, regionların sosial-iqtisadi və mədəni inkişafına dair dövlət sənədləri toplusu, kitabxana-biblioqrafiya və informasiya

xidməti sahəsi üzrə dövlət siyasətini əks etdirən sənədlər toplusu və s. vardır. [1;2;3;12;13]

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində mərkəzi kitabxanasının soraq və biblioqrafik nəşrlər fondunda müxtəlif tipli məlumat kitablarının toplanmasına da xüsusi fikir verilir. Belə kitablardan "Təbliğatçının məlumat kitabı", "Tibb işçisinin məlumat kitabı", "Kitabxanaçının məlumat kitabı"nı qeyd etmək olar. Kitabxananın soraq fondunda biblioqrafik vəsaitlərin toplanmasına da diqqət verilir. Burada olan vəsaitlərin əksəriyyəti Azərbaycanla bağlıdır. Azərbaycanın şair və yazıçılarının həyat və yaradıcılığı haqqında tərtib edilmiş şəxsi biblioqrafik göstəricilərdən S.Rüstəmə, S.Vurğuna, R.Rzaya, M.İbrahimova, M.S.Ordubadiyə, M.Füzuliyə, N.Gəncəviyə, Elçinə, İ.Əfəndiyeva həsr olunmuş göstəricilər oxucuların sorğularını ödəməkdə böyük əhəmiyyətə malikdirlər. Azərbaycan ədəbiyyatı nümayəndələrinə, görkəmli elm və mədəniyyət xadimlərinə həsr edilmiş şəxsi göstəricilərin əksəriyyəti fondda əks olunmuşdur. Burada həmçinin "Azərbaycan kitabı"nın I cildi, II cildin I kitabı, "Azərbaycan ədəbiyyatşünaslığı (1920-1975)", "Azərbaycan ədəbiyyatının beynəlxalq əlaqələri" adlı vəsaitlər də mövcuddur. [10, s.99]

Qeyd etmək lazımdır ki, Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində Mərkəzi Kitabxanasının xidmət şöbələrinin işçiləri mütəxəssislər, idarə və müəssisələr tərəfindən verilmiş mürəkkəb mövzu sorğularını sistemli şəkildə yerinə yetirirlər. Belə mürəkkəb sorğulara isə geniş mövzu ədəbiyyat siyahıları şəklində yazılı cavab verilir.

Ödənilmiş sorğular mərkəzi kitabxanada üzərinə "Ödənilmiş arayışlar fondu" yazılmış jurnalda qeyd olunur. Jurnalda ayrılmış xüsusi qrafalarda mövzunun adı, mövzunun yerinə yetirilməsində istifadə olunan mənbə, sorğunun nə vaxt daxil olması, ödənilməsi tarixi, sorğunun yerinə yetirən biblioqrafın adı, soyadı qeyd olunur. Ödənilmiş arayışlardan sonralar kitab sərgilərinin, mövzu gecələrinin, oxucu konfranslarının, biblioqrafik xülasələrin və digər tədbirlərin keçirilməsində istifadə olunur. Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonlarının MKS-lərində MKS-də ödənilmiş arayışlar fondunun yaradılmasında əsas məqsəd bibiloqrafların təkrar sorğulara artıq vaxt sərf etməsinin qarşısını almaq və oxuculara operativ cavab verməkdən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, hal-hazırda hər bölgə üzrə ödənilmiş arayışlar fondunda 80-yə yaxın mövzu arayışları saxlanılır. [21, s.6]

Ümumiyyətlə, regionun mərkəzi kitabxanalarında soraq və biblioqrafik nəşrlər fondunu komplektləşdirərkən əsasən yerli şərait nəzərə alınır. Rayonun iqtisadiyyatı ilə bağlı materialların toplanmasına xüsusi fikir verilir. Mərkəzi Kitabxananın soraq və biblioqrafik nəşrlər fondu sistemdə olan bütün kitabxanalara da xidmət edir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların MKS-lərində SBA-nın ikinci əsas tərkib hissəsini kataloq və kartoteka sistemi təşkil edir. Region MKS-lərində kataloqların tərtibi də mərkəzləşdirilmişdir. Belə ki, sistemin bütün filiallarına kitablarla birlikdə kataloq tərtib etmək üçün onların kartoçkaları da hazır şəkildə göndərilir, hər bir kitabdan hansı filiala göndərildiyi mərkəzi kitabxananın əlifba kataloqunda qeyd olunur.

Bu kataloqlarda yerləşən kartoçkaların arxasında həmin kitabın sistemin hansı kitabxanada olduğu qeyd edilir. Çünki mərkəzi kitabxanada elə kitablar vardır ki, onları bütün filiallara göndərmək olmur. Ancaq onların kartoçkaları göndərilir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların MKS-lərində tərtib edilən kataloqlardan biri də sistemli kataloqdur. Bu kataloqun tərtibinə 1980-ci ildən başlanmışdır. Sistemli kataloqda ədəbiyyatın əks olunmasında rayonların iqtisadiyyatı ciddi şəkildə nəzərə alınır. Burada daha çox inkişaf etmiş kənd təsərrüfatı sahələrinə dair ədəbiyyatın daha dolğun əks olunmasına xüsusi fikir verilir. Bu ədəbiyyat təsnifləşdirilərkən rubrikaların çox olmasına və hər bir rubrikanın arxasında konkret ədəbiyyatın toplanmasına cəhd göstərilir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların MKS-lərində SBA-nın tərkib hissələrindən biri də biblioqrafik kartotekalardır. Məlumdur ki, bütün oxucu qrupları dövrü nəşr materiallarına operativ şəkildə müracət edirlər. Buna görə də oxucu sorğularının tam ödənilməsində kataloqlarla yanaşı, kartotekaların da rolu böyükdür.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində kartotekaların təşkili ilə biblioqrafiya və xidmət şöbələrinin işçiləri məşğul olur. Özxaraktervəməzmununagörəkartotekalarındördnövümövcuddur:

1. Məqalələrinsistemlikartotekası.
2. Mövzukartotekası.
3. Xüsusikartoteka.
4. Diyarşünaslıqkartotekası.[9, s.319]

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində mərkəzi kitabxanalarında yaradılan məqalələrin sistemli kartotekası sistemli kataloqun quruluşuna uyğun şəkildə təşkil edilmişdir. Lakin burada hər bir mövzunun daxilində kartoçkalar əlifba üzrə deyil, əks xronoloji qaydada düzülmüşdür. Kartotekada respublika qəzet və jurnallarından rayonların profilinə uyğun ən aktual, elmi cəhətdən əhəmiyyətli və oxucuların marağına səbəb olan məqalələr təsvir edilib düzülür. Bir qayda olaraq bu kartotekaya ancaq MKS-nin abunə olduğu dövrü nəşrlərdən götürülmüş məqalələr daxil edilir.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində mərkəzi kitabxanalarda təşkil edilən maraqdı kartotekalardan biri də diyarşünaslıq kartotekasıdır. Bu kartotekada hər bir rayonunun tarixi, iqtisadiyyatı, görkəmli şəxsləri, şəhərdə fəaliyyət göstərən idarə və müəssisələr və mədəni quruculuğu haqqında materiallar verilmişdir. Onu da qeyd etmək lazımdır ki, bu kartoteka oxucuların ən çox istifadə etdikləri kartotekadır. Bu kartotekanın daha da təkmilləşdirilməsi Quba-Xaçmaz iqtisadi rayonlarına dair ən yeni materialları operativ şəkildə oxculara çatdırmaq üçün böyük səy göstərirlər. Bu məqsədlə də kitabxanaların metodika şöbələrində kartotekanın vəziyyəti dəfələrlə müzakirə edilmişdir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların Mərkəzi kitabxanalarında tərtib edilmiş kartotekalarda hər il redaktə işi aparılır. Məqalələrinsistemlikartotekasındaancaqsonbeşildəçapdançıxanmateriallarsaxlanılır . Kitabxananındiyarşünaslıqkartotekasındaredaktəişiçoxehtiyatlaaparılır. İqtisadi

rayonlarıntarixi, mədəniyyəti, iqtisadiyyatıiləəlaqədarbölmələrdəmateriallarınyerləşdirilməsinəxüsusifikirverilir.

Kompütertexnologiyasınınkitabxana-biblioqrafiyaproseslərinətətbiqi, internetəlaqələriningenişlənməsielektroninformasiyadaşıyıcılarınınildən-iləartmasıMKS-lərdədəbuişləməşğulolanşöbələrinaçılmasızərurətiniyaradır.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərindən Qəbələ rayonundaregionolkitabxanaməlumatmərkəzifəaliyyətgöstərir. Məlumat Mərkəzi kompüter avadanlıqları ilə təchiz edilmişdir. Öz ətrafında 1 mərkəzi kitabxananı, 3 şəhər filialını, 3 qəsəbə və 20 kənd kitabxanasını birləşdirən Qəbələ rayon MKS 1930-cu ildən mərkəzi kitabxana kimi, 1976-cı ildən isə MKS kimi fəaliyyət göstərir. [7, s.119]

Azərbaycan Respublikası Prezidentinin 06 oktyabr 2008-ci il sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramının 2.1/5 bəndində şəhər və rayon kitabxana filiallarının birləşdirilməsi, onların daha səmərəli fəaliyyət göstərməsi nəzərdə tutulmuşdur. [1]

Bütün tip kitabxanalarda olduğu kimi Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində də biblioqrafik xidmət iki əsas istiqamətdə aparılır.

1. Soraq-biblioqrafiyaxidməti.
2. Biblioqrafikinformasiyaxidməti.[7, s.19]

Soraq-biblioqrafiyaxidmətisorğu-cavabrejimindəaparılanbiblioqrafikxidmətdir. SBXzamanıkitabxanayadaxilolanmüraciətsorğu, cavabolaraqverilənməlumatarayışadlandırılır. Bütünsorğuvəarayışlarhərşeydənəvvəlbiblioqrafikvəfaktoqrafikadıaltındaikiyerəbölünür.

Biblioqrafiksorğubiblioqrafikməlumatınverilməsinitələbedir. Faktoqrafiksorğuyacavabolaraqbiblioqrafkonkretfakt, məlumat, hadisəhaqqındainformasiyaverir. Biblioqrafikvəfaktoqrafiksorğularşəxsitəhsilə, ümumi təhsilə, istehsalatvəelmiişəköməkməqsədiləverilənbilər.

MKS-dəSBX-ninkeyfiyyətivəoperativliyiaşağıdakıamillərdənçoxasılıdır.

1. KitabxanadaSBA-nınvəziyyəti.
2. SBXsahəsindəbaşqakitabxanalarlaqaşılıqlıfəaliyyətsəviyyəsi.
3. Biblioqrafintəcrübəsivəixtisası.
4. Oxucununbiblioqrafiksavadı. [10, s.98]

SBX kitabxananın ümumi fəaliyyətinin mühüm sahəsi olmaqla, xarakter və məzmununa, məqsəd və vəzifəsinə görə kitabxana işinin digər sahələrindən öz operativliyi ilə fərqlənir.

Biblioqrafiyaşünaslıqda biblioqrafik sorğu və arayışlarının təsnifləşdirilməsində müxtəlif meyarlardan istifadə olunur. Onlardan biri verilən arayışların formasıdır. Bu əlamətə görə arayışlar yazılı və şifahi olur. Şifahi arayışların verilməsində əsas tələb yığcamlıq və dəqiqlikdir. Yazılı arayışlar isə kitabxananın xüsusi blanklarında tərtib olunur.

Biblioqrafik arayışlar sorğunun məqsədindən asılı olaraq üç əsas növə bölünür.

1. Mövzu arayışı.
2. Biblioqrafik dəqiqləşdirmə arayışı.
3. Biblioqrafikünvanarayışı.[16, s.49]

Şəki-Zaqatala iqtisadi rayonları üzrə MKS-lərində soraq-biblioqrafiya xidməti pilləli xarakter daşıyır. Yəni daha sadə sorğular sistemin aşağı pilləsində öz həllini tapır. Arayışların əsas hissəsi mərkəzi kitabxananın biblioqrafiya şöbəsinin öhdəsinə düşür və nəhayət xüsusi professional sorğular isə həmin ərazidə yerləşən sahəvi elmi kitabxanalar tərəfindən yerinə yetirilir. Çünki mərkəzləşmə SBX sisteminin bütün kitabxanaları ilə qarşılıqlı əlaqə şəklində yerinə yetirməyə imkan verir. Lakin təcrübə göstərir ki, sistemin aşağı pilləli məlumat orqanları daha fəal SBX aparırlar. Heç təsadüfi deyildir ki, MKS-də yerinə yetirilən arayışların yarıdan çoxu onların payına düşür.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların MKS-lərində istər mərkəzi kitabxana, istərsə də kitabxana filiallar SBX zamanı müxtəlif tip arayışları yerinə yetirirlər. Məlumdur ki, hər bir arayışın yerinə yetirilməsi prosesində SBA-nın müxtəlif hissələrinə müraciət olunur. Mövzu arayışı - müəyyən bir mövzu üzrə biblioqrafik məlumatı özündə əks etdirən biblioqrafik arayışdır. SBX-də mövzu arayışı aparıcı yer tutur. Belə ki, kitabxana təcrübəsindən məlumdur ki, il ərzində oxuculara verilən arayışların 50%-dən 80%-ə qədərini mövzu arayışları təşkil edir.

Məqsəd istiqamətinə görə mövzu arayışları iki qrupa bölünür.

1. Elmi, ixtisas və istehsalat işinə kömək məqsədilə verilən arayışlar.
2. Təhsilə, şəxsi təhsilə və təbliğat işinə kömək məqsədilə verilən arayışlar. [6, s.97]

Mövzu arayışlarının təsnifləşdirilməsində əsas əlamət onların məzmunları götürülür. Bu əlamətə görə elmi-təbii, texniki, ədəbiyyat, incəsənət, tarix və ya ölkəşünaslıq arayışlarına bölünür.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində mövzu arayışlarının müxtəlif elm sahələri üzrə qruplaşdırılması «Arayışların uçotu və biblioqrafik məsləhətlər» jurnalında qeyd olunur. Bu SBX-nin sahələr üzrə təkmilləşdirilməsinə və eləcə də biblioqrafik ehtiyatların formalaşdırılmasına imkan verir.

Mövzu arayışının hazırlanmasında ədəbiyyatın seçilməsinə verilən ümumi tələblər keyfiyyət, məzmun və formal meyarlara düzgün riayət olunmalıdır. Mövzu arayışını yerinə yetirərkən keyfiyyətli seçmə meyarı ədəbiyyatın elmi və təcrübi əhəmiyyətini nəzərə almaqdır. Məzmun və formal meyarların yerinə yetirilməsi isə arayışın oxucu və məqsəd istiqamətindən asılı olur.

Seçilmiş materiallar (sənədlər) dövlət standartına uyğun olaraq təsvir edilir, imkan daxilində mövzu arayışının oxucu və məqsəd istiqamətindən asılı olaraq qruplaşdırılır və annotasiya verilir.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində oxuculara soraq-biblioqrafiya xidmətinin əsas tərkib hissələrindən biri də biblioqrafik ünvan arayışının yerinə yetirilməsidir. Məlumdur ki, biblioqrafik ünvan arayışının əsas

vəzifəsi oxcuya məlum olan müəyyən bir sənədin və ya onun bir hissəsinin kitabxananın fondunda olub-olmamasının və onun yerini müəyyən etməkdir. Adətən, biblioqraf sənədlər haqqında kifayət qədər dəqiq məlumata malik olur və buna görə də axtarışın necə və hansı mənbələr üzrə aparılacağı əvvəlcədən məlum olur.

Əgər bir kitab həmin kitabxanada yoxdursa, həmin ədəbiyyatın axtarılması üçün böyük elmi və xüsusi kitabxanaların və yeni ədəbiyyat bülletenlərindən istifadə olunur.

Beləliklə, biblioqrafik ünvan sorğusunun nəticəsi, kitab fondunda sənədin saxlanması şifrəsi göstərilməklə verilən cavab-arayışdan ibarət olur, yaxud da sorğunun KAA vasitəsilə digər kitabxanaya göndərilməsi ilə nəticələnir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların MKS-lərində mərkəzləşmiş kitabxana sisteminin soraq-biblioqrafiya xidmətinin tərkib hissələrindən biri də dəqiqləşdirici arayışların yerinə yetirilməsidir. Oxucular çox zaman kitabxanaya ona məlum olan müəllifin adı, dəqiq yadında qalmayan əsərlərini, habelə onun əvvəllər istifadə etdiyi və hazırda ancaq mövzusu yadında qalan nəşri tapmaq üçün, məqalədə ədəbiyyat isnadını dəqiqləşdirmək üçün müraciət edirlər. Bütün bu sorğuların dəqiq olmamasının əsas səbəbi oxucunun biblioqrafik savadının aşağı olması, biblioqrafik arayışlarda və mənbələrdə səhvlərə yol verilməsi ilə izah olunur.

Sorğuda təhrif olunan təsvir elementlərinin dəqiqləşdirilməsi və çatışmayan elementlərin axtarılıb tapılması (müəllifin familiyası, əsərin sərlövhəsi, buraxılış məlumatları) biblioqrafik axtarışın ən çox yayılmış formasıdır.

Şəki-Zaqatala iqtisadi regionuna daxil rayonların MKS-lərinin metodika və biblioqrafiya şöbəsinə daxil olan sorğular içərisində faktoqrafik sorğular - hər hansı bir faktın, hadisənin, tarixin müəyyən olunması haqqında sorğular da çoxluq təşkil edirlər. Faktoqrafik arayış bu və ya başqa bir obyekt, hadisə, proses haqqında daxil olan sorğulara verilir, birbaşa cavablardan (faktoqrafik məlumatlardan) ibarət olur. Əsaslı fakt olaraq qeyd edə bilərik ki, 2017-ci ildə Şəki-Zaqatala iqtisadi rayonlarının MKS-lərindən Zaqatala MKS-i üzrə cəmi 2012, Qax rayon MKS-i üzrə 2334, Qəbələ rayoni MKS-i üzrə 1209, Şəki rayon MKS-i üzrə 2101 şifahi və yazılı arayış yerinə yetirilmişdir. [12, s.19]

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində oxuculara göstərilən biblioqrafik xidmət növlərindən biri də biblioqrafik informasiya xidmətidir. Biblioqrafik informasiya xidmətinin əsas mahiyyəti ondan ibarətdir ki, kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında oxuculara müntəzəm və operativ məlumat verilsin. Qeyd etmək lazımdır ki, Şəki-Zaqatala iqtisadi rayonlarının MKS-lərində fərqləndirilməyən - yəni kütləvi biblioqrafik informasiya xidmətinin müxtəlif metodlarından geniş şəkildə istifadə olunur. Kütləvi biblioqrafik informasiya xidmətinin ən geniş yayılmış forması kitabxanaya daxil olan yeni ədəbiyyatın məlumat bülletenidir. Uzun illər Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərində metodiki biblioqrafiya şöbələri sistemin vahid fonduna daxil olan yeni ədəbiyyatın məlumat bülleteni hazırlamışdır. Məlumat bülletenləri yeni daxil olmuş ədəbiyyatın miqdarından asılı olaraq əvvəlki illərdə hər rübdə

hazırlanırdı. Son illər sistemə daxil olan ədəbiyyatın azlığını nəzərə alaraq ildə bir dəfə kitab fonduna daxil olan yeni ədəbiyyatın məlumat bülleteni adı ilə tərtib olunur. Bülletendə materiallar onluq təsnifat üzrə verilir, daxildə isə əlifba qaydasına riayət olunur. Məlumat bülleteni bütün kitabxana-filiallara göndərilir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların MKS-lərində həm daimi, həm də müvəqqəti sərgilər fəaliyyət göstərir. Daimi sərgilərdən «Heydər Əliyev və Azərbaycan», «Sənin torpağın, sənin tarixin, sənin xalqın», «Xocalı-əsrin faciəsi». Bunlardan əlavə əlamətdar və tarixi günlərlə əlaqədar müvəqqəti sərgilər təşkil edilir. Məsələn, «Bir dəfə qalxan bayraq, bir daha enməz» «Qurban bayramı-əhdə vəfa günüdür», «Dünya azərbaycanlıların həmrəylik günü», «Konstitusiyamızı öyrənək» və s. [14]

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-ləri öz işlərini bilavasitə rayonun iqtisadi, siyasi və sosial inkişafına xidmət etmək, iqtisadiyyatın yüksəldilməsində yaxından iştirak etmək istiqamətində qurur və bütün oxucu qruplarına ixtisaslaşdırılmış informasiya xidməti göstərməyə çalışır. Bunlardan əlavə mərkəzi kitabxana həm filiallarda, həm də xidmət göstərdiyi idarə və müəssisələrdə «Məlumat günü» keçiririr. «Məlumat günü» biblioqrafik materiallar da nəzərə alınmaqla mərkəzi kitabxanaya daxil olan bütün ədəbiyyatın müntəzəm nümayiş etdirilməsi günüdür. «Məlumat günü»nün keçirilmə dövrülüyü mərkəzə kitabxanaya daxil olan yeni ədəbiyyatın miqdarından asılıdır. «Məlumat günü» müntəzəm olaraq əvvəldən təyin olunmuş gündə keçirilir. Yeni daxil olan ədəbiyyat bir qayda olaraq oxu zalında nümayiş etdirilir və bütün günü davam edir. Mərkəzi kitabxanaya daxil olan bütün materiallar məzmunlarına müvafiq seçilir və ilkin sənədlərlə bir yerdə nümayiş etdirilir.

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-ləri əlaqədar sahələr və ya aktual problemlər üzrə fondda sənədlərlə bilavasitə tanışlıq üçün sərgi-baxışlar təşkil edir. Ancaq yeni daxil olan materiallarla tanış edən «Məlumat günü»ndən fərqli olaraq sərgi baxışlarda retrospektiv prinsiplə seçilmiş ədəbiyyat da nümayiş etdirilir. Mərkəzi kitabxana xidmət etdiyi ərazidə mövcud olan idarə və müəssisələrlə bağladığı müqaviləyə görə orada sərgi-baxışlar təşkil edir və ədəbiyyatı həmin müəssisənin kitabxanası ilə birlikdə nümayiş etdirir.

İqtisadi regionunun kitabxanalarında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə «Sülh mədəniyyəti və dünya uşaqlarla münasibətdə qeyri-zorakılıq beynəlxalq onilliyin (2001-2010)» Azərbaycan Respublikasında qeyd edilməsi ilə bağlı tədbirlər planının icrası üzrə «Uşaqlar sülh istəyir», «Dünyaya sülh gərəkdir», «Azad, müstəqil ölkənin uşaqları», «Mən Vətənimi sevirəm» və s. mövzularda kitab sərgiləri və söhbətlər keçirilmişdir. [14]

Həmçinin region üzrə kitabxanalarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı ilə təsdiq olunmuş «Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında» Dövlət Proqramının icrası ilə əlaqədar «Vətən mənə oğul desə…», «Müstəqilliyimiz əbədidir», «Bu torpağın daşı mənəm», «Mənim ilk müəllimim» və s. mövzularda söhbətlər, ucadan oxular, səhərcik, ədəbi-bədii gecələr keçirilmişdir. Həmçinin Azərbaycan Gəncliyi Dövlət proqramı (2005-2009-cu illər) Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

ilə təsdiq edilmiş «Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi» Proqramının icrası ilə əlaqədar «İgid ölər, adı qalar», «Vətənin keşiyində», «Gəncliyimiz-sabahımızdır», «Odlar yurdu Azərbaycan», «Şəhid oğullar», «Vətəni sev və qoru», «Ordum varsa-yurdum var», «Sizinlə fəxr edir vətən», «Sabahın qurucuları» və s. mövzularda söhbətlər, görüşlər, kitab sərgiləri keçirilmişdir. [15]

2017-ci ildə Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərinin kitabxanalarında Beynəlxalq Ana dili münasibəti ilə «Ana dili yüksəliş yollarında», «Dilimiz milli mənəviyyatımız», «Dilimiz milli varlığımız», «Heydər Əliyev və Azərbaycan dili» və s. mövzularda kitab sərgiləri təşkil edilmiş, elmi-praktik konfrans, sual-cavab gecələri keçirilmişdir. [14; 15]

Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-lərinin xidmətindən mədəniyyət, təhsil və səhiyyə, İcra hakimiyyəti orqanları, hüquq-mühafizə orqanları, hərbi komissarlıq, «N» saylı hərbi hissələri, bələdiyyələr, özəl və sahibkarlıq fəaliyyəti ilə məşğul olan qurumlar, dövlət müəssisələri istifadə edirlər.

Respublika Mədəniyyət işçilərinin hazırlıq və ixtisasartırma kursuna 2017-ci ildə Balakəndən 5 nəfər, Zaqataladan 6 nəfər, Şəkidən 8 nəfər, Qəbələdən 6 nəfər ezam edilmişdir.

M.F.Axundov adına Milli Kitabxana ilə Şəki-Zaqatala iqtisadi regionu üzrə rayonların MKS-ləri arasındakı əlaqələr 2010-2017-ci illərdə nisbətən artmışdır. Milli kitabxanadan 2009-cü ildə hər iqtisadi rayona 200-ə qədər, ədəbiyyat hədiyyə edilmiş, əlamətdar və tarixi günlər təqvimi ilə əlaqədar vəsaitlər, normativ sənədlər, metodiki tövsiyyələr, «Birillik Azərbaycan Kitabiyyatı» (1990-1991, 1991-2000, 2010-2017-ci illər) və metodiki məktublar daxil olmuşdur.

Mədəniyyət Nazirliyi tərəfindən aparılmış yoxlamanın nəticəsi olaraq Şəki-Zaqatala iqtisadi rayonlarının MKS-lərində iş fəaliyyətində dönüş yaradılmış, qeyd edilmiş nöqsanlar aradan qaldırılmışdır.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların MKS-lərinin fəaliyyəti barədə müntəzəm olaraq kütləvi informasiya vasitələrində, regional yerli TV-də, yerli qazetlərdə məlumat xarakterli verilişlər və məqalələr getmişdir. Rayon MKS-in işi ilə əlaqədar «Mədəni-Maarif» jurnalında, «Söz» qəzetində, «Kitab bilik mənbəyidir», «Azərbaycan mədəniyyəti və incəsənəti» qəzetində «Kitabxanaların xidmətindən istifadə edənlərin sayı artmaqdadır» başlığı ilə məqalələr verilmişdir. 2005-2010-cu illərdə «Qütb TV», «Xəyal TV»-də «Quba TV»-də MKS-də keçirilən kütləvi tədbirlər, görüşlər, ədəbi-bədii gecələr işıqlandırılır. [14; 15]

Kitabxana filiallara metodikiköməkliyin göstərilməsində MKS-lərdə müxtəlif forma və metodlardan istifadə edilir. 2009-cu ildə Balakən MKS-də filiallara 133, Oğuz MKS-də 96, Qəbələ MKS-də 87, Qax MKS-də 67 metodiki gediş edilmiş, onlara yeni daxil olunmuş ədəbiyyatın uçotu və təbliği, fondların elm sahələrinin təşkili üzrə metodiki tövsiyələr verilmişdir. [15]

Əlavə olaraq kitabxanaçılarla elektron kitabxana resurslarından istifadə ilə əlaqədar 23 təlim və tədbir keçirilmişdir. 2016-cı ildə RKMM-im xidmətindən 806 nəfər istifadəçi yararlanmışdır. Onlardan 376 nəfər kişi, 430 nəfər qadındır. O cümlədən, istifadəçilərin 225 nəfəri tələbə, 11 nəfəri media nümayəndəsi, 1-i

elmlər doktoru, 41 nəfəri kitabxanaçı, 12 nəfəri sahibkar, 7 nəfəri dövlət məmuru, 7 nəfəri hüquqşünasdır. RKMM-in xidmətindən həmçinin 273 nəfər məktəbli, 104 nəfər işsiz, 16 nəfər mühəndis, 26 nəfər iqtisadçı istifadə etmişdir. RKMM-də həmçinin şagird, tələbə və müxtəlif peşə sahibləri üçün ingilis dilini öyrənənlər üçün danışıq klubu, tarix dərnəyi fəaliyyət göstərir. [15]

2015-ci ilin dekabr tarixindən Şəki-Zaqatala MKS-lərinin nəzdində fəaliyyət göstərən Kitabxana Məlumat Mərkəzində 2016-cı ildə kitabxanaçılara və digər oxucu (istifadəçi) qrupları üçün kompüter və internetdən istifadənin xüsusi tədrisi üzrə təlim və kurslar keçirilmişdir. 2016-cı ildə RKMM-in xidmətindən 1151 nəfər istifadə etmişdir. Onlardan 476 nəfəri kişi, 675 nəfəri qadındır. [15]

Ümumiyyətlə, Şəki-Zaqatala iqtisadi rayonlarının MKS-lərinin iş təcrübəsinin tədqiqi nəticəsində məlum olmuşdur ki, oxuculara biblioqrafik xidmət göstərilməsində kitabxananın soraq-biblioqrafiya aparatından, məlumat bülletenlərindən, kitab sərgisi, mütəxəssis günü, sərgi-baxışlar və müxtəlif mədəni kütləvi tədbirlərdən geniş şəkildə istifadə olunur. Bu sahədə Regional məlumat mərkəzinin fəaliyyəti xüsusilə böyük əhəmiyyət kəsb edir.

Beləliklə, Şəki-Zaqatala iqtisadi regionununda biblioqrafik fəaliyyətin təşkili ölkədə kitabxana-biblioqrafiya və informasiya işi sahəsində dövlət siyasətinin təməl prinsiplərinə, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmlərinin fundamental əsaslarına, müvafiq sahə üzrə qabaqcıl təcrübənin mütərəqqi müddəalarına əsasən həyata keçirilir, mövcud problemlərin həlli yolları müəyyənləşdirilir, sahənin modernləşdirilməsi və perspektiv inkişafı istiqamətlərində məqsədyönlü iş aparılır.

**Ədəbiyyat**

1. «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal.-2008.-№ 2.-s.6-29.

2. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)».// Azərbaycan.- 2004.- 11 fevral.

3. «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı».-Bakı: Nurlar, 2009.-184 s.

4. Əliyev, Z.H. Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal, 2004, №1,s.82-87.

5. Əliyev, Z.H.Biblioqrafik informasiya və onun elmi mahiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal. 1998, №1,S.19-27.

6. Əliyev, Z.H. "Müasir biblioqrafik fəaliyyətin təşkili, inkişafı və tətbiqi məsələləri" // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.-2009.-№1.-s.91-98.

7. İsmayılov, X.İ. Kitabxana menecmentinin əsaslari: dərs vəsaiti. Bakı, 2005,199 s.

8. İsmayılov, N.İ Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: Biblioqrafik vəsaitlərin göstəricisi / Elmi red.: Z.H.Əliyev. Bakı: Mütərcim, 2003, 111 s.

9. İsmayılov, X.İ. İsmayılov, N.İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təmina-tı.// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi.-Bur.7.-Bakı: Mütərcim, 2007.-s.318-320.

10. İsmayılov, N.İ. Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatlarının yerləşməsi və istifadəsinin bəzi məsələləri.// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal.-B.:BUN,1999,-№1, s. 94-100.

11. İsmayılov, N.İ. Azərbaycanın kitabxana-biblioqrafiya ehtiyatı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal.-B.: BUN, 1998.-№2,-s. 81-89.

12. «Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı.-2009.-88s.

13. Vəzirova, R.Ə Cəmiyyətin informasiyalaşdırılmasında biblioqrafik xidmətin rolu//BDU-nun Xəbərləri: Humanitar elmlər seriyası.-2003.-№4.-S.272-276.

14. Regionun MKS-lərinin 2010-2017-ci il hesabatları.

15. Regional kitabxana məlumat mərkəzinin 2010-2017-ci il hesabatı.

# BİBLİOQRAFİYA HAQQINDA MÜASİR KONSEPSİYALAR

***Nadir İsmayılov***
*Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
***Xuraman Ağayeva***
*Biblioqrafiyaşünaslıq kafedrasının dosent əvəzi, pedaqogika üzrə fəlsəfə doktoru*
***Humay Babazadə***
*Bakı Dövlət Universiteti, Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı, II kurs*

***Современные концепции о библиографии***
***Резюме:****Статья посвящено сущность и анализу современных концепций по библиографияведениюи библиографической деятельности. А также анализириются современных концепции о место библиографической информации в структуре обществе.*
***Modern consepts about bibliography***
**Abstract:** *Article was dedicated bibliography and essence of modern consepts of bibliographic activity and their analysis. As well as in the structure of information society bibliography is interpreted on the basis of new modern consepts of information.*
***Açar sözlər:*** *informasiya cəmiyyəti, biblioqrafik informasiya, biblioqrafiya haqqında müasir konsepsiyalar*
***Ключевые слова:*** *информационное общество, библиографическая информация, современные концепции о библиографии*
***Keywords:*** *information society, bibliographic information, modern consepts about bibliography*

Müasir dünyada YUNESKO-nun bəyanatına görə, “kitabxanalar informasiyalaşdırılmış cəmiyyətin ürəyidir” və elmi fəaliyyətə, mədəniyyətə, incəsənətə, iqtisadiyyatın inkişafına, təhsilə və tərbiyəyə xidmət edən sosial institutdur. Kitabxanaşünaslığı və biblioqrafiyaşünaslığı nəzəriyyəçi alimlər qarşılıqlı inkişaf edən və bir-birinin elmi nailiyyətlərindən istifadə edən iki müstəqil elm sahəsi adlandırırlar.

Nəzəriyyəçi alimlər inkişaf etmiş qərb ölkələrində biblioqrafiyanın nəzəriyyəsinin inkişafını iki mərhələyə bölürlər:

1. Biblioqrafik fəaliyyətdə baş verən dəyişikliklərin təsviri və təsnifləşdirilməsi ilə əlaqədar olan **empirik** mərhələ;

2. Biblioqrafik fəaliyyətin izahı və təhlili ilə əlaqədar olan **analitik** mərhələ. [66, 253]

Biblioqrafiyanın nəzəriyyəsi haqqında yaranmış tədqiqat işlərindən məlum olur ki, XVIII-XIX əsrlərdə biblioqrafiya elmi (science of bibliography) terminindən istifadə edilmişdir.

XX əsrin II yarısından etibarən dünyada informasiya şəraiti çox sürətlə dəyişməyə, informasiyanın əhəmiyyəti, vacibliyi sürətlə artmağa başladı. Bu da müasir dünyada informasiyanın əhəmiyyətinin durmadan artması ilə, kompüterləşdirmənin kitabxana-informasiya mühitinə inteqrasiyası, yeni sənəd növlərinin - elektron sənədlərin meydana gəlməsi və elmi-informasiya və kitabxana-biblioqrafiya işi sahəsində beynəlxalq əməkdaşlığın yeni formalarının yaranması ilə əlaqədar idi. Bu proseslər dünyada biblioqrafiya nəzəriyyələri qarşısında iki fundamental məsələnin həllini tələb edirdi:

1. Biblioqrafiyanın əsas mahiyyətinin nəzəri cəhətdən şərh edilməsi;
2. Cəmiyyətin daha böyük informasiya təminatı sistemi ilə biblioqrafiyanın qarşılıqlı əlaqəsini müəyyən etmək: Başqa sözlə, biblioqrafiya üçün metasistem tapmaq.

Kitabxanaların cəmiyyətdə vacib funksiya yerinə yetirdiyini haqqında fikirlər XX əsrin əvvəllərində səslənməyə başlamışdır. Amerikada, Avropada belə fikirlər daha geniş yayılmışdır. Bəhs edilən dövrdə biblioqrafiya haqqında qərb nəzəriyyəsində aparıcı yeri ingilis-amerikan məktəbləri tuturdu.

XX əsrin 30-cu illərində Amerika alimi L.Ballard “Sosial institutlar” adlı kitab yazmış və kitabda kitabxanaların sosial institut olması faktını əsaslandırmışdır və kitabın bir fəslini bu məsələyə həsr etmişdir.

L.Ballarddan sonra amerikan kitabxanaşünası L.Martin 1937-ci ilin oktyabrında kitabxanaların cəmiyyətin vacib sosial institut olması haqqında oçerk dərc etdirmişdir. Bu oçerkdə L.Martin kitabxanaların sosial institut olmasını elmi dəlillərlə əsaslandırmış və ciddi elmi nəticələrə gəlmişdir.

Kitabxanaların sosial institut olması faktını əsaslandıran əsas nəzəriyyələrdən biri tanınmış Amerikanın kitabxanaşünas alimi, dünyanın ən görkəmli kitabxanaşünaslardan biri J.X.Şira (Jasse Hank Shera) (1903-1983) olmuşdur. J.X.Şira XX əsrin 70-ci illərində nəşr etdirdiyi “Kitabxanaşünaslığa giriş” adlı kitabda kitabxanaların sosial institut olmasını elmi dəlillərlə əsaslandırmışdır. [9, 20]

Kitabxanaşünaslıq, biblioqrafiya və informatika sahəsində məktəb yaratmış J.Şira uzun müddət Klivlend Universitetində Kitabxanaşünaslıq fakültəsində dekan işləmiş, fakültənin nəzdində sənədşünaslıq və naviqasiya tədqiqatları mərkəzi yaratmışdır.

Biliyin hifz edilməsinin, qorunub saxlanılmasının, təhlükəsizliyinin təmin edilməsinin, sosial mahiyyətinin tədqiqinə professor J.Şira qiymətli töhfələr vermişdir. Onun yaradıcılığı üçün səciyyəvi cəhət ondan ibarətdir ki, kitabxana-biblioqrafiya fəaliyyətinin sosial rolu haqqında yüksək nəzəri konsepsiyalar yarada bilmişdir. J.Şira qeyd edirdi ki, kitabxana cəmiyyətin zəruri ehtiyaclarından yaranmış və inkişaf etmişdir. Onun fikrinə görə, yazının yaranması məlumatın hazırlanması və ötürülməsinin vasitəsi kimi cəmiyyətin tələbatına cavab kimi yaranmışdırsa, kitabxanalar da cəmiyyətin normal fəaliyyət göstərməsi üçün mühüm əhəmiyyət kəsb edən biliyin mühafizəsi və ötürülməsi mexanizmi kimi təşəkkül etmişdir. [66, 274]

Professor J.Şira yaradıcılığının birinci mərhələsi XX əsrin 50-60-cı illərinə təsadüf edir. O, ilk dəfə "biblioqrafik iş" anlayışını bu dövrdə elmi dövriyyəyə daxil etmiş, onu vahid bir sistem olan kitabxana işi və sənədşünaslığın tərkib hissəsi hesab etmişdir.

XX əsrin 70-ci illərində J.Şira biblioqrafik fəaliyyət anlayışını elmi dövriyyəyə gətirir. O, hesab edirdi ki, biblioqrafik fəaliyyət kitabxana işinin əsasını təşkil edir. Biblioqrafik fəaliyyət dedikdə o, bununla kitab və oxucu arasında əlaqə yaratmağa xidmət edən bütün proses, funksiya və hərəkətlərin məcmusunu başa düşürdü.

Professor J.X.Şira biblioqrafiyanın funksiyalarına aşağıdakıları aid edirdi:

1. Komplektləşdirmə;

2. Sənədli intellektual məzmuna zəruri əlyetərlik təmin etmək məqsədilə onların təşkili və qaydaya salınması;

3. Oxuculara biblioqrafik xidmət.

J.Şiranın fikrincə, bu funksiyaların mövcudluğu informasiya fəaliyyəti ilə məşğul olan müəssisələrin biblioqrafik fəaliyyətini təşkil etdiyi anlamına gəlir. Onun nəzəriyyəsində əsas məqamlarından biri də biblioqrafik işə iki aspektdən yanaşması ilə əlaqədardır. O qeyd edirdi ki, biblioqrafik işə iki tərəfdən baxmaq lazımdır:

1. Biblioqrafiyanın cəmiyyətlə münasibəti baxımından. Bu halda biblioqrafiya kommunikasiya sistemində "bilik-cəmiyyət" konteksində vasitəçi kimi çıxış edir;

2. Biblioqrafiyanın fərdlərlə münasibəti baxımından. Bu halda biblioqrafiya "kitab-oxucu" kommunikasiya sistemində vasitəçi kimi təzahür edir. [66, 274]

J.Şiraya görə, biblioqrafiya kommunikasiyanın "orqan"larından biri olub biliyin, informasiyanın ötürülməsi vasitəsidir. Professor J.Şira "biblioqrafiya işi" anlayışını "biblioqrafiya" anlayışından fərqləndirərək yazır ki, biblioqrafiya özünəməxsus quruluşu olan, öz nəzəriyyəsi olan, sosial kommunikasiya sistemində spesifik yeri olan müstəqil elm sahəsidir.

J.Şiraya görə, kitabxana işinin nəzəriyyəsi isə onun nəzəri əsaslarını, informasiya elmləri isə onun üsullarını tədqiq edən və işləyən bir sahədir. J.Şiranın nəzəriyyəsinə görə, kitabxanaşünaslıq və informasiya elmləri biblioqrafik fənlər hesab olunmalı və onlar biblioqrafiya elmlərinə daxil edilə bilər. (Bibliographic scholarship) [66, 275]

XX əsrin 70-ci illərində J.Şira cəmiyyətdə biliyin idarə olunmasında kitabxana-biblioqrafiya proseslərinin rolunu dəqiqləşdirmək üçün daha geniş fəlsəfi ümumiləşdirməyə cəhd göstərmişdir. O, sosial epistemologiya (idrak haqqında sosial elm) adlanan elmi konsepsiyanı yaratmış və sosial epistemologiyanı kommunikasiya nəzəriyyəsinin əsası, biblioqrafiyanın nəzəriyyəsi üçün isə metanəzəriyyə kimi müəyyən etmişdir.

J.Şira hesab edirdi ki, kitab-oxucu münasibəti özündən daha böyük olan "bilik-cəmiyyət" münasibətlərinin elementidir. Kommunikasiya, o cümlədən onun tərkib hissəsi olan biblioqrafiya sosial strukturun əlaqələndirici sistemidir. Onun fikrincə, əgər sosial epistemologiya fərd və cəmiyyətin ətraf mühitə

uyğunlaşmasını müəyyən edirsə, biblioqrafiya işi də bu prosesi uğurla həyata keçirmək üçün biliklərin ötürülməsini təmin edir.

J.Şiraya görə, biblioqrafiya cəmiyyətin sosial tarazlığının qorunması və stabilləşdirilməsi, hər bir fərdin onu əhatə edən intellektual mühitə uyğunlaşmasında həlledici rol oynayan sosial nəzarət formasıdır.

Yeri gəlmişkən, epistemologiya informasiyanın fəlsəfəsidir. Sosial epistemologiya fərd və cəmiyyətin ətraf mühitə uyğunlaşmasını müəyyən edirsə, biblioqrafik epistemiologiya biliklərin ötürülməsini, ondan daha səmərəli istifadə olunmasını təmin edir. Antik dövrlərdən bu günümüzə qədər elm adamları metafizika ilə maraqlananların informasiya ilə bağlı düşüncələri - mümkün ola biləcək və bilməyəcək informasiya, informasiyanı təkzib, inkar edən informasiya və s. problemlər informasiyanın fəlsəfəsini meydana gətirdi. Beləliklə də “bilik nədir?” sualından qaynaqlanıb fəlsəfənin bir qolu hesab edilən "Epistemologiya" elmi yarandı. Qədim yunan dilində "epistemo" - bilik, "loqos" - elm sözlərinin birləşməsi olan elm-epistemologiya, fəlsəfənin bir qolu kimi elmi-məntiqi araşdırma sahəsi olaraq bu gün də aktuallığını saxlayır. Epistemologiyaya mətbuatda az rast gəlsək də, əslində günümüzdə ən vacib sayılan elmi istiqamətdir. İnsanları maraqlandıran, öz elmi sübutunu tapmamış bir çox sahələr var ki, əslində çox böyük maraq dairəsi olaraq mətbuata, sosial şəbəkələrə nüfuz etmişdir. Məsələn, parapsixologiya, paralel dünya, başqa planetlilər, kosmosda yaşayış, kosmosda zaman anlayışı, qalaktikamızın başqa qalaktikalara doğru genişlənməsi, işınlama və s. digər maraq yaradan mövzular, əlbəttə, cəmiyyətdə birmənalı qarşılanmır. Ağıla sığmayan mövzular, ölüm və axirət, fövqəlbəşəri varlıqlar və digər mistika və digər mövzular insanın etinasız qalmadığı mövzulardır. Hər hansısa sahədə əldə etdiyimiz və ya edə bilmədiyimiz məlumatlar və onların doğru olub-olmadığı məsələsi cəmiyyətdə maraq doğurub. Heç şübhəsiz ki, informasiya hər zaman eyni cür qarşılanmır. Təbiidir ki, şübhələr də olur, zaman keçdikcə təsdiq və təkzib də olur. Nəticədə informasiyanın elmlə, ağılla mühakiməsindən məntiqə yol aça bilən fəlsəfə - "Epistemologiya" doğru cavabı tapmaqda yardım edir. Epistemologiya informasiyanın xarakteri, əhatə dairəsi və mənbəyi ilə maraqlanan fəlsəfi düşüncələri özündə əks etdirən bir elm sahəsidir. Kainatın təməl maddəsinin nədən ibarət olması kimi fikirlər bir çox alimləri düşündürdüyü, fərqli fikirlərin yarandığı, elmi mübahisələrin, həqiqətin nədən ibarət olduğunu düşünən alimlərin fikirləri epistemoloji fikir ayrılıqları yaratdı, elmi çəkişmələrə səbəb oldu və epistemologiyaya müxtəlif arqumentlərdən baxış formalaşdırdı. İnsan hər hansı bir informasiyanı nə qədər, hara qədər öyrənə bilər, öyrəndiyimiz informasiyanın elmi əsası varmı? Hər hansı doğru bildiyimiz informasiyanı dəqiq bildiyimizdən nə qədər əmin ola bilərik və bu informasiyanın qaynağı, yəni mənbəyi haradadır? Bütün bu suallar epistemologiya cavab verir. Epistemologiya elə bu nöqtədə biblioqrafiya ilə kəsişir. Hər ikisinin də obyekti informasiyadır. Epistemologiyadan fərqli olaraq biblioqrafiya həmin informasiyanı axtarır, tapır və tələbatçılara çatması yollarını da araşdırır. Başqa sözlə, biblioqrafiyanın obyekti təkcə informasiya deyil. O həm informasiyanı analitik-sintetik cəhətdən işləyir, biblioqrafik təsvirin dəqiqləşdirilməsi ilə doğru olduğunu təsdiq edir, elm sahələri

üzrə bölür, sistemləşdirir, qruplaşdırır və həm də istifadəçiləri öyrənir, onların təsnifatını verir, informasiyanın istifadəçilərə tez və operativ çatdırılmasını təmin edir. Bu nöqtədə biblioqrafiyanın əhəmiyyətinin daha böyük olduğu qənaətinə, nəzəriyyəsinə əsaslanmaq olar.

Yaranan bu kimi suallar informasiyanı fəlsəfiləşdirir. Doğru ya səhv olması ona müxtəlif fəlsəfi yönlərin baxışlarını yaratdı. İnformasiyanın fəlsəfəsi, yəni epistemologiyanın doğruluq, həqiqət, təməl, məntiq kimi vacib keyfiyyətləri vardır. Məsələn, informasiya mifik dediyimiz təsəvvürlərə əsaslanırsa, yəni biz belə fikirləşiriksə və bu baxımından araşdırırıqsa, onda ortaya atılan problem isbat edilməyəcək kimi qalır. Biblioqrafiya özünün axtarış funksiyası ilə tarixi qaynaqları araşdırır, doğru məlumatı üzə çıxarır və epistemologiyanın doğruluq, həqiqət, təməl, məntiq kimi vacib keyfiyyətlərinin işləməsinə yardım göstərir. İnformasiyaya münasibətimizi dəyişdiyimiz zaman biblioqrafik axtarış nəticəsində yeni informasiyalar, bir çox sübutlar, bəlkə də kəşflər meydana gələ bilər. Bu bizim məsələyə ciddi və yaxud səthi yanaşmamızdan birbaşa asılıdır. Böyük sənəd kütləsi, sənəd-informasiya resursları içərisində doğru, ən vacib informasiyanı axtarıb tapmaq, istifadəçiyə ötürmək isə biblioqrafiyanın birbaşa işidir, biblioqrafik epistemologiyadır, informasiyanın fəlsəfəsidir.

Həmçinin informasiyaya münasibət də əsas məsələdir. Lakin əgər informasiyaya "mümkün deyil", "ola bilməz" kimi şübhələrlə yanaşsaq, o zaman informasiyadan uzaqlaşıb informasiyasızlığı seçirik. İstədiyim informasiyanı ciddi-cəhdlə əldə etməyə çalışdıqda isə biblioqrafiyanın vasitəçilik funksiyasından istifadə edirik və mütləq daha vacib informasiyaya ulaşa, çata bilirik. Ona görə də ağlasığmaz dediyimiz informasiyanı belə epistemoloji cəhətdən vacib sayaraq araşdırmaq, axtarış aparmaq, son nəticəyə varmaq lazımdır.

Bəşəriyyət yarandığı gündən bu və ya digər dərəcədə informasiyanın əhatəsindədir. Cəmiyyətin inkişafı ilə bağlı olaraq bu informasiya primitiv də, qlobal da ola bilər. Bizim yaşadığımız informasiyalaşdırılmış cəmiyyəti isə qlobal informasiyasız təsəvvür etmək olmaz.

Yaşadığımız zamanı isə informasiyasız təsəvvür etmək mümkün deyil. Hər bir insan bir gün ərzində ən azı iki-üç və daha çox saatını informasiya əldə etməyə sərf edir. Xüsusilə gənclər daha çox vaxtı yeni informasiya almağa sərf edirlər. Müasir günümüzdə informasiya bizim üçün aldığımız nəfəs qədər əhəmiyyətli olmuşdur. Daha çox bilik əldə etməyə üstünlük verən insanlar hər vaxt informasiya azlığı hiss edirlər, daha çox internetdən və sosial şəbəkələrdən istifadə edirlər. Buna görə də elmi-tədqiqat işi ilə məşğul olan insanlar daim öyrənmək, yeni informasiya, yeni biliklər əldə etmək üçün çaba göstərirlər. Onlar üçün informasiya gələcəkdir, karyeradır, inkişafdır. Buna görə də biblioqrafik fəaliyyətdə istifadəçilər təsnifləşdirilərkən elmi-tədqiqatla məşğul olan alimlər xüsusi bir qrup təşkil edir. Biblioqrafik fəaliyyətdə informasiya funksional məqsəd istiqamətinə görə cari, retrospektiv, perspektiv olmaqla üç yerə ayrılır.

Bizim hər gördüyümüz əşya, rastlaşdığımız təbiət və cəmiyyət hadisələri, hər an üzləşdiyimiz, oxuduğumuz nə varsa onları bizim üçün informasiyadır, düşüncələrimizin məhsulu olan bilikdir. İnformasiya - təqdimat formasından asılı

olmayaraq şəxslər, əşya, fakt, hadisə və proseslər haqqında məlumatlardır. Sənədləşdirilmiş informasiya isə maddi daşıyıcıda qeyd olunmuş və identikləşdirilməsinə imkan verən rekvizitlərə malik informasiyadır. [30, 3]

Ətraf aləmdə gördüklərimiz, duyğularımız vasitəsilə duyduğumuz, hiss etdiyimiz məlumat o vaxt informasiyaya çevrilir ki, beyin süzgəcindən keçir, emal olunur.

İnformasiyanın doğruluğu isə nisbidir, nəyəsə nəzərən ölçülə biləndir. Məsələn, bizə görə güclü hesab etdiyimiz hər hansı bir şeydən daha güclüsü vardır, yaxud zəif hesab olunandan daha zəifi vardır. Çətin hesab etdiyimiz hər hansı məntiqi test kiməsə asan gələ bilər. Beyin inkişaf etdikcə elmimiz, bilik səviyyəmiz artdıqca informasiyamız da çoxalır. Belə qərara gəlmək olar ki, informasiya ilə elm, bilik düz mütənasibdir. Biri artdıqca digəri də paralel olaraq artır. Bizim gözəl hesab etdiyimiz hər hansı bir şey, obyekt bizə görə gözəl ola bilər və s.

Duyğu orqanlarımızla əldə etdiyimiz informasiyanı təfəkkür tərzimizə uyğun olaraq beynimiz emal edir, yaxşı və ya pis, müsbət və ya mənfi, xeyirli və ya xeyirsiz olduğuna o qərar verir. [47]

Instead of curating collections of tangible materials, libraries have begun to adopt a new role: curating a discovery environment for digital materials. Instead of deliberately trying to identify titles most relevant to curriculum and research interests within a discipline, broad categories of material that may be relevant are enhanced for optimum discoverability, immediate delivery, and partial or temporary use. Instead of purchasing materials just in case a scholar may one day need them, patron-driven acquisitions (PDA) offers "just in time" access to needed titles or portions of titles.

Although PDA is now most closely associated with ebooks, its origins lie in print resource sharing. Good libraries have always incorporated some form of patron-driven acquisition, in the form of ILL, direct borrowing from consortial partners, or special orders to vendors. Good collections officers have always studied ILL requests to learn what users had to search elsewhere for, and have

modified their selection practices accordingly. (Ward, Wray, & Debus-López, 2003)

Thus PDA originated in interlibrary loan departments, when decisions were made to purchase requests rather than to borrow them on the grounds that there was a recognized need for the material from at least one patron. Now PDA (also known as demand-driven acquisitions, or DDA) is becoming increasingly important in academic libraries. Essentially, a package of e-books is offered to users as part of the PDA agreement. At first, these books are leased by the library. If a book is not used, it is more or less returned to the publisher (the record for it is deleted) and new books are then offered. If a book is used an agreed number of times, the library will pay for the book and it will own it indefinitely. (Weber, 2015)

However, there are dangers as well as benefits in fulfilling user requests, such as:

- Users have a limited frame of reference
- Users focus on past and current experiences
- Users tend to offer incremental, rather than bold, suggestions
- Users are less familiar with the potential of future possibilities
- Innovation is the responsibility of staff (Ulwick, 2002)

The best expert selection has always considered users in the context of the best works available in a given subject. Expert selectors understand the literature of a discipline, the curriculum and research interests of the departments they serve, and budget realities. They may have a better sense of which work will stand the test of time. Most importantly, good selectors know how to balance these factors as they make decisions on individual resources. Even as some selection is turned over to users, some should remain in the hands of experts. (Swords, 2011)

**Assessment and evaluation of the library collection**

Collection analysis is part of the effective and efficient management of resources. Collection analysis can document how fiscal resources are being used and how investments are being maintained.

In order to describe the size, content, and quality of the current collection as a basis for determining the direction needed to support the curriculum or meet the community’s information needs, the library staff analyzes the library collection through various charts, graphs, or data comparisons that accurately describe for a non-librarian audience the condition, the direction, and trends of the collection over time. These tools help to answer the questions, such as:

- What is the size of the library’s current collection?
- What is the trend in the size of the collection over time?
- What is the trend in the currency of the collection?
- What is the condition of the current collection?
- What is the quality of the current collection?
- How does the current collection compare with other schools, state and national standards?

• What impact has spending over time had on both the size and quality of the current collection? (Loertscher & Wimberley, 2009b)

Admittedly, it is easier to measure the size of a collection rather than its quality. What is a quality collection? Collecting libraries, such as the Library of Congress, Harvard, or Yale emphasize that size and quality actually merge as you have “everything”. In the digital age it becomes possible for every library since if we don’t have it, we can provide almost instant access to it. In the day of digital collections, we can now chart hits on the library web site. Hits on the library databases. Hits on particular titles within large collections of digital titles.

Methods and techniques of collection analysis seek to provide organized, pertinent, specific, and accurate information about the collection. Techniques are either collection-based or use- and user-based and either quantitative or qualitative. **(See: Table 1)** (Johnson, 2009)

| | **Use- and user-based** | **Collection-based** |
|---|---|---|
| **Quantitative** | Interlibrary loan statistics<br>Circulation Statistics<br>In-house use statistics<br>Document delivery statistics<br>ILL transactions<br>“Hits” and downloads (e.g., transaction logs, vendor-supplied data, COUNTER)<br>Cost per use | Collection size and growth<br>Materials budget size and growth<br>Collection size standards and formulas<br>Citation analysis/studies<br>Ratio measures (e.g., monographs expenditures to serials expenditures, expenditures compared to citizens)<br>Content overlap studies |
| **Qualitative** | User opinion surveys (e.g., LibQual+, Web-based, e-mail)<br>User observation<br>Focus groups<br>Usability testing | List checking (e.g., catalogs, bibliographies)<br>Verification studies<br>Citation analysis<br>Direct collection checking<br>Collection mapping (assigning Conspectus levels)<br>Brief tests of collection strength<br>Commercial products (e.g., WorldCat Collection Analysis, Bowker’s Book Analysis System, Ulrich’s Serials Analysis System, Follett Library Resources’ TitleWise, Sagebrush BenchMARC) |

**Table 1**

Analysis can be used to demonstrate accountability by marking progress toward performance goals and showing that investments are being used effectively. It can assist in the writing or revision of a collection development policy and provide a measure of an existing policy’s effectiveness. Analyses that focus on the condition of materials and their availability can be used for disaster preparedness,

inventory purposes, and space planning.

After identifying the strongest and weakest areas of the library collection there may be necessity to carry out weeding processes in the collection in order to make it current and up-to-dated. Automating a collection, applying for a collection renewal grant, a change in mission, a change in demographics of patrons, or adopting a new curriculum are all good reasons to get rid of materials that no longer belong in the library collection.

A few tips for selecting materials that are subject to be weeded:

- ✓ Rarely or never used
- ✓ Poor condition
- ✓ Lacking in relevance
- ✓ Out of date
- ✓ Usability level
- ✓ Outdated format

However, if the library is serving an archive function, then materials acquired may never be weeded. Or, they might be digitized and the paper copies discarded in order to save space.

**Preservation**

All libraries have some materials they want to preserve for the future whether they are large academic institutions with rare book collections or small public libraries with local history materials.

Preservation may be described as involving all those library activities aimed at preventing, retarding, or stopping the deterioration of materials, so that the intellectual content may be saved for future users. In the rush to convert to electronic products and media, the traditional role of every library in preserving and archiving information for its particular community of users should not be forgotten.

In the past, libraries were mainly concerned with taking steps to preserve the physical artifact (or a photocopied or microfilmed facsimile of the artifact) that contained the information, rather than preserving the information itself. Traditional library preservation strategies have therefore long been established for physical objects, but these strategies do not always transfer neatly to the preservation of a digital object.

Preservation of digital materials is an increasingly important issue for research, development, and discussion, with the general perception being that preservation of digital objects is more problematic than that of print or other formats.

The various types of digital media to be archived and preserved for both current and future use include the following:

- ➢ Digitally reformatted works that are scanned or digitized versions of physical items;
- ➢ Digital documents, and so on, that do not have an analog or print counterpart (born digital);

- Individual resources such as texts, still images, audio recordings, and so on that are from a single individual source;
- Collective resources, such as websites, blogs, wikis, e-journals, and so on;
- Data sets that consist of numerous individual pieces of scientific, computer, and other cultural data that make up a comprehensive set of materials;
- Communication records such as e-mails, instant messages, Tweets, Facebook postings, and other similar online activities that comprise an individual's or group's record of communication;
- Metadata that assist in long-term storage and retrieval by being included with the different digital media resources. Metadata record the different features such as format, version, and what devices or software is needed to access the saved information. (Gregory, 2011)

Managed preservation of digital content requires at least the first four of the following items; in the absence of the fourth, the last two are necessary and are probably a good thing in every case:

1. There needs to be a technical infrastructure that can robustly assure that bits can be saved over long periods of time and that they can be retrieved and used with the technologies available at the time of this reuse;
2. The items being preserved must be discoverable;
3. There needs to be a mechanism to assure the authenticity of the content and to document its provenance;
4. There needs to be a long-term institutional commitment to steward the content. This will require at a minimum a one-time financial investment, and in the better case, an ongoing investment to look over the content and to assist with its use;
5. There needs to be an economic model that can support the technical infrastructure so that there is an assurance that the bills will be paid for the foreseeable future even in the face of institutional failure;
6. There needs to be a rights structure so that the legal use of the content is understood. It would be best if the content could be used even if the original owning individual or institution is no longer in existence. (Lewis, 2016)

**Conclusion**

Academic libraries will face many choices in the coming years as they continue to struggle with preserving and providing access to the cultural and scholarly records in an environment where the number and types of materials that they are expected to collect grow rapidly. As librarians grapple with these changes, it is important to recognize that the costs associated with a print-based world, often assumed to be small, are actually large. (Courant & Nielson, 2010)

Today, no longer is paper-first a necessity of collection development. Down the years, the expense of building a collection based on print volumes has not changed greatly; it remains a costly method of developing a new library. But, today the flexibility of PDA makes building a collection with great breadth and depth very easy, and it can be done at little financial risk. The benefits of this

method far outweigh any negatives. Using PDA as a collection tool means libraries have the flexibility to give users what they want and need. Today, libraries should be evaluated based on how many people are in them using innovative spaces to create knowledge. A library full of books and no people is no longer a symbol of how good a library is – it is a symbol of how the modern library should not be. (Steiner & Berry, 2011)

Libraries, technology, and systems are changing rapidly, but librarians cannot stop and wait for the perfect system. Librarians must analyze their needs and plan the selection and implementation of a system that supports the mission and priorities of the institution. Both the selection and implementation processes require thorough planning in order to obtain a system that helps the library acquire materials more efficiently and improves service to patrons.

**References**

1. Courant, P.N., & Nielson, M. ". (2010). *"On the cost of keeping a book" in the idea of order: Transforming research collections for 21st century scholarship.* (). Washington, DC: CLIR Publication. Retrieved from https://www.clir.org/wp-content/uploads/sites/6/pub147.pdf
2. Disher, W. (2007). *Crash course in collection development*. Westport, Connecticut: Libraries Unlimited.
3. Gorman, M. (1998). *Technical services today and tomorrow*. Westport, CT: Libraries Unlimited.
4. Gregory, V.L. (2011). *Collection development and management for 21st century library collections: An introduction*. New York [u.a.]: Neal-Schuman Publishers, Inc.
5. Johnson, P. (2009). *Fundamentals of collection development and management* (2. ed. ed.). Chicago: American Library Association.
6. Jost, R.M. (2016). *Selecting and implementing an integrated library system: The most important decision you will ever make*. USA: Chandos Publishing is an imprint of Elsevier.
7. Lewis, D.W. (2016). *Reimagining the academic library*. Lanham, Maryland: Rowman & Littlefield.
8. Loertscher, D.V., & Wimberley, L.H. (2009a). *Collection development using the collection-mapping technique: A guide for librarians*. Salt Lake City: Hi Willow Research & Publishing.
9. Loertscher, D.V., & Wimberley, L.H. (2009b). *Collection development using the collection-mapping technique: A guide for librarians*. Salt Lake City: Hi Willow Research & Publishing.
10. Nixon, J.M., Freeman, R. S., & Ward, S.M. (2011). *Patron-driven acquisitions: Current successes and future directions*. London: Routledge. Retrieved from http://ebookcentral.proquest.com/lib/[SITE_ID]/detail action docID=1588449
11. Steiner, R., & Berry, R. (2011). Building new libraries on the international stage: The Near and Middle East. in D. A. Swords (Ed.), *Patron-driven acquisitions: history and best practices* (pp. 79-94). Berlin: De Gruyter Saur.
12. Swords, D.A. (2011). *Patron-driven acquisitions: History and best practices*. Berlin: De Gruyter Saur.
13. Ulwick, A.W. (2002). The limitations of listening to users. *Harvard Business Review,* (January)
14. Ward, S.M., Wray, T., & Debus-López, K.E. (2003). Collection development based on patron requests: Collaboration between interlibrary loan and acquisitions. *Library Collections, Acquisitions and Technical Services, 27*(2), 203-213. 10.1016/S1464-9055(03)00051-4 Retrieved from https://www.sciencedirect.com/science/article/pii/S1464905503000514

15. Weber, M.B. (2015). *Rethinking library technical services: Redefining our profession for the future*. Lanham [u.a.]: Rowman & Littlefield.
16. Wilkinson, F.C., & Lewis, L.K. (2003). *The complete guide to acquisitions management*. United States: Libraries Unlimited. Retrieved from http://catalog.hathitrust.org/Record/004343954
17. Williams, L.B. (1991). Subject knowledge for subject specialists: What the novice bibliographer needs to know. *Collection Management, 14*(3), 31.

# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ SİSTEMİNİN KİTABXANALARI

***İradə Bayramova***
*Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi*
*Tarix üzrə fəlsəfə doktoru*
*irade8@ rambler.ru*

***Система библиотек МинистерствоОбразования Азербайджанской Республики***
***Резюме:*** *В статье на основе анализа и обобщения официальных статистических материалов исследовано современное состояние, темпы и пропорции размещения библиотечно-информационных ресурсов, система библиотек Министерство Азербайджанской Республики.*
***The library system of ministry of Education of the Azerbaijan Republic***
***Summary:*** *On the basis of analyze and summarize of the official statistical materials researched the contemporary conditions tempo and proportions of the settle of the library-information resources, the libraries of system of Ministry of education of the Azerbaijan Republic.*
***Açar sözlər:****ali məktəb kitabxanaları,metodiki mərkəz, peşə məktəb kitabxanaları, məktəb kitabxanaları.*
***Ключевые слова:*** *библиотеки высшего образование, методический центр, библиотеки технического училища, школьные библиотеки.*
***Keywords:*** *libraries higher education,methodical center, library technical school, school libraries.*

## Giriş

Ölkə kitabxanalarının informasiya resurslarının formalaşmasında təhsil sistemi kitabxanaları aparıcı mövqeyə malikdir. Gənc nəslin dünyagörüşünün formalaşmasında, onlara milli-əxlaqi dəyərlərimizin aşılanmasında,tələbə və müəllim heyətinin,müxtəlif sahələrdə fəaliyyət göstərən elm xadimlərinin,şagirdlərin və s. informasiya təminatının keyfiyyətlə təmin olunmasında Təhsil Nazirliyi sisteminin kitabxanalarının müstəsna rolunu danmaq olmaz.Kitabxanalar cəmiyyətdən təcrid olunmuş halda fəaliyyət göstərmirlər. Əksinə, cəmiyyət üzvlərinin təlim-tərbiyəsində birbaşa iştirak edirlər.

6 oktyabr 2008-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda kitabxana infrastrukturunun yenidən qurulması,kitabxanaların kadr potensialının təhsil səviyyəsinin yüksəldilməsi, onların zəngin informasiya resursları ilə təmin edilməsi, kitabxanaların kompüterlə təmin edilməsi, informasiya tələbatçılarına yüksək keyfiyyətli kitabxana-biblioqrafiya xidmətinin göstərilməsi vəs.kimi vacib məsələlər öz əksini tapmışdır.(1)

“Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu”nda da deyildiyi kimi, “Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir”. (5)

Hazırda ölkəmizdə böyük təhsil islahatları aparılır.Təhsil sisteminin bütün işçiləri kimi kitabxanaçılar da bu islahatın aparılmasında yaxından iştirak edir,şagirdlərin və tələbələrin dərsliklərlə,dərs vəsaitləri ilə,digər sinifdənkənar oxu materialları ilə təmin edilməsi işini həyata keçirirlər.(3.s.133)

**Əsas hissə**

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının icrası üzrə Təhsil Nazirliyinin 2015-ci il üçün Tədbirlər Planının elektron kitabxana şəbəkəsinin genişləndirilməsi barədə 4.7.1.2-ci, 4.7.1.3-cü və 4.7.1.4-cü bəndlərinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Təhsil Nazirliyi, bu sistemdə fəaliyyət göstərən kitabxanalar,xüsusi ilə orta ixtisas təhsili müəssisələrinin elektron kitabxanalarının qurulması ilə bağlı olaraq, orta ixtisas təhsili müəssisələrində monitorinq keçirmişdir(7).Təhsil Nazirliyinin hesabatında deyilirdi: Azərbycan Respublikasında Təhsil Nazirliyi sistemində olan kitabxanaların xüsusi yeri vardır. Bu kitabxanalar Azərbaycanda elmin, təhsilin, xüsusilə də yüksək və orta ixtisaslı kadr hazırlığında əsas aparıcı elmi mənbə rolunu oynayır. Son illər, Azərbaycan təhsil sistemində İKT-nin tətbiqi ilə təhsilin keyfiyyətinin yüksəldilməsi və ölkənin milli təhsil sisteminin dünya təhsil məkanına inteqrasiyasının təmin edilməsi istiqamətində bir çox işlər görülmüşdür.

İlk öncə, ölkəmizdə İKT-nin təhsil sisteminə tətbiqi sahəsində hüquqi baza yaradılmışdır. Bu istiqamətdə qəbul edilmiş dövlət sənədləri içərisindəxüsusilə 2sənədi qeyd etmək olar. Bunlar Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 iyul tarixli 2856 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı” və Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”dır. (9; 7)

Birinci proqramda əhalinin bütün təbəqələrindən olan insanlara keyfiyyətli təhsil almaq imkanlarının yaradılması üçün İKT-nin təhsilin bütün pillələrində geniş tətbiqi ilə vahid informasiya təhsil mühitinin formalaşdırılması məqsədilə bir sıra vəzifələr müəyyən edilmişdir.

Strategiyanın isə məqsədi, ölkədə səriştəli təhsil verənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır.

Strategiyanı reallaşdırılması təhsilin məzmununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək,

ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin edəcəkdir.

Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil və s. kimi tədbirləri ehtiva olunur.

Təhsil Nazirliyi nazirlik sistemindəki kitabxana resurslarında görüləcək işlərin icrasını Respublika Elmi Pedaqoji Kitabxanasına həvalə etmişdir.

Təhsil Nazirinin əmrinin icrasını təmin etmək məqsədilə Respublika Elmi Pedaqoji Kitabxanası, Bakı şəhəri üzrə orta ixtisas təhsili müəssisələrində kitabxanaların mövcud vəziyyətinin (kitab fondları, maddi-texniki baza, kadr potensialı və s.), elektron dərsliklərin və kataloqların yaradılması işinin monitorinqinin həyata keçirilməsi məqsədilə, Bakı şəhərində və regionlarda yerləşən orta ixtisas təhsili müəssisələrinə ezamiyyə olunmuşlar. (8)

Təhsil Nazirinin əmrinə əsasən, yaradılmış işçi qrupu 4 ay müddətində Təhsil Nazirliyi sisteminə daxil olan Bakı şəhəri və regionlarda fəaliyyət göstərən orta ixtisas təhsili müəssisəsinin çağdaş tələblərə uyğunluğu, maddi texniki bazası, fondu, fəaliyyətini tənzimləyən hüquqi və və texniki sənədlər, kadr potensialı və s. haqqında ətraflı məlumat əldə etmiş, elektron dərsliklərin və kataloqların yaradılması işinin monitorinqi keçirilmiş, ekspert dəyərləndirilməsi aparılmışdır. Eyni zamanda, Respublika Elmi Pedaqoji Kitabxanasının bazası əsasında “Kitabxana sistemlərinin avtomatlaşdırılması və ənənəvi kitabxanaçılıq” mövzusunda treninqlər təşkil olunmuşdur. (8)

Hazırda məktəb kitabxanalarında bir çox çatışmamazlıqlar da var. Belə ki, kitabxanaların fondlarında təlim-tədris prosesində şagirdlərin informasiya tələbatını ödəmək üçün rəqəmsal informasiya resursları yox dərəcəsindədir. Bu isə kitabxana xidmətinin keyfiyyətinə mənfi təsir edən ünsürlərdən biridir.

Məlum olur ki, məktəb kitabxanalarının fondlarının 30-40%-i oxucular tərəfindən istifadə olunmur. Bu çatışmamazlıqları aradan qaldırmaq üçün kitabxana fondlarının elektron-informasiya daşıyıcılarına köçürülməsi müasir informasiya cəmiyyətinin əsas tələbidir.

Təhsil Nazirliyi sisteminə aşağıda göstərilən kitabxana resursları aiddir:

- Ümumtəhsil məktəb kitabxanaları;
- Ali məktəb kitabxanaları;
- Elmi təhsil müəssisələrinin kitabxanaları;
- Orta ixtisas təhsili müəssisələrinin kitabxanaları;
- İlk peşə ixtisas təhsili müəssisələrinin kitabxanaları;(6)

Məktəb kitabxanalarının məzmununda, şagirdlərə xidmət işinin forma və üsullarında, uşaqların mütaliəsinə rəhbərlik işinin təşkilində, məktəb proqramlarının mənimsənilməsində, oxucuların bir vətəndaş, vətənpərvər kimi tərbiyə edilməsində böyük dəyişikliklərin baş verməsi onların pedaqoji ictimaiyyətin böyük qayğısı ilə əhatə edilməsinə gətirib çıxarmışdı. Kitabxanalar məktəbin bir nömrəli laboratoriyasına çevrilmişdi. (3, s.126-131)

Kitabxanaların əsas atributlarından biri kitabxana mütəxəssisləridir. Kitabxanada aparılan işlərin keyfiyyəti əhəmiyyətli dərəcədə kadrların hazırlanmasından və onların ixtisaslarının yüksəldilməsindən asılıdır. Yüksək ixtisaslı kitabxanaçı kadrlar mütərəqqi iş metodlarını tezliklə mənimsəyir, öz işinə tətbiq edir, əməyin keyfiyyətli olmasını təmin edirlər. Buna görə də əməyin elmi kompleksində kadrlarla aparılan işin yaxşılaşdırılması əhəmiyyətli yer tutur(4.s.181).

Məktəb kitabxanalarında ixtisaslı kitabxanaçı-biblioqrafların xidmətini xüsusi ilə qeyd etmək lazımdır.İxtisaslı kitabxana mütəxəssisləri şagirdlərin kitabxanalara cəlb edilməsində,onların milli vətənpərvərlik ruhunda tərbiyə edilməsində,müəllimlər və valideynlər qədər önəmli yer tutur.

Ümumtəhsil məktəb kitabxanalarıuşaqlara və gənclərə savad,hərtərəfli inkişaf,estetik tərbiyə verən müəssisədir.Ümumitəhsil müəssisələri bir və bir neçə təhsil proqramı əsasında təhsil prosesini həyata keçirir.Hər bir ümumtəhsil müəssisəsində məktəb kitabxanaları fəaliyyət göstərir.Bu kitabxanalar məktəblilərin dünyagörüşünün formalaşmasında yaxından iştirak edir. (6)

Təhsil Nazirliyi sistemində önəmli yer tutan ümumtəhsil məktəb kitabxanalarının 2009-cu ildə Azərbaycan Dövlət Statistika Komitəsinin ölkə kitabxanalarında apardığı statistik hesablamalara görə, sayı cəmi 4081(48,0%) olmuşdur. (2)

Azərbaycan Respublikasında elmin, təhsilin və mədəniyyətin müxtəlif sahələrinin inkişaf tempini, gələcək perspektivlərini müəyyənləşdirmək, bu sahələrdə görülmüş işləri sistemləşdirərək statistik hesabat hazırlamaq üçün, dövlət tərəfindən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin qarşısına mühüm bir vəzifə qoyuldu.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi 2000-2015-2016-cı illər üzrə elmin,təhsilin,mədəniyyətin əsas atributlarının vəziyyətini öyrənmək üçün statistik hesablamalar apardı.Statistik hesablamaların nəticəsi 2016-cı ildə nəşr olunmuş, "Azərbaycanda təhsil, elm və mədəniyyət"adlı statistik məcmuədə öz əksini tapdı. (6)

2015-2016-cı illərdə Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumtəhsil məktəb kitabxanalarının sayı 4439(53,3%) olmuşdur. (6)

2009-cu ilin statistik hesablamalarına görə,ümumtəhsil məktəblərinin kitabxana fondunun 69,8%-i şəhər yerlərində, 30,2%-i kənd yaşayış məntəqələrində yerləşirdi. Ümumtəhsil məktəb kitabxanalarının fondunun ölkə üzrə həcmi 34,6% təşkil etmişdir.

Elmi müəssisə, ali təhsil, orta ixtisas təhsil, ilk peşə-ixtisas təhsil kitabxanalarının respublika üzrə fondu 31,8% olmaqla,kitablar elmi kitabxanaların(25,9%), ali təhsil müəssisə kitabxanalarının (76%), orta ixtisas təhsil müəssisələrinin(95,9%), ilk peşə-ixtisas təhsil müəssisələrinin(96,9%) fondunu əhatə edir. Qeyd edək ki, elmi təhsil(11,3%) və ali təhsil (6,9%) müəssisələrinin kitabxana fondu arasında, jurnalların xüsusi çəkisi çoxluq təşkil edir. (2)

Ümumtəhsil məktəb kitabxanalarının fondunun ümumi həcmi 35,6% təşkil edir.Bu sistemə daxil olan elmi kitabxanaların fondunun həcmi 21,9%, orta ixtisas

təhsili müəssisələrinin kitabxana fondu 0,8%, ilk peşə ixtisas təhsili müəssisələrinin kitabxana fondunun həcmi isə 0,5%-dir.(6)

Təhsil Nazirliyi sisteminə daxil olan ali təhsil müəssisələrinə akademiyalar,universitetlər və institutlar daxildir.Ali təhsil pilləsində cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla,yüksək ixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığı həyata keçirilir.Ölkədə ali məktəb kitabxanalarının sayı 54-dür (1,1%).

Bu sistemə daxil olan elmi kitabxanaların sayı 72-dir(1,5%).Eyni zamanda, ölkədə orta təhsilli peşəkar mütəxəssislər hazırlayan 60(1,3%) orta ixtisas təhsili kitabxanası da fəaliyyət göstərir. (6)

Təhsil Nazirliyi sisteminə daxil olan ilk peşə ixtisas təhsili müəssisələri müxtəlif peşədən olan nadir və ənənəvi sənətkarlıq sahələrinin dirçəldilməsinə yönəldilmişdir.Təhsil Nazirliyi sisteminə tabe olan, ilk peşə-ixtisas təhsili müəssisəsi kitabxanalarının sayı 2009-cu ilin statistik hesablamalarına görə 107 (1,3%), 2015-ci ildə isə 113(2,4%) olmuşdur.

Beləliklə,bu kitabxanalarla birlikdə Təhsil Nazirliyi sisteminə daxil olan kitabxana resursları cəmi 4738 (56,9%) olur. (6)

Hazırda Bakı şəhərində yerləşən ümumtəhsil məktəb kitabxanalarının sayı 347-dir (7,8%). Kitabxanalar Bakı şəhərinin rayonları üzrə belə yerləşmişdir:

1)Binəqədi rayonu üzrə -32 məktəb kitabxanası; 2) Qaradağ rayonu üzrə - 26 məktəb kitabxanası; 3) Xəzər rayonu üzrə -40 məktəb kitabxanası; 4) Səbail rayonu üzrə -18məktəb kitabxanası; 5)Sabunçu rayonu üzrə -50 məktəb kitabxanası; 6)Suraxanı rayonu üzrə -35məktəb kitabxanası; 7)Nərimanov rayonu üzrə -24 məktəb kitabxanası; 8)Nəsimi rayonu -27 məktəb kitabxanası; 9)Nizami rayonu -27 məktəb kitabxanası; 10)Pirallahı rayonu -5 məktəb kitabxanası; 11) Xətai rayonu -38 məktəb kitabxanası; 12) Yasamal rayonu -25 məktəb kitabxanası;

Azərbaycan Respublikasının iqtisadi regionlarında fəaliyyət göstərən məktəb kitabxanalarının yerləşməsi vəziyyətinə nəzər salaq:Abşeron iqtisadi rayonunda cəmi 103 ümumtəhsil məktəb kitabxanası var: 1)Xızı rayonu -15 məktəb kitabxanası; 2)Abşeron rayonu -38 məktəb kitabxanası; 3)Sumqayıt şəhəri -50 məktəb kitabxanası; 4)Bakı şəhəri -347 məktəb kitabxanası;

Gəncə-Qazax iqtisadi rayonunda cəmi 594 ümumtəhsil məktəb kitabxanası var. Onlar inzibati rayonlar üzrə aşağıdakı kimi yerləşir: 1)Gəncə şəhəri -49 məktəb kitabxanası; 2)Qazax rayonu -47 məktəb kitabxanası; 3)Ağstafa rayonu -39 məktəb kitabxanası; 4)Tovuz rayonu -86 məktəb kitabxanası; 5)Şəmkir rayonu -79 məktəb kitabxanası; 6)Gədəbəy rayonu -83 məktəb kitabxanası; 7)Daşkəsən rayonu -44 məktəb kitabxanası; 8)Samux rayonu -35 məktəb kitabxanası; 9)Göygöl rayonu -50 məktəb kitabxanası; 10)Goranboy rayonu -79 məktəb kitabxanası; 11)Naftalan şəhəri -3 məktəb kitabxanası;(6)

Şəki-Zaqatala iqtisadi rayonunda cəmi 369 ümumtəhsil məktəb kitabxanası fəaliyyət göstərir: 1)Balakən rayonu -49 məktəb kitabxanası; 2) Zaqatala rayonu -67 məktəb kitabxanası; 3)Qax rayonu -54 məktəb kitabxanası; 4)Şəki rayonu -97 məktəb kitabxanası; 5)Oğuz rayonu -34 məktəb kitabxanası; 6)Qəbələ rayonu -68 məktəb kitabxanası;

Lənkəran iqtisadi rayonunda 562 ümumtəhsil məktəb kitabxanası var. Onlar inzibati rayonlar üzrə aşağıdakı kimi yerləşmişdir: 1)Astara rayonu -63 məktəb kitabxanası; 2)Lənkəran şəhəri -89 məktəb kitabxanası; 3)Lerik rayonu -107 məktəb kitabxanası; 4)Yardımlı rayonu -80 məktəb kitabxanası; 5)Masallı rayonu -98 məktəb kitabxanası; 6)Cəlilabad rayonu -125 məktəb kitabxanası;

Quba-Xaçmaz iqtisadi rayonu üzrə cəmi 418 ümumtəhsil məktəb kitabxanası var.Onlar inzibati rayonlar üzrə aşağıdakı kimi yerləşmişdir: 1)Qusar rayonu üzrə-86 məktəb kitabxanası; 2)Quba şəhəri-137 məktəb kitabxanası; 3)Xaçmaz rayonu -123 məktəb kitabxanası; 4)Şabran rayonu -47 məktəb kitabxanası; 5)Siyəzən rayonu -25 məktəb kitabxanası;(6)

Aran iqtisadi rayonu üzrə cəmi 929 ümumtəhsil məktəb kitabxanası var.Onlar inzibati rayonlar üzrə aşağıdakı kimi yerləşmişdir: 1) Göyçay rayonu -57 məktəb kitabxanası; 2)Beyləqan rayonu -54 məktəb kitabxanası; 3)Ağcabədi rayonu -62 məktəb kitabxanası; 4)Bərdə rayonu -75 məktəb kitabxanası; 5)Neftçala rayonu-51 məktəb kitabxanası; 6)Biləsuvar rayonu -36 məktəb kitabxanası; 7)Salyan rayonu -55 məktəb kitabxanası; 8)Yevlax şəhəri-58 məktəb kitabxanası; 9)Mingəçevir şəhəri -22 məktəb kitabxanası; 10)Ağdaş rayonu -68 məktəb kitabxanası; 11)Ucar rayonu - 45 məktəb kitabxanası; 12)Zərdab rayonu -43 məktəb kitabxanası; 13)Kürdəmir rayonu -58 məktəb kitabxanası; 14)İmişli rayonu -62 məktəb kitabxanası; 15)Saatlı rayonu -49 məktəb kitabxanası; 16)Sabirabad rayonu -85 məktəb kitabxanası; 17)Hacıqabul rayonu -33 məktəb kitabxanası; 18)Şirvan şəhəri -16 məktəb kitabxanası;

Yuxarı Qarabağ iqtisadi rayonunda cəmi 357 ümumtəhsil məktəb kitabxanası var. Onlar inzibati rayonlar üzrə aşağıdakı kimidir:1)Cəbrayıl rayonu üzrə- 44 məktəb kitabxanası; 2)Füzuli rayonu -81 məktəb kitabxanası; 3)Ağdam rayonu -134 məktəb kitabxanası; 4)Tərtər rayonu -47 məktəb kitabxanası; 5)Xocalı şəhəri -2 məktəb kitabxanası; 6)Şuşa şəhəri -22 məktəb kitabxanası; 7)Xocavənd rayonu -17 məktəb kitabxanası;

Kəlbəcər-Laçın iqtisadi rayonunda cəmi 292 ümumtəhsil məktəb kitabxanası var.Onlar inzibati rayonlar üzrə aşağıdakı kimi yerləşmişdir: 1)Kəlbəcər rayonu -110 məktəb kitabxanası; 2)Laçın rayonu -116 məktəb kitabxanası; 3)Qubadlı rayonu 32 məktəb kitabxanası; 4)Zəngilan rayonu -34 məktəb kitabxanası;(6)

Dağlıq Şirvan iqtisadi rayonunda 251 ümumtəhsil məktəb kitabxanası var. Onlar inzibati rayonlar üzrə aşağıdakı kimidir: 1)Qobustan rayonu – 30 məktəb kitabxanası; 2)İsmayıllı rayonu -80 məktəb kitabxanası; 3)Ağsu rayonu -69 məktəb kitabxanası; 4)Şamaxı şəhəri -72 məktəb kitabxanası;

Naxçıvan iqtisadi rayonunda ümumtəhsil məktəb kitabxanalarının sayı cəmi 217-dir. Onlar inzibati rayonlar üzrə aşağıdakı kimi yerləşmişdir: 1)Naxçıvan şəhəri -23 məktəb kitabxanası; 2)Şərur rayonu -56 məktəb kitabxanası; 3)Babək rayonu -36 məktəb kitabxanası; 4)Ordubad rayonu -37 məktəb kitabxanası; 5)Culfa rayonu -26 məktəb kitabxanası; 6)Kəngərli rayonu -12 məktəb kitabxanası; 7)Şahbuz rayonu -23 məktəb kitabxanası; 8)Sədərək rayonu -4 məktəb kitabxanası;

**Nəticə**

”Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın təsdiq olunması ilə bağlı sərəncamda 2015-2025-ci illərdə Azərbaycanda təhsil sisteminin qarşısında duran mühüm vəzifələr öz əksini tapmışdır. Sərəncamda görüləcək Tədbirlər Planı ilə əlaqədar olaraq deyilir: “Ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsinə,dəstək verən rəqabət qabiliyyətli mütəxəssis hazırlığını təmin edən ali təhsil standartlarının tətbiqi yerinəyetirilməlidir.2015-2020-ci illərdə, təhsil sisteminin informasiyalaşdırılması proqramına uyğun olaraq bütün təhsil müəssisələrində informasiya texnologiyaları infrastrukturunun yaradılması həyata keçirilməlidir. (10)

Respublikamızda aparılan təhsil islahatları ümumtəhsil məktəb kitabxana fondlarının yenidən təşkil edilməsini və kitabxanaların imkanlarından geniş oxucu auditoriyasının kitabxanalara cəlb edilməsini tələb edir. Hazırda Təhsil Nazirliyi sisteminə tabe olan kitabxanalarda görüləcək işlər sırasında aşağıda göstərilən vəzifələrin həyata keçirilməsi vacibdir.Təhsil Nazirliyi sisteminə daxil olan kitabxanalarda, İKT-nin təhsilin bütün pillələrində geniş tətbiqi ilə vahid informasiya təhsil mühitinin formalaşdırılması,xüsusi ilə, ümumtəhsil məktəb kitabxanalarının kompüterlərlə təhciz edilərəkonların internetə qoşulması, elektron kitabxana idarəetmə - ALİSA (Automated Library Information System of Azerbaijan)proqram təminatınınquraşdırılması və tətbiq edilməsi.

**Ədəbiyyat**


1. «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı».// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.-2008.№ 2.-s.6-29.
2. «Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı.-2009.-88s.
3. Xələfov, A.A. Kitabxanaşünaslığa giriş:Dərslik(3 hissədə).-H.2.-B.,2010.- 432s.
4. İsmayılov, X.İ. Kitabxana işinin təşkili və idarə olunması: Dərslik.-Bakı: Nurlar, 2009. - 392 s.
5. İsmayılov, N.İ. Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi yurnal.- 2010.N1.-s.67-78.
6. iccia.com/sites/defanet/files/library/files/tehsil_elm
7. www.president.az/articles/9779
8. www.repk.az.
9. edu.qov.az/az/paqe/83/599
10. eüdu.qov.az/upload/file/


## KİTABXANA-İNFORMASİYA MÜƏSSİSƏLƏRİ ÜÇÜN RFİD TEXNOLOGİYA


***Elçin Əhmədov***

*Bakı Dövlət Universiteti, Sənəd resursları və*
*İnformasiya axtarış sistemləri kafedrası, Magistr, II kurs*
*eahmadov@ada.edu.az*

***RFİD технология для библиотечно-информационных центров***
***Резюме:****Наиболее часто используемой технологией на базе технологии в библиотечно-информационных предприятиях является система RFID. Эта система является идеальной системой для инвентаризации, обращения, мониторинга, сортировки, несанкционированного удаления и защиты ресурсов. Чтобы система функционировала должным образом, запас должен быть полностью помечен, считыватели RFID должны быть установлены и интегрированы в автоматизированную библиотечную систему.*
***RFID technology for library-information centers***
***Abstract:*** *The RFID system, based on the most widely used new technology in library information centers. This system is an ideal system for the inventory, circulation, monitoring, sorting, unauthorized removal and protection of resources. In order for the system to function properly, the fund must be fully labeled, RFID readers must be installed and integrated into an automated library system.*
***Açar sözlər**: RFİD, RFİD texnologiya, RFİD sistem, müasir kitabxana texnologiyaları, RFİD etiket, təhlükəsizlik sistemi, fondun qorunması.*
***Ключевые слова:*** *RFID, RFID-технология, RFID-система, современные библиотечные технологии, лейбл RFID, система безопасности, защита фонда.*
***Keywords:*** *RFID, RFID technology, RFID system, modern library technology, RFID label, security system, security of the library fund.*

**Giriş**

Kitabxana-informasiya müəssisələri üçün hazırlanan RFİD etiketlər özündə dörd elementi birləşdirir: çip, anten, kağız və ya plastik platforma və yapışqan üzlük. Kitabxanalarda daha çox tətbiq olunan etiketlər passiv etiketlərdir və bu tip etiketlər enerjini yalnız oxuyucudan alır. Passiv etiketlər ölçülərinə görə kiçikdir, qiyməti ucuzdur və istifadə müddəti aktiv etiketlərə nisbətən çoxdur. Bu tip etiketlər saxlanılan informasiyanı oxuyucudan sorğu olmayan müddətdə ötürmür.

Kitabxanalar üçün təyin olunmuş etiketlər müxləlif ölçülərdə istehsal olunur, lakin ən çox istifadə olunan etiketlər 50x50 mm ölçüdə olan etiketlərdir. Digər ölçülü xüsusi RFİD etiketlər də vardır ki, onlar CD, DVD, video və audio kasetlər üçün istifadə olunur. Etiketlər sifariş olunarkən sifarişçi təşkilatın loqo və ya adı etiketin üzərində təsvir oluna bilər. Kitabxanalar üçün istehsal olunan etiketlər yaddaşında yalnız barkod deyil, həmçinin kitabxananın filialı və resursun növü haqqında məlumatları da saxlaya bilər.

**RFİD etiketlərin yaddaş tutumu**

Kitabxana-informasiya müəssisələrində istifadə olunan RFİD etiketlərin yaddaş tutumu 12 baytla 256 bayt arasında dəyişir. WORM növlü etiketlər üçün resursun barkodunu saxlayacaq qədər yaddaş tutumu kifayət edir. Standartlara uyğun olaraq barkod ən çox 14 rəqəmdən ibarət olur. 14 rəqəm üçün isə 56 bit tutumlu yaddaş kifayət edir.

Ümumiyyətlə, RFİD etiketlərin məqsəd təyinatına görə müxtəlif ölçü və quruluşları var. Bir çox istehsalçılar yaddaş tutumuna görə fərqlənən etiketlər istehsal edirlər. Misal olaraq TAGSYS çirkətinin İSO 18000-3 standartına əsasən istehsal etdiyi etiketlərin müxtəlifliyinə nəzər salaq.

**Cədvəl:** TAGSYS 320 sahə və yaddaş müxtəlifliyi

| Blok № | Giriş | Sahə | Yaddaş | Sahə |
|---|---|---|---|---|
| Blok №1 Real zaman məlumatları | Bağlı | Barkod (14 rəqəm) | 56 bit | Barkod sistemi üçün yaddaş |
| | | Məlumat-axtarış resursu | 1 bit | Məlumat-axtarış resurslarının kitabxanadan çıxarılmasına nəzarət |
| | | Məlumatın əvvəlcədən çeşidlənməsi | 3 bit | Qaytarılan resursların tez çeşidlənməsi |
| | | Resurs növü | 4 bit | İstifadəçi və resurslar üçün eyni kodun istifadəsi |
| Blok №2 Resurs haqqında məlumat | Oxunan-yazılan | Resursun ada salınması və addan çıxarılması | 32 bit | Resursun inventarlaşmasının sürətlənməsi |
| | | Bir neşə resursun eyni anda müəyyənləşdirilməsi | 16 bit | Əlaqəli resurslarin müəyyən olunması |
| | | Rəfə yerləşdirmə | 16 bit | Qaytarılan zaman sürətli yerləşdirmə |

| | | | | |
|---|---|---|---|---|
| Blok №3 Kitabxana məlumatı | Bağlı | Kitabxana müəyyənləşdirici | 32 bit | Kitabxanalar arası abonoment xidməti üçün kitabxanaları müəyyən edir. |
| | | Filial müəyyənləşdirici | 32 bit | Kitabxananın daxilindəki filialını müəyyənləşdirir. |
| Blok №4 Seçilmiş istifadəçi | | Xüsusi kitabxana istifadəçiləri haqqında məlumat | 64 bit | Hər hansı bir istifadəçi haqqında saxlanılmış məlumatı üzə çıxarır |

**Kitabxanalar üçün RFİD oxuyucular**

Kitabxana-informasiya müəssisələrində tətbiq edilən bir neçə növ RFİD etiket oxuyucular mövcuddur. Adətən kitabxanalarda istifadə olunan etiketlər passiv olduğuna görə oxuyucunun əsas işi elektrik impulsu göndərərək çipdəki informasiyanı avtomatlaşmış kitabxana sisteminə ötürməkdir. Tipik kitabxanalarda oxuyucular inventarlaşmanın idarəolunması, icazəsiz çıxarılmanın qarşısının alınması və dövriyyə məqsədləri üçün istifadə olunur. Müasir kitabxanalarda istifadə olunan RFİD etiket oxuyucularının aşağıdakı növləri var:

- Etiketləmə stansiyası – resurslara yapışdırılmış etiketləri proqramlaşdırıb inventara daxil etmək üçündür.
- Dövriyyə xidmətlərində işçi stansiya – dövriyyə olunan resurslarının etiketini deaktiv etmək və aktivləşdirmək üçündür.
- Özünə xidmət stansiyası – kitabxanaçıların köməyi olmadan resursların dövriyyəsinə imkan yaradır.
- Kitab qaytarma stansiyası – qaytarılan resursu avtomatik istifadəçinin adından çıxarır və RFİD etiketini aktivləşdirir.
- Sıralayıcı və konveyr avtomatlaşdırılmış sistemi – qaytarılan resursların fondda aid olduğu bölmələrə uyğun çeşidləyir.
- Təhlükəsizlik keçidləri – kitabxanadan çıxarılan resursların icazəli olduğunu və istifadəçinin adına qeyd olunduğunu təyin etmək üçün tətbiq olunur.
- İnventar meneceri – inventarlaşmanı yoxlamaq və yoxlanılan resursların rəflərdə təsnifata uyğun yerləşdirildiyini müəyyən etmək üçün tətbiq olunur.

**Etiketləmə stansiyası**

RFİD sistemi ənənəvi kitabxanaya tətbiq etmək ilkin mərhələdə yorucu və böyük büdcə tələb edən bir işdir. İlk öncə sistemin tam qurulması və işləməsi üçün proqram təminatı və alətlər təmin olunmalıdır. Sistem texniki tərəfdən qurulduqdan sonra artıq fondun sistemə inteqrasiyası başlayır. Bunun üçün kitabxanadakı bütün mövcud resurslar bir-bir etiketlənməli, barkod sistemi yoxdursa, kataloqlaşdırma şöbəsi tərəfindən resursun biblioqrafik təsvirinə barkod əlavə olunmalı, bütün resurslara həmçinin fiziki olaraq barkod yapışdırılmalı və son mərhələdə etiketlər proqram vasitəsilə aktivləşdirilməlidir. Etiketləmə stansiyası proqram təminatı, kompüter şəbəkəsi, oxuyucu və antendən ibarətdir.

**İşçi stansiya**

Dövriyyə xidmətlərində işçi stansiya bir çox funksiyaları özündə birləşdirir. İşçi stansiya kitabxanaçı tərəfindən resursların ada keçirilməsi, addan çıxarılması və ehtiyac olduqda etiketlənmiş resursun aktivləşdirilməsini təmin edir. İşçi stansiya onlayn resursun müddəti uzadılan zaman, özünəxidmət stansiyası vasitəsilə resurs istifadəçi tərəfindən götürülən, qaytarılan və ya istifadə müddəti yenilənən zaman və s. hallarda problem yarandıqda hər bir istifadəçi və resursa individual yanaşma imkanı verir. Belə ki, sistemdə və ya özünəxidmət stansiyasında yaranmış hər hansı bir problem dövriyyə xidməti işçi stansiyasında mütləq şəkildə öz həllini tapır. Problemin resursdan və ya istifadəçidən qaynaqlandığı RFİD etiketin və ya barkodun oxuyucu ilə oxunması zamanı bəlli olur. İşçi stansiya özündə kompüter şəbəkəsi, proqram təminatı, oxuyucu və anteni birləşdirir.

**RFİD özünəxidmət stansiyası**

Özünəxidmət stansiyası istifadəçilərə kitabxanaçıların köməyi olmadan resursları adlarına çıxarmaq, qaytarmaq, yeniləmək və öz hesablarını daim yoxlamaq imkanı yaradır. Özünəxidmət stansiyası toxunma ekranlı kompüter, proqram təminatı, oxuyucu, anten və qəbz çap edən kiçik printerdən ibarətdir. İstifadəçi istəyərsə, printerin köməyi ilə resursun son istifadə tarixini göstərən qəbz çap edə bilər.

**RFİD kitab qaytarma stansiyası**

Kitab qaytarma stansiyaları istifadəçilərin resursu vaxtında və kitabxanaya gəlmədən qaytarmaları üçün çox yaxşı bir xidmət növüdür. Kitab qaytarma stansiyaları kütləvi kitabxanalar üçün yaşayış məntəqəsinin insan daha sıx olan nöqtələrində, universitet kitabxanaları üçün isə yeməkxanada, əsas girişdə, ayrı-ayrı binaların girişində yerləşdirilə bilər. İstifadəçi bu stansiyalar vasitəsi ilə resursu qaytaran zaman qaytarılma haqqında qəbz çap edir. Qaytarılma zamanı onlayn olaraq kitabxana sistemində yenilənmə gedir və qaytarılan resursun statusu avtomatik olaraq dəyişir.

Kitab qaytarma stansiyalarının son modelləri qaytarılan resursu kolleksiyasına uyğun olaraq çeşidləyir və ayrılmış xüsusi qutulara toplayır. Günün əvvəlcədən müəyyən olunmuş saatlarında bu qutular kitabxanaçılar tərəfindən dəyişilir və qaytarılan resurslar uyğun olaraq rəflərə yerləşdirilir.

Kitab qaytarma stansiyaları toxunma ekran, kompüter proqram təminatı, avtomatlaşmış kitabxana sisteminə qoşulmuş oxuyucu, anten, qəbz üçün printer və çeşidləyici hissələrdən ibarətdir.

**RFİD təhlükəsizlik keçidləri**

Təhlükəsizlik keçidlərinin daxilində yerləşdirilən oxuyucular keçirilən resursun RFİD etiketinə sorğu göndərərək onun dövriyyə xidməti və ya özünəxidmət stansiyası vasitəsilə statusunu yoxlayır, yəni istifadəçinin adına keçirilib-keçirilmədiyini dəqiqləşdirir. Resursu icazəsiz çıxarma baş verdikdə və ya ada keçirmə unudulduqda təhlükəsizlik keçidləri səs və işıq siqnalı ilə istifadəçi və kitabxanaçını xəbərdar edir.

Təhlükəsizlik keçidləri həmçinin EAS - Electronic Article Surveillance (tərc: resursa elektron nəzarət) sisteminin RFİD etiketləri ilə təmin olunduqda da işləyir. Bu zaman deaktiv olunmamış resurs və ya əşya 1 metrdən az məsafədə təhlükəsizlik keçidinə yaxınlaşdıqda keçid səs və işıq siqnalı ilə aidiyyatı üzrə xəbər verir. Sistem siqnal zamanı avtomatik olaraq yaxınlıqda quraşdırılmış kameranın görüntünü yaddaşa yazması imkanı da verir.

Təhlükəsizlik keçidlərinin daha bir üstünlüyü giriş və çıxışın statistikasını verə bilməsidir. Belə ki, proqram təminatının köməyi ilə istənilən vaxt çərçivəsində statistika tərtib etmək mümkündür.

**RFİD inventar menecer**

RFİD sistemin unikal tərəflərindən biri də resursların rəflərdən götürülmədən inventar yoxlamanın aparılmasıdır. Bunun üçün əl skaynerləri-oxuyucularından istifadə olunur. Bu skaynerlərə resursların biblioqrafik siyahısı əlavə olunur və bu siyahıya uyğun inventar yoxlama aparılır. Kitabxanaçı ayrıca olaraq hər hansı bir kolleksiyanı və ya hisssəni əl skayneri vasitəsilə yoxlamaqla itmiş və ya yeri səhv düşmüş resursu müəyyən edib problemi aradan qaldıra bilər. Yoxlama zamanı skaynerin yaddaşına əlavə edilmiş siyahı üzrə hər hansı bir səhv baş verərsə, skayner səs və işıq siqnalı ilə əməliyyatı dayandırır və səhv aradan qaldırıldıqdan sonra proses davam etdirilir. The Personal Digital Assistant (PDA) (tərc: şəxsi rəqəmsal köməkçi) və ya Digital Library Assistent (DLA) (tərc: rəqəmsal kitabxana köməkçisi) və s. adlarla adlandırılan bu əl skaynerləri fondun idarə olunmasında kitabxanaçıların əvəzsiz köməkçiləridir. Son model bu tip əl skaynerləri Wİ-Fİ modemlə təchiz olunur və bunun sayəsində birbaşa edilən dəyişikliklər sistemdə də öz əksini tapır. Skaynerlər təkrar doldurula bilən litium batareyalarla təchiz olunur.

**RFİD texnologiyanın tətbiqinin kitabxana üçün üstünlükləri**

RFİD texnologiyanın tətbiqi kitabxanalar üçün çox faydalı bir mərhələdir. Ənənəvi kitabxanalarda resursların RFİD etiketlərlə təmin edilməsi üçün bütün çap resursları daxildən etiketlənməli və aktivləşdirilməlidir. Ənənəvi kitabxanalarda istifadəçilər kitabı adlarına götürmək üçün kitabxanaçıya yaxınlaşırlar, RFİD tətbiq olunan kitabxanalarda isə istifadəçi birbaşa resursu özünəxidmət stansiyasının köməyi ilə adına keçirir. Ümumiyyətlə, RFİD sistemin tətbiqi faydalı iş əmsalının artmasında, xidmətdə, resursun texniki işlənməsində, kolleksiyanın idarə olunmasında, fondun təhlükəsizliyi və tamlığının qorunmasında öz üstünlüyü ilə

seçilir. Kitabxanalar RFİD sistemi tətbiq etməklə aşağıdakı üstünlükləri əldə edirlər:

- İstifadəçilərin rahatlığı üçün sürətli ada keçirmə və addan çıxarma
- Təkrar işləri azaltmaq
- İstifadəçilərlə əlaqəni gücləndirmək
- Daxili təhlükəsizliyi gücləndirmək
- Kolleksiyanın idarə olunmasında əl əməyinin azaldılması
- Sürətli və dəqiq şəkildə rəflərin tənzimlənməsi
- Sürətli inventar yoxlamanın keçirilməsi

Kitabxanada aktivliyi, resursların dövriyyəsini izləmək və statistik məlumatlar hazırlamaq çox çətin və vaxt tələb edən bir prosesdir. Ənənəvi kitabxanalarda barkod sisteminin tətbiqi bu prosesi sürətləndirir, amma RFİD texnologiyanın tətbiqi prosesi sürətləndirməklə yanaşı, bir çox yeni imkanlar açır.

- *Kitabxana proseslərinin effektivliyinin artırılması.* RFİD etiketlə təmin olunmuş kitabxanada kitab işləmə prosesləri, dövriyyə xidməti, inventarlaşma, fondun izlənməsi və tamlığının maksimum qorunması, icazəsiz resursun kitabxanadan çıxarılması hallarına nəzarət ənənəvi kitabxanalarda tətbiq olunan mexaniki üsullardan daha effektli nəticə verir.
- *Təhlükəsizlik.* RFİD etiketlə təchiz olunmuş hər hansı bir resursun kitabxana binasından istifadəçinin adına keçirilməmiş çıxarılmasına cəhd olunarsa, çıxışda quraşdırılmış təhlükəsizlik keçidində işıq və səs siqnalı vasitəsilə icazəsiz çıxış müəyyən olunur və kitabxanaçı tərəfindən saxlanılır.
- *İnventarın idarə olunması.* Fondun inventar yoxlanması ənənəvi kitabxanalarda həftələr və aylarla çəkən bir prosesdir. RFİD sistemin köməkliyi ilə bu uzun və ağır proses bir neçə saat ərzində başa çatdırılır. Bunun üçün kitabxanaçı əl skaynerinə məlumatları yükləyib sadəcə olaraq rəflərin arası ilə sıra ilə gəzməlidir.

**RFİDsisteminkitabxanalarınidarə edilməsinə verdiyitöhfələr:**

- Təkmilləşdirilmiş kitabxana təhlükəsizlik sistemi
- Fondun effektli idarə edilmə sistemi
- Fondun tamlığının maksimal qorunması
- Faydalı iş qrafiki
- Yorucu işlərdən vaxt qazanmaqla istifadəçilərə daha çox vaxt ayırmaq
- Daha yüksək istifadəçi məmnuniyyəti
- Kitabxanalararası əməkdaşlığın inkişafı
- Əl əməyindənn daha az istifadə edildiyi üçün inventarın daha yaxşı qorunması
- Bütün resurslar üçün (kitab, CD, DVD və s.) eyni forma və eyni səviyyədə etiket və təhlükəsizliyin təmini, nəticədə fondun daha yaxşı idarə olunması

**RFİD sistemin kitabxanaçılar üçün verdiyi töhfələr:**

- RFİD sistemin köməyi ilə kitabxanaçılar vaxta qənaət edərək istifadəçilərə daha yaxşı xidmət göstərə bilirlər;
- RFİD sistemin köməyi ilə kitabxanaçılar təkrarlanan, fiziki yorucu və stresli işlərdən azad olurlar;
- Daha faydalı iş qrafiki ilə işləyirlər;

**RFİD sistemin istifadəçilər üçün verdiyi töhfələr:**

- Bütün tip resurslar üçün (kitab, audio kaset, video kaset, CD, DVD və s.) yer dəyişmədən sürətli ada keçirmə və qaytarma;
- İstifadəçilərə daha çox kitabxanaçı köməyi;
- Ödənişlərin, cərimələrin ödənilməsi üçün daha sürətli xidmət;
- Resursların sürətli, düzgün və səliqəli rəflərə yığılması istifadəçilərin sorğu etdikləri resursu tez tapa biləcəklərini təmin edir;
- Hündürlüyə görə tənzimlənə bilən özünə xidmət stansiyaları/aparatları azyaşlı və fiziki qüsurlu istifadəçilər üçün kitabxanadan istifadəni asanlaşdırır, onları kitabxanaya cəlb edir.

**RFİD sistemin çatışmayan cəhətləri**

Hər bir texnologiya, sistemdə olduğu kimi RFİD sistemin də bəzi çatışmayan cəhətləri vardır.

Ən böyük mənfi cəhətlərindən biri tətbiqi üçün böyük büdcə tələb etməsidir. Bu cəhət RFİD sistemi öz kitabxanalarında tətbiq etmək istəyən kitabxanaçıların qarşısında böyük bir maneə yaradır. Lakin kitabxanaçılar bu çətinliyi dəf etmək üçün maliyyə dəstəyi tapmağa özlərini inandırmalıdırlar. Maliyyə dəstəyi isə tabe olduqları qurumlardan asılı olaraq dəyişə bilər. Əks təqdirdə ənənəvi kitabxanalar yeni texnologiyalardan təcrid olunmuş qala bilərlər.

RFİD texnologiyanın növbəti çatışmayan tərəfi resursu daşımaq və ya qorumaq məqsədilə iki, üç qat məişət torbası ilə bükdükdə radio dalğaların qarşısı kəsilir və təhlükəsizlik keçidləri tərəfindən oxunmur.

İki və daha artıq RFİD etiket vurulmuş resurs bir-birinə birləşik şəkildə tutulduqda hər hansı birinin etiketi oxuyucu tərəfindən oxunmaya bilir. Bu halda texniki bilik və diqqət daha çox tələb olunur.

RFİD etiketlər adətən resursun üz qabığının arxa tərəfinin içinə yapışdırılır. Əgər oxucu tərəfindən etiketə hər hansı bir zədə yetirilərsə, etiketin işləməyində problem yarana bilər.

Ada keçirmə, qaytarma və yeniləmə üçün istifadə olunan oxuyucu-skaynerlər çox dəqiqliklə işləyirlər. Lakin bunu təhlükəsizlik keçidlərinə və inventar əl skaynerlərinə aid etmək olmaz. Təhlükəsizlik keçidləri resurs qapalı vəziyyətdə və bir neçə etiketlənmiş resurs yan-yana olduqda iş prisipi zəifləyir.

İnventarlaşma üçün nəzərdə tutulan əl skaynerləri isə rəflər metaldan olduqda etiketi oxumaqda çətinlik çəkir.

**Nəticə**

RFİD texnologiya radio tezliklə mikro çip texnologiyasının birləşməsidir. Mikroçipə yazılan məlumatlar RFİD oxuyucu vasitəsilə oxunur və resurs üzərində tələb olunan əməliyyat yerinə yetirilir. RFİD sistemin üstünlüklərindən biri sürətli

ada keçirmə və addan çıxarmadır. Onun istifadəsi dövriyyə xidmətinin işini çox sürətləndirir və yüngülləşdirir. RFİD etiketin çipindən, hətta eyni zamanda bir neçə etiketin çipindən məlumatların sürətli mübadiləsi vaxta qənaət etməyə imkan yaradır.

RFİD texnologiyanın kitabxanaya tətbiqi yüksək etibarlılıq deməkdir. Fondu RFİD etiketlərlə təchiz etmək yüzdə-yüz fondu müəyyənləşdirmək, təhlükəsizliyini təmin etmək və izləmək deməkdir.

RFİD texnologiyanın tətbiqi yüksək sürətli inventarlaşmanın əldə olunması deməkdir. Rəflərdə heç bir resursa toxunmadan fondun yoxlanması, resursların düzülüş qaydalarının pozulub pozulmaması, sistemdə və fiziki olaraq texniki ünsürlərinin normalara uyğun olmasının yoxlanılması mümkündür.

RFİD texnologiyanın daha bir üstünlüyü etiketin uzun ömürlü olmasıdır. Bu, əməliyyatlar zamanı etiketin birbaşa olaraq fiziki baxımdan heç bir cihazla əlaqəyə girməməsindən irəli gəlir. Bir etiketlə ən azı 100.000 əməliyyat aparmaq mümkündür.

**Ədəbiyyat**


1. Pandian, M. (2010). *RFID for libraries*. Oxford: Chandos.
2. Palmer, M. (2009). *Making the most of RFİD in libraries.* London: Facet Publishing.
3. Haley, C., Jacobsen, L., & Robkin, S. (2007). *Radio frequency identification handbook for librarians.* Westport, Conn: Libraries Unlimited.
4. Ayre, L.B. (2012). Library RFID Systems for Identification, Security, and Materials Handling. Library technology reports, 48(5), 9.
5. Rethlefsen, M.L. (2011). RFID Systems. *Library Journal, 136*(14), 34.
6. Kapoor, K., Dwivedi, Y.K., Piercy, N., & Lal, B. (2014). RFID Integrated Systems in Libraries: Extending TAM Model for Empirically Examining the Use. *Journal Of Enterprise Information Management, 27*(6), 1.

# KİTABXANA MARKETİNQİNİN AZƏRBAYCAN MODELİ (MÜŞAHİDƏLƏR, PROQNOZLAR VƏ TƏKLİFLƏR)

***Kəmalə Məmmədova***
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*Kulturologiya fakültəsinin müəllimi,*
*AMEA M.Füzuli ad. Əlyazmalar İnstitutu, dissertant*
*kamalamammad@gmail.com*

***Азербайджанская модель библиотечного маркетинга (наблюдения, прогнозы и предложения)***
***Резюме:*** *В статье рассматривается современное состояние и перспективы развития библиотечного маркетинга в Азербайджане.*
***Azerbaijan model of library marketing (observations, forecasts and proposals)***
**Abstract:** *The article examines the current state and prospects for the development of library marketing in Azerbaijan.*
***Açar sözlər:*** *kitabxana, marketinq, kitabxana-informasiya xidmətləri marketinqi, marketinq kommunikasiyaları, kitabxana reklamı və PR.*
***Ключевые слова:****библиотека, маркетинг, маркетинг библиотечно-информационных услуг, маркетинговые коммуникации, библиотечная реклама и PR.*
***Keywords:*** *library, marketing, marketing of library services, marketing communication, library advertisement and PR.*

## Giriş

Bazar iqtisadiyyatı şəraitində ölkəmizdə elmin, texnikanın, istehsalın inkişafı, müasir texnologiyaların tətbiqinin intensivləşməsi, kompüter texnologiyasının cəmiyyətin bütün sahələrinə nüfuz etməsi, qlobal kompüter şəbəkəsi, internet, dünya sənəd-informasiya resurslarına marağın artması cəmiyyətdə keyfiyyət baxımından yeni kitabxana-informasiya ehtiyacları formalaşdırır. Cəmiyyətin ehtiyaclar, tələbatlar və tələblər sistemində biliklərə, sənədlərə, informasiyaya olan tələbat getdikcə artır. Bu tələbatın ödənilməsində kitabxanaların marketinq fəaliyyətinin böyük əhəmiyyəti vardır.

Respublikamızda baş verən siyasi və sosial-iqtisadi islahatlar fonunda bütün sahələrdə olduğu kimi kitabxanaçılıq-informasiya sahəsində də marketinqin rolu gündən-günə artmaqdadır.

Kitabxana marketinqi bu sahədə çalışan mütəxəssislərə elmi, sosial-iqtisadi və demokratik baxımdan səmərəli idarəetmə metodlarının formalaşmasına, kadrların yaradıcılığının və fəaliyyətinin daha səmərəli olmasına xidmət edir. O, mədəni təsisatların missiya və sosial funksiyalarının seçiminə, kitabxana-informasiya resurslarının, istifadəçilərə göstərilən xidmətin formalaşmasına mütərəqqi yanaşmaya, kitabxana texnologiyalarının və kadrların inkişafına, ənənəvi fəaliyyət istiqamətlərinin modernləşdirilməsinə və yeni istiqamətlərin mənimsənilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu isə kitabxanaların idarəolunmasında müasir

kitabxana fəaliyyətinin məqsəd və funksiyalarına uyğun dəyişikliklər aparılmasını tələb edir.

Problemin mənbəşünaslığının tədqiqi göstərir ki, Azərbaycanda kitabxana marketinqi nəzəriyyəsi ötən əsrin 90-cı illərinin sonlarından başlayaraq görkəmlialim və tədqiqatçıların sanballı elmi əsərlərində qismən araşdırılmış və araşdırılmaqdadır. Mövzunun ayrı-ayrı aspektləri Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor A.A.Xələfovun zəngin elmi yaradıcılığında [3;4;5], professor X.İ.İsmayılovun "Kitabxana menecmentinin əsasları"adlı dərs vəsaitində [7], "Kitabxana işinin təşkili və idarə edilməsi" adlı dərsliyində [6] və bir sıra elmi əsərlərində, professor A.İ.Əliyeva-Kəngərlinin elmi yaradıcılığında [1], dosent R.Ə.Kazımovun elmi əsərlərində [9;10;11;12], dosent A.Qurbanov, dosent P.Kazımi və dosent M.Məmmədovun "Kitabxana-informasiya fəaliyyətinin marketinq və menecmenti" adlı dərs vəsaitində [13], K.Məmmədovanın "Kitabxanalarda marketinq və fandreyzinq fəaliyyəti" [2] və "Kitabxanalarda ödənişli xidmətlərin təşkili: təşkilatı-metodiki və normativ-texnoloji sənədlər" [14] adlı metodik vəsaitlərində və bir sıra elmi məqalələrində öz əksini tapmışdır. Lakin "Kitabxanalarda marketinq fəaliyyəti" mövzusu hələ bugünədək müstəqil tədqiqat obyekti olmamışdır.

**Məsələnin qoyuluşu**

Hal-hazırda respublika kitabxanalarında marketinq fəaliyyətinin təşkili probleminin aktuallığını şərtləndirən bir sıra əsas amillər mövcuddur. Onlardan bir neçəsini nəzərdən keçirək:

- kitabxanaların marketinq fəaliyyəti əsasında transformasiyasının elmi-nəzəri əsaslarının işlənilmə vəziyyətinin təhlili və öyrənilməsi;
- kitabxanaların fəaliyyətində marketinqdən və onun ayrı-ayrı elementlərindən istifadənin təhlili;
- kitabxananın xidmətlər sisteminin (ənənəvi və pullu) öyrənilməsi və istifadəçilərin tələbatına uyğun olaraq kitabxana xidmətlərinin optimal nomenklaturasının müəyyənləşdirilməsi;
- kitabxana xidmətlərinin qiymət siyasətinin xüsusiyyətlərinin öyrənilməsi;
- kitabxanalarda reklam və dizayn işlərinin nəzəriyyə və praktikasının öyrənilməsi və kitabxananın imicinin yüksəldilməsi üçün yeni imkanlardan istifadə olunması;
- yeni tipli elmi kitabxananın marketinq fəaliyyətinin modelinin işlənilməsi;
- marketinq sistemi çərçivəsində kitabxanaların maliyyələşməsinə büdcədənkənar maliyyələşmə və fandrayzinqin metodikasının işlənilməsinə kömək məqsədi ilə tövsiyələrin verilməsi;
- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında və AMEA Mərkəzi Elmi Kitabxanasında marketinq şöbəsinin və fandrayzinq sektorunun yaradılması üzrə eksperimentlərin keçirilməsi və onların kitabxananın dəyişikliklər sisteminə təsirinin öyrənilməsi;
- aparılmış tədqiqatın nəticələrinə uyğun olaraq kitabxanalarda marketinq fəaliyyətindən səmərəli istifadə üzrə tövsiyələrin hazırlanması;

- yeni tipli kitabxanaçı-marketoloqlar hazırlamaq üçün orta-ixtisas, ali-ixtisas, ixtisasartırma və fasiləsiz təhsilin təşkili məqsədilə tövsiyələrin hazırlanması.

Aparılan araşdırmalara əsasən demək olar ki, müasir ölkə kitabxanalarının bir çox problemləri məhz ondan irəli gəlir ki, onlar demokratik cəmiyyətin inkişafında öz gərəkliliyini, vacib sosial institut olması faktorunu lazımi səviyyədə dərk etmir və cəmiyyətlə sıx əlaqələr qurmurlar. Bunu kitabxanaların başlıca problemi kimi anlamaq zamanı artıq çatmışdır. Çünki kitabxanaların gələcəyi, maddi-texniki vəsaitlərlə təminat, sosial təsir sferasının genişləndirilməsi və s. amillər bu fəaliyyət növündən də çox asılıdır.

Azərbaycanda kitabxana işinin müasir mərhələsi ölkə kitabxanalarının idarəetmə sisteminin təkmilləşdirilməsi probleminə yeni keyfiyyətli yanaşmanın gərəkliliyini müəyənləşdirən bir sıra xüsusiyyətlərə malikdir. Cəmiyyətimizdə ideoloji doktrinanın dəyişilməsi, bunun nəticəsi olaraq kitabxananın rolunun və missiyasının yeni istiqaməti, sürətlənən informasiyalaşma prosesi, kitabxanaların bu prosesdə öz yerini axtarması və nəhayət, kitabxanaların varlığı üçün iqtisadi şəraitin dəyişlməsi onların fəaliyyətində innovasiya dəyişikliklərinin vacibliyini müəyyən edir.

Respublikanın uzun illər ərzində formalaşan kitabxana şəbəkəsi bəzi maliyyə çətinliklərinə baxmayaraq son illər ərzində müsbət nəticələrin əldə edilməsinə nail olmuşdur. Ölkədə kitabxana işinin modernləşməsi məsələlərini həll edə bilən möhkəmləndirilmiş professional cəmiyyət yaradılmışdır. Təbiidir ki, bu sosial mühitdə kitabxanalarda marketinq fəaliyyətinin təşkilinə əngəl törədə bilən bir sıra problemlər mövcuddur. Bunlar aşağıdakılardır:

1. Azərbaycanda kitabxana işi sahəsindəki qanunvericilik bazasının kitabxana işinin və kitabxana-informasiya xidmətinin tələblərinə uyğun gəlməməsi. Etiraf etmək lazımdır ki, müasir dövrdə Azərbaycanda kitabxana işinin normativ bazası olduqca zəifdir. Bu baxımdan ölkədə kitabxana işinin müxtəlif istiqamətlərini əhatə edən yeni normativlər sisteminin yaradılması idarəetmənin ən zəruri vəzifələrindən biridir. [7,42]

2. Azərbaycan kitabxanalarının informasiyalaşdırması prosesinin ləng getməsi. Əhalinin Azərbaycanda və xarici ölkə kitabxanalarında mühafizə olunan kitabxana-informasiya resurslarından istifadəsinin təmin olunması üçün kitabxanaların kompüterləşdirilmə və şəbəkə vasitəsi ilə qarşılıqlı əlaqələrini gücləndirmək, eyni zamanda kitabxana personalına və kitabxana istifadəçilərinə kitabxananın informasiya resurslarından istifadənin öyrədilməsi və kompüter texnologiyalarının proqram təminatının vaxtaşırı, sistemli olaraq yenilənməsi vacibdir.

3. Respublika kitabxanalarının kitab fondlarının vəziyyətinin qənaətbəxş olmaması. Kitabxana fondlarının mühafizə olunması və yeni sənədlərlə zənginləşdirilməsi probleminin həlli gecikdirilməməlidir. Bu sahənin lazımi səviyyədə maliyyələşdirilməməsi yaxın gələcəkdə həm maliyyə, həm də sosial yanaşma baxımından çox böyük maddi və mənəvi ziyana səbəb ola bilər.

**Məsələnin həlli**

Günün reallıqlarından baxıldıqda, Azərbaycanda fəaliyyət göstərən müəssisələrin əksəriyyətinin istehsal, yaxud da satış mərhələsinin ab-havası ilə yaşadığını görürük. Hər an keçid dövrünün çətinlikləri ilə üzləşən ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, bu problemlərin həllinə heç şübhəsiz ki, şərait yaradacaqdır.

Kitabxana rəhbərləri öz istifadəçilərinin tələbatlarını anlamaq və onların ödənilməsi yollarının səmərəli planlaşdırılması üçün marketinq metodikasından istifadə etməlidirlər. Kitabxana həmçinin öz məhsullarını və xidmətlərini ictimaiyyət arasında reklam etməlidir ki, kitabxana və informasiya sahəsində yeniliklərdən ictimaiyyətin xəbəri olsun. Kitabxanalar marketinq xidmətlərinin ictimaiyyət arasında səmərəli yayılması, populyarlaşması sahəsində sənədlə rəsmiləşdirilmiş və ya qanuniləşdirilmiş siyasətə malik olmalıdır. Bu siyasətə markentiq və kommunikasiya strategiyasını və xidmətlərdən populyarlaşması üzrə proqramların qiymətləndirilməsi metodları daxil olmalıdır. Marketinq strateqiyasının müvəffəqiyyətlə həyata keçirilməsi üçün kitabxana tərəfindən marketinqin və razılaşdırılmış siyasət əsasında xidmətlərin populyarlaşmasının kompleks planı işlənilməlidir.

Kitabxanaların marketinqdən istifadə etməklə mədəni-maarif mərkəzi kimi inkişaf etməsi üçün həmçinin ixtisaslı mütəxəssislər lazımdır. Kitabxanaların marketinq fəaliyyəti üçün kadrların hazırlanması və təkmilləşdirilməsi işlərinin təhlili onu göstərdi ki, bu mövzu respublikamızda, demək olar ki, heç işlənilməmişdir və öyrənilməyə, əsaslandırılmaya, marketinq sahəsində fasiləsiz təhsil sisteminin yaradılmasana dair tövsiyələrin işlənilməsinə ehtiyac duyulur.

Azərbaycan Respublikasında kitabxanaçılıq-informasiya təhsilinin mərkəzi olan BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin magistratura pilləsində "Kitabxana marketinqi" kursu tədris edilir. Fənn 30 saat mühazirə, 15 saat seminar, cəmi 45 saat həcmindədir. Fənnin tədrisinin yeni tipli marketoloq kadrların hazırlanmasında mühüm rolu vardır. Bu isə öz növbəsində kitabxana marketinqi və kitabxanalarda marketinqin idarə olunması üzrə dərsliklərin və tədris vəsaitlərinin hazırlanmasını zəruri etmişdir. Hazırda BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində tədris prosesinin müasir tələblər baxımından və kitabxana işinin gələcək inkişaf istiqamətlərini nəzərə almaqla qurulmasına cəhd edilir. Lakin təhsilin inkişafında yeni interaktiv metodların tətbiq olunması, uzaq məsafədən distant təhsilin təşkili vacib məsələdir. Ümid edirik ki, yaxın gələcəkdə Azərbaycan kitabxanaçılıq cəmiyyətində yeni forma və üsulların tətbiqi sahəsində mühüm irəliləyişlər olacaqdır. Fakültədə gələcəkdə bakalavr pilləsində də bu fənnin tədris olunması arzu olunur.

Aparılan tədqiqatlara əsasən söyləmək olar ki, Azərbaycan kitabxanaların marketinq fəaliyyətinin genişləndirilməsi və inkişafı problemi birmənalı şəkildə qarşıda durur, bu sahədə hələ çox iş görülməlidir. Azərbaycan kitabxana ictimaiyyəti, bütövlükdə cəmiyyət kitabxanaların marketinq fəaliyyətinin vacib olduğunu qəbul etməlidir. Aparılan tədqiqatı yekunlaşdıraraq aşağıdakı mühüm təkliflər və tövsiyələri irəli sürmək olar:

1. Respublika kitabxanaları üçün kitabxana marketinqinin formalaşdırılmasının və inkişafının əsas şərtləri, (nəzəri, təcrübi, fəlsəfi, mədəni elmi, metodoloji) əsasları müəyyənləşdirilməlidir.

2. Kitabxana marketinqi sahəsində aparılan tədqiqatlar daim davam etdirilməli, ölkədə marketinq xidmətinin səmərəlililiyi və nəticələrin təhlili aparılmalı, kitabxananın ümumi gəlirləri işçilərin əmək haqqlarının artırılmasına və kitabxananın ümumi inkişafına sərf olunmalıdır.

3. Kitabxananın marketinq fəaliyyəti ilə məşğul olan rəqib kitabxanaların fəaliyyətini neytrallaşdırmaq və biznes planlarını öyrənmək məqsədilə onlarla koordinasiya və kooperasiya əlaqələrinin yaradılmasına diqqəti artırmaq lazımdır.

4. Marketinq fəaliyyəti ilə məşğul olan kitabxana və kitabxana informasiya birliklərində marketinq şöbələrinin (marketinq tədqiqatları qrupu, marketinq xidmətlərinin hazırlanması, servis qrupu, satış qrupu, reklam və təbliğat qrupu, menecerlər qrupu və s.) yaradılmalıdır.

5. Kitabxana xidmət və məhsuluna qiymət müəyyənləşdirilərkən əhalinin yaşayış səviyyəsi, ümumi gəlirləri nəzərə alınmalı, kitabxana-informasiya bazarı bütövlükdə deyil, onun ayrı-ayrı seqmentlərinin əhatə edilməsinə üstünlük verilməli, daha səmərəli və keyfiyyətli xidmət göstərilməsi mümkün olan bazar seqmentləri seçilməlidir.

6. Kitabxanaların marketinq fəaliyyətini genişləndirmək məqsədilə ictimaiyyətlə əlaqələrin genişləndirilməsinə və kütləvi informasiya vasitələri ilə qarşılıqlı, daimi əlaqənin yaradılmasını təşkil etmək və kitabxana məhsullarının və xidmətlərinin reklamında onlardan istifadə etmək lazımdır.

7. Kitabxanaçılıq-informasiya orta ixtisas və ali təhsili müəssisələrində kitabxana marketoloqu və kitabxana meneceri ixtisasları açılmalıdır. “Kitabxana marketinqi” fənni ali təhsilin bakalavriatura pilləsində də tədris edilməlidir.

8. Kitabxanaların marketinq fəaliyyətini tənzimləyən şəhər, reqional, ümumrespublika səviyyəsində birlik və ya cəmiyyət yaratmaq lazımdır.

9. Kitabxana əməkdaşlarının bu sahədə informasiya mədəniyyətini və peşə kompetensiyasını yüksəltmək məqsədilə ixtisasartırma və fasiləsiz təhsilin imkanlarından istifadə etmək lazımdır.

**Nəticə**

Respublikada gedən siyasi iqtisadi və sosial mədəni vəziyyət müasir kitabxananın yeni modelinin öyrənilməsini və işlənilməsini tələb edir. Buna görə də kitabxanaların mədəni informasiya müəssisəsi kimi kompleks öyrənilməsi olduqca vacibdir. Müasir iqtisadi şəraitdə kitabxanalar adət etmədikləri sosial-iqtisadi mühitdə fəaliyyət göstərməyə adaptasiya olmalıdır.

Kitabxana-informasiya sferası nəinki mədəni, elmi, təhsil sahəsinin, həm də ölkənin iqtisadi sisteminin bir hissəsidir. Bu baxımdan kitabxanalar öz inkişaf istiqamətlərini müəyyənləşdirərkən dövlətdə və cəmiyyətdə baş vermiş və baş verəcək dəyişiklikləri nəzərə almalıdır. Ümid edirik ki, yuxarıda sadaladığımız tövsiyə və təkliflərin həyata keçirilməsi Azərbaycan kitabxanalarının marketinq fəaliyyətinin inkişafına səbəb olacaqdır.

**Ədəbiyyat**


1. Əliyeva-Kəngərli, A.İ. Milli-mənəvi dəyərlərimiz: yaradanlar və yaşadanlar. [Mətn] / elmi red. İ.Həbibbəyli. – Bakı,Proqres, 2012. – 581 s.
2. Ənvərqızı, K.Ə. Kitabxanalarda marketinq və fandreyzinq fəaliyyəti [Mətn] / K.Ənvərqızı; elmi red. və ön söz. müəl. A.İ.Əliyeva-Kəngərli; ixt. red. F.Hüseynova, C.Cəfərov. – Bakı: Nafta-Press, 2009. – 140 s.
3. Xələfov, A.A. Azərbaycanda kitabxana işinin tarixi [Mətn] : 3 hissədə : dərslik /A.A.Xələfov ; elmi red. K.Aslan ; rəyçilər: E.Y.Əhmədov, M.Ə.Məmmədov. – Bakı : Bakı Universiteti nəş-tı, 2010. – H. 3. XX əsrin ikinci yarısında və XXI əsrin əvvələrində Azərbaycanda kitabxana işinin tarixi. – 432 s.
4. Xələfov, A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi [Mətn] / A.A.Xələfov ; elmi məsləhətçi S.Y.Məmmədəliyeva ; elmi red. T.X.Musayeva ; red.: K.İ.Aslan, L.A.Məmmədova ; rəyçilər: X.İ.İsmayılov, N.İ.İsmayılov. – Bakı : Azərnəşr, 2006. – 312 s.
5. Xələfov, A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar) [Mətn] / A.Xələfov; elmi məsl.: A.İ.Əliyeva-Kəngərli; red. K.Aslan; rəy: R.Kazımov, E.Əhmədov. –Bakı, 2006.–106 s.
6. İsmayılov, X.İ. Kitabxana işinin təşkili və idarə edilməsi : ali məktəb tələbələri üçün dərslik / X.İ.İsmayılov ; elmi red. A.A.Xələfov ; rəyçi. M.Ə.Məmmədov, E.Y.Əhmədov ; Azərb. Resp. Təhsil Nazirliyi, BDU. – Bakı : "Nurlar"Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009. – 393 s.
7. İsmayılov, X.İ. Kitabxana menecmentinin əsasları: dərs vəsaiti. /X.İsmayılov ; red.: A.A.Xələfov; rəy R.Ə.Kazımov, K.İ.Aslan ; Bakı Dövlət Universiteti. – Bakı : Bakı Universiteti nəş-tı, 2005. – 200 s.
8. İsmayılov, X.İ. Kitabxana-informasiya texnologiyaları [Mətn] : dərs vəsaiti / X.İsmayılov; red. Ə.Ə.Əliyev ; rəyçilər: N.İ.İsmayılov, E.M.Məmmədov ; Azərb. Resp. Təhsil Nazirliyi, BDU. – Bakı : Bakı Universiteti nəş-tı, 2010. – 312 s.
9. Kazımov, R.Ə. Bazar iqtisadiyyatı və kitabxanalar [Mətn] : dərs vəsaiti / R.Kazımov. – Bakı,1996. – 34 s.
10. Kazımov, R.Ə. Kitabxana işinin iqtisadiyyatı : dərs vəsaiti / R.Ə.Kazımov ; elmi red. A.A.Xələfov, Z.Baxşəliyev, K.İ.Aslan. – Bakı : Bakı Universiteti nəş-tı, 2004. – 87 s.
11. Kazımov, R.Ə. Kitabxana işinin iqtisadiyyatı [Mətn] : [BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin qiyabi təhsil alan tələbələri üçün ixtisas fənnlərindən metodik göstərişlər (İV-V kurlar)] / R.Kazımov. – Bakı, 2003.
12. Kitabxana marketinqi: «Kitabxanaşünaslıq» ixtisası üzrə magistr dərəcəsi almaq üçün proqram / tərt. ed.: R.Kazımov; red.: A.Xələfov. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2000. – 10 s.
13. Qurbanov, A.İ., Kazımi, P.F., Məmmədov, M.Ə. Kitabxana-informasiya fəaliyyətinin marketinq və menecmenti: dərs vəsaiti. – Bakı : Mütərcim,2012. – 207 s.
14. Kitabxanalarda ödənişli xidmətlərin təşkili: təşkilatı-metodiki və normativ-texnoloji sənədlər [Mətn] / tərt.-müəllif K.Ənvərqızı; layihənin rəhb. A.İ.Əliyeva-Kəngərli; red. R.Kazımov. – Bakı : AMEA Mərkəzi Elmi Kitabxana, 2008. – 120 s.

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ MƏRKƏZİ ELMİ KİTABXANASINDA SAXLANILAN NADİR VƏ QİYMƏTLİ KİTABLAR

***Elçin Gülalıyev***
*Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı*

***Редкие и ценные книги хранятся в Центральной научной библиотеке Национальной академии наук Азербайджана***
***Резюме:****В статье рассматриваются редкие и ценные книги, хранящиеся в Центральной научной библиотеке Национальной академии наук Азербайджана, а обобщенные положения редких и ценных книг как важного компонента национальной культуры интерпретируются по ряду аспектов.*
***Rare and valuable books that kept at the Central Scientific Library of the Azerbaijan National Academy of Sciences***
***Abstract:****The article deals with rare and valuable books that kept at the Central Scientific Library of the Azerbaijan National Academy of Sciences, and generalized statutes of rare and valuable books as an important component of national culture are interpreted in some aspects*
***Açar sözlər:*** *Mərkəzi Elmi Kitabxana, AMEA, kitab, nadir nəşr, qiymətli kitab, sənəd, kitabxana fondu, mədəniyyət, elm, ideologiya*
***Ключевые слова:****Центральная научная библиотека, НАНА, книга, редкое издание, ценная книга, документ, библиотечный фонд, культура, наука, идеология*
***Keywords:****Central Scientific Library, ANAS, book, rare edition, valuable book, document, library fund, culture, science, ideology*

## Giriş

Azərbaycan kitabxanalarının fondlarında saxlanılaraq mühafizə olunan nadir və qiymətli kitabların çox mühüm bir hissəsi AMEA MEK-də yerləşir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası respublikada milli və dünya əhəmiyyətli elmi nəşrlərin zəngin fondlarına malik olan universal təmayüllü, aparıcı elmi kitabxanadır. “Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti” (ATTC) tərəfindən 1923-cü il 4 noyabrda - Biblioqrafiya Bürosunun yaradılması, 18 noyabrda isə ATTC-nin kitabxanasının təşkil olunması haqqında qərarlar qəbul edildi. Azərbaycanın möhtəşəm və zəngin kitabxanalarından biri olan AMEA Mərkəzi Elmi Kitabxanası elmi-sahə kitabxanalarının ilk rüşeymi kimi həmin vaxtdan - 1923-cü ilin noyabrından-müasir dövrümüzə qədər müvəffəqiyyətlə fəaliyyət göstərməkdədir. Həmin ildən etibarən kitabxana fondu təşkil olunmağa başlanmışdır. O zaman kitabxananın fondu 430 nüsxə kitab və 200 qiymətli əlyazmalardan ibarət idi. İlkin mərhələdə kitabxananın fondunun təşkilində Azərbaycan ziyalılarının çox böyük rolu olmuşdur. Onlar öz şəxsi kitabxanalarından kitabxanaya kitablar vermiş, bundan əlavə rayonlarda şərq dilli

əlyazma ədəbiyyatlarını toplayıb kitabxanaya təhvil vermişlər. [3, s.28; 4, s.116; 8, s.99; 13, s.81]

1925-ci ildə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin kitabxanası ilə Biblioqrafik Büronun işində təkrarçılıq yarandığı üçün 1925-ci ilin avqustunda Cəmiyyət kitabxanası ilə Biblioqrafik Büro birləşdirilərək "Kitabxana-Biblioqrafiya Bürosu" yaradıldı və Azərbaycan Dövlət Nəşriyyatının baş redaktoru Hənəfi Zeynallı (1896-1938) büronun sədri seçildi. 1926-cı ildə MEK-in ilk vaxtlarda gündəlik oxucu davamiyyəti 70 nəfərə çatan ilk oxu zalı yaradılmışdı. [6, s.20]

SSRİ-nin və xarici dövlətlərin elmi təşkilatları ilə çap məhsullarının mübadiləsini təşkil etmək məqsədi ilə 1934-cü ildə MEK-də xüsusi mübadilə fondu yaradılmış, elə həmin ildə 110, 1935-ci ildə isə artıq 150 elmi idarə ilə mübadilə əməliyyatları həyata keçirilmişdir. Daha sonra MEK 1995-ci ildə 57 ölkənin 660 təşkilatı, 2000-ci ildə 52 ölkənin 548 təşkilatı, 2005-ci ildə isə 63-ə yaxın ölkənin 610 təşkilatı ilə mübadilə aparmışdır. [4, s.8]

1967-ci ildə MEK Akademiya şəhərciyində yerləşən AMEA-nın əsas binasına köçmüşdür. 1972-ci ildə AMEA Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) yaradılmışdır və MEK həmin ildən AMEA kitabxana şəbəkəsinə metodiki rəhbərlik edir.

Kitabxananın adı yaranan gündən aşağıdakı kimi dəyişmişdir:

- 1930-cu illərdə - Kitabxana və Biblioqrafiya Komissiyası, Elmi kitabxana, Kitabxana sektoru;
- 1940-1945-ci illər - Əsaslı Kitabxana;
- 1945-1950-ci illər - Mərkəzi Kitabxana;
- 1960-1980-ci illər - Əsaslı Kitabxana;
- Hazırda - Mərkəzi Elmi Kitabxana. [1, s.99]

Mərkəzi Elmi Kitabxananın məqsədi Azərbaycanın qədim tarixinin və zəngin mədəniyyətinin, Azərbaycan Respublikasının müstəqillik illərində qazanılmış siyasi, iqtisadi, sosial və mədəni nailiyyətlərinin təbliğ edilməsi, Azərbaycan dilinin informasiya resurslarında istifadə imkanlarının genişləndirilməsi, müasir elmi araşdırmaların aparılması üçün informasiya təminatının yaxşılaşdırılması, milli-tarixi irsimizi təşkil edən və yeni yaranan bütün növ mövcud informasiya vahidlərinin toplanıb saxlanılması, dünya elmi, tarixi və mədəniyyətinin istifadəçilərinə təqdim olunmasıdır. MEK və MEK-in tərkibində fəaliyyət göstərən İnformasiya resursları mərkəzi Azərbaycan Milli Elmlər Akademiyası tərkibində informasiya resurslarını mərkəzləşdirən və əlaqələndirən müasir kitabxana-informasiya sistemi kimi fəaliyyət göstərir.

MEK əsas fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli 3072 №-li Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı", "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli 429 №-li Fərmanı və "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair

2014-2020-ci illər üçün Milli Strategiya"dan irəli gələn vəzifə və öhdəliklər ilə uzlaşdırır. [12, s.212]

Bu sırada informasiya cəmiyyəti mühitində xalqın tarixi, ədəbi və mədəni irsinin qorunub saxlanılması və geniş təbliği, dünya informasiya məkanında Azərbaycan Respublikasının milli maraqlarının qorunması, cəmiyyətdə İKT-dən qanuni və təhlükəsiz istifadə edilməsi, müasir texnologiyalara etimadın artırılması, informasiya təhlükəsizliyi sisteminin inkişaf etdirilməsi və tətbiqi kimi vəzifələr ön plana çıxır.

Mərkəzi Elmi Kitabxananın həyatında xüsusilə 2015-ci il bir çox əhəmiyyətli hadisələrlə səciyyələndi. Azərbaycan Respublikası prezidentinin 29 aprel 2011-ci il tarixli Sərəncamı ilə inşa edilmiş və iştirakı ilə istifadəyə verilmiş yeni binada MEK fəaliyyətini davam etdirdi. MEK-in yeni Nizamnamə və Strukturu təsdiq olundu. Kitabxana fondlarında saxlanılan kitabları AMEA-nın əsas binasından MEK-in yeni binasına köçürüldü. Milli Rəqəmsal Yaddaş layihəsinə başlanıldı. Vahid İdarəetmə Proqramının hazırlanmasına başlanıldı. MEK-də Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən tədbirlər keçirildi.

Həmçinin 2015-ci ildə "Akademkitab" satış mərkəzi MEK-in tərkibinə daxil edildi. Eyni zamanda MEK-in tərkibində İnformasiya Resursları Mərkəzi (İRM) yaradıldı. İRM-in ən ümdə vəzifəsi kitabxana-informasiya proseslərinin avtomatlaşdırılması, MEK üçün strateji əhəmiyyət kəsb edən informasiyanın toplanılıb saxlanılması, gələcək nəslə çatdırılması və Azərbaycan elmi ictimaiyyətinin informasiya təminatının ödənilməsidir. [2, s.6]

Mərkəzi Elmi Kitabxanada hazırda 1 milyon 330 mindən çox informasiya resursu, 14 oxu zalı, avtomatik qeydiyyat avadanlıqları, elektron kataloqlar, sistemləşdirmə avadanlıqları və istirahət guşələri fəaliyyət göstərir.

Kitabxanalarda müasir texnologiyaların tətbiqi klassik kitabxana xidməti modelinin təkmilləşməsinə və yeni mərhələyə keçməsinə səbəb olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası da keçmişlə bugünü özündə cəmləşdirərək gələcək fəaliyyətinin daha da zənginləşməsi istiqamətində çalışır. Müasir yanaşma və geniş informasiya axınının elmi inkişafa yönəldilməsi, alimlərin mümkün qədər geniş və mütərəqqi informasiya resurslarına çıxış imkanının təmin edilməsi məqsədilə MEK tərəfindən bir sıra yeniliklər həyata keçirilməkdədir.

Müasir kitabxana resurslarını elektron kataloqsuz təsəvvür etmək mümkün deyil. Hazırda MEK-də həm klassik, həm də elektron kataloqdan istifadə olunur. Bildiyimiz kimi, dünya təcrübəsində hazırda bir neçə qeydiyyat sistemlərindən istifadə olunur. Məsələn, İRBİS, MARC21, ALEV və s. sistemlərdə aparılmış qeydiyyatların digər sistemə keçidi xeyli texniki çətinliyin yaranmasına səbəb olur və resursların sistemləşdirilməsi, axtarış və yeni məlumatların daxil edilməsi prosesini mürəkkəbləşdirir. MEK-in işçi heyəti tərəfindən hazırlanmış Vahid Qeydiyyat Sistemi (VQS) isə bu problemləri həll etmək imkanı yaradıb. Belə ki, MEK-də tətbiq edilən VQS kitabxanaya məxsus informasiya resurslarını həm Azərbaycan, həm də beynəlxalq axtarış sistemləri tərəfindən də rahat tapıla biləcək formatda qeydiyyata alınmasını təmin edir. Hazırda AMEA MEK-ə məxsus

informasiya resursları intensiv şəkildə VQS sistemində qeydiyyata alınır ki, bu da elektron kataloqun zənginləşməsinə xidmət edir və gələcəkdə elektron kataloq oxuculara kitabxana resurslarında məsafədən istifadə etməyə şərait yaradacaq. Bunun üçün oxucu kartına sahib olan istənilən şəxs, kitabxana saytına daxil olaraq və resursların arasından ona lazım olan ədəbiyyatı seçərək, online rejimdə onlardan istifadə edə biləcək. [15, s.63]

AMEA MEK tərəfindən irəli sürülmüş təşəbbüslərdən biri də AMEA çərçivəsində fəaliyyət göstərən institut və müəssisələrin vahid elektron kataloqunun yaradılmasıdır. Bu prosesdə başlıca məqsəd AMEA çərçivəsində aparılan elmi tədqiqat işləri üçün tələb olunan informasiya resursları ilə tez və dolğun şəkildə təmin etmək, alimlərin yaradıcılıq fəaliyyətini dəstəkləmək və ən müasir elmi məlumatlara çıxış imkanlarını mümkün qədər tez və operativ şəkildə təmin etməkdir. MEK-in həyata keçirəcəyi vahid elektron kataloq sistemi AMEA-da toplanan elektron resursların vahid formatda sistemləşdirilməsinə və mövcud elmi informasiyanın ikitərəfli şəkildə asan mübadiləsinə imkan verəcəkdir. Lakin bununla kifayətlənməyərək ölkədəki bütün Ali təhsil ocaqlarının, region və bütövlükdə Azərbaycanın digər iri kitabxanalarına inteqrasiya edilməsi və onların vahid sistemdə birləşdirilməsi nəzərdə tutulmuşdur. Beləliklə, nəinki paytaxt, eləcə də bölgələrdə yaşayan oxucuların informasiya təminatının ödənilməsi, onların bu məlumat bazalarından istifadəsi və virtual xidmətin təşkili elmi kommunikasiyaların inkişafına təkan verəcəkdir.

Müasir elmi tərəqqi alim və araşdırmaçıların informasiya resurslarına çıxış imkanlarının mümkün qədər dolğun və sürətli həyata keçirilməsini tələb edir. Bu baxımdan elektron kitabların, jurnalların və məqalə bazalarının istifadəsi geniş şəkil almaqdadır. Elektron formata keçirilmiş informasiya vahidlərinin bir sıra üstünlükləri var:

- elektron formata keçirilmiş bir kitabdan eyni anda bir neçə nəfər istifadə edə bilir;

- bu informasiya vahidinə dünyanın istənilən nöqtəsindən internet vasitəsi ilə çıxış mümkündür;

- nadir nüsxələr, qədim kitab və əlyazma nümünələri araşdırmaçılar üçün məhdudiyyət olmadan istifadə imkanını verir, eyni zamanda, bu qəbildən olan mədəniyyət incilərinin gələcək nəsillərə olduğu kimi ötürülməsinə zəmin yaradır.

Hazırda MEK daxilində mövcud olan ədəbiyyatların elektron formata keçirmək üzərində intensiv iş aparılır. Bu prosesə ilk olaraq AMEA MEK-də saxlanılan Nadir Kitab Fondundan başlanılıb. Qeyd etmək lazımdır ki, MEK tərəfindən 2 970 ədəd çap şəklində olan informasiya vahidinin elektron formata keçirilməsi, müvafiq texniki işlənməsi və istifadəçilərə təqdimatı həyata keçirilib. [14, s.39]

Mərkəzi Elmi Kitabxanada yaradılan "Elektron elmi-intellektual baza" tamamilə yeni bir yanaşmadır. Ümumiyyətlə, Azərbaycanda elmi tədqiqat işlərinin vahid bir bazada formalaşdırılması, sistemləşdirilməsi olduqca aktual bir məsələdir. Azərbaycanda həyata keçirilən və ya azərbaycanlı alimlərin elmi yaradıcılıq fəaliyyəti çərçivəsində ərsəyə gəlmiş tədqiqat işləri, monoqrafiya,

avtoreferatlar, dissertasiya işləri, məqalələr, elmi konfranslardakı çıxışlar və s. kimi elmi-tədqiqat işlərinin elektron formata keçirilməsi və sistemləşdirilmiş qaydada bazaya daxil edilməsi məqsədini daşıyır.

Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasında Azərbaycan haqqında sistemləşdirilmiş və mərkəzləşdirilmiş elektron məlumat bazası olan "Milli Rəqəmsal Yaddaş" (MRY) yaradılmaqdadır. Dövlətin rəsmi qurumlarına məxsus sənədlər, şəxsi arxivlər, mühüm tarixi mənbələr (incəsənət nümunələri, əlyazmalar, eksponatlar) bu bazaya daxil edilərək Azərbaycan və dünya internet istifadəçilərinin ixtiyarına veriləcəkdir. Bu layihənin əsas məqsədi Azərbaycan xalqına məxsus elmi və mədəni irsi rəqəmsallaşdıraraq, olduğu kimi gələcək nəsillərə ötürməkdir. Bu, həm Azərbaycan, həm də region üzrə böyük bir layihə olacaq və ölkəmizin tarixi həqiqətlərini bütün dünyaya çatdırılmasında müstəsna bir əhəmiyyət kəsb edəcəkdir.

Layihəyə artıq start verilmişdir. MEK-in bir qrup işçiləri tərəfindən xüsusi format hazırlanıb və onun əsasında informasiyanın toplanması prosesinə başlanılıb. MRY çərçivəsində toplanılıb sistemləşdirilən məlumatlar gələcəkdə beynəlxalq səviyyədə istifadə olunan bütün axtarış sistemləri tərəfindən rahat tapıla biləcək.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının sənəd-informasiya resursları sistemində nadir və qiymətli kitablar mühüm yer tutur. Nadir kitab fondundakı sənədlərin ümumi sayı 15037 nüsxədir. Nadir kitab fondu çap ilindən, yerindən və dilindən asılı olmayaraq nadir kitab meyarına uyğun olan, unikal, miniatür nəşrləri özündə birləşdirir. Sənədlər əsasən ingilis, alman, fransız, ispan, italyan və latın dillərindədir. 500 nüsxə nadir kitab isə xüsusi mühafizə rejimində, yəni turşusuz kartondan düzəldilmiş mikroiqlimli konteynerlərdə qorunaraq mühafizə olunur. Nadir kitab fondunda müxtəlif kolleksiyalar da mövcuddur. Bunlardan ən zəngini görkəmli numizmat alim Y.A.Paxomovun şəxsi kitab kolleksiyasıdır. Kolleksiya 4188 nüsxə sənəddən ibarət olub, 1968-ci ildə alimin ölümündən bir neçə il sonra həyat yoldaşı tərəfindən hədiyyə olaraq kitabxanaya verilmişdir. Bu kolleksiyanın içərisində Azərbayanın arxeologiyasına, etnoqrafiyasına, numizmatikasına aid nadir və qiymətli elmi ədəbiyyatlar mövcuddur. Bundan əlavə, Tarix muzeyinin kolleksiyası, miniatür nəşrlər kolleksiyası və marka kolleksiyası da Nadir kitab fondunda mühafizə olunmaqdadır. Nadir kitab fondu nəşr tarixi XIX-XX əsrin əvvəllərini əhatə edən ingilis, alman, fransız və digər dillərdə olan çoxcildli ensiklopediyalarla da zəngindir. Bunlara misal olaraq “Encyclopaedia of Americana”, “Encyclopaedia of Britannica”, “Alpha encyclopaedia”, “La grande encyclopaedigue universelle en couleure” və s. universal ensiklopediyalar, “Encyclopaedia of İslam”, “Encyclopaedia İranica” və s. ictimai elmlərə aid ensiklopediyalar mövcuddur. [2;3;9;16]

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında saxlanılan nadir və qiymətli əhəmiyyətə malik, yüksək tarixi-mədəni və elmi əhəmiyyətə malik zəngin kolleksiyalar mövcuddur. Onlar əsasən aşağıdakılardan ibarətdir:

“Tarix Muzeyinin kolleksiyası” - 2588 nüsxə sənəddən ibarətdir, 2015-ci ildə AMEA-nın Tarix muzeyi tərəfindən MEK-ə hədiyyə olunmuşdur. Burada unikal dəyərlərə malik zəngin elmi-tarixi əhəmiyyət daşıyan kitablar mövcuddur.

“Miniatür nəşrlər kolleksiyası” -648 nüsxə sənəddən ibarətdir. Burada zəngin tarixi-mədəni dəyərlərə malik olan miniatür kitablar mövcuddur.

2016-cı ildə Mərkəzi Elmi Kitabxananın təşəbbüsü ilə “Poçt nişanı kolleksiyası” yaradılmışdır. Kolleksiyanın yaradılmasında Azərmarka MMC şirkətinin böyük köməyi olmuşdur. Şirkət Azərbaycanda çap edilmiş markaların elektron variantını kitabxanaya təqdim etmişdir. Hal-hazırda kitabxananın Nadir fondunda mühafizə olunan kolleksiya 1042 ədəd Poçt nişanından ibarətdir. Onlardan 137 ədəd markanın əsli, 905 ədəd elektron variantdır. Yeni markalar çap olunduqca kolleksiyaya əlavə edilir.

“Dünyanın qədim xəritələri kolleksiyası” isə Mərkəzi Elmi Kitabxananın təşəbbüsü ilə yaradılmışdır. Hal-hazırda kolleksiyaya 387 elektron xəritə daxildir. Bu xəritələrdən 51 nüsxəsi Azərbaycanın qədim tarixinə aiddir.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının Şərq ədəbiyyatı fondunda da yüksək tarixi-mədəni və elmi əhəmiyyətə malik olan nadir və qiymətli kitab kolleksiyaları saxlanılır. Onlar əsasən aşağıda göstərilmişdir:

İslam və Ərəb ölkələrinin Orta əsrlər tarixi üzrə mütəxəssis “Yevgeni Aleksandroviç Belyayevin şəxsi kolleksiyası” 1979-cu ildə Azərbaycan SSR EA Əsaslı kitabxanasına verilmişdir. 229 nüsxədən ibarət olan şəxsi kolleksiyanın 220 nüsxəsi Ərəb, 9 nüsxəsi isə Fars dilindədir. [16]

“Şərqşünas alim Bertels Yevgeni Eduardoviç” SSRİ EA-nın (1939), İran EA-nın (1944), Türkmənistan EA-nın (1951), Dəməşqdə Ərəb EA-nın (1955) müxbir üzvü olmuş, “İslam Ensiklopediyası”nın birinci nəşrinin müəlliflərindən biri olmuşdur. Şəxsi kolleksiyası alimin vəfatından (1957) sonra Azərbaycan SSRİ EA MEK-in Şərq ədəbiyyatı fonduna daxil edilmişdir. Bu zəngin kitab xəzinəsində 4253 nüsxə sənəd vardır. Bunlardan 2340 nüsxə Şərq və Avropa, 1913 nüsxə isə rus və digər SSRİ xalqlarının dillərindədir. Bu kolleksiyada Azərbaycan ədəbiyyatı və mədəniyyətinə aid çox nadir, qiymətli sənədlər əhəmiyyətli yer tutur.

“Diplomat Zahid Yusifoğlu Hüseynzadənin şəxsi kolleksiyası”-MEK-in Şərq ədəbiyyatı fonduna 1984-cü ildə daxil olmuş, 1917-1980-ci illərdə nəşr olunmuş 467 nüsxə Türk, Ərəb və Avropa dillərindəki sənədlərdən ibarətdir. 467 nüsxədən ibarət olan kolleksiyanın 440 nüsxəsi Türk, 13 nüsxəsi Ərəb və 14 nüsxəsi Avropa dillərində olan sənədlərdir.

Şərqşünas, Orta əsrlər Yaxın və Orta Şərq tarixi üzrə “İranşünas alim Boris Nikolayeviç Zaxoderin şəxsi kolleksiyası” 1990 nüsxədən ibarətdir.

Dünya miqyasında tanınmış türkoloq alim, Macarıstan EA-nın həqiqi üzvü, “Akademik Georg Hazainin şəxsi kitab kolleksiyası” 2011-ci ildə Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevin təşəbbüsü ilə AMEA MEK-ə hədiyyə edilmişdir. 1814 nüsxədən ibarət olan kolleksiyanın 1273 nüsxəsi Türk, 541 nüsxəsi isə Avropa dillərindədir.

Həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında yardımçı fondlarda mühafizə olunan, nadir və qiymətli mahiyyət

daşıyan, yüksək elmi-nəzəri və tarixi əhəmiyyətə malik olan kitab kolleksiyaları mühafizə olunur.

"Naxçıvan Bölməsinin kolleksiyası" - Naxçıvan Bölməsinin kolleksiyası AMEA-nın vitse-prezidenti İsa Həbibbəylinin təşəbbüsü ilə yaradılıb. Kolleksiya 217 nüsxə sənəddən ibarətdir. Yer elmləri üzrə yardımçı fondda yerləşdirilərək oxucuların istifadəsinə verilib. Kolleksiyaya tarix, arxeologiya, ədəbiyyat, incəsənət, siyasət, din və başqa elm sahələrinə aid sənədlər daxildir. Bundan başqa, kolleksiyada ensiklopediyalar və bir sıra qədim dil abidələrinin mətnlərinə dair nəşrlər də var.

"Akademik Həsən Əliyevin kolleksiyası" - Əməkdar elm xadimi, akademik, dövlət mükafatı laureatı Həsən Əliyevin kitab kolleksiyası MEK-ə 21 oktyabr 2016-cı il tarixində AMEA Coğrafiya İnstitutunun kitabxanası tərəfindən hədiyyə edilib. Kolleksiyaya 488 nüsxə sənəd daxildir. Bunlardan 410 nüsxə rus dilində, 73 nüsxə Azərbaycan dilində, 5 nüsxə isə xarici dildədir. Yer elmləri üzrə yardımçı fondda yerləşdirilərək oxucuların istifadəsinə verilib.

"Professor Qara Əhmədovun kolleksiyası" - arxeologiya üzrə elmlər doktoru, professor, AMEA-nın müxbir üzvü Qara Əhmədovun kolleksiyası ailə üzvləri tərəfindən MEK-ə hədiyyə olunub. Yer elmləri üzrə yardımçı fondda yerləşdirilərək oxucuların istifadəsinə verilib. Kolleksiyaya 102 nüsxə sənəd daxildir. (ardı gəlməkdə davam edir)

"Rüfət Kasumovun kolleksiyası" - iqtisad elmlər doktoru Rüfət Kasumovun kolleksiyası özü tərəfindən MEK-ə hədiyyə olunub. Kolleksiya 404 nüsxə sənəddən ibarətdir.

"Əli Bayramovun kolleksiyası" - görkəmli alim, geologiya-minerologiya elmləri üzrə fəlsəfə doktoru Əli Bayramovun kitab kolleksiyası ailə üzvləri tərəfindən MEK-ə hədiyyə olunub. Kolleksiya 69 nüsxə sənəddən ibarətdir. Bunlardan 13-ü azərbaycan, 2-si ingilis, 54-ü isə rus dilindədir.

"AMEA-nın müxbir üzvü Ənvər Şıxlinskinin kolleksiyası" - AMEA-nın akademik H.Əliyev adına Coğrafiya İnstitutunun mərhum direktoru, akademiyanın müxbir üzvü, coğrafiya elmləri doktoru Ənvər Şıxlinskinin kolleksiyası Coğrafiya institutu tərəfindən MEK-ə hədiyyə olunub. Kolleksiya 755 nüsxə sənəddən ibarətdir.

"İmran Məmmədovun kolleksiyası" - İmran Məmmədovun kolleksiya ailə üzvləri tərəfindən MEK-ə hədiyyə olunub. 552 nüsxə sənəddən ibarətdir.

"Xalq yazıçısı Mirzə İbrahimovun kolleksiyası" - Azərbaycan yazıçısı, dramaturq, ictimai xadim Mirzə İbrahimovun kolleksiyası ailə üzvləri tərəfindən MEK-ə hədiyyə olunub. 286 nüsxə sənəddən ibarətdir. [5, s.39; 16]

"Professor Abbas Zamanovun kolleksiyası" - tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, filologiya elmləri doktoru, professor, Azərbaycanın Əməkdar elm xadimi Abbas Zamanovun kolleksiyası ailə üzvləri tərəfindən MEK-ə hədiyyə olunub. Kolleksiya 2417 nüsxə sənəddən ibarətdir.

"Professor Seyidağa Onullahinin kolleksiyası" - tarix üzrə elmlər doktoru, şərqşünas, professor Seyidağa Onullahinin kolleksiyası ailə üzvləri tərəfindən MEK-ə hədiyyə olunub. 39 nüsxə sənəddən ibarətdir. [11, s.112]

“Professor Xudu Məmmədovun kolleksiyası” - ictimai-siyasi xadim, professor, geologiya-mineralogiya elmləri doktoru Xudu Məmmədovun kolleksiyası ailə üzvləri tərəfindən MEK-ə hədiyyə olunub. Kolleksiya 666 nüsxə sənəddən ibarətdir.

“Akademik İmam Mustafayevin kolleksiyası” - bioloq alim, Azərbaycanın tanınmış ictimai-siyasi xadimi İmam Mustafayevin kolleksiyası ailə üzvləri tərəfindən MEK-ə hədiyyə olunub. Kolleksiya 1018 nüsxə sənəddən ibarətdir.

“Akademik Mikayil Hüseynovun kolleksiyası” - Azərbaycan memarı və memarlıq tarixçisi, professor Mikayil Hüseynovun kolleksiyası ailə üzvləri tərəfindən MEK-ə hədiyyə olunub. 227 nüsxə sənəddən ibarətdir. [7, s.19]

“Professor Rudolf İvanovun kolleksiyası” - professor, rus qafqazşünası Rudolf İvanovun kolleksiyası H.Əliyev fondu tərəfindən hədiyyə olunub. Kolleksiya 209 nüsxə sənəddən ibarətdir.

“Professor Aleksandr Umnyaşkin kolleksiyası” - professor, həkim Aleksandr Umnyaşkin kolleksiyası özü tərəfindən MEK-ə hədiyyə olunub. Kolleksiya 341 nüsxə sənəddən ibarətdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında qorunub saxlanılan nadir və qiymətli sənədlər içərisində kitabxananın diplomatik fondunda qorunub saxlanılan kolleksiyalar da xüsusi yer tutur. Belə ki, Azərbaycanda və dünya ölkələrində fəaliyyət göstərən Diplomatik nümayəndəliklər tərəfindən Mərkəzi Elmi Kitabxananın Diplomatik Fonduna 20 adda kolleksiya hədiyyə olunmuşdur. Diplomatik fond özü də iki bölmədən ibarətdir:

1-ci bölmə - dünya ölkələrinin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlikləri tərəfindən hədiyyə edilən kolleksiyalar.

Sənədlərin sayına görə ən zəngin kolleksiya İran İslam Respublikasının Azərbaycandakı səfirliyinə aiddir. 259 nüsxədən ibarət bu kolleksiya Mərkəzi Elmi Kitabxanaya 2017-ci ildə daxil edilmişdir. Bu kolleksiyada əsas hissəni İranın müasir dövr ədəbiyyat nümayəndələrinin əsərləri təşkil edir. Müasir dövrlə yanaşı, Klassik poeziyanın görkəmli nümayəndələri Hafiz, Firdovsi, Sədi Şirazinin də əsərləri kolleksiyada yer almışdır. Tarix mövzusunda İranın müasir dövr tarixçisi Əlirza Şapur Şahbazinin “Təxte Cəmşid” əsərini (İranın qədim tarixi şəhəri, Əhəmənilər dövlətinin paytaxtı olmuş Persopolisin tarixini araşdırır), Əbdulhüseyn Zərrin Kubun “Ruzgəran”(İran tarixi başlanğıcından Pəhləvilərin süqutuna qədər), “Aşnayi ba tarixe İran” (İranın ümumi tarixini əhatə edir) əsərlərini nümunə göstərmək olar. Mərkəzi Elmi Kitabxananın beynəlxalq tərəfdaşlıq layihəsi əsasında kitabxanada Ərəb ölkələrinin Respublikamızdakı səfirlikləri ilə görüşlər təşkil olunmuşdur. [4, s.4-5]

Səfirliklərlə qarşılıqlı əlaqələrin nəticəsi olaraq MEK-ə Misir MədəniyyətMərkəzi tərəfindən müxtəlif elm sahələrini əhatə edən 99 nüsxə ədəbiyyat hədiyyə edilmişdir. Hədiyyələr içərisində "Əl-Əzhər” jurnalının 60 nüsxəsi yer almışdır. Nəşrlər 2010-2016–cı illərdə “Əl-Əzhər” İslam Araşdırmalar Akademiyasının dərc etdiyi aylıq buraxılışlardır. Bundan başqa bu kolleksiyaya din və elm münasibətlərinə aid tədqiqat işlərinə, beynəlxalq əlaqələrin qayda və

prinsipləri, İslamda beynəlxalq münasibətlərdən bəhs edən Məhəmməd Əbu Zəhranın "İslamda beynəlxalq əlaqələr" kitabına rast gəlmək olur. Bundan başqa, Misir xəttatı Mustafa Məhəmməd Amrinin öz dəsti-xəttiylə yazdığı xəttatlıq nümunəsi də müəllifin özü tərəfindən kitabxanaya hədiyyə olunmuşdur.

İordaniya Həşimi Krallığının Azərbaycandakı səfirliyi tərəfindən 40 nüsxə sənəd MEK-ə təqdim olunmuşdur. Kolleksiyada Ğazi Rübabiənin 3 cildlik "Qüdsün siyasi tarixi" adlı kitabı, 4 cilddə olan, Madobanın tarixi, coğrafiyası, mədəniyyətini əks etdirən "Madoba regionunun ensiklopediyası", Məhəmməd Mahmud Bədr Şilbiyyənin "Ərəb xristianları və onların Fələstin azadlıq hərəkatında rolu" və s. adda dəyərli sənədlər yer almışdır.

Birləşmiş Ərəb Əmirliyinin Azərbaycandakı səfirliyi tərəfindən MEK-ə BƏƏ-nin araşdırma mərkəzlərinin 40 illik tədqiqatları nəticəsində ərsəyə gələn və ölkənin tarix, elm və mədəniyyətini əks etdirən 49 nüsxə sənəd daxil edilmişdir. BƏƏ dövlətinin təsisçisi, ilk prezidenti Şeyx Zayed bin-Sultan əl-Nahyanın həyat və hakimiyyət illərini əks etdirən "Birlik gücüylə" adlı bu sənəd kollekiyada önəmli yer tutur. [16]

Mərakeş krallığının Azərbaycandakı Səfirliyindən Mərkəzi Elmi Kitabxanaya 1 nüsxə sənəd hədiyyə edilmişdir. "Mərakeş diplomatiyası"na dair bu kitabda Məğribin (Mərakeşin) keçmiş dövrlər ərzində diplomatik fəaliyyətinə dair rəsm əsərləri, Məğrib səfiri Abd əl-Vahid bin Məsud Ankonun I Elizabeti 1600-cü ildə qarşılama səhnəsi, İtaliya səfiri Stefan Skufasın 1876-cı ildə sultan Mövla əl-Həsəni qarşılama günü, habelə Məğrib və dünya rəssamlarının əsərləri, incəsənət nümunələri əks olunmuşdur.

Türkiyə Respublikasının Azərbaycandakı səfirliyi tərəfindən Mərkəzi Elmi Kitabxanaya 49 nüsxə sənəd hədiyyə olunmuşdur. Bunların içərisində olan "Osmanlı Belgelerinde Karabağ" adlı T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü tərəfindən hazırlanmış kitab, Yusuf Sekinin "Dış basında Ermeni meselesi (1999-2003)", Abdullah Saydamın "Kırım ve Kafkas göçleri", Mehmet Rıhtımın hazırladığı, Övliya Çelebinin "Səyahətnamə"sində Azərbaycan, Sednik Paşa Pirsultanlının "Azerbaycan efsane ve rivayetlerinin edebiyat anıtlarımızla karşılaştırmalı tetkiki", Erdal Karamanın "Türk Dünyasının sesi Bahtiyar Vahabzade", 1917-ci ildə Bakıda nəşr olunmuş "Qardaş köməyi / Kardeş yardımı" və s. kimi dəyərli sənədlərin adlarını çəkmək olar.

Yaponiyanın Nippon Fondu tərəfindən "Read Japan" (Yaponiyanı mütaliə et) adlı layihə çərçivəsində Yaponiya dövlətinin Azərbaycandakı səfirliyi tərəfindən kitabxanaya hədiyyə edilən kolleksiyanın sayı 106 nüsxədir. Bu nəşrlər, əsasən 5 elm sahəsini əhatə edir: Siyasət və Beynəlxalq əlaqələr, İqtisadiyyat və Biznes, Cəmiyyət və Mədəniyyət, Ədəbiyyat, İncəsənət və Tarix. Bu sənədlər oxucuların Yaponiyanı daha da yaxından tanıması üçün yardımçı rolu oynayır. [4, s.9; 9, s.29]

Yunanıstan Respublikasının Azərbaycandakı Səfirliyi tərəfindən təqdim edilən kolleksiyanın sayı 14 nüsxə təşkil edir. Dəyərli sənədlər sırasında Yunanıstan olimpiya oyunları və onun simvolu olan müqqədəs olimpiya məşəli haqqında bəhs edən «Греция», Peloponiya fondunun yaranmasının 25 illiyinə həsr edilmiş «25 years Peloponnezian folklore foundation», 1992-ci ildə çap olunmuş,

XVI-XVII əsrdə yaşamış yunan mənşəli ispan rəssamı haqqında bəhs edən «El Greco» və s. adlı sənədlərə rast gəlmək olur.

Koreya Respublikasının Azərbaycandakı Səfirliyi tərəfindən alınan 4 nüsxə sənəd Koreyanın mədəni irsi haqqındadır.

Türkmənistan Respublikasının Azərbaycandakı səfirliyi tərəfindən hədiyyə edilən 3 sənəddə «Туркменистан: Стратегия мира и развития», «Нейтралитет Туркменистана: новая эпоха в миротворческой истории человечества» Türkmənistanın Prezidenti Qurbanoğlu Verdiməhəmmədovun ölkənin xarici siyasəti və diplomatiyası məsələlərinə dair nitqləri, məruzələri, müsahibələri öz əksini tapmış və ölkə başçısının sülh naminə irəli sürdüyü siyasətdən bəhs olunur.

Kolumbiya Respublikasının Azərbaycandakı səfirliyi tərəfindən 7 nüsxə sənəd kitabxanaya hədiyyə edilmişdir. Kolleksiyaya Nobel mükafatçısı Qabriel Qarcia Markesin əsərləri, habelə Mərkəzi Elmi Kitabxanada təqdimatı keçirilmiş Azərbaycan-İspan dillərində çap olunmuş “20 şeir” adlı sənəd daxildir.

Azərbaycanla əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olan ölkələrdən Serbiya Respublikasının Azərbaycandakı Səfirliyi MEK-ə 17 adda ədəbiyyat hədiyyə etmişdir. Bu Azərbaycan haqqqında serb dilində Belqradda çap olunmuş nəşrlərə Ziya Bünyatovun «Азербейџан од VII до IX века», Quram Marxulia və Şəbnəm Nuriyevanın «Напахена Йерменийа Митови реалност», “Живот прекрасних лъуди», Rəsul Rzanın «Бойе», Cəlil Məmmədquluzadənin «Изабрана дела у два тома», Elçinin «Смртна пресуда» , Baxış Mehdiyevin «223 Београдска носилац ордена црвене заставе» adlı sənədləri daxildir. Sonda adı çəkilən sənəd Zaqafqaz frontunda yaradılmış 2-ci Vətən müharibəsi zamanı Belqrada qədər getmiş 223-cü piyada deviziyası haqqındadır. [7, s.22]

Özbəkistan Respublikasının Azərbaycandakı Səfirliyinin nümayəndələri və Mərkəzi Elmi Kitabxana arasında 2017-ci il dekabr ayında görüş keçirilmişdir. Qarşılıqlı əlaqələr nəticəsində MEK-ə 14 nüsxə sənəd daxil edilmişdir. Bunlar arasında Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun əsərlərini, Özbəkistanın tarix və mədəniyyətini əks etdirən nəşrləri, habelə Ş.Salamovun “Карабах. Война идей” adlı kitabın adını çəkmək olar.

Macarıstan Respublikasının Azərbaycandakı səfirliyi tərəfindən Mərkəzi Elmi Kitabxanaya 6 nüsxə sənəd hədiyyə edilmişdir. Bu kolleksiyaya Erika Bartos “Budapest in Drawings”,“Art treasures in the palace of the Hungarian Academy of Sciences”, “A golden age”, “İmre Thökölynin İzmit günləri” adlı maraqlı ədəbiyyatlar daxildir.

2. Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri tərəfindən Mərkəzi Elmi Kitabxanaya hədiyyə edilən kolleksiyalar.

AzərbaycanınMacarıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyev tərəfindən Mərkəzi Elmi Kitabxanaya 110 nüsxə sənəd hədiyyə edilmişdir. Bu kolleksiyada Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi olan “Dədə Qurqud”, təkcə Azərbaycanın deyil, Türk dünyasının möhtəşəm tarixinin sənət əsərlərindən biri və birincisi, “Koroğlu” - qəhramanlıq haqqında,

ədalət uğrunda xalqın apardığı mübarizə, ”Oğuznamə” - oğuzlar haqqında bədii tarixi təsvir, ölməz Füzulinin əsərləri, tanınmış azərbaycan yazıçıları M.F.Axundzadə, Cəlil Məmmədquluzadə, Abdürrəhim bəy Haqverdiyev, Anar, görkəmli bəstəkar Üzeyir Hacıbəyov, Azərbaycanın qədim incəsənət əsərləri, Dağlıq Qarabağ münaqişəsi haqqında və Azərbaycan-Macarıstan əlaqələrini əks etdirən sənədlərə rast gəlmək olar.

Azərbaycanın Polşa Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Həsən Həsənov tərəfindən kitabxanaya 140 nüsxə ədəbiyyat təqdim olunmuşdur. Bu dəyərli sənədlər arasında 2001-ci ildə Krakov şəhərində çap olunmuş “The Jagiellonian Library. A bibliographiles Treasure House” (Yaqlon kitabxanası. Kitab sevənlərin Xəzinə Evi), XIV-XV əsrdə yaşayan teologiya üzrə professor Yan Opolanın dəyərli əlyazma kolleksiyası və Polşada çap olunmuş Azərbaycan haqqında materiallar da öz əksini tapmışdır. [16]

AzərbaycanınMoldova Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Namiq Əliyev tərəfindən alınan kolleksiya 32 nüsxə təşkil edir. Kolleksiyada Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti, məşhur mətbəxi, Azərbaycan-Moldova əlaqələrini əks etdirən sənədlər xüsusi yer tutur.

AzərbaycanınLitva Respublikasındakı səfirliyi tərəfindən 4 nüsxə ədəbiyyat əldə edilmişdir. MEK-də kolleksiyaya daxil olan Algimantas Lekisin “Переселение народов на Кафказе XX в.” və Ginteras Visoskosun “Juodojo sodo tragedija” adlı sənədlərin təqdimatı keçirilmişdir.

Azərbaycanın İran İslam Respublikasındakı səfirliyi tərəfindən 67 nüsxə sənəd kitabxanaya hədiyyə edilmişdir. Kolleksiyaya tanınmış fars rəssamı Mahmud Farschianın rəsm əsərləri toplusu, İranın incəsənəti və memarlığını əks etdirən dəyərli kitablar, habelə ”İlham-Simaye yek rəise-cumhur” adlı Azərbaycan prezidenti İlham Əliyev haqqında fars dilində bioqrafiya, Ermənistan və Azərbaycan münaqişəsinə dair Birləşmiş Millətlər Təşkilatının sənədlər toplusu, Azərbaycan filosofu Osman Əfəndinin “Kitabi-Dədə Qorqud”un fəlsəfi idrakı” əsəri və digər qiymətli sənədlər daxildir. [6, s.11]

Azərbaycanın Gürcüstan Respublikasındakı sabiq, fövqəladə və səlahiyyətli səfiri Namiq Əliyev tərəfindən 17 nüsxə sənəd əldə edilmişdir. Bu kolleksiyada Azərbaycan-Gürcü dillərində olan “Min bir Azərbaycan bayatısı”, “Песни Мирзы Шафи”, Şota Rustavelinin “Pələngdərili cəngavər”, Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş K.Mermanişvilinin “Memento mori” adlı musiqi kompozisiyası, Г.Мархулия “Армянская национальная идея и колфликты на Кавказе” adlı sənədlər xüsusi yer tutur. [3, s.29].

Beləliklə, Azərbaycan elminin baş mərkəzi, xalqımızın milli sərvəti olan Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında saxlanılan nadir və qiymətli ədəbiyyat öz mahiyyətinə, miqdarına, elmi-mədəni və tarixi-ictimai xarakteri baxımından milli mədəniyyət sisteminin əsaslı tərkib hissələrindən biri kimi olduqca yüksək əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**


1. Əliyeva-Kəngərli, A.İ. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar. – Bakı: Elm, 2007. – 230 s.
2. Əliyeva-Kəngərli, A.İ. AMEA-nın Mərkəzi Elmi Kitabxanası: elmi və mədəni dəyərlər xəzinəsi// 525-ci qəzet. - 2011. - 2 mart.- S.6..
3. Əliyeva-Kəngərli, A.İ. AMEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində // Elm və həyat, 2011, №3, s. 27-29.
4. Əliyeva-Kəngərli, A.İ. Azərbaycanın beynəlxalq elmi-mədəni əlaqələrində AMEA Mərkəzi Elmi Kitabxanasının rolu //AMEA MEK-in Elmi əsərləri, 2003, IV bur., s. 6-12.
5. Əliyeva-Kəngərli, A. Azərbaycan folkloru və kitab mədəniyyəti. Bakı, Elm, 2008, 339 s.
6. Əliyeva-Kəngərli A. Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası-80/ A.Əliyeva-Kəngərli// Elmi Əsərlər/ AMEA MEK-80.-Bur 6.-B.,2005.-s.7-24.
7. Hüseynova, F.İ. Mərkəzi Elmi Kitabxana: yekunlar və nailiyyətlər/ F.İ. Hüseynova, Q.Ə. Cəfərova// Elmi Əsərlər/ AMEA MEK.-Bur.9.-B.,2009.-s.16-30.
8. Şərifli, K. Azərbaycan əlyazma kitabı və kitabxanaları, Bakı, Nurlan, 2009, 191 s.
9. Xələfov, A.A. Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində// Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri, təcrübi və metodik jurnal.-2004.-№2.-s.3-11.
10. Xələfov, A.A. Azərbaycanda Kitabxana işinin tarixi: Dərslik: (III hissədə) h.3.:(XX əsrin II yarısı və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi).-B.: BUN, 2010.-432 s.
11. Xələfov, A.A. Kitabxana və cəmiyyət: (Monoqrafiya).-B.:Azərnəşr, 2011.-348 s.
12. İsmayılov, X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər) Bakı, 2004, 416s.
13. Mirəhmədov, Ə., Həsənov, H. Sovet Azərbaycanın kitab mədəniyyəti: kütləvi oçerk, Bakı, Azərnəşr, 1975, 82 s.
14. Mustafayeva, S. Avtomatlaşdırılmış kitabxana sistemi şəraitində AMEA Mərkəzi Elmi Kitabxanası Fondunun təşkili// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2011.-№2.-s.38-50.
15. Rzayeva, Z. AMEA Mərkəzi Elmi Kitabxanasının elektron kataloqu müasir informasiya-axtarış sistemi kimi// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2012.-№2.-s.60-64.
16. AMEA MEK-in Nadir nəşrlər fondu şöbəsinin 2010-2017-ci il hesabatları

# KİTABŞÜNAS ALİM PROFESSOR BAYRAM ALLAHVERDİYEVİN YARADICILIĞINDA YENİ NAİLİYYƏT

***Leyla Abasova***
*Bakı Dövlət Universitetinin Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müəllimi,tarix üzrə fəlsəfə doktoru*

***Новые достижения в работе книговеда профессора Байрама Аллахвердиева***
***Резюме:****Статья содержит краткий обзор работы известного азербайджанского ученого профессора Bayrama Аллахвердиева. В этом статье главным образом представлена информация о монографии «Профессия типология», профессора Аллахвердиева, опубликованный в 2017 году. Как и предполагает название, монография посвящена типологии книги. В статье была широко освещена структурный анализ монографии «Типология книги».*
***New achivement in the work of bibliologist professor Bayram Allahverdıyev***
**Abstract:** *The article contains a brief overview of the work of the famous Azerbaijani scientist Professor Bayram Allahverdiyev. This article mainly presents information about the monograph "The Profession of Typology" by Professor Allahverdiyev, published in 2017. As the name implies, the monograph is devoted to the typology of the book. In the article the structural analysis of the monograph "Typology of the book" was widely covered.*
***Açar sözlər****: kitabın tipologiyası, problem, kitabşünaslıq, monoqrafiya, sistemləşdirmə*
***Ключевые слова:*** *Типология книги, проблем, книговедения, монографии, систематизация*
***Keywords:*** *Typology of books, problem, monographs, bibliology, systematization*

*Məqalədə Azərbaycanın tanınmış kitabşünas alimi professor Bayram Allahverdiyevin yaradıcılığına qısaca da olsa nəzər salınmışdır. Əsasən bu məqalədə prof. B.Allahverdiyevin 2017-ci ildə yeni işıq üzü görən "Kitabın tipologiyası" adlı monoqrafiyası haqqında geniş məlumat verilir. Adından göründüyü kimi, monoqrafiya kitabın tipologiyasına həsr olunmuşdur. Məqalədə əsasən "Kitabın tipologiyası" adlı monoqrafiyanın quruluş təhlili geniş yer almışdır.*

Professor B.V.Allahverdiyev uzun illərdir ki, kitab və kitabçılıq işinin müxtəlif problemləri üzrə elmi əsərlər, məqalələr, kitablar, monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri yazır və nəşr etdirir. Kitabın, ümumiyyətlə, Azərbaycan kitabının öyrənilməsi, inkişafında alimin böyük rolu vardır. Alimin qələmindən indiyə qədər kitab və kitabçılıq işinin müxtəlif məsələlərinə, aktual problemlərinə aid 100-dən çox elmi məqalə, "Kitablar haqqında kitab" (1972), "Kitabşünaslıq" (1974), "Müasir mərhələdə kitab ticarətinin təşkili" (R.Məmmədzadə ilə birlikdə)

(1996), "Ümumi kitab tarixi" (2003), "Bakı Dövlət Universitetinin nəşriyyatçılıq fəaliyyəti" (2010), "Kitabşünaslığın əsasları" (2011) və s. kitabları çıxmışdır.

Bu il, 2017-ci ildə prof. B.V.Allahverdiyevin yeni kitabı işıq üzü gördü. "Kitabın tipologiyası" adlanan bu fundamental əsər kitabşünaslıq və jurnalistika sahəsində çalışan müəllimlərin, tələbələrin, hətta ixtisasçı mütəxəssislərinin istifadə edəcəyi dəyərli əsər kimi qiymətlidir.

Məlum olduğu kimi, kitabın tipologiyası kitabşünaslığın ümumi nəzəriyyəsində əsas problemlərdən biridir. Kitabın tipologiyası kitabçılıq işinin bütün praktiki aspektləri ilə də əlaqədardır. Yəni kitabın tipologiyası kitabın tiplər üzrə yaradılması, onun nəşri, təbliği və yayılmasını özündə ehtiva edir.

Ümumiyyətlə, kitabın tipologiyası elmi problem kimi 1920-1930-cu illərdən tədqiq olunmağa başlanmışdır. Bu proses XX əsrin 1950-60-cı illərində daha da genişlənmişdir. Lakin Azərbaycanda ilk dəfə tarix elmləri doktoru, professor B.V.Allahverdiyevin uzun illər apardığı tədqiqatlar nəticəsində 578 səhifə həcmində işıq üzü görən monoqrafiya milli kitab xəzinəmizə qiymətli töhvədir.

Müəllif tərəfindən problem geniş tədqiq olunaraq kitabda 10 fəsildə öz əksini tapmışdır. I fəsil "Kitabın tipologiyasının nəzəri problemləri" adlanır. Bu fəsildə nəzəri tipoloji problemləri açmaq üçün müəyyən yarımfəsillər təqdim olunmuşdur: 1.1. "Tipoloji əlamətlər və kitabın tipologiyası", 1.1.1. "Kitabın növlərə və tiplərə bölünməsini şərtləndirən əlamətlər sistemi", 1.2. "Kitabın (çap əsərlərinin) növləri", 1.3. "Sənədin növləri, mahiyyəti, məzmunu və quruluşu", 1.4. "Kitabın tipləri", 1.5. "Kitabın nəşr tipləri".

Müasir dövrdə kitabın tipologiyası kitabşünaslıq elminin əsas bölmələrindən biridir. Vəzifəsi isə nəşrin funksional əlamətini meydana çıxarmaqdan ibarətdir. Prof. B.V.Allahverdiyev bu fəsildə kitabın tipologiyasının nəzəri problemlərini bütünlükdə incələmiş, qiymətli nəticələr əldə etmişdir. Alim qeyd edir ki, kitabın tipologiyası – onun növləri və tipləri arasındakı qarşılıqlı münasibətləri müəyyənləşdirməkdən ibarətdir. Bu əsasda kitabın tipologiyası növ və tipin münasibətinin qanunauyğunluğunu şərtləndirən cəhəti, xüsusiyyəti üzə çıxarır. Bu da öz növbəsində kitaba sosial hadisə kimi baxmağı tələb edir.

Çox hallarda kitabın tipologiyasını, növünü əmələ gətirən əlamətlər kimi nəşrin forması məqsəd və oxucu təyinatı, məzmunu, yerinə yetirdiyi funksiya əsas götürülür. Məsələn, ədəbiyyatın tipologiyası – ümumiləşdirməni, müxtəlif növlü ədəbiyyatın spesifik xüsusiyyətlərini nəzərə almaqla sistemləşdirilən, onların qarşılıqlı əlaqəsini əhatə edən ümumi kitabşünaslıq problemidir.

Müəllif tərəfindən burada çox maraqlı fikirlər, elmi mülahizələr öz əksini tapmışdır. Belə ki, problemin həlli üçün prof. B.V.Allahverdiyev tip əmələ gətirən əlaməti müəyyənləşdirməyi əsas məsələ kimi qarşıya qoyur. Tədqiqatlar nəticəsində məqsəd təyinatını – ilk amil hesab edərək, kitabın digər xarakteristikası: quruluşu (kompozisiyası), üslubu, dili, tərtibatı, hətta məzmunu və digərlərinin ondan asılılığını sübuta yetirir.

Deməli, kitab tipi dedikdə - ümumi məqsəd təyinatında cəmləşmiş kitabın məcmuu başa düşülməlidir. Müəyyən mənada “tip” anlayışı, “ədəbiyyat” anlayışı ilə eyniləşir, yəni eyni mənanı ifadə edir.

Prof. B.V.Allahverdiyev bu məsələnin müəyyənləşdirilməsində tədqiqatın kitabşünaslıq metodlarından istifadə edilməsini zəruri hesab edir.

Ümumiyyətlə, çapdan buraxılan nəşrlər məzmunlarından, məqsəd və oxucu təyinatından asılı olaraq növlərə, nəşr tiplərinə və tiplərə bölünür, təsnifləşdirilir.

İkinci fəsil “Azərbaycanda kitabın tipologiyasının yaranması (XIX əsrin II yarısından 1920-ci ilə qədər)” adlanır. Burada müəllif iki yarımfəsil təqdim edir: 2.1. “Azərbaycanda kitab tiplərinin təşəkkülü”, 2.2. “Tədris kitab tipi”.

Bu fəsildə prof. B.V.Allahverdiyev müvafiq dövr üzrə, yəni XIX əsrin II yarısından 1920-ci ilə qədər Azərbaycanda nəşr olunan kitabların tipoloji təhlilini aparmış, xüsusilə XIX əsrin birinci yarısından ölkəmizdə Azərbaycan dilində dərsliklərin nəşr edilməsində böyük xidmətləri olmuş ziyalı, maarifpərvər insanların əməyini də çox böyük qiymətləndirmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, tədqiq olunan dövrdən Azərbaycan dilində tədris-pedaqoji ədəbiyyat kitab tipi kimi formalaşmağa başlamışdır.

Üçüncü fəsil “İctimai-siyasi kitabın tipologiyası” adlanır. 3.1. “İctimai-siyasi kitabın inkişaf xüsusiyyətləri”, 3.2. “1961-1990-cı illərdə ictimai-siyasi kitabın tipologiyası”, 3.3. “1991-2000-ci illərdə ictimai-siyasi kitabın tipologiyası”, 3.4. “2000-2010-cu illərdə ictimai-siyasi kitabın tipologiyası”, 3.5. “İctimai-siyasi kitabın tipologiyasının Heydər Əliyev mərhələsi”, 3.5.1. “Heydər Əliyev əsərlərinin nəşr tarixi”, 3.5.2. “Heydər Əliyev və kitab nəşri mədəniyyəti”, 3.5.3. “Heydər Əliyevin əsərlər külliyyatının quruluş təhlili”, 3.5.4. “Heydər Əliyevin irsi haqqında ədəbiyyatın ictimai-siyasi kitabın tipologiyasında yeri (2000-2010-cu illər)”, 3.6. “Müasir dövrdə Azərbaycanda tarixə dair kitab nəşrinin vəziyyəti”, 3.7. “Tarixə dair kitabların nəşrə hazırlanması və inkişaf xüsusiyyətləri” adlanan yarımfəsillər daxilində problem şərh olunmuşdur.

Prof. B.V.Allahverdiyev 1920-1925-ci illərdən müasir dövrə qədər Azərbaycanda ictimai-siyasi ədəbiyyat üzrə çap edilmiş əsərləri tədqiqata cəlb etmiş, müvafiq dövrlər üzrə qruplaşdırmalar aparmış, bütövlükdə ictimai-siyasi ədəbiyyatın nəşri vəziyyətini geniş şəkildə şərh etmişdir.

Monoqrafiyada dördüncü fəsil “Təbiət elmləri üzrə kitabın tipologiyası” adlanır və burada da bir neçə yarımfəsillər öz əksini tapmışdır: 4.1. “Təbiət elmləri üzrə kitab tipologiyasının bəzi məsələləri (1920-1940)”, 4.2. “1941-1960-cı illərdə təbiət elmləri üzrə kitabın tipologiyası”, 4.3. “1961-1990-cı illərdə təbiət elmləri üzrə kitabın tipologiyası”, 4.4. “1991-2010-cu illərdə təbiət elmləri üzrə kitabın tipologiyası”, 4.4.1. “Təbii-elmi sahələr üzrə çap məhsunun təhlili”.

Prof. B.V.Allahverdiyev tədqiqat nəticəsində müəyyən edir ki, XIX əsrin axırı XX əsrin əvvəllərindən təbiət elmləri üzrə kitabın nəşri əvvəlki dövrlərlə müqayisədə xeyli dərəcədə artmağa başlamışdır. Bu proses tədricən genişlənir və XX əsrin II yarısından daha da artır. Təbii ki, elm, texnika və sənaye sahələrində baş verən inteqrasiya və differensiasiya prosesi dünya ölkələrində, o cümlədən Azərbaycanda qeyd edilən sahələrdə kitab nəşrinə təkan verir. Bu elm sahələrində

olduğu kimi, təbiət elmləri üzrə də kitablar müxtəlif növlərdə, tiplərdə və nəşr tiplərində çap edilir. Bu yarımfəsillər daxilində təbiət elmləri üzrə çap olunan kitablar tədqiqata cəlb edilmiş, müəyyən nəticələr əldə edilmişdir.

Kitabda təqdim olunan beşinci fəsil "Azərbaycan texniki kitabının tipologiyası" adlanır. Burada beş yarımfəsil verilmişdir: 5.1. "Texniki kitabın tarixinə bir nəzər", 5.2. "1920-1940-cı illərdə texniki kitabın inkişaf xüsusiyyətləri", 5.3. "1941-1960-cı illərdə Azərbaycan texniki kitabının tipologiyası", 5.4. "1961-1990-cı illərdə texniki kitabın tipologiyası", 5.5. "Müstəqillik illərində texniki kitabın tipologiyası".

Azərabaycan kitabının sahə xarakteti XIX, xüsusilə XX əsrin əvvəllərində genişlənir. Yəni müxtəlif elm sahələri üzrə əsərlər meydana gəlir və çapdan buraxılır. Bu da məlumdur ki, XIX əsrin II yarısından Azərbaycanda kapitalizmin inkişafı, neft istehsalı və sənayesinin ikişafına müsbət təsir göstərir. Prof. B.V.Allahverdiyevin apardığı tədqiqatlar nəticəsində məlum olur ki, 1920-ci ilə qədər çap edilən texniki kitablar əsasən soraq-məlumat, elmi-kütləvi və statistik xarakterli nəşrləri əhatə etmişdir. Azərbaycanda texniki kitab nəşrinin tipoloji təhlili müvafiq dövrlər üzrə öyrənilmiş və yarımfəsillər daxilində oxuculara təqdim edilmişdir.

Kitabda təqdim edilən maraqlı fəsillərdən biri də "Kənd təsərrüfatı üzrə kitabın tipologiyası" adlanır. Burada 6.1. "1920-1940-cı illərdə kənd təsərrüfatı kitabının tipləri", 6.2. "1941-1990-cı illərdə kənd təsərrüfatı kitabının tiplərinin formalaşması", 6.3. "1991-2010-cu illərdə kənd təsərrüfatı kitabı", 6.3.1. "1991-2010-cu illərdə kənd təsərrüfatı kitabının tipologiyasının inkişafı" adlı yarımfəsillər verilmişdir.

Ayrı-ayrı elm, bilik, texnika və sənaye sahələri üzrə kitabın yaranması, formalaşması və inkişafına təsir göstərən bir sıra amillər mövcuddur. Bu amillər sırasında iki istiqaməti xüsusi qeyd etməliyik. Birincisi, ölkədə elm, təhsil, mədəniyyətin inkişafını zərurətə çevirən şərait, dövr; ikincisi, sahənin özünün inkişafını tələb edən, şərtləndirən obyektiv amillər.

Məlum olduğu kimi, ölkəmizdə birinci istiqaməti əsaslandıran şərait, amillər əsasən Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdən meydana çıxmışdır. Ölkədə təsərrüfat sahələrinin, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, bu sahə üçün kadrların hazırlanmasına verilən dəyər təhsilin, elmin, mədəniyyətin, o cümlədən kitab və kitabçılıq işinin inkişafını yeni qurulmuş sovet hakimiyyətinin, sosializm cəmiyyətinin ilk tədbirləri sırasında ön plana çəkdi. Bu fəsildə ümumiyyətlə, prof. B.V.Allahverdiyev tərəfindən bütünlükdə dövrə nəzər salınmış, 1920-ci ildən 2010-cu ilə qədər müvafiq sahəyə dair çap olunmuş nəşrlərin tipoloji təhlili aparılmış, faktiki materiallar əsasında müəyyən nəticələr əldə edilmişdir.

Kitabın yeddinci fəsli "Tibb kitabının ipologiyası"na həsr edilmişdir. Burada dörd yarımfəsil daxilində mövzu qruplaşdırılmışdır: 7.1. "Tibbin müxtəlif sahələrinə dair ədəbiyyatın əhəmiyyəti və nəşri", 7.2. "1920-1940-cı illərdə tibb kitabının tipologiyası", 7.3. "1940-1990-cı illərdə tibb kitabının tipologiyası", 7.4. "1991-2010-cu illərdə tibb kitabının tipologiyası".

Məlum olduğu kimi, tibb və səhiyyə üzrə kitab – sahə üzrə elmi-texniki məlumatın əsas mənbəyi və onun təbliği, istifadəsi və yayılmasının əsas vasitəsidir. Bu sahənin ümumi kitab məhsulu tibb və səhiyyə üzrə elmi-nəzəri fikir və mülahizələri, problemləri, nəzəri və praktiki məsələləri, faktları və s. özündə əks etdirir, onun yayılmasına və istifadəsinə imkan verir. Oxucuları gündən-günə artan tibb kitabları əsasən sahənin peşəkar oxucularını nəzərdə tutur. Buradan da bu sahə üzrə ədəbiyyatın oxucusunun dar, məhdud, konkret təyinatı meydana çıxır.

Müasir dövrdə tibb və səhiyyənin geniş şəkildə inkişafı, tibbin digər sahələrlə əlaqəsi kitabın, yəni tibb və səhiyyəyə dair kitab nəşrinin genişləndirilməsini də zərurətə çevirir. Deməli, tibb üzrə kitabın oxucu kontengenti müxtəlifdir. Yuxarıda qeyd edilən yarımfəsillər daxilində 1920-ci ildən 2010-cu ilə qədər ölkəmizdə nəşr edilən tibbə dair kitabların geniş və maraqlı tipoloji təhlili öz əksini tapmışdır.

"Təhsil və mədəniyyət üzrə kitabın tipologiyası" adlanan səkkizinci fəsildə beş yarımfəsil təqdim edilir: 8.1. "Pedaqoji ədəbiyyatın nəşri (1920-1940)", 8.2. "Mədəniyyət, maarif və elm üzrə kitab nəşri", 8.3. "1941-1960-cı illərdə təhsil və mədəniyyət üzrə kitabın tipologiyası", 8.4. "1961-1990-cı illərdə təhsil və mədəniyyət üzrə kitabın tipologiyası", 8.5. "1991-2010-cu illərdə təhsil və mədəniyyət üzrə kitab tipologiyası".

Bu fəsildə müvafiq dövrlər üzrə təhsil və mədəniyyət üzrə çap olunmuş kitabların tipoloji təhlili öz əksini tapmışdır. Məlumdur ki, təhsil və mədəniyyət məsələləri cəmiyyəti daim düşündürən aktual mövzulardan biridir. Buna görə də dövlət bu sahələrin inkişafına və onların nəticələrindən istifadə olunmasına böyük əhəmiyyət verir. Bu sahə üzrə nəşr edilən ədəbiyyatın mövzusu və məzmunu da bunu bir daha təsdiq edir.

Kitabda təqdim edilən doqquzuncu fəsil "Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə kitab tipologiyasının inkişaf mərhələləri" adlanır. 9.1. "Ədəbi-bədii kitab tipologiyasının xüsusiyyətləri", 9.2. "Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın tipologiyasının yaranması (1920-1930)", 9.3. "Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə kitabın tipologiyasının formalaşması (1930-1940)", 9.4. "Ədəbi-bədii kitabın tiplərinin təhlili (1940-1990)", 9.5. "Ədəbi-bədii kitabın tipologiyasının inkişafı (1991-2000-ci illərdə)", 9.6. "Ədəbi-bədii kitab 2000-2010-cu illərdə", 9.7. "Bədii ədəbiyyat üzrə seçilmiş əsərlərin nəşri və tərtibatı məsələləri (1960-1965-ci illər)", 9.8. "Seçilmiş əsərlərin bədii və texniki tərtibatı", 9.9. "Bədii ədəbiyyat üzrə seçilmiş əsərlərin quruluş və dil-üslub təhlili", 9.10. "Azərbaycanda bədii ədəbiyyatın nəşri (1975-1980-ci illər)", 9.11. "Azərbaycanda bədii ədəbiyyatın nəşri məsələləri (1980-1985-ci illər)", 9.12. "Bədii ədəbiyyat üzrə əsərlər külliyyatının nəşri (1970-1975-ci illər)", 9.13. "Bədii ədəbiyyat üzrə əsərlər külliyyatının tərtibatı məsələləri" adlı yarımfəsillər daxilində bədii ədəbiyyata və ədəbiyyatşünaslığa dair çap olunmuş kitabların tipoloji təhlili öz əksini tapmışdır.

Ümumiyyətlə, Azərbaycanda ədəbi-bədii nəşrlərin digər ədəbiyyat tiplərinə görə geniş nəşr edilməsinə baxmayaraq, onun sistemləşdirilməsi, yəni növlərə, tiplərə və nəşr tiplərinə bölünməsi elmi baxımdan kifayət qədər öyrənilməmişdir. Amma dövr bu vacib kitabşünaslıq elmi problemini filoloji və ənənəvi

kitabşünaslıq fənləri: kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və redaktəetməni lazımi səviyyədə tədqiq etməyi, öyrənməyi irəli sürür. Son illərdə ədəbi nəşrlərin sistemləşdirilməsinə təşəbbüs edilir. Ümumi kitabşünaslıq baxımından o "ədəbi-bədii nəşrlər" adlandırılır. Ancaq bu tədqiqatlarda əsasən sistemləşdirmənin öz obyekti (yəni tipləşdirmə, növlərə və tiplərə ayrılma) və ədəbi-bədii nəşrlərdə mövcud olan bəzi xarakterik cəhətlər götürülür. Bu hər şeydən əvvəl bədii kitab nəşrlərinin sistemləşdirilməsini dərk etməkdən irəli gəlir.

Kitabda təqdim olunan onuncu fəsil "İncəsənət və sənətşünaslıq üzrə kitabın tipologiyası" adlanır. Burada incəsənət və sənətşünaslıq üzrə kitabın tipoloji problemləri dörd yarımfəsil daxilində qruplaşdırılmışdır. 10.1. "İncəsənət üzrə kitab tipologiyasının təşəkkülü", 10.2. "İncəsənət və sənətşünaslıq üzrə kitab tipologiyasının vəziyyəti (1920-1940)", 10.3. "İncəsənət və Sənətşünaslıq üzrə kitab tipologiyasının formalaşması və inkişafı (1941-1991)", 10.4. "Müstəqillik şəraitində incəsənət və sənətşünaslıq üzrə kitab tipologiyasının inkişafı".

Məlumdur ki, Azərbaycan mədəniyyətində mühüm əhəmiyyət kəsb edən incəsənətin qədim tarixi vardır. Qədim dövrdə, hətta bizim eradan əvvəl X və VIII minilliklərdə Azərbaycanda Qobustan qayaları üzərindəki təsvirlər, piktoqrafik yazılar, yallı rəqsləri ölkəmizdə təsviri sənətin bariz nümunələridir. Azərbaycan incəsənəti xalqımızın tarixi qədər qədim və zəngindir.

Bu fəsildə prof. B.V.Allahverdiyev tərəfindən Azərbaycan incəsənəti tarixinə geniş nəzər salınmış, bu sahəyə dair çap olunmuş əsərlər tədqiqata cəlb edilərək onların tipoloji təhlili aparılmışdır.

Ümumilikdə, yekun olaraq qeyd etmək lazımdır ki, professor B.V.Allahverdiyevin uzun illər apardığı tədqiqatlar nəticəsində işıq üzü görən "Kitabın tipologiyası" adlı monoqrafiya qiymətli kitab incilərimizdən biridir. Həmçinin daim istifadə və istinad ediləcək mənbə kimi də böyük elmi əhəmiyyətə malik fundamental əsərdir.

**Ədəbiyyat**


1. Abasova, L. Qiymətli tədqiqat əsəri // Respublika qəz., 2012-ci il, 22 iyul
2. Allahverdiyev, B.V. Kitablar haqqında kitab. –Bakı: Gənclik, 1972. -96 s.
3. Allahverdiyev, B.V. Kitabşünaslıq. –Bakı: ADU, 1974. -181 s.
4. Allahverdiyev, B.V., Məmmədzadə, R.A. Müasir mərhələdə kitab ticarətinin təşkili. –Bakı: Gənclik, 1996. -225 s.
5. Allahverdiyev, B.V. Ümumi kitab tarixi. –Bakı: "Azərbaycan Ensiklopediyası" –NPB, 2003. -384 s.
6. Allahverdiyev, B.V. Bakı Dövlət Universitetinin nəşriyyatçılıq fəaliyyəti. –Bakı: UniPrint, 2010. -244 s.
7. Allahverdiyev, B.V. Kitabşünaslığın əsasları. –Bakı: UniPrint, 2011. -446 s.
8. Allahverdiyev, B.V. Kitabın tipologiyası. –Bakı: ÇapART Nəşriyyat Evi, 2017. -578 s.
9. Namazov, Q. Dünya kitab tarixi haqqında qiymətli nəşr //Respublika qəz., 2004. -19 fevral.

# KİTABXANALARIN MONUMENTAL FUNKSİYASI

***Aygün Səfərova***
*AMEA Mərkəzi Elmi Kitabxanasının Kitabxana-xidmət şöbəsinin müdiri,*
*Bakı Dövlət Universitetinin doktorantı,*
*aygunsafarova3@gmail.com*

***Монументальная функция библиотек***
***Резюме:*** *Статья рассматривает музейную деятельность библиотек в современном цифровом пространстве, формы и методы пропаганды краеведческих материалов глобальных сетей с помощью современных технологий.*
***Monumental functıon of libraries***
***Abstact****: Article reviews the museum activity of libraries in modern digital space, forms and methods of propaganda of local lore materials of global networks with the use of modern technologies.*
***Açar sözlər:****monumental funksiya, muzey kitabxanalar, muzeylərin kitabxanaları, muzey fəaliyyəti, kitabxana sərgiləri*
***Ключевые слова:*** *монументальная функция, библиотека музея, библиотеки музей, музейная деятельность, библиотечные выставки*
***Keywords:*** *monumental function, library museum, the library of the museum, museum activity, library's exhibitions*

Kitabxanalarda bütün növ irsin toplanması, mühafizəsi və təbliği - onların monumental funksiyalarına aid edilir. Kitabxanaların monumental funksiyası sosial funksiyanın tərkib hissəsi kimi kitabxanaşünaslıq nəzəriyyəsində öyrənilir.

Kitabxananın sosial funksiyaları kitabxanaçılıq nəzəriyyə və təcrübəsinin çox mühüm problemlərindən biridir. Bu problemin hərtərəfli tədqiqi kitabxananın sosial rolu, kitabxana və cəmiyyət, kitabxana və informasiya, kitabxana və oxucu, kitabxana və kütləvi mütaliə problemlərini dərindən öyrənməyə imkan verməklə yanaşı, müasir cəmiyyətdə kitabxanaların yerini və ictimai rolunu müəyyənləşdirməyə də şərait yaradır. Bununla yanaşı, kitabxanaların monumental funksiyası vaxtaşırı tədqiq olunmuş və onu bir çox hallarda kitabxanaların sosial funksiyalarının tərkib hissəsi kimi təqdim etmişlər.

1999-cu ildə Azərbaycan Milli Məclisi "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununu qəbul etdi. Bu qanun qəbul edilərkən respublika kitabxanalarının təcrübəsi, kitabxanaşünaslığın elmi nəticələri, kitabxanaların milli xüsusiyyətləri və ənənələri nəzərə alınmışdır. Bu qanunda kitabxanaların cəmiyyətdəki rolu əsas götürülmüş, sosial institut kimi fəaliyyəti ön plana çəkilmişdir.

Qanunda yazılır: "Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə

edən, onların sistemli ictimai ifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur". Göründüyü kimi, qanunda kitabxananın beş sosial funksiyası: elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə funksiyaları göstərilmişdir. Kitabxanalara məxsus funksiyaların müəyyənləşdirilməsində Azərbaycan konsepsiyasının daha dolğun olması diqqəti cəlb edir. Kitabxana nəzəriyyəsində göstərilən monumental funksiya "Kitabxana işi haqqında qanun"un göstərdiyi sosial funksiyanın hər beş istiqamətinin həyata keçirilməsində iştirak edir.

Mədəniyyət funksiyası kitabxananın sosial funksiyaları içərisində ən önəmli yer tutur. Bunun başlıca səbəbi mədəniyyət funksiyasının kitabxananın digər funksiyalarının formalaşmasına yaxından kömək etməsi və onlarla çox dərin qarşılıqlı əlaqələrinin olmasındadır.

Məlumdur ki, kitabxanalar mədəniyyətin mühüm və ayrılmaz sahəsi, mədəni inkişafın əsas göstəricilərindən biridir. Həmçinin kitabxana öz növbəsində bəşəriyyətin yaratmış olduğu mədəni sərvətlərin qoruyucusu və yayıcısıdır. Deməli, kitabxanalar mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, həm də mədəniyyətin yayılmasının əsas vasitəsidir, bazasıdır.

Görkəmli filosoflar, pedaqoqlar, sosioloqlar, humanitar elm sahəsinin böyük xadimləri kitabxanalara ideal, universal şəxsiyyətin formalaşması vasitəsi, təhsil və tərbiyə müəssisəsi kimi baxmışlar.

Mədəniyyət sırf sosial hadisə olub, insanların həyat və fəaliyyəti ilə əlaqədardır. Mədəniyyət özündə ümumbəşəri dəyərləri cəmləşdirdiyindən xalqların intellektual inkişafına böyük təsiri vardır.

Dünyada 6 milyard kitab fonduna malik 1 milyondan artıq kitabxana vardır. Heç bir mədəniyyət sahəsi belə böyük şəbəkəyə malik deyildir. Kitabxanalar, həmçinin ən böyük oxucu auditoriyasına malikdir. Məhz buna görə də kitabxana quruculuğu inkişaf etmiş ölkənin mədəni inkişafının əsas göstəricisi kimi xarakterizə olunur.

Kitabxanalar bəşəriyyətin mədəni sərvətlərinin, xalqların mədəni irsinin saxlayıcısıdır. Xüsusilə milli kitabxanaların fondunda müasirliklə yanaşı, keçmiş də qorunub saxlanılır. Onlar müasir dünyada elm, ədəbiyyat və mədəniyyətin təbliğatçısı, yayıcısı olmaqla, keçmişin də təbliğatçısı kimi çıxış edir, informasiya yayırlar. Kitabxanalar mədəniyyətin mühüm sahəsi kimi öz mədəni funksiyasını başqa mədəniyyət müəssisələri: klublar, mədəniyyət sarayları, teatrlar, muzeylər və s. qarşılıqlı əlaqədə həyata keçirirlər.

Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" qanununda göstərildiyi kimi: "Kitabxanalarda mühafizə olunan mədəni sərvətlərdən və informasiya vasitələrindən istifadə hamı üçün açıq olmalıdır".

İnformasiya mədəniyyət və təhsil-tərbiyə müəssisəsi kimi universal kitabxanaların qarşısında ümummilli, dövlət əhəmiyyətli çox böyük vəzifələr durur:

1. Universal kitabxanalar bütün kateqoriyalardan olan oxuculara, onların istənilən informasiya sorğularına (peşə, istehsalat, elmi-tədqiqat, təhsil, yeri gəldikcə xüsusi) xidmət etməlidir. Universal kitabxanalar, həmçinin şəxsiyyətin hərtərəfli inkişafında, fasiləsiz təhsil prosesində iştirak etməli, şəxsi təhsilin təşkilatçısı olmalıdır;

2. Universal kitabxanalar qarşılarına qoyduqları vəzifələrin böyüklüyünü, ümummilli, ümumdövlət əhəmiyyətli xarakter daşıması ilə əlaqədar, zəngin, universal və həmişə dinamik kitab fonduna malik olmalı, öz fondunda yerləşdiyi regionun şəraiti, tələbatı ilə bağlı bütün elm sahələrinə dair ədəbiyyatı toplamalıdır;

3. Universal kitabxanalar şəbəkəsi ölkənin inzibati ərazi prinsipinə əsasən həmin və yerləşdiyi regionun iqtisadi, mədəni həyatında yaxından iştirak etməlidir;

4. Vahid kitabxana sistemində aparıcı halqa olan universal kitabxanalar ölkə, muxtar respublika, rayon, şəhər miqyasında oxuculara xidmət işinin əlaqələndirmə mərkəzi olduğuna görə, bu mühüm işin təşkili üçün ciddi təşkilati, inzibati, elmi-metodik tədbirlər həyata keçirilməlidir.

Bütün vəzifələr kompleks şəkildə bir-biri ilə əlaqədar həyata keçirilməlidir ki, insanların hərtərəfli ahəngdar inkişafına kömək etsin.

Bildiyimiz kimi, incəsənət, arxitektura, tətbiqi sənət və bir sıra digər sahələrdə çap olunan kitab məhsulları ənənəvi olaraq kitabxanalarda xüsusi rejimdə mühafizə olunur və xidmətə verilir. Bir sıra kitabxanalar bu sahədə ixtisaslaşır və bir çox kitabxanaların incəsənət sahəsində ədəbiyyatı xüsusi fondlarda saxlaması və xüsusi oxucu zalları yaratması təcrübəsi də məlumdur. Bu növ nəşrlər əsasən bahalı, yüksək poliqrafiya məhsulları və məhdud tirajlı nəşrlərdir. Komplektləşmə zamanı bu növ ədəbiyyatın bütün kitabxanaların fonduna daxil olması əksər hallarda mümkün olmur. Kütləvi oxucu tələbi baxımından isə bu növ ədəbiyyat daim aktualdır. İncəsənət, rəngkarlıq, memarlıq, musiqi, heykəltəraşlıq və s. bu kimi mövzulara olan sorğular bütün hallarda mütəxəssis sorğuları olmur. Kütləvi oxucu sorğularında bu növ sorğuların xüsusi çəkisi yüksəkdir. Müasir oxucu yüksək mədəni və intellektual səviyyələrə çatmaq məqsədi ilə geniş oxucu marağı formalaşdırır. Müasir informasiya istehlakçısı dünya muzeylərində saxlanılan incəsənət əsərlərinin orijinalını muzeyləri gəzərək görmək və dəyərləndirmək imkanında deyil. Çox sayda oxucu, o cümlədən də mütəxəssislər bu növ materiallarla kitabxana fondu vasitəsi ilə tanış olur.

Son illər qlobal informasiya məkanında sənət əsərlərinin təqdim və təbliği yeni vüsət almaqdadır. Bu istiqamətdə bir sıra kitabxanalar muzeylərlə rəqabət edir, bir sıra hallarda maraqlı yaradıcılıq əməkdaşlığı müşahidə olunmaqdadır.

Britaniya kitabxanası öz kitabxana saytında (www.flickr.com) yüz min şəkil yerləşdirmişdir. Bunların içində XIX əsrdə Dünya Coğrafiya Cəmiyyətinin tədqiq etdiyi çox nadir şəkillər də yer alır. Sayta yerləşdirilmiş şəkillər bir tərəfdən fondda olan unikal foto, qravür, xəritə və rəsm əsərlərini nümayiş etdirir, digər tərəfdən ölkə elminin tarixi nailiyyətlərini təqdim edir və mütəxəssislərə müasir informasiya xidmətini göstərməyə nail olur. Eləcə də dünya şöhrətli “Tate” muzeyi qalereyadan 70 min yüksək keyfiyyətli incəsənət əsərini öz saytında açıq əlçatarlıqda yerləşdirdi. Burada Qoqen, Van Qoq, Rembrant, Renual və digər məşhur rəssamların əsərləri nümayiş olunur. Əsərləri nəinki onlayn rejimdə görmək, eləcə də yüksək keyfiyyətli surətlərini də çıxarmaq olar. Muzey bu kimi fəaliyyəti ilə Britaniya kitabxanasının qarşıya qoyduğu eyni məqsədləri daşıyır. Metropoliten muzeyi (**www.metmuseum.org**) 422 sərgi ekspozisiyasının kataloqunuda PDF formatında, onlayn rejimdə təqdim edir. Kataloqları köçürmək, oflayn istifadəsi də mümkündür.

Solomon Guggenxaym muzeyinin rəsmi saytında Edvard Munka, Frensis Bekon, Vasili Kandinskinin və bir çox görkəmli şəxsiyyətlərin əsərləri və albomlarını açıq istifadəyə qoymuşdur (**www.guggenheim.org**). "Qetti" muzeyi 250 adda incəsənətə aid çap olunmuş albomu rəqəmsallaşdıraraq rəsmi saytında açıq istifadəyə qoyur (**www.getty.edu**). Bu sənətsevərlər üçün çox böyük hədiyyə kimi qiymətləndirilir.

Beləliklə, dünyanın ən məşhur muzeylərində olmaq istəyən sənət həvəskarları, sənətşünaslar, mütəxəssislər artıq xüsusi zəhmətlər çəkmədən buna nail ola bilərlər. Rəqəmsallaşdırılmış sənət əsərlərinin açıq əlçatarlıqda yerləşdirilməsi muzey fəaliyyətinin imkanlarını genişləndirir və ona kitabxanaya mənsub funksiyalar yerinə yetirmək imkanı verir.

Məlumdur ki, muzeylər saxlanclarında olan bütün əsərləri nümayiş etdirə bilmirlər. Buna görə də vaxtaşırı müxtəlif ekspozisiyalar təşkil edərək saxlanclarında olan əsərləri tədricən nümayiş etdirmək imkanı əldə edirlər. Bir sıra böyük muzeylərdə bəzi sənəd əsərləri və qiymətli materiallar illər boyu nümayiş oluna bilmir. Bundan fərqli olaraq kitabxana fondlarında mühafizə edilən sənədlər isə açıq istifadə imkanına malikdir. Kitabxana fəaliyyəti ilə muzey fəaliyyətinin prinsipial fərqi də məhz bundadır.

Dünya təcrübəsini öyrəndikcə kitabxanaların muzeylərlə bir çox hallarda rəqabət etdikləri belə üzə çıxır. Məlum olur ki, yeni kommunikasiya və texnoloji imkanlar kitabxana-informasiya fəaliyyətini yeni şərtlərlə qarşı-qarşıya qoyur. Bu yeni şərtlərə uyğun öz fəaliyyətini qura bilən müəssisələr işlərini uğurla davam etdirirlər.

Muzey fəaliyyətini genişləndirməkdə olan bir sıra kitabxana müəssisələri kitabxanaların monumental funksiyalarının həyata keçirilməsi sahəsində əməli işlərini həyata keçirmiş olurlar. Bu baxımdan milli adət ənənələrin, milli geyim, milli mətbəx, milli musiqi, milli arxitektura və bir sıra digər milli-mədəni identifikliyin ifadəçisi olan obyektlərin rəqəmsallaşdıraraq kitabxana saytlarında, elektron fondlarında (kitabxanada) xüsusi səhifələr şəklində təqdim və təbliğ edirlər. Bu işdə Milli Kitabxanaların fəaliyyəti əhəmiyyətli şəkildə diqqəti cəlb edir.

Kitab məhsulunun sürətlə artımı, ənənəvi kitab fondlarının sürətlə böyüməsi kitabxanaları həlli çətin olan texniki problemlərlə qarşı-qarşıya qoyur. Bu baxımdan problemin elmi-nəzəri təhlili və həll olunması istiqamətində rasional təkliflərin işlənib hazırlanması çox əhəmiyyətlidir.

Qarşıya qoyulan problemin həlli istiqamətində kitabxana-informasiya müəssisələrinin dünya təcrübəsinin öyrənilməsi və kitabxanaların tarixi ənənə və missiyasının təhlili bir sıra ümumiləşmələr etməyə imkan verir.

Kitabsaxlayıcı funksiyası daşımayan respublika kitabxanaları, eləcə də iri kitabxanalar nəhəng kitab fondları yaratmaq əvəzinə, geniş informasiya massivləri ilə işin elmi-praktiki təşkilini həyata keçirməlidir. Bu istiqamətdə əhəmiyyətli hesab etdiyimiz fəaliyyət – kitabxanaların monumental funksiyalarının həyata keçirilməsidir. Kitabxana müəssisələri bu növ fəaliyyətlə tarixən məşğul olmuş və bir çox ənənələr yaratmışdır. Lakin müasir dövrdə kitabxana-informasiya müəssisələrinin yeni texnologiyaların, yeni kommunikasiya vasitələrinin, genişlənən sosial şəbəkələrinin tələbləri çərçivəsində fəaliyyəti yeni imkanlar əldə edir və yeni məzmun daşıyır.

Kitabxanaların sosial institut olması və qarşıya qoyduğu vəzifələrin məcmusunda monumental fəaliyyəti əsasən 3 istiqamətə bölmək olar:

1 - Milli mədəni dəyərlərin öyrənilməsi və təbliği;

2 - Qəbul edilmiş dünya mədəni dəyərlərinin öyrənilməsi və təbliği;

3 - Prioritet istiqamətlərdə mədəni dəyərlərin öyrənilməsi və təbliği;

4 - Regional və yerli mədəniyyət nümunələrinin öyrənilməsi və təbliği.

Kitabxanalar növündən və yerləşdiyi ərazidən asılı olmayaraq gündəlik fəaliyyətində monumental funksiyasını həyata keçirməkdədir. Mərkəzi kitabxanalardan başlayaraq filial kitabxanalarına qədər bütün kitabxana informasiya müəssisələri sərgi və muzey fəaliyyəti ilə ya daimi, ya da sistematik olaraq məşğul olurlar. Sərgi və muzey ekspozisiyaları ilə məşğul olmaq təcrübəsi kitabxanaların milli vətənpərvərlik təbliğatı çərçivəsində həyata keçirilir və hazırki məqalə bu təcrübənin öyrənilməsinə həsr olunub.

Müasir mədəniyyətin inkişafında inteqrasiya meyilləri ilə yanaşı, digər amillər də inkişaf edir. Bunlara kulturoloji xüsusiyyətlər, kitabxanaların və muzeylərin çoxalması və yayılması tendensiyalarını göstərmək olar. Kitabxanalar da diyarşünaslıq informasiyasının fövqəladə artması müasir dövrü xarakterizə edir və müasir kitabxana fəaliyyətində əhəmiyyətli rol oynayır. Son illərdə məlumat axtarışı, arxiv işi, muzey fəaliyyəti sahəsində tətqiqat işləri ilə yanaşı, ənənəvi diyarşünaslıq əsərlərinin toplanması, saxlanılması və təbliği sahəsində kitabxana tədqiqatları xeyli irəlilləyərək tez-tez gündəmə gəlir. Nəşr edilmiş sənədlərin (hər şeydən əvvəl yerli sakinlərin şəxsi arxivləri hesabına) miqdarının artması, informasiya kütləsinin son dərəcə artması, kitabxanaçıların özləri tərəfindən həyata keçirilən tədbirlər diqqəti cəlb edir. Məsələn, salnamələr, tarixi hadisə və kənd sakinlərinin əhəmiyyətli hesab etdikləri təqvimlərlə əlaqədar materiallar, müharibə iştirakçıları, əmək veteranlarının lent yazıları, xatirələri əks olunmuş bütün materiallar kitabxanalarda təmərküzləşir və burda zəngin diyarşünaslığın məlumat bazasını yaradır. Bu, həmçinin kəndin və hər hansı bir regionun genoloji "ağacını", böyük ailələrin şəcərəsini, məntəqənin kiçik tarixçəsini əhatə edən bir muzey materiallarının ekspozisiyasını yaratmaq imkanı deməkdir.

Kitabxana və muzey işinin inkişafı müasir dövrdə bütövlükdə cəmiyyətin ehtiyaclarının dinamikasıyla və mədəniyyət sahəsində baş verən transformasiya prosesləri ilə, sosial dəyişikliklərlə xarakterizə edilir. Hazırda bütün dünyada "informasiya mərkəzi", "kitabxana", "muzey", "arxiv", "xatirə mərkəzi" kimi anlayışların qarşılıqlı yaxınlaşması baş verir. Birlik, muzey, kitabxana və onun funksiyalarının XX əsrin sonu və XXI əsrin əvvəllərində bir qurumun, bir mədəniyyət institutunun çərçivəsində cəmiyyətin inkişafının səciyyəvi cəhətidir.

Bunun əsas səbəbi mədəniyyət sahəsinin, qloballaşma və inteqrasiya proseslərinin sürətli inkişafı ilə bağlı olduğu iddia edilir. Mürəkkəb müasir mədəniyyətin inkişaf səviyyəsi müxtəlif təcrübələri mənimsəmək vasitəsi ilə sosial inteqrasiya proseslərini yaradır. Amma mədəni proseslərin qloballaşmasına görə hər mədəni institutun fəaliyyətinin çərçivələrinin genişlənməsi, onların hərəkətləri tez-tez kəsişir və qarşılıqlı obyektiv təsirlərə məruz qalır. Belə bir qarşılıqlı təsir və fəaliyyətin kəsişməsi kitabxanaların və muzeylərin fəaliyyəti ilə əlaqədar da baş verməkdədir.

Müasir dünyada kitabxanalar və muzeylər açmaq, onları qoruyub saxlamaqdaəsas məqsəd insan cəmiyyətinin qazanmış olduğu elmi və mədəni nailiyyətlərin mühafizə olunmasına yönəlmişdir. Bu mədəniyyət ocaqları elm və mədəni dəyərlərin mənimsənilməsi üçün müxtəlif baxışları və millətlərarası kommunikasiya, ünsiyyət üçün məkan, mürəkkəb məsələlərin həlli üçün, onlara cavab tapmaq üçün yaradılmış bir məkandır.

Müasir kitabxana, yalnız oxucunun və kitabın ünsiyyətinin ənənəvi yeri deyil, bu informasiya mərkəzi mətbuat vasitələri ilə təchiz olunmuş, ənənəvi və müasir informasiya daşıyıcıları olan müxtəlif növ kompüter proqramları sisteminin tətbiq edilmiş müəssisəsi, elektron kataloq və internetlə təchiz edilmiş bir məkandır. Kitabxana, həmçinin mədəniyyət mərkəzi olub, əhalinin ünsiyyət etdiyi və asudə vaxtlarını məzmunlu keçirtmək üçün bir məkandır. Bununla yanaşı, müxtəlif emosional təsir formaları və zamanın tələbatına uyğun olaraq oxucuların da dəyişilməsi prosesi baş verməkdədir. Məlumdur ki, çox az müddət əvvəl kitab sərgilərinin ekspozisiyalarında yalnız bir qayda olaraq çap məhsulu istifadə edilirdi, lakin bu gün bu məqsədlə muzey xarakterli, maddi mədəniyyət əşyaları və müasir tədris vasitələrindən, kompyuter oyunları və CD-lərdən geniş şəkildə istifadə olunur. Müxtəlif mədəniyyət qurumlarının effektli inteqrasiyası özünü muzey və kitabxanaların təcrübəsində də məzmunlu şəkildə göstərməkdədir. Azərbaycanda son illər kitabxana təcrübəsində həyata keçirilən kitab sərgiləri və təqdimatları zamanı sözün əsl mənasında muzey ekspozisiyaları yaradılır ki, bu sahədə fəaliyyət ildən ilə genişlənir, əhatəli məzmun daşıyır.

Rusiya kitabxanalarının təcrübəsinin öyrənilməsi də bu istiqamətdə əhəmiyyətlidir. Rusiya kitabxanalarının və ölkə hüdudları xaricində kifayət qədər məşhur olan paytaxt muzeylərinin fəaliyyətinin yeni istiqaməti diqqəti cəlb edir. Hər il A.S.Puşkin adına İncəsənət muzeyində mütəmadi olaraq "Dekabr axşamları" keçirilir. Peşəkarlar indiyə kimi "Azad roman" sərgisini unutmayıblar. Bu sərgi Puşkinin yubileyinə və Yevgeni Oneginə həsr olunmuşdur. Mədəni mərkəzlərdə, kitab yayım mərkəzlərində, A.S.Puşkin adına muzeydə bayramlar və ballar daim keçirilir. Bu tədbirlərdə ictimai kitabxanalar "qızıl əsrin mədəniyyət" vasitələrindən və öz arsenalından geniş istifadə edirlər.

Uzun illər "Lenin kitabxanasının" kitab muzeyində məşhur kitab həvəskarı və görkəmli artist N.P.Smirnova-Sokolskinin kabinetinin ekspozisiyası nümayişə açılmışdır. Burada yalnız yeganə nüsxədə olan unikal kitablar, həm də Puşkin dövrünün Peterburqu təsvir olunur, dövrün ümumi mənzərəsini yenidən yaradan çox gözəl predmetlər nümayiş olunur. RQB-nin (Rusiya Dövlət Kitabxanası) müasir kitab muzeyinin sərgi ekspozisiyalarının əksəriyyəti, həmçinin öz üslubu üzrə kitabda olduğu kimi əyani, predmet, inteqrativ, müasir ekspozisiyaların gözəl nümunəsini təcəssüm edir. Hal-hazırda (RQB) müxtəlif kitabxanalarda klassik şəkillər və şəkillərin müxtəlif tematik ekspozisiyalarının ənənəsi formalaşmışdır. İstifadəçilərə xidmət işinə maneə olmayan, dekorativ sənətin müxtəlif tematik predmetləri nümayiş etdirilir. Belə ekspozisiyalar oxuculara yeni estetik zövq və idraki rəngarənglik gətirir.

Kitabxanalarda yalnız kitab və çap məhsulları ilə deyil, irəliləyən texnologiyanın imkanları ilə, məqalələr, eləcə də predmet reallıqları ilə, məişət predmetləri, konkret

dövrün bədii surətləri, ədəbi həyatın aksesuarları, nişanlar, kolleksiyalar, medallar, ordenlər, rəsm əsərləri də hal-hazırda kitabxanaların kolleksiyalarında toplanmaqdadır.

Son illər bələdiyyə kitabxanaları şifahi informasiya mənbələrini toplayaraq maraqlı kolleksiyalar yaradır. Fonoqrafik və rəqəmsal mahnıları, videoyazıları, beşik mahnıları, toy mərasimləri ənənələri, meyxanalar (xalq yaradıcılığı) və digər folklor materiallarının toplanması ilə məşğul olmuşlar və bu gün də bu proses davam edir. Həmkarlarımızın regional mərkəzlərdən mütəxəssislərin iştirakı ilə tarixi etnoqrafiya tədqiqatları və ekspozisiyalarının təşkili, yerli tanınmış şəxslərin çap məhsulları və xatirə əşyalarının nümayişi, etnoqrafik ekspedisiyaların təşkil edilməsi, unikal nəşrlər, yerli və kəndli məişətinin predmeti ilə yanaşı qeyri-maddi mədəni irsin saxlanması (adətlər, yerli dialekt), toplanması təbliği kimi rəngarəng işlər görməkdədirlər. Yerli məktəblərlə birgə təşkil edilən və ictimai təşkilatların yardımları ilə regionun ekoloji ekspedisiyaları haqqında, onun fauna və florası haqqında, təbii sərvətləri öz rayonu haqqında müxtəlif faktiki məlumatlar toplayır, mühafizə edir və təbliğini həyata keçirir.

Müasir dövr yeni-yeni texniki avadanlıq, kommunikasiya vasitələri, müxtəlif əməliyyatların həyata keçirilməsi məqsədi ilə xüsusi texnologiyaların zəngin olması ilə xarakterizə olunur. Bu zaman regional kitabxanaların ölkəşünaslıq resurs bazası gənc naturalistlərin (diyarşünasların, təbiətsevərlərin) gündəlik yazıları, video və sənədli fotoları ilə zənginləşir. Müasir muzeydə informasiya və kommunikasiya potensialı müəyyənləşir, onun əhəmiyyəti, kitabxananın vəziyyəti, əhəmiyyətli dəyişikliklərə məruz qalması baş verir.

Muzey kitabxanası universal informasiya sistemi kimi bütün proseslərin mərkəzində durur, kommunikasiya, monumental funksiyalarını həyata keçirir, bu zaman sosial-mədəni funksiyalar daşıyan muzeylərin əsas funksiyalar ilə sıx əlaqələri qarşıya çıxır. Müasir kitabxana muzey fəaliyyəti üçün muzeyin tərkib hissələri kimi öz rolunu anlaması və həyata keçirməsi son dərəcə təbiidir, belə ki, regional yaddaşın unikal mərkəzi olmaqla kitab sərvətlərini əlçatan edən və ona tələb yaradan kitabxanalar tarixi missiyasını yerinə yetirməkdə həm milli, həm də qlobal miqyasda hələki yeganə müəssisələrdir.

**Ədəbiyyat**


1. Xələfov, A.A. Kitabxana və cəmiyyət / Bakı, Azərnəşr, 2012. - 360 s.
2. Xələfov, A.A. Azərbaycanda kitabxana işinin inkişaf konsepsiyası / Bakı, BDU-nun nəşri, 2012.
3. Kazımi, P.F. İnformasiya mühəndisliyi / Bakı, BDU, 2011. - 236 s.
4. Казими, П.Ф.,Гилмиянова Р.А. Библиотеки в социокультурном пространстве /БГУ, «Библиотековедение и информация», 2013. - № 2(11). – С.58-66.
5. Kazımi, P.F., Əfəndiyev, F.M., İslamov İ.,Müasir sosial-mədəni mühitin öyrənilməsinin bəzi məsələləri. / Bakı Dövlət Universiteti, Sosial və humanitar elmlərin müasir problemləri. - Elmi əsərlər toplusu. – 2015. – Bur. 14. - S.282-287.
6. Kazımi P.F., Rəsuli, İ. Kitabxanaların muzey fəaliyyəti / BDU, Dil və ədəbiyyat, 2014. - №3(87). – S.335-336.

# AZƏRBAYCAN MİLLİ KİTABXANASINDA KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN FORMALAŞMASININ TARİXİ TƏCRÜBƏSİ

***Ədibə İsmayılova***
*Azərbaycan Milli Kitabxanasının Xidmət işləri üzrə direktor müavini,*
*Əməkdar mədəniyyət işçisi*
*oxucu_xidmet@anl.az*

***Исторический опыт формирования библиотечной информационной службы в Национальной библиотеке Азербайджана***

***Резюме:*** *В статье рассказывается об историческом опыте формирования библиотечно-информационного обслуживания в Азербайджанской Национальной Библиотеке, об интенсивном развитии деятельности библиотеки в сфере обслуживания читателей за годы независимости Республики.*

***Historical experience of formation of library information service in Azerbaijan National Library***

***Summary:*** *The article provides information about the formation history of library-information service in Azerbaijan National Library and intensive development of the library activities in the field of library-information service during the years of independence.*

***Açar sözlər:*** *kitabxana informasiya xidməti, biblioqrafiya bürosu, məlumat-biblioqrafiya şöbəsi, elektron kataloq, VTLS/VİRTUA*

***Ключевые слова:*** *библиотечно-информационное обслуживание, библиографическое бюро, информационно-библиографический отдел, электронный каталог, VTLS/VİRTUA*

***Keywords:*** *library-information service, bibliography bureau, information-bibliographical department, e-catalog, VTLS/VIRTUA*

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası dünyada ən böyük milli kitabxanalardan və ən iri kitabsaxlayıcılardan biridir. 1920-ci ilin may ayının 24-də və həmin ilin noyabr ayının 13-də Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiyasında respublikanın Mərkəzi Dövlət Kitabxanasının yaradılması müzakirə edilmiş, bu barədə müvafiq qərarlar qəbul edilmişdir. Sonrakı illərdə respublikada hökumət səviyyəsində Mərkəzi Dövlət Kitabxanasının yaradılması məsələsi dəfələrlə müzakirə edilmiş, onun yaradılması ilə əlaqədar hazırlıq işləri görülməsi barədə qərar qəbul edilmişdir. Hazırlıq işlərinin tərkib hissəsi kimi, onun fondu üçün ədəbiyyat toplanmış, strukturu, vəzifələri müəyyənləşdirilmiş, onun işi üçün normativ sənədlər və s. tərtib edilmişdir. Azərbaycanda kitabxana işinin tarixinə dair bir sıra elmi əsərlərdə kitabxananın açılmasının 1923-cü ilin 5 iyun tarixində baş verdiyi göstərilmişdir. Lakin kitabxananın fəaliyyətinin öyrənilməsi sahəsində ən əhəmiyyətli tədqiqatların müəllifi professor Kərim Tahirovun araşdırması nəticəsində bu məsələyə birdəfəlik aydınlıq gətirilmiş və göstərilmişdir ki,

kitabxananın açılışı 1923-cü ilin 23 may tarixində baş vermişdir. Onun rəsmi adı isə Azərbaycan SSR Mərkəzi Dövlət Kitabxanası olmuşdur. Kitabxananın yaranması xalqımızın, ziyalıların apardığı tarixi mübarizənin nəticəsi, Azərbaycanın informasiya məkanının sistemli şəkildə formalaşdırılmasının başlanğıcı hesab edilə bilər. Kitabxananın əsas vəzifəsi respublikada elmin, təhsilin və bütövlükdə milli mədəniyyətin formalaşdırılmasının informasiya təminatını həyata keçirmək olduğundan birinci növbədə onun fondunu formalaşdırmaq, informasiya-axtarış sistemini yaratmaq, ən başlıcası isə bu işləri həyata keçirmək üçün kadr korpusunu təşkil etməkdən ibarət olmuşdur.

1928-ci ildə Kitabxananın strukturunun təşkili zamanı burada Xidmət şöbəsi və Biblioqrafiya bürosu yaradılmışdır ki, bu da Kitabxanada həyata keçirilən informasiya xidmətini yeni səviyyəyə yüksəltməyə imkan vermişdir. Sonrakı illərdə bu tendensiya ardıcıl olaraq davam etdirilmişdir. İlk dəfə olaraq Oxuculara xidmət şöbəsi ilə yanaşı, oxucuların biblioqrafik informasiya tələbatını ödəmək məqsədi ilə yaradılan Biblioqrafiya bürosu xalqımızın informasiya mədəniyyətinin formalaşdırılması prosesində irəliyə doğru atılan mütərəqqi bir addım və kitabxananın fəaliyyətində informasiya xidmətinin yeni bir istiqamətinin rüşeymi kimi dəyərləndirilə bilər. Büro əsasən fonda daxil olan kitabların biblioqrafik təsvirlərini hazırlayır, oxuculara biblioqrafik arayışların verilməsi və kiçik həcmli biblioqrafik göstəricilərin tərtibi ilə məşğul olurdu. Bunlara Şərq incəsənəti haqqında, Şərqdə qadın hərəkatı, Qafqaz xalqları haqqında və digər mövzulu biblioqrafik vəsaitlər aid edilə bilər və onlar həmin dövrdə oxucuların biblioqrafik informasiya təminatında mühüm rol oynamışdır.

1938-ci ildə ilk dəfə olaraq Kitabxana müxtəlif rayonlarda, sənaye müəssisələrində öz filiallarını yaratmaqla oxuculara xidmətin ərazi baxımdan əhatə dairəsini genişləndirmişdir. 1940-cı ilin sentyabr ayında isə Kitabxanada müstəqil Məlumat-biblioqrafiya şöbəsinin yaranması oxuculara informasiya xidmətinin təşkilinin əsas mərkəzlərindən birinin formalaşması kimi mühüm əhəmiyyət kəsb etmişdir.

Müharibədən sonra xidmət sahəsində yeni bir istiqamət yaranmışdır. Belə ki, 1947-ci ildə fonda daxil olan “Yeni ədəbiyyatın məlumat bülleteni” tərtib və nəşr edilməyə başlanılmışdır. Yerlərdə informasiya xidmətini, biblioqrafik işi gücləndirmək üçün “Məlumat bülleteni” kütləvi kitabxanalara göndərilirdi. Həmin dövrdə kitabxananın fəaliyyətində biblioqrafik informasiya xidmətinin ədəbiyyat sərgiləri, icmalları kimi formalarından da geniş istifadə edilirdi.

1948-ci ildə yenidən təşkil edilmiş Kitabxanaşünaslıq və Tövsiyə biblioqrafiyası kabinəsi sonrakı dövrlərdə Kitabxananın informasiya xidmətində biblioqrafik informasiyanın çatdırılmasının, ədəbiyyatın təqdimatının müxtəlif metodlarından geniş istifadə edilməsinə, intensiv şəkildə icmallar, sərgilər, oxucu konfransları keçirilməsinə əlverişli şərait yaratmışdır.

1950-ci illərin sonlarında kitabxananın inzibati quruluşu təkmilləşmiş və informasiya xidmətinin həyata keçirilməsinin təşkilati bazasının formalaşması prosesi başa çatmışdır. Yeni yaradılan şöbələr “Patent və standartlar”,

“Ədəbiyyatın qrup şəklində işlənməsi”, yeni yaradılan bölmələr isə “Not materialları”, “Təsviri sənət materialları” bölmələri olmuşdur.

Kitabxananın informasiya xidmətinin inkişafında Sov.İKP MK-nın “Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında” 8 may 1974-cü il tarixli qərarının mühüm əhəmiyyəti olmuşdur. Bu qərarın müddəalarının həyata keçirilməsi kitabxananın fəaliyyətinin müasir dövrün, elmi-texniki tərəqqinin qarşıya qoyduğu tələblərinə tam cavab verə bilməsinə, informasiya xidməti istiqamətində konkret tədbirlər həyata keçirilməsinə, strukturun təkmilləşdirlməsinə, biblioqrafik-informasiya xidmətinin yeni növlərinin tətbiq edilməsinə, mədəniyyət, incəsənət, kənd təsərrüfatı, musiqi və səsyazıları barədə məlumat verən cari biblioqrafik informasiya mənbələrinin nəşri ilə ixtisaslaşdırılmış bütün oxucu qruplarına xidmətin keyfiyyətinin yüksəldilməsinə imkan vermişdir. Belə ki, 1974-cü ildə “Kənd təsərrüfatına dair yeni kitablar” bülleteninin nəşrinə başlanması və 1975-ci ildə Kitabxananın strukturunda “Mədəniyyət və incəsənət üzrə elmi informasiya“ şöbəsinin yaradılmasının və bu şöbənin “Mədəniyyət və incəsənət üzrə yeni ədəbiyyat” adlı informasiya bülleteninin nəşrinin xüsusi əhəmiyyəti olmuşdur.

Kitabxananın informasiya xidməti sahəsindəki fəaliyyəti 70-80-ci illərdə daha zəngin olmuşdur və bu da kitabxananın tarixində ayrıca bir mərhələ təşkil edir.

Kitabxananın informasiya xidməti sahəsindəki fəaliyyətinin intensiv inkişafı yalnız Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı dövrə təsadüf edir. Yalnız Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin ikinci yarısından siyasi hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycan dövlətinin qurulmasına başlanması qısa müddət ərzində öz bəhrəsini vermişdir. Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələrində həyata keçirilməyə başlayan yenidənqurma işləri elm və mədəniyyətin, o cümlədən Kitabxananın da fəaliyyətinə öz müsbət təsirini göstərmişdir. 1995-1997-ci illər ərzində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dörd dəfə Milli Kitabxanada olmuş, onun buraya hər gəlişi kitabxanaya yeni ab-hava, yeni nəfəs gətirmişdir. Bəhs edilən dövrdə Ümummilli liderin göstərişləri əsasında ölkədə kitabxana işinə dair dövlət siyasəti formalaşmışdır.

Beləliklə 1923-1997-ci illərdə kitabxananın oxuculara informasiya xidməti mühitinə inteqrasiyası prosesinin əsası qoyulmuş, mövcud ideoloji və siyasi şəraitin verdiyi imkanlar çərçivəsində bu sahədə hüquqi və təşkilati baza yaradılmış, beynəlxalq mədəni əməkdaşlıq çərçivəsində kitab mübadiləsi və qabaqcıl iş təcrübəsinin öyrənilməsi sahəsində diqqəti cəlb edən müəyyən tədbirlər həyata keçirilmişdir. Bu da Kitabxananın Azərbaycan elminin, təhsilinin və bütövlükdə iqtisadiyyatın informasiya təminatının və istifadəçilərə informasiya xidmətinin əsas mərkəzlərindən birinə çevrilməsinə gətirib çıxarmışdır. Belə ki, məhz Kitabxananın təşkil olunduğu dövrdən etibarən onun strukturunda müvafiq struktur vahidlərinin yaranması kitabxana xidmətinin elementlərinin təşəkkülünə əlverişli şərait yaratmışdır. Bu da kitabxananın fondunun zənginləşməsi, oxucuların informasiya tələbatının daha dolğun ödənilməsi üçün mühüm əhəmiyyət kəsb etmişdir.

1998-ci ildən Kitabxananın tarixində yeni mərhələ - informasiyalaşdırma və kompüterləşdirmə, dünya kitabxana-informasiya mühitinə inteqrasiya dövrü başlamışdır. Bəhs olunan dövrdə Milli Kitabxananın fəaliyyətinin əsas istiqamətlərindən biri də kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasından ibarət olmuşdur. Bu dövrdə artıq bütün dünyada bu proseslər gedirdi və ölkəmizin kitabxanaları da bu istiqamətdə işlər görməyə başlamışdılar. 2004-cü ilin mart ayından Milli Kitabxanada bütün kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işlərinə start verilmişdir.

2006-cı ildə Milli Kitabxananın veb-saytının və elektron kataloqunun təqdimat mərasimi olmuşdur. Oxucuların Azərbaycan Milli Kitabxanasının elektron kataloquna uzaq məsafədən girişi 2006-cı ilin mart ayından təmin olunumuşdur.

Azərbaycan Milli Kitabxanasında dünyanın ən böyük və zəngin kitabxanalarında daha çox tətbiq olunan avtomatlaşdırılmış kitabxana-informasiya sistemi - VİRTUA proqramı tətbiq olunmuşdur. Buraya elektron kataloqun tərtibi, elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, milli biblioqrafiyanın və respublikanın bütün iri kitabxanalarının toplu kataloqunun yaradılması, yəni bütün kitabxana proseslərinin avtomatlaşdırılması modulları daxildir. Milli Kitabxanada elektron kataloq beynəlxalq maşınla oxunan MARC-21 formatında işlənilmişdir. “Elektron kataloqun yaradılması” şöbəsində elektron kataloqun məlumat bazasına Azərbaycan, rus və digər dillərdə olan ədəbiyyatların biblioqrafik yazıları daxil edilir.

2014-cü ildə Elektron Kitabxananın daha da optimallaşdırılması məqsədilə ORACLE əsasında işlənib hazırlanmış və bir neçə parametrlər üzrə axtarış aparılmasına imkan verən yeni CAMO proqramı alınaraq kitabxananın serverində quraşdırılmışdır. Bu axtarış sistemi vasitəsilə müəlliflər, sərlövhələr, predmetlər, açar sözlər, simvollar, ISBN, nəşriyyatlar, nəşr yeri və s. parametrlər üzrə axtarış aparılması təmin olunmuşdur. Burada həmçinin müxtəlif məlumat bazaları üzrə kitabların və dövri mətbuat materiallarının, ümumi və diyarşünaslıq kartotekalarının və digər analitik məlumat bazalarının materialları üzrə kompleks axtarış aparılması mümkündür.

“Sorğu informasiya xidməti” şöbəsi 2017- ci ildən “Biblioqrafik və elektron informasiya xidməti” adı ilə fəaliyyət göstərir. Şöbə oxuculara elektron kataloq, ənənəvi kataloq və kartateka ilə xidməti, eyni zamanda onlayn “Biblioqrafik sorğu”, “Virtual sifariş” xidmətlərini, xarici dövlətlərlə elektron kitab mübadiləsi işini həyata keçirir, ödənilmiş arayışların elektron bazasını yaradır, məlumat-biblioqrafiya aparatını təşkil edir, kitabxana və biblioqrafiya biliklərinin təbliği ilə məşğul olur və respublikanın elmi, sahəvi və kütləvi kitabxanalarına metodiki biblioqrafik köməklik göstərir.

Bu gün kitabxananın 3 dildə fəaliyyət göstərən saytı (www.anl.az) vasitəsilə oxucular məlumat bazalarından yararlanmaq, Milli Kitabxananın nəşrlərindən istifadə etmək, elektron kataloqda və elektron kitabxanada, həmçinin dünya ölkələrinin kitabxanalarında axtarış aparmaq imkanı əldə edirlər. Azərbaycan Milli

Kitabxanasının Elektron kataloqunun məlumat bazası Avropa Elektron Kitabxanasına daxil edilmişdir. Kitabxananın oxucuları Avropanın 50-dən çox milli kitabxanasının fondlarında və kataloqlarında birbaşa axtarış aparmaq imkanı əldə etmişlər.

2008-ci ilin dekabr ayından Milli Kitabxanada ölkə mətbuatının ayrı-ayrı mövzular və predmetlər üzrə tammətnli analitik məlumat bazasının yaradılması işinə başlanılmışdır. Yəni gündəlik 100-dən çox qəzet və jurnalda dərc olunan materialların tam elektron mətnləri mövzu və predmetlər üzrə qruplaşdırılaraq Milli Kitabxananın elektron kataloqunun analitik məlumat bazasına daxil edilir. Bununla da kitabxananın oxucuları nəinki dövri mətbuat materiallarının biblioqrafik təsvirlərini, hətta onların tam elektron mətnlərini də kitabxananın saytı və elektron kataloqu vasitəsilə açıb oxuya bilirlər.

Milli Kitabxana hər il kitabxana işinin bu və ya başqa məsələlərinə dair xeyli miqdarda metodik vəsaitlər nəşr edir və region kitabxanalarına göndərir. Azərbaycan Milli Kitabxanası "Yeni kitablar", "Birillik Azərbaycan Kitabiyyatı", "Azərbaycan kitabı", "Mədəniyyət, incəsənət, turizm və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat" adlı biblioqrafik informasiya göstəricilərini, hər il "Əlamətdar və tarixi günlər təqvimi"ni, "Azərbaycanın görkəmli şəxsiyyətləri" silsiləsindən, eyni zamanda digər mövzulara həsr olunmuş fundamental biblioqrafik vəsaitlər nəşr edir.

Bu gün Azərbaycan Milli Kitabxanası kitabxana-informasiya xidmətinin inkişafında öz işini uğurla davam etdirir. Oxucuların gündən-günə artan və mürəkkəbləşən informasiya sorğularının ödənilməsini təmin etmək məqsədilə elmin, mədəniyyətin, ədəbiyyatın müxtəlif sahələrinə dair Elektron Məlumat Bazaları tərtib edərək mütəxəssislərin istifadəsinə verir, Azərbaycan reallıqlarının dünya miqyasında daha geniş təbliği missiyasını uğurla həyata keçirir. 2017-ci ildə Milli Kitabxananın saytından və elektron resurslarından dünya miqyasında 3 milyondan artıq istifadə qeydə alınmışdır ki, bu da hələ son demək deyildir.

**Ədəbiyyat**

1. İsmayılov, X. Kitabxana-informasiya texnologiyaları: dərs vəsaiti /X. İsmayılov red. Ə.Ə.Əliyev; rəyçilər N.İ.İsmayılov, E.M.Məmmədov; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.- Bakı: Nurlar, 2009.- 311s.

2. İsmayılov, X. Milli Kitabxana: Azərbaycan elm və mədəniyyətinin xəzinəsidir //Kitabxanaşünaslıq və Biblioqrafiya.- 2008.- № 2.- S. 34-40.

3. Tahirov, K. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: Dərs vəsaiti.- Bakı: Bakı Universiteti nəşriyyatı, 2013. – 212 s.

4. Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923-2008).- Bakı, 2009.- 218 s.

5. Azərbaycan SSR Mərkəzi Dövlət Kitabxanasının 1923-1932-ci illər üzrə hesabatları.

6. Cəfərov, C. Kitabxana informasiya xidmətində elektron kataloq.- Bakı, 2012.- 224 s.

7. Həmidova, H. Məlumat-biblioqrafiya işi dövlət əhəmiyyətli məsələdir. 70 il xalqın xidmətində: (M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixinə dair materiallar toplusu).- Bakı, 1993.- S.42-50.

8. Süleymanzadə, Q. Mənəvi sərvətimizin böyük xəzinəsi. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının tarixindən (1920-1940-cı illər) //M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının Əsərləri.- Buraxılış 1.- Bakı, 1980.- S. 9-40.

# ƏLİ BƏY HÜSEYNZADƏNİN ARXİVİNİN TƏSVİRİ

***Vəzufə Xudiyeva***
*AMEA-M.Füzuli adına Əlyazmalar*
*İnstitutunun dissertantı*
*vazufe@mail.ru*

***Описание архива Али Бэй Хусейнзаде***
***Резюме:*** *Описание архива Али Бей Гусейнзаде, одного из виднейших представителей азербайджанско-турецкого общественного мнения, является основой информационного ресурса, отражающего наследие его наследия и общий обзор работ скульпторов, фотографий и картин. Али Бей провел 34 года в Азербайджане, 44 года в Турции, проживая в Турции со всеми его сознательными жизнями эффективно. С этой точки зрения наследие выдающегося мыслителя хранится в архивах государственных архивов Азербайджана, Турции, музеев, частных архивов и архивов Эгейскогоуниверситет .*
***Description of Ali Bey Husseinzade's archive***
***Abstract:*** *The description of prominent Ali Bey Husseinzade's archive is fundamental in creating information resource which is reflect general review of his distrubuted works, photographs and paintings as well as promoting his heritage. Ali Bey spent his life in Azerbaijan and in Turkey. That is why, his heritage is collected both in Azerbaijan and Turkey state archives, museums, private archives and archives of the Aegean univercity.*
***Açar sözlər:*** *Əli bəy Hüseynzadə, səxsi arxiv, sənədlər, rəsmlər, məktublar, biblioqrafik təhlil*
***Ключевые слова*** *Али бек Гусейнзаде, частный архив, документы, рисунки, письма, библиографический анализ*
***Keywords:*** *Ali bay Huseynzade, private archive, documents, drawings, letters, bibliographic analysis*

## Giriş

**Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən olan Əli bəy Hüseynzadənin arxivinin təsviri onun irsinin təbliğ olunması baxımından və mütəfəkkirin səpələnmiş halda olan əsərlərinin, fotoşəkillərinin, rəsm əsərlərinin ümumi icmalını əks etdirən bir informasiya resursunun yaradılması təməlidir.**Bütün şüurlu həyatını səmərəli yaradıcılıqla keçirən Əli bəy ömrünü Azərbaycanda və Türkiyədə yaşayıb. Bu baxımdan görkəmli mütəfəkkirin irsi həm Azərbaycan, həm də Türkiyə dövlət arxivlərində, muzeylərdə, şəxsi arxivlərdə, Ege universiteti arxivində saxlanılır.

## Məsələnin qoyuluşu

2014-cü ildə Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin anadan olmasının 150 illiyi münasibətilə ölkə başçısı tərəfindən Sərəncam imzalanıb. Bu Sərəncama əsasən

keçirilən silsilə tədbirlər vasitəsilə Əli bəyin azərbaycançılıq və türkçülük ideyasına nə qədər önəm verdiyi bir daha diqqətə çatdırılıb.

**Belə ki, 2017-ci il** iyunun 9-da Muzey Mərkəzində Azərbaycan ədəbi-ictimai fikrinin parlaq nümayəndəsi, görkəmli türkoloq, tanınmış mütəfəkkir və yazıçı-publisist Əli bəy Hüseynzadənin qızı Feyzavər xanım Alpsar tərəfindən Azərbaycan hökumətinə hədiyyə olunan sənət əsərləri, foto-sənədli arxiv və şəxsi əşyalardan ibarət sərgi-təqdimat keçirilib. Təqdimatda İstanbuldan gətirilən 161 əsərdən seçilmiş Əli bəy Hüseynzadənin, övladları Səlim Turan və Feyzavər Alpsarın yaratdığı bir sıra sənət əsərləri, Əli bəyin həyatının müxtəlif anlarını əks etdirən fotoşəkilləri, şəxsi əşyaları nümayiş edilib. Ümumiyyətlə, 37 təsviri sənət əsəri, 48 fotoşəkil, 53 şəxsi əşya, 22 orden, medal və nişanlar, eləcə də ipək üzərində çap olunmuş "Həyat" qəzeti Azərbaycana hədiyyə olunub.

Qeyd edək ki, Azərbaycan muzeylərinə ilk dəfə belə dəyərli əşyalardan ibarət kolleksiyanın hədiyyə olunması çox əhəmiyyətli hadisədir. Bu əsərlərin 61 ədədi Azərbaycana gətiriləndən sonra bərpa olunub.

Dövrünün qabaqcıl mütəfəkkiri və proseslərin fəal iştirakçısı olan Əli bəy Hüseynzadənin qoyduğu irs millətin özünüdərk etməsində çox önəmlidir. İrs həm də Azərbaycan və Türkiyə arasında mənəvi körpüdür. **Prezident İlham Əliyev (17.03.2018) Azərbaycan mütəfəkkiri Əlibəy Hüseynzadənin qızı Feyzavər Turan Alpsarın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Ölkə başçısının verdiyi Sərəncama əsasən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi təntənə ilə qeyd olunacaq və o böyük şəxsiyyətlər, o cümlədən Əli bəy Hüseynzadə də yad ediləcək. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında verilən sərəncamlar Azərbaycan dövlətinin Cümhuriyyət fədailərini, o cümlədən Əli bəy Hüseynzadə şəxsiyyətini, onun zəngin irsini yüksək qiymətləndirdiyinin sübutudur.

**Məsələnin həlli**

Əli bəy Hüseynzadənın arxivinin daha cox hissəsi isə 8 iyun 2007-ci ildən Ege Universitetində saxlanılır. Əli bəyə aid əl yazma əsərlər, fotoşəkillər, məktublar, müxtəlif qəzet, jurnal və kitablardan ibarət arxiv, qızı Feyzaver Alpsar xanım tərəfindən Ege Universiteti (EU) Ədəbiyyat Fakültəsi Türk Dili və Ədəbiyyatı Bölümü arxivinə bağışlandı. Prof. Dr. Yavuz Akpınar, Hüseynzadəyə arxivində öz əsərlərinin əlyazmaları (şeirləri, tərcümələri, elmi əsərləri) arasında ən çox diqqət çəkən sənədlərin, 1900-cü illərin əvvəllərindən etibarən tutduğu dəftərlər olduğunu açıqlayırdı. (6)

Türk Dili və Ədəbiyyatı Bölüm Başçısı Prof. Dr. Y.Akpınar, Əli Bəy Hüseynzadənın arxivi haqqında fikirlərini bildirərkən bunları vurgulayırdı - "Bəzi Azərbaycanlı yazarların əl yazılı sənədləri və əsərləri də bu arxivin bənzərsiz sənədləri arasındadır. Öz yazılarının nümayiş olunduğu bir çox qəzet və jurnal, arxivindəki sənədlərin əhəmiyyətli bir qisimini meydana gətirməkdədir. Kitablar isə az saydadır. Arxivin nəzərə dəyər sənədləri arasında fotoşəkillər da var. XIX əsrin sonlarından yaxın dövrə qədər geniş bir zaman diliminə şahid olan bu

fotoşəkillər, Hüseynzadə Əli bəyin ailə mühitinin xaricində bir çox tarixi, siyasi, ədəbi şəxsiyyət və fəaliyyəti əks etdirir. " (10)

Hüseynzadə arxivinin Türk Dili və Ədəbiyyatı fakultəsində xüsusi bir otaqda qoruma altına alındığını ifadə edən Akpınar, "Arxivin bütün sənədləri təşkil ediləcək, növlərə görə təsnif ediləcək, qeydiyyatdan keçiriləcək və hamısının kataloqu hazırlanacaq və internetdə oxuculara təqdim olunacaq. İrəlidə bütün sənədlərin rəqəmsal olaraq xidmətə təqdim edilməsi də düşünülməkdədir. Arxivdəki sənədlər, imkan daxilində Türk Dili və ədəbiyyatı Araşdırmaları jurnalında da yayımlanacaqdır." (3)

Əli bəy Hüseynzadənin "Həyat" və "Füyûzât"da və digər Azərbaycanda nəşr olunan qəzet və jurnallarda yazdığı məqalələr arasında xüsusilə "Türklər Kimdir və Kimlərdən ibarətdir?" (Həyat, 1905, 8 dekabr) və "Siyasət-i Fürüset" ("İrşad", "Tərəqqi və Həqiqət" qəzetlərində çap edilmişdir, 1908) ən tanınmış əsərləri arasında yer alır. F.Schillerdən etdiyi mənzum tərcümə "Kefalet yaxud vəfalı dostlar" adıyla dərc edilmişdir (İstanbul 1923). (1)

1926-cı ildə Bakıda verdiyi bir konfransın mətni olan "Qərbin iki dastanında türk" əsərinin içində (Bakı 1926) ədibin Avropalı şairlərdən çevirdiyi mənzum bölmələr də var (5). Uzun illər üzərində çalışdığı Hötenin "Faust" adlı əsərinin mənzum tərcüməsinin bir qismini çap etdirə bilmişdir (İstanbul 1932). Adam Smithin bir əsərini "Sərvət-i Miləl" adıyla "Maarif vəkalət" adına tərcümə etmiş, latın hərflərinin qəbuluna görə çap etdirilməmişdir; əl yazması nüsxəsi öz arxivindədir. Şeirlərini və şeir tərcümələrini bir dəftərdə yığdığı "Əbədi gözəlliklər" başlıqlı əsəri də arxivində yerləşir (4). Əli bəyin həyatı və əsərləri haqqında son zamanlarda Türkiyədə və Azərbaycanda elmi işlər, monoqrafiyalar yazılmışdır (7). Onun arxivinə əsaslanan ətraflı bir araşdırma Əli Heydər Bayat tərəfindən reallaşdırılmışdır: Əli bəy Hüseynzadə (2. bs., Ankara 1998). Azərbaycanda Ofeliya Bayramlı, Əli bəyin müxtəlif əsərlərini və yazılarını yığaraq bir neçə kitab halında ayrı-ayrı nəşr etdirdikdən sonra "Əli Bəy Hüseynzadə: Seçilmiş Əsərləri" adıyla iki cild olaraq nəşr etmişdir (Bakı 2008). (8)

Əli bəy Hüseynzadənin arxivi qızı Feyzaver Alpsar tərəfindən Ege Universiteti Ədəbiyyat Fakültəsi Türk Dili və Ədəbiyyatı Bölümü Arxivindən bağışlanmışdır.

Əli bəy Hüseyzadənın qızı Feyzavər Alpsarın atasının şəxsi arxivinin qalan hissələrini Azərbaycan "İstiqlal Müzeyi"nə hədiyyə etməsinə (2017) qədər Əli bəyin irsindən Azərbaycanda qalan üç rəsm əsərindən biri "Yaşlı bir qadın və gənc qız"ın portreti idi. 1910-cu ildə Azərbaycanı tərk etməmişdən əvvəl (Əhməd Salyaninin həyat yoldaşı Hüsniyə, 75 yaşındakı əmisi oğlu Nişa və Ali bəyi qardaşı 11 yaşlı qızı olan Böyükxanım, İsmayıl bəy) Salyanda qələmlə çəkilmiş olduğu rəsmi rəsm-peyzaj sənətçisi Səttar Bəhlulzadənin qardaşı oğlunun ailə kolleksiyasındadır.

Bu rəsmlərdən biri də Azərbaycan Milli İncəsənət Muzeyində olan Əli bəyin babası "Şeyxülislam Əhməd Salyani"nin portretidir. Yağlı boya ilə işlənmiş bu portret 1900-cü ildə çəkilmişdir. Bu portret Əli bəy üçün cox önəmli idi. Osmanlı

İmperiyasının son günlərində Hindistana səfər edərkən hətta onu da özü ilə götürmüşdü. (2)

O, əsərlərindən birində Bibiheybət məscidini təxminən 1905-1907-ci ildə təsvir edir. Məscid 1936-cı ildə kommunist hakimiyyət orqanlarının din əleyhinə mübarizəsinin bir hissəsi kimi partladılmışdır. Milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin uzaqgörənliyi sayəsində şəkil Azərbaycanda qalır. Hekayəyə əsasən, Bakıdakı Britaniya konsulunun şəkilini çəkmək və Londona göndərmək istədiyini eşitdikdə, Hacı bunun əvəzinə rəsmini aldı: "Bizim qədim məscidimizin şəkli şəhərimizdə qalmalıdır. İndi Milli İncəsənət Muzeyində saxlanılır. Əli bəyin arxivindəki iki portret xüsusi qeyd olunur - Atatürk (1915) və Şeyx Şamil (1916). Onların keyfiyyəti göstərir ki, Əli bəy Hüseynzadə 20-ci əsrdə Azərbaycan rəssamlığının, rəngkarlığının öncüllərindən hesab edilə bilər. (9)

Əli bəyin rəngkarlıq nümünələri ailəsinin nəzarətində qalırdı və bir neçə il bundan əvvəl Parisdəki vəfat edən oğlu Səlim bəydə də atasının bir cox əsərləri vardı. Digər əsərlər sənətçinin qızı Feyzavər xanıma aid idi. Feyzavər Alpsar atasının şəxsi arxivini 2017-ci ildə Azərbaycan Respublikasına təhvil verdi. Hazırda bu arxiv “İstiqlal Müzeyi”ndə saxlanılır.

Əli bəy Hüseynzadənin “İstiqlal Müzeyi”ndə saxlanan şəxsi əşyalarının etiketajları bunlardır:

1. Dəf. “Şahmaran”-“İlanların ilahəsi. Müəllif - Feyzavər Alpsar Turan (d. 31 dekabr 1920). Dəri, taxta, metal.
2. “Şahmaran”-“İlanların ilahəsi”. Müəllif - Feyzavər Alpsar Turan (d. 31 dekabr 1920). Dəri, taxta, ip. 38x30 sm.
3. “Şahmaran”-“İlanların ilahəsi”. Müəllif - Feyzavər Alpsar Turan (d. 31 dekabr 1920). Kağız. 45x36 sm.
4. “Şahmaran”. Müəllif - Feyzavər Alpsar Turan (d. 31 dekabr 1920). Kağız. 40x40 sm.
5. “Şahmaran”. Müəllif - Feyzavər Alpsar Turan (d. 31 dekabr 1920). Kağız. 40x40 sm.
6. “Şahmaran”. Müəllif - Feyzavər Alpsar Turan (d. 31 dekabr 1920). Kağız. 40x40 sm.
7. Fotoşəkil. “Səidə Turan”. Müəllif - Səlim Turan (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994). Kağız, fotoşəkil. 26x20 sm.
8. Miniatür. Müəllif - Səlim Turan (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994). Kağız. 30x25 sm.
9. “M.K.Atatürk”. Müəllif - Əli bəy Hüseynzadə (d. 24 fevral 1864, ö. 17 mart 1940). Kağız. 31x23 sm.
10. “Əli bəy Hüseynzadə həbsxanada uşaqları ilə görüşdə”. Müəllif - Əli bəy Hüseynzadə (d. 24 fevral 1864, ö. 17 mart 1940). Kağız. 34x23 sm.
11. “Səlim Turanın uşaqlığı”. Müəllif - Əli bəy Hüseynzadə (d. 24 fevral 1864, ö. 17 mart 1940). Kağız. 52x40 sm.
12. Abstrakt. Müəllif - Səlim Turan (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994). Kağız. 67x83 sm.

13. Heykəl. “Səmavi rəqs”. Müəllif - Səlim Turan (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994). Gips, metal. 50x22 sm.

14. Heykəl. Müəllif - Səlim Turan (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994). Gips, metal. 40x21 sm.

15. Boya qutusu. Səlim Turana (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994) aid. Taxta. 32x25 sm.

16. Qələm qabı ilə. Əli bəy Hüseynzadəyə (d. 24 fevral 1864, ö. 17 mart 1940) aid. Taxta. 19 sm.

17. Pensne qabı ilə. Əli bəy Hüseynzadəyə (d. 24 fevral 1864, ö. 17 mart 1940) aid. Metal, şüşə, dəri. 10x3 sm.

18. Yemək dəsti - bıçaq, çəngəl, qaşıq. Əli bəy Hüseynzadəyə (d. 24 fevral 1864, ö. 17 mart 1940) aid. Metal.

19. Yazı dəsti - biz, iynə qabı, qayçı. Əli bəy Hüseynzadəyə aid (d. 24 fevral 1864, ö. 17 mart 1940). Metal.

20. Qol düymələri. Əli bəy Hüseynzadəyə (d. 24 fevral 1864, ö. 17 mart 1940) aid. Metal.

21. Müxtəlif ölkələrin pul vahidləri. Əli bəy Hüseynzadəyə (d. 24 fevral 1864, ö. 17 mart 1940) aid. Kağız.

22. Həyat qəzeti. Əli bəy Hüseynzadənin (d. 24 fevral 1864, ö. 17 mart 1940) redaktoru olduğu. İpək.

23. “Səidə Turan”. Müəllif - Əli bəy Hüseynzadə (d. 24 fevral 1864, ö. 17 mart 1940). Kağız, karandaş. 17x19 sm.

24. “Avtoportret”. Müəllif - Səlim Turan (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994). Kağız. 14x10 sm.

25. “Naməlum qadın”. Müəllif - Əli bəy Hüseynzadə (d. 24 fevral 1864, ö. 17 mart 1940). Kağız. 14x23.5 sm.

26. “Səidə Turan”. Müəllif - Əli bəy Hüseynzadə (d. 24 fevral 1864, ö. 17 mart 1940). Kağız, karandaş. 23.5x18.5 sm.

27. “M.K.Atatürk və Lətifə xanım”. Müəllif - Əli bəy Hüseynzadə (d. 24 fevral 1864, ö. 17 mart 1940). Kağız. 18.5x18 sm.

28. “Əli bəy Hüseynzadənin karikaturası”. Müəllif - Səlim Turan (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994). Kağız, karandaş. 21x13.5 sm.

29. “Mənzərə”. Müəllif - Əli bəy Hüseynzadə (d. 24 fevral 1864, ö. 17 mart 1940). Kağız. 27.5x20.5 sm.

30. “Əli bəy Hüseynzadə”. Müəllif - Səlim Turan (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994). Kağız. 41x25 sm.

31. “Axund Əhməd Səlyani”. Müəllif - Səlim Turan (d. 9 iyun 1915, ö. 13 oktyabr 1994). Kağız. 41.5x25 sm.

32. Skripka. Əli bəy Hüseynzadəyə məxsus. Metal, ağac. 62x22.5 sm.

33. Stəkan altlığı. 2 ədəd. Əli bəy Hüseynzadəyə aid. Metal. 6.5x6 sm.

34. Divar bəzəyi. Metal. 15.5x11.5 sm.

35. Oymalı taxta qutu. İçərisində qurudulmuş dəniz atı var. Əli bəy Hüseynzadəyə aid. Taxta. 11.5x6.5 sm.

36. Naxışlı məcməyi. Əli bəy Hüseynzadəyə aid. Metal. 27x8.5 sm.
37. Bıçaq qını ilə. Əli bəy Hüseynzadəyə aid. Metal. 23.5x3 sm.
38. Bıçaq qını ilə. Əli bəy Hüseynzadəyə aid. Metal, dəri. 24x3 sm.
39. Məktub açmaq üçün bıçaq. Əli bəy Hüseynzadəyə aid. Metal. 19x3 sm.
40. Məktub açmaq üçün bıçaq. Əli bəy Hüseynzadəyə aid. Metal. 20x3.5 sm.
41. "Səlim Turanın karikaturası". Müəllif - naməlum. Kağız, karandaş. 21x13.5 sm.
42. "1903-cü il Şamaxı zəlzələsindən sonra". Müəllif - Əli bəy Hüseynzadə. Kağız, karandaş. 28x21 sm.
43. "Edhiyə xanımın karikaturası". Müəllif - Səlim Turan. Kağız, karandaş. 32x24 sm.
44. Orden "Məcidiyə". Əli bəy Hüseynzadəyə aid. Metal. 7.5x6 sm.
45. Orden "V dərəcəli I Georq". Əli bəy Hüseynzadəyə aid. Metal. 6x3.5 sm.
46. Orden. "IV dərəcəli Şiri-Xurşud". Əli bəy Hüseynzadəyə aid. Metal. 5.5x6.5 sm.
47. Cib saatı. Əli bəy Hüseynzadəyə aid. Metal, şüşə.
48. Cib saatı. Əli bəy Hüseynzadəyə aid. Metal, şüşə.
49. Hərb medalı. Əli bəy Hüseynzadəyə aid. Metal. 5.5x5.5 sm.
50. Şəxsi möhürlər. Əli bəy və Feyzavər Hüseynzadələrə aid. Metal.
51. Medal "Məcidiyə". Əli bəy Hüseynzadəyə aid. Metal. Diametr 2 sm.
52. Döş nişanları. Əli bəy Hüseynzadəyə aid. Metal.
53. Üzüklər. Əli bəy Hüseynzadəyə aid. Metal.
54. Qol düymələri. Əli bəy Hüseynzadəyə aid. Metal.
55. Döş nişanları. Əli bəy Hüseynzadəyə aid. Metal.
56. Medal. Əli bəy Hüseynzadəyə aid. Metal. Diametr 2 sm.
57. Yarlıq ulduzları. Əli bəy Hüseynzadəyə aid. Metal. 1x1.2 sm.
58. Adlıqlar. Əli bəy Hüseynzadə və həyat yoldaşı Edhiyə xanıma aid.
59. Hərbi geyim nişanları. Əli bəy Hüseynzadəyə aid. Metal.
60. "Nisəxanım və İsmayıl bəyin qızı Böyükxanım. Müəllif - Əli bəy Hüseynzadə. Kətan, yağlı boya. 90x72 sm.
61. "Natürmort". Müəllif - Əli bəy Hüseynzadə. Kətan, yağlı boya. 44x60 sm.
62. "Musa və Çoban". Müəllif - Əli bəy Hüseynzadə. Taxta, yağlı boya. 30x22 sm.
63. "Səidə xanım". Müəllif - Əli bəy Hüseynzadə. Kətan, yağlı boya. 34x26 sm.
64. "Əli bəy Hüseynzadə iş masasında". Müəllif - Səlim Turan. Kağız, yağlı boya. 11x6.5 sm.
65. "Mənzərə". Müəllif - Səlim Turan. Kətan, yağlı boya. 24x34 sm.
66. "Sahil mənzərəsi". Müəllif - Səlim Turan. Kağız, qarışıq texnika. 21x63 sm.
67. "Bibiheybət məscidi". Müəllif - Əli bəy Hüseynzadə. Kağız, sulu boya. 38.5x30 sm.
68. "Şeyx Şamil". Müəllif-Əli bəy Hüseynzadə. Kağız, qarışıq texnika. 38x30.5 sm.
69. "Ömər Xəyyam". Müəllif - Əli bəy Hüseynzadə. Kağız, qarışıq texnika. 33.5x29.5 sm.

70. “Şah Süleyman türbəsi”. Müəllif - Əli bəy Hüseynzadə. Kağız, sulu boya. 38x28 sm.
71. “Naməlum qadın”. Müəllif - Səlim Turan. Kağız, qarışıq texnika. 89x75 sm.
72. Şamdanlar. Əli bəy Hüseynzadəyə aid. Metal. 15x24 sm.
73. Fotoşəkil

**Nəticə**

Müxtəlif dönəmlərdə azərbaycanlılar ictimai-siyasi proseslərlə əlaqədar olaraq dünyanın dörd bir tərəfinə səpələnmişdir. Mühacirətdə yaşayan ziyalı və yaradıcı insanların irsi Sovet İttifaqının dağılması və Azərbaycanın müstəqilliyini bərpa etməsinə qədər tam olaraq yayınlanmamış, cəmiyyət üçün əlçatan olmamışdır. Həqiqətən də Azərbaycanda bir çox insanlar xaricdə yaşayan ziyalılar, dövlət xadimləri, sənətkarlar haqqında heç nə bilmirdi. Uzun illərin sürgünündən sonra mühacirlərin əksəriyyəti öz ölkələrini ziyarət edərək, ictimai qurumlara, muzeylərə və fərdlərə hədiyyələr vermişdir. Müxtəlif səbəblərdən gələ bilməyən sənətkarlar öz işlərini başqaları ilə Bakıya göndərirdilər. Nəticədə, Azərbaycanda və respublikadan kənarda muzeylərdə və şəxsi kolleksiyalarda yüzlərlə irs nümunələri var. Təbii ki, bütün bu irs nümünələrini araşdırıb aşkara çıxarmaq və toplanmış məlumatları sistemləşdirərək informasiya məkanına təqdim etmək aktual olaraq qalır.

**Ədəbiyyat**


1. Hüseyinzadə, Əli Tercüme-i Halı Varakası (23 Ramazan 1329/4 Sentyabr 1327), Hüseyinzadə Əli Turan Arxivi, vr. 1-3; a.mlf, Bioqrafiya şərti xərcləri (fevral 1935),
2. Hüseyinzadə, Əli Turan Arxivi, vr. 1-8 (şeirlər topladığı kitabın başında); Saide Santur,
3. Əli Hüseynzadə (Əli Turan) 1864-1940: Türk düşüncəsi, yazıçı, Hüseynzadə Əli Turan Arxivi;
4. Sadettin Nüzhet Ergün, Türk şairləri, İstanbul 1936, II, 475-482;
5. Hilmi Ziya Ülkən, Türkiyədə Çağdaş Düşüncə Tarixi, Konya 1966, s. 425-439;
6. "Türkçülünün və Türk Sosializmin Atası Əli Turan", Yeni İnsan, VII / 84, İstanbul 1969, s. 6-11, 21-28; VIII / 85 (1970), s. 6-11, 21-25;
7. İsmət Ergin, Ali Bey Hüseyinzadə Həyatı, Əsərləri və Füyûzat Dergisi və Hayat Gazetesi'nde bir bölüm (mezuniyet tezisi, 1970), İÜ Ed. Fak .;
8. İlham Həbibullayev, Hüseynzadə Əli Bəy (Turan) Həyat və Fikirlər (aspirantura - 2001), İÜ Sosial Elmlər İnstitutu;
9. Azər Turan, Əli Bey Hüseynzadə, Moskva, 2008;
10. Yusuf Akçura, "Hüseyinzadə Əli Bəy", TY, Series I: VIII / 81 (1331/1915), s. 2550-2556; II. serial: sy. 82 (1331), s. 2566-2570; III. serial: sy. 83 (1331), s. 2581-2585-ci maddələrində (bax: Sabahtin Çağın, Kardas Ədəbiyyat, s.23, Ankara 1992, s. 32-44);

# ELMİ KİTABXANALARDA ELEKTRON KATALOQUN YARADILMASI VƏ TƏTBİQİ VƏZİYYƏTİ

***Fidan Saniyeva***
*BDU, Sənəd resursları və informasiya axtarış sistemləri kafedrası, magistr*
*fsaniyeva@mail.ru*

***Научных библиотеках, создание и внедрение электронного каталога ситуацию***
***Резюме:****Этот день традиционно передаются в распоряжение пользователей интернет посредством технологии цифровых носителях информации, собранной в библиотеках и культурных ресурсов форму превращаясь в онлайн. В результате этого древнего периода до сегодняшнего дня были задержаны и без использования обеспечивается надежная охрана культурных ценностей человечества. Электронные библиотеки с дальнего расстояния читателям более полной информации службы, указывая на это время и пространство от обслуживания кладет конец.*
***In the establishment and application of research libraries electronic catalog***
***Abstract:****Traditional media and cultural resources, accumulated into digital form and via online users are given to the use of internet technologies in libraries today. As a result, to date from ancient times mankind was kept reliable protection of cultural property and provides unlimited use. Remote electronic libraries, more complete information service for readers time and space, rendering the service put an end to dependence.*
***Açar sözlər:*** *informasiya əsri, texnologiya, kataloq, informasiya cəmiyyəti, informasiya xidməti, sənəd kommunikasiyası, elektron xidmət, elektron kataloq*
***Ключевые слова:*** *Век информационных технологий, информационном обществе, информационная служба коммуникации, электронные услуги, электронный каталог, документ, каталогов*
***Keywords:*** *Information age technology, information society, information services, communication services, electronic catalog and electronic documents, catalog*

Kitabxanalar əsrlər boyu insan dühasının yaratdığı ideya və nəzəriyyələrin, yazılı abidələrin qorunduğu ən böyük informasiya mənbəyidir və bəşər sivilizasiyası öz inkişafına görə kitabxanalara borcludur. Bəşəriyyətin inkişafetdirici qüvvəsi olan bütün elmi nəzəriyyələr və texnologiyalar kitabxanalardan bəhrələnmişdir. Kitabxanalar yarandığı vaxtdan bu günə kimi insanların informasiya tələbatını ödəmək və informasiyanın gələcək nəsillərə ötürmək funksiyasınını yerinə yetirir və cəmiyyətin infrastrukturunda mühüm həlqədir. Bu gün kitabxanalar informasiyalaşdırılmış vətəndaş cəmiyyətinin əsas göstəricisi olan qlobal informasiya mühitinin, beynalxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin yaradılmasında, informasiyanın əmtəəyə çevrilməsində, informasiya və bilik bazarının yaradılması və inkişafında,

təhsil sisteminin və səviyyəsinin təkmilləşdirilməsində, cəmiyyətin peşə və ümumi mədəniyyət səviyyəsinin artmasında aparıcı rol oynamalıdır. Bunun üçün kitabxana işinin təkmilləşməsi, kitabxananın müasir səviyyəyə uyğun qurulması, ilk növbədə isə avtomatlaşdırılması zəruridir. (3)

Təəssüflər olsun ki, böyük kitabxana şəbəkəsinə malik olan Azərbaycanda kitabxanaların avtomatlaşdırılması işinə son bir neçə ildə başlanılmışdır və bu sahəyə həddən artıq maraq, tələbat vardır. Lakin qarşıya çıxan problemlərin çoxluğu, ayrı-ayrı naliyyətlərin olmasına baxmayaraq, hələ nəzərəçarpacaq nəticələrin əldə olunmasına imkan vermir. Bu problemlərdən biri də yüksək ixtisaslı kadr çatışmamazlığıdır. Bu məqsədlə Bakı Dövlət Universitetində yeni fənlər - «Kitabxana proseslərinin kompüterləşdirilməsi», «Avtomatlaşmış kitabxana sistemlərinin proqram təminatı» fənnləri tədris olunur. Aydın məsələdir ki, Ana dilimizdə müvafiq ədəbiyyatın olmaması, rus və ingilis dilli ədəbiyyatların əldə olunmasında obyektiv problemlər, tədrisdə müəyyən çətinliklər yaradır, tədrisin səviyyəsinə təsir edirdi.

Hazırda informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin zehni və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının, sosial-iqtisadi probləmlərin həllinin, yoxsulluğun aradan qaldırılmasının əsas göstəricilərindən hesab olunur.

Son illərdə ölkəmizdə cəmiyyətin sənəd-informasiya tələbatının, o cümlədən ədəbiyyata olan tələbatın daha dolğun şəkildə ödənilməsi üçün informasiya və kommunikasiya texnologiyalarından istifadə sahəsində bir sıra ciddi addımlar atılmışdır.

İnternet şəbəkəsinin yaranmasından sonra informasiya xidmətinin təşkilində yeni mərhələ başlandı. Bu gün internet şəbəkəsi ən mühüm telekommunikasiya vasitəsi hesab olunur. Onun təsiri elmin, təhsilin, mədəniyyətin, iqtisadiyyatın bütün sahələrində özünü göstərir. Belə ki, İnternet şəbəkəsi istənilən məlumatın dərhal dərc olunmasına imkan yaradır, əvvəllər əldə edilməsi qeyri-mümkün olan həcmdə informasiyanın işlənilməsini və analizini təmin edir. Kompüter texnologiyaları əsasında yaranan qlobal şəbəkə vasitəsilə məlumatın operativ şəkildə ötürülməsi və yayılması həyata keçirilir. (1)

Kitabxana əməliyyatlarının ənənəvi texnologiyasına görə, kitabxana işçisinin oxucu ilə şəxsən birbaşa əlaqəsi labüd idi. Çünki oxucu kitabxanaya gələrək ona lazım olan informasiya daşıyıcısını: kitab, jurnal, qəzet və s. götürərək istifadə etməli idi. Hətta həmin informasiya daşıyıcısı evə verilmədikdə belə, yenə kitabxanaya getmək lazım gəlirdi. Lazımi məlumatın əldə edilməsi üçün bir çox hallarda kitabxanalararası abonementdən (KAA) istifadə olunurdu. Bu isə bir növ məhsulun istehlakçıya poçt vasitəsilə çatdırılmasına bənzəyirdi.

Kitabxanalar yarandıqları zamandan etibarən məlumatın fiziki daşıyıcılarının kolleksiyasını toplamaqla uzun tarixi dövr keçmişlər. Bu məlumat daşıyıcılarının çoxu əsrlərlə kağız sənədlər formasında kitabxana fondlarının əhəmiyyətli hissəsini təşkil etmişdir. Lakin informasiya daşıyıcılarının yeni növlərinin yaradılması onlarla işləmə texnologiyasının yenilənməsini zəruri tələb kimi meydana çıxartmışdır.

1970-80-ci illərdə kompüter verilənlər bazasının genişlənməsi kitabxana proseslərinin avtomatlaşdırılmasına və idarə olunmasına səbəb oldu. Kataloq kartoçkalarının verilənlər bazası ilə əvəz olunması kağız üzərində həyata keçirilən bir çox prosesləri sıradan çıxartdı. Belə ki, kitabxanaların fəaliyyətində ən böyük nailiyyətlərdən biri də bütün mənəvi proseslərin avtomatlaşdırılması oldu, beləliklə də Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemləri (AKİS) yaradıldı. Kitabxanada avtomatlaşdırma proseslərinin tətbiqi onların bütün fəaliyyət istiqamətlərini əhatə edir: dövri nəşrlərə abunə yazılışı, sənədlərin komplektləşdirilməsi, işlənməsi, kataloqlaşdırılması, abonement və qiraət zallarında, oxucuların qeydiyyatı, ədəbiyyatın verilməsi və qaytarılması, kitabxanalararası abonement, ədəbiyyatın mühafizəsi, nadir nəşrlərin konservasiyası, xarici ölkələrlə ədəbiyyat mübadiləsinin təşkili və biblioqrafik fəaliyyətin ən mühüm istiqamətlərindən biri olan biblioqrafik informasiya xidməti və s. (5)

Bu gün dünyada çoxlu sayda Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemləri (AKİS) mövcuddur: VTLS, İRBİS, Millenium, Follet, Kleph, Ruslan və s. Lakin bu AKİS-lərin hamısı məbləğinə, təyinatına, istifadə edilmə məkanına, işçi yerlərinin sayına, internet şəbəkəsinə çıxma imkanına, tam mətnli informasiyalan əks etdirilməsinə, davamlılığına, yeniləşmə tezliyinə, müxtəlif dildə olan informasiyaların daxil edilməsinə, məlumat bazalarının yaradılması və çoxaldılması sayına və s. inqridientlərə görə bir-birlərindən fərqlənirlər.

Azərbaycanda adı çəkilənlərdən İRBİS-64, VTLS sistemləri geniş tətbiq olunur. Məsələn, İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemi Azərbaycan Respublikasında aşağıda adı qeyd olunan kitabxanalarda tətbiq olunur:

- Prezident Kitabxanası
- Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası
- F.Köçərli adına Respublika Uşaq Kitabxanası
- Bakı Dövlət Universitetinin Elmi kitabxanası
- Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi kitabxanası
- Azərbaycan Dillər Universitetinin Elmi kitabxanası
- Respublika Elmi Tibb Kitabxanası
- Respublika Elmu Kənd Təsərrüfatı Kitabxanası
- Respublika Elmi Texniki Kitabxanası

VTLS AKİS-i isə M.F.Axundov adına Milli kitabxanada hal-hazırda istifadə olunur. (4)

Azərbaycan kitabxanalarında elektron kataloqların yaradılması tarixini tədqiq edərkən məlum oldu ki, ölkəmizdə ilk dəfə ötən əsrin 70-ci illərində Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası və Respublika Elmi Texniki Kitabxanasının təşəbbüsü ilə kartoçka kataloqlarının maqnit lentlərinə köçürülməsi işinə başlanılıb. Həmin kitabxanalarda ilk dəfə olaraq informasiya axtanş sistemlərindən, informasiyanın vahid mərkəzdə toplanması və paylanması sistemlərindən istifadə olunub.

Son 10 il ərzində Azərbaycan kitabxanalarında elektron kataloqların yaradılması üzrə fəaliyyətlər xeyli intensivləşib. Artıq ölkə kitabxanalan üzrə,

elektron kataloqlarda əks olunan biblioqrafik yazılanın ümumi sayı, 300 mini keçib. Lakin bu göstəriciləri qənaətbəxş hesab etmək olmaz.

Elektron kataloqların yaradılması üçün nəzərdə tutulan Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemlərinin təsnifatı verilib, onlarıb işləmə mexanizmi, oxşar və fərqli xüsusiyyətləri, tipologiyası, mənfi və müsbət tərəfləri müəyyən olunub. AKİS-lər vasitəsilə elektron kataloqların yaradılması üzrə fəaliyyətlərin mənşəyi araşdırılıb. Azərbaycan kitabxanalarında elektron kataloqların hazırlanması üçün platforma rolunu oynayan "İRBİS-64", "Ruslan", "OPAC GLOBAL", Biblioteka 5.0" AKİS-lərinin tətbiq sahələrindən və tətbiq formalarından bəhs olunub, bu sistemlərin texniki cəhətdən saz vəziyyətdə saxlanılması məsələlərinə toxunulub, müxtəlif sistemlər arasında uyğunluq səviyyəsi araşdırılıb, struktural cəhətdən uzlaşmayan AKİS-lərin daxili quruluşu öyrənilib və ümumiyyətlə, kitabxana proseslərinin avtomatlaşdırılması üçün daha optimal variantlar təklif olunub. Eyni zamanda hər bir AKİS-in daxili quruluşu, Avtomatlaşmış İşçi Yeri haqqında məlumat verilib.

"İRBİS", "Ruslan", "OPAC GLOBAL", "Biblioteka 5.0" AKİS-lərinin iş xüsusiyyətləri, onlar vasitəsilə ədəbiyyatın nece elektron ktaloqa daxil olunması ətraflı öyrənilib. Bu AKİS-lərin köməyi ilə oxucuların elektron kataloqdan istifadə edə bilmələri və elektron kataloqa uzaq məsafədən əliyetərliliyin olması araşdırılıb. Oxucuların elektron kataloqdan istifadəsini asanlaşdırmaq üçün proqramın imkanı daxilinə sadə interfeys təklif olunub. (3)

Ədəbiyyatın kitabxana qaydası ilə işlənməsi üçün hər bir elektronlaşmış elmi kitabxanada yuxarıda adlarını çəkdiyimiz AKİS-lərdən istifadə olunur.

Oxuculara xidmət işində kitabxana proqramlarının necə və hansı məqsədlər üçün istifadə olunması və oxucuların sorğularının tez və operativ şəkildə ödənilməsi mühüm əhəmiyyət kəsb edir. İlk olaraq M.F.Axundov adına Milli Kitabxananın iş prinsipi nəzərə alınmalıdır. Belə ki, Milli Kitabxanada istifadə olunan VTLS AKİS-i haqqında, onun kitabxanada nə üçün tətbiq olunması haqqında məlumatlar əks etdirilmişdir. VTLS VİRTUA AKİS-i Milli Kitabxanada uzun müddətdir tətbiq olunur. Proqram vasitəsilə xeyli kitab elektron kataloqa yerləşdirilmişdir.

Bu AKİS vasitəsilə Elektron Kataloqunun tərtibi, Elektron Kitabxananın təşkili, Oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, Milli biblioqrafiyanın tərtibi, Toplu kataloqun yaradılması işinın həyata keçirilməsi araşdırılmışdır. VİRTUA proqramının kitabxanalar, arxivlər, muzeylər və korporasiyalar üçün materialların rəqəmli formaya çevirməsi, ən yüksək və peşəkar səviyyədə təmin etməsi, proqramın muzey kolleksiyalarının analizindən tutmuş, məlumat bazalarının yaradılması və interfeysin dizaynına qədər informasiyaların rəqəmli formaya çevrilməsində və əks olunmasında ən yeni texnologiyalardan istifadə etməsi ərtaflı araşdıraraq əks olunmuşdur. (7)

Azərbaycan Milli Kitabxanası VTLS proqramının bütün modullarını almışdır. Administrator yarımsisteminin köməkliyi ilə mütəxəssislərimiz avtomatlaşdırılmış idarəetmə sisteminin yeni və son versiyasının quraşdırma işlərini başa çatdırıblar. Bununla əlaqədar olaraq kitabxana işçilərinin əməyi xeyli yüngülləşmişdir.

Dünyanın bir çox iri kitabxanalarında tətbiq olunan "VTLS-VİRTUA" adlı sistem vasitəsilə həyata keçirilən avtomatlaşdırma, oxucu sorğularının virtual şəkildə ödənilməsinə və ödənilən arayışların tam şəkildə məlumat bazasında saxlanmasına şərait yaradır, onların təkrar istifadəsinə imkan verir. Bundan başqa, "VTLS" avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında elektron kataloq vasitəsilə oxuculara operativ məlumat verilməsi məsələsini də həll edib.

Yaxın bir neçə il ərzində kitabxanalarımız sahib olduqları sistemləri tam mənimsədikdən və tətbiq etdikdən, sınaqdan çıxardıqdan sonra öz fəaliyyətlərində istifadə edəcəklər. Lakin nə qədər vaxtın ötməsindən asılı olmayaraq Milli Kitabxana, gec-tez bu gün istifadə etdiyi "VTLS" proqramını, ölkə kitabxanalarında ümumən istifadə olunan AKİS-lərdən biri ilə əvəz edəcək və ya MAKİS yaradılana qədər "VTLS"dən istifadəni davam etdirəcək.

Respublika Elmi Tibb Kitabxanasının da bu sahədə fəaliyyəti diqqətəlayiqdir. Belə ki, kitabxana öz iş prosesində İRBİS-64 AKİS-indən istifadə edir. Bunları nəzərə alaraq kitabxanada AKİS-in tətbiqi xüsusiyyətləri geniş tətbiq olunmuşdur.

Tibb Kitabxanasında İRBİS-64 AKİS-inin istifadə olunması ilə ənənəvi kitabxana proseslərinin bir qismi avtomatlaşdırıldı, yeni avtomatlaşdırılmış işçi yerləri vasitəsilə kitabxanaçı əməyi minimuma endirildi, kitabxanaya yeni daxil olan bütün ədəbiyyatın, eləcə də fonddakı ədəbiyyatın bir qisminin elektron kataloqu hazırlandı, elektron kitabxananın yaradılmasına başlanıldı, müxtəlif elm sahələrinə aid elektron məlumat resursları istifadəyə verildi, kitabxanalar arasında inteqrasiyalı kitabxana-informasiya sisteminin yaradılmasına başlanıldı və həmin kitabxanalarda "İRBİS-64" AKİS tətbiq edildi. (8)

Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin elektron kolleksiyası Azərbaycan, ingilis, rus, türk, ərəb, fars, alman, fransız, ispan, italyan, yapon, çin və digər müasir Avropa və Şərq dillərində olan iqtisadiyyat və menecment, mühəndislik və tətbiqi elmlər, təhsil, sosial elmlər, siyasi elmlər və beynəlxalq münasibətlər, hüquq, dil, incəsənət, memarlıq, fəlsəfə, ədəbiyyat, tarix, tibb və digər sahələrə aid çap və elektron materialları əhatə edir. Kitabxana materiallarının təxminən 75%-i ingilis dilindədir. Dünyada nəşr olunmuş dərsliklər, həmçinin Xəzər Universitetinin Nəşriyyatının nəşrləri kitabxananın elektron məlumat bazasında əks olunub. KİM-in birdilli və ikidilli ensiklopediyalar da daxil olmaqla zəngin soraq-məlumat kolleksiyası var. Mərkəz Azərbaycanda ingilis dilli dərslik və digər materiallara görə ən geniş kitabxana olmaqla yanaşı, həm də ən böyük özəl universitet kitabxanasıdır.

Son bir neçə il ərzində tədqiqatçılara kömək məqsədilə KİM-in Elektron Arxivi yaradılıb. Arxivə Universitetin və onunla əməkdaşlıq edən tədqiqatçıların birgə apardıqları tədqiqat işləri daxil edilir. 2011-ci ilədək KİM-də "İRBİS-64" AKİS vasitəsilə 136 min biblioqrafik yazı elektron kataloqa daxil edilib. (2)

Azərbaycan Dillər Universitetinin Kitabxanasında EK-in yaradılmasına son bir neçə ildə başlanılıb. Kitabxananın "Avtomatlaşdırma və informasiya texnologiyaları" bölməsi bilavasitə EK-lərin yaradılması, mühafizə və yenilənməsilə məşğul olur. Bölmənin qarşısında duran əsas vəzifələr kitabxanada

avtomatlaşdırma işini yüksək səviyyədə təşkil etmək, qlobal və lokal şəbəkə vasitəsi ilə ölkədaxili və ölkədənkənar kitabxanalar, müxtəlif təşkilatlar və dövlət strukturları ilə əlaqələr yaratmaq, yeni informasiya texnologiyalarının inkişafı ilə əlaqədar ən son yenilikləri Universitet kitabxanasında tətbiq etmək, kitabxanada istifadəçi sorğularının operativ, sistematik, obyektiv və müasir səviyyədə (İnternet, tam mətnli elmi bazalar, müxtəlif informasiya-resurs mənbələri vasitəsilə) ödəməkdir. Ölkəmizdəki bir çox kitabxanalar kimi, Dillər Universitetinin Kitabxanasmda da EK-in yaradılması məqsədilə “İRBİS-64” AKİS-dən istifadə olunur. Kitabxananın əməkdaşlan son 7 il ərzində 67 min kartoçka kataloqunu elektronlaşdırıblar.

Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana-İnformasiya Mərkəzi də 2005-ci ildən etibarən yeni texnologiyalann tətbiqi nəticəsində EK sistemini xeyli genişləndirə bilib. Kitabxana-İnformasiya Mərkəzində EK-in yaradılması üçün “İRBİS-64” AKİS-dən istifadə edilir. Mərkəzin elektron kataloqu bir neçə aidiyyatı kitabxananın birləşmiş kataloqudur. Kataloq, iqtisadiyyat, siyasət, sosiologiya və təhsil üzrə həm çap materiallanın, həm də elektron sənədlərin biblioqrafık yazılarından ibarətdir. EK-də axtarış nəticəsində tapılan sənədin elektron variantına (varsa) birbaşa keçid mümkündür. Hazırda Mərkəzdə 53 min ənənəvi kataloq elektronlaşdırılaraq həm lokal, həm də qlobal şəbəkə vasitəsilə oxucuların istifadəsinə verilib. Mərkəzin EK-ində axtarışı asanlaşdırmaq üçün ETMDR (elmi-texniki informasiyanı sistemləşdirən müxtəlif bilik sahələri üzrə universal, üç səviyyəli iyerarxik klassifıkasiya sistemi) rubrikatorundan istifadə olunur.

Tədqiqatlar göstərir ki, Milli Kitabxana istisna olmaqla, iri kitabxanalarımızın böyük əksəriyyətində “İRBİS-64” AKİS-in tam komplekti tətbiq olunur. Bu sistem fondun komplektləşməsindən tutmuş, kitab verilişinədək bütün kitabxana proseslərinin avtomatlaşdırılmasını təmin edir. Sistem həm də oxuculara kitabxanalarda hazırlanmış tammətnli verilənlər bazasından istifadə etməyə də imkan verir. (6)

Beləliklə, Azərbaycan kitabxanalarında elektron kataloqun yaradılması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işinin tarixini araşdırarkən belə bir nəticəyə gəlirik ki, əsası hələ ötən əsrin 70-ci illərində AMEA MEK və Respublika Elmi-Texniki Kitabxanası tərəfindən qoyulan maşınlaoxunan kataloqlaşdırma fəaliyyəti bir neçə illik fasilədən sonra - 1993-cü ildən etibarən dirçələrək yeni inkişaf mərhələsinə qədəm qoyub; 1999-cu ildən başlayaraq müasir elektronlaşdırma işləri aparılıb və 2011-ci ilin göstəricilərinə görə Azərbaycan kitabxanalannda ümumilikdə 1,5 milyona yaxın biblioqrafik yazı elektronlaşdırılıb.

**Ədəbiyyat**

1. Əliyeva-Kəngərli, A. Elektron kitabxanalarm inkişafı: dünya və Azərbaycan təcrübəsi, problemlər və perspektivlər // AMEA MEK-in Elmi əsərləri 2004, №5, s.3-11.

2. Elektron məlumat bazalarının yaradılması və virtual xidmət: metodiki tövsiyyə / tərt.ed. S.Salmanlı; ixt.red. və bur. məs. K.Tahirov

3. Həsənova, N.Ə. ”İnformasiya və kommunikasiya texnalogiyalarının kitabxana proseslərinə tətbiqində elektron kitabxanaların rolu”, Kitabxanaşünaslıq və informasiya, İSSN 2219-5882 , Bakı – 2014,№ 3(15), səh 69-81.
4. Pilko, İ.S. Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti. Bakı, “Nurlar” nəşriyyatı-poliqrafiya mərkəzi, tərcümə edəni prof. X.İsmayılov, 2009.-312 səh.
5. Xələfov, A.A., Qurbanov, A.İ. Kitabxanaların kompüterləşməsinin əsasları: Dərslik. Bakı: BUN, 2006,205 s.
6. Xələfov, A.A., Kitabxana və cəmiyyət. Monoqrafiya, Bakı “Azərnəşr”,2011,348 s
7. stat.gov.az
8. vikipedia.az

# KİTABXANA İŞİNİN İDARƏETMƏ MƏDƏNİYYƏTİ

***Safura Hacıyeva***
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş laborantı*

***Культура управления библиотечной работой***
***Резюме:****В статье рассматривается культура управления библиотечной работой, ее сущность и ее характеристики. Проводится обобщение конкретных аспектов культуры управления библиотечной работой.*
***The management culture of library work***
**Abstract:** *The article deals with the management culture of the library work, its essence and its characteristic features. Also, this article is generalizationed about the specific aspects of the management culture of library work .*
***Açar sözlər:*** *mədəniyyət, kitabxana, sənəd, fond, idarəetmə, kitabxana işi, kitabxana mədəniyyəti, informasiya*
***Ключевые слова:*** *культура, библиотека, документ, фондовый, управление, библиотечная работа, библиотечная культура, информация*
***Keywords:*** *culture, library, document, fund, management, library work, library culture, information*

İdarəetmə mədəniyyəti cəmiyyətin ümumi mədəni səviyyəsini xarakterizə edən ən mühüm amillərdən biridir. O, hər bir cəmiyyətdə insanların fəaliyyətinin təşkili və idarə edilməsini təmin edən forma və üsullar sisteminin intellektual səviyyəsidir.

İdarəetmə mədəniyyətinə nail olmaq hər bir idarəedici orqanın, onun kollektivinin ən mühüm vəzifəsidir. Çünki idarəetmə mədəniyyəti olmadan idarəçilik fəaliyyətinin heç bir sahəsində səmərəli nəticə əldə etmək mümkün deyildir.

Kitabxana işində idarəetmə mədəniyyəti anlayışı özündə aşağıdakı ünsürləri birləşdirir:

• *İdarəetmə orqanları işçilərinin mədəniyyəti;*
• *İdarəetmə prosesləri mədəniyyəti;*
• *Sənədləşdirmə və kargüzarlıq mədəniyyəti*

Şübhəsiz ki, idarəetmə prosesində bu ünsürlər qarşılıqlı əlaqədə olub, sistemli şəkildə təzahür edərək bir-birilərini tamamlayırlar.

İdarəetmə orqanları işçilərinin mədəniyyəti dedikdə, ilk növbədə onların idarəçilik peşəsinin elmi əsaslarına, incəliklərinə yiyələnməsi nəzərdə tutulur. Bundan əlavə, öz peşə səviyyəsinin və ümumi mədəniyyətinin müntəzəm surətdə artırılması, müsbət şəxsi keyfiyyətlərinin daim inkişaf etdirilməsi, eləcə də öz fəaliyyətinin nəticələrini daim təhlil etmək qabiliyyəti də onların yüksək mədəni səviyyəsini sübut edən amillərdir.

İdarəetmə orqanları işçilərinin mədəniyyətini sübut edən mühüm göstəricilərdən biri də onların öz tabeçiliyində olan insanlarla davranış və ünsiyyət

prosesində etik qaydalara əməl etməsidir. Bu qaydalar vaxtı ilə tanınmış amerikan alimi, insan münasibətləri üzrə mütəxəssis Deyl Karneqi tərəfindən müəyyənləşdirilmişdir. Onlar aşağıdakılardır:

1. Ünsiyyətə həmsöhbətinizi tərifləmək, onun müsbət cəhətlərini etiraf etməklə başlayın.
2. Başqalarından nöqsanlarına birbaşa yox, dolayı yollarla işarə edin.
3. Həmsöhbətinizi tənqid etməkdən əvvəl öz nöqsanlarınızdan danışın.
4. Həmsöhbətinizə nəsə əmr etmək əvəzinə, ona suallar verin.
5. İnsanlara öz nüfuzunu xilas etmək imkanları yaradın.
6. İşçilərin xırda uğurlarını belə rəğbətlə qarşılayın, onların hər bir nailiyyətini qeyd edin.
7. İnsanların müsbət nüfuzunu yaradın ki, onu doğrultmağa çalışsınlar.
8. İnsanları həvəsləndirməyə çalışın. Nöqsanları aradan qaldırmaq istədikdə, elə təsəvvür yaradın ki, bu iş çətin deyil.
9. Çalışın ki, insanlar sizin təkliflərinizi xoş əhval-ruhiyyə ilə həyata keçirsinlər. [4, s.139]

İdarəetmə orqanları işçilərinin, o cümlədən menecerlərin mədəni səviyyəsini xarakterizə edən amillərə eyni zamanda, onların əxlaqı, həyat tərzi, nitq mədəniyyəti, xarici görünüşü, başqalarına hörmət, alternativ fikirlərə diqqət və s. daxildir.

İdarəetmə prosesləri mədəniyyəti özündə idarəçilik əməyinin səmərəli təşkilini, bu işdə elmi nailiyyətlərin və müasir texnologiyaların tətbiqini, müvafiq normativ sənədlərə dəqiq əməl edilməsini nəzərdə tutur.

İdarəetmə prosesləri mədəniyyətinin əsasını bu və ya digər tədbirlərin həyata keçirilməsinin sosial məsuliyyəti təşkil edir. Kitabxana işinin idarə edilməsində sosial məsuliyyətin iqtisadi, hüquqi və etik aspektləri vardır.

İqtisadi məsuliyyət kitabxana işinə dair idarəçilik qərarlarının bazar münasibətlərinə uyğunluğu ilə əlaqədar olub, onların marketinq və təsərrüfatçılıq fəaliyyətinin optimal idarə olunmasını təmin edən məsuliyyətdir.

Hüquqi məsuliyyət kitabxana işinin idarə edilməsinin bütün səviyyələrində dövlətin müvafiq qanun və normativlərinə ciddi surətdə əməl edilməsini tələb edir. Etik məsuliyyət birinci növbədə oxuculara xidmət işində, kitabxana-oxucu münasibətlərində etik normalara riayət edilməsini nəzərdə tutur. Bəzən iqtisadi məsuliyyətlə etik məsuliyyət arasında ziddiyyətli məqamlar meydana çıxa bilər. Məsələn, kitabxanalarda pullu xidmətlərin tətbiqi iqtisadi baxımdan düzgün olduğu halda, həmin xidmətlərin yüksək qiymətlərini etik baxımdan düzgün saymaq olmaz.

Bütün bunlar idarəetmə mədəniyyətində sosial məsuliyyət amilinin güclü olmasını göstərir. Kitabxana işinə dair idarəetmə proseslərinin mədəni səviyyəsini xarakterizə edən mühüm göstəricilərdən biri də idarəetmə əməyinin elmi təşkilidir. İdarəetmədə əməyin elmi təşkili o zaman müsbət nəticə verir ki, onun prinsipləri idarəetmənin bütün mərhələlərində texniki işçilərdən rəhbər işçilərə qədər həyata keçirilmiş olsun. [1, s.29].

Bu prinsiplərə aşağıdakılar daxildir:

1. *Elmilik prinsipi.* Bu prinsip idarəetmədə elmin son nailiyyətlərinin tətbiqini nəzərdə tutur. Bu hər şeydən əvvəl idarəetmədə istifadə edilən elm sahələrinin müəyyənləşdirilməsi və onlardan istifadə edilməsi mexanizminin yaradılmasını tələb edir. Bu baxımdan idarəetmə əməyinin təşkilində müasir kompüterləşmə proseslərindən, sosial-iqtisadi, pedaqoji-psixoloji, informatika elmlərinin nailiyyətlərini birləşdirən fəaliyyət formalarından istifadə edilməsi idarəetmənin keyfiyyəti və səmərəsini xeyli artırır.

2. *Planlılıq prinsipi.* Bu prinsip istər idarəetmə orqanlarında və istərsə də kitabxanalarda ƏET-in planlı surətdə həyata keçirilməsini, onun mühüm mərhələlərinin, icra mexanizminin və icraçıların əvvəlcədən müəyyənləşdirilib fəaliyyətlərinin tənzimləndirilməsini nəzərdə tutur. Bütün kitabxana müəssisələrində əməyin elmi təşkili məsələləri onların iş planında müstəqil bölmə təşkil etməlidir.

3. *Sistemlilik prinsipi.* Bu prinsip əməyin elmi təşkilinin bütün istiqamətləri arasında əlaqələrin yaradılmasını, bu işin təşkilində idarəedən və idarəedilən sistemlər arasında əmək bölgüsünün aparılmasını, kooperasiyasını, ƏET-in idarəetmə orqanlarının bütün strukturlarında sistemli şəkildə həyata keçirilməsini tələb edir.

4. *Reqlamentləşdirmə prinsipi.* İdarəçilik əməyinin elmi təşkilində mədəniyyət, kitabxana işi, informasiya fəaliyyəti və digər əlaqədar sahələr üzrə müəyyən olunmuş qaydaların, qanunların, normativlərin müəyyən edilməsi və onlara əməl olunmasını nəzərdə tutur.

5. *Ahəngdarlıq prinsipi* qarşıya qoyulmuş, konkret vəzifələrdən irəli gələrək kitabxana işini idarə edən orqanların bütün həlqələrində müvafiq işlərin bərabər səviyyədə yerinə yetirilməsini təmin edən vahid ahəngin olmasını tələb edir. Bu prosesdə idarəetmə orqanları ilə bilavasitə kitabxanaların ahəngdar fəaliyyəti ən mühüm şərtdir.

6. *Qənaətcillik prinsipi* idarəetmədə, o cümlədən kitabxanalarda az xərclərlə maksimum nəticə əldə etməkdir. Bu prinsipin tələbləri kitabxana işinin idarə olunmasında, mühüm kitabxana-informasiya proseslərinin həyata keçirilməsində qənaətcillik rejiminin tətbiqi, insan, maddi-maliyyə və informasiya ehtiyatlarından səmərəli istifadə etməklə kitabxana xidmətində optimal nəticələr əldə etməyi nəzərdə tutur. [4, s.188-189]

Məsələni yekunlaşdırarkən qeyd etmək istərdik ki, ölkəmizdə kitabxana işinin idarə edilməsində əməyin elmi təşkili, bu sahədə dünya təcrübəsində istifadə edilən qabaqcıl metodlar olduqca zəif tətbiq edilir. Bu baxımdan kitabxana işində, o cümlədən onun idarəedilməsində əməyin elmi təşkili problemlərinin işlənməsi müasir Azərbaycan kitabxanaşünaslığının mühüm vəzifələrindən biri kimi meydana çıxır.

*Sənədləşdirmə və kargüzarlıq mədəniyyəti.* Kitabxana menecmentində sənədləşdirmə və kargüzarlığın düzgün təşkilinin böyük əhəmiyyəti vardır.

Sənədləşdirmə - sənədlər sisteminin yaradılması prosesidir. Kargüzarlıq isə sənədləşdirmə məsələləri, habelə həmin sənədlərlə işlərin təşkili fəaliyyəti ilə

bağlıdır. Sənədlərlə işlərin təşkilinə sənədlərin hərəkəti, axtarılması, saxlanılması ilə əlaqədar bütün işlər daxildir. [5, s.88].

Kitabxana işinin idarə olunmasında istifadə edilən sənədlər funksional təyinatına görə əsasən aşağıdakılardan ibarətdir:

a) təşkilati sənədlər (qanun, əsasnamə, təlimatlar, əmrlər, sərəncamlar, plan və proqramlar, müxtəlif normativlər, maliyyə sənədləri və s.);

b) məlumat sənədləri (protokollar, aktlar, arayışlar, hesabatlar, uçot sənədləri və s.);

c) operativ sənədlər (müxtəlif xidməti məktublar, yazışmalar).

Kitabxanalara rəhbərlik edən idarələrdə, eləcə də kitabxananın müdriyyətində sənədlərlə aparılan işlər aşağıdakı kimi olmalıdır:

a) sənədlərin alınması;

b) sənədlərin qeydiyyatı;

c) sənədlərin icrasına nəzarət;

d) icra olunmuş sənədlərin yenidən qeydiyyatı və arxivə verilməsi. [2, s.133]

Bütün sənədlər müvafiq kağıztikənlərdə (qovluqlarda) saxlanılır, onların xarakterindən asılı olaraq daimi və ya müvəqqəti saxlanılmaq üçün arxivə verilir.

Hər bir sənədin qeydiyyat əməliyyatı operativ və dolğun olmalıdır. Belə ki, kitabxanaya daxil olan hər bir sənədin xarakteri və növü, haradan daxil olması, daxil olma tarixi, hansı məsələyə aid olması, icra üçün sərəncam, icraçı, icra müddəti qeydiyyat kitabında öz əksini tapmalıdır.

**Ədəbiyyat**


1. İsmayılov, X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri: Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2009.-№1.-s.27-39.
2. İsmayılov, X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər): Monoqrafiya. – B.: BDU nəşr-tı, 2000.- 416s.
3. İsmayılov, X.İ. Kitabxana menecmentinin əsasları: Dərs vəsaiti .-B.: BDU nəşr-tı, 2005.-199s.
4. İsmayılov, X.İ. Kitabxana işinin təşkili və idarə olunması:(Dərslik).-B.: “Nurlar”, 2010.-328 s.
5. Rzayev, S.M. Kitabxana xidməti: Dərslik.- B.: BDU nəşr-tı, 2009.-337 s.

## İQTİSADİYYAT SAHƏSİNDƏ QANUNVERİCİLİK MƏSƏLƏLƏRİ ÜZRƏ SƏNƏD AXINININ İNKİŞAFI

***Sevda Kərimova***
*BDU, Kitabxanaçılıq-informasiya fakültəsinin Biblioqrafiyaşünaslıq kafedrası*
*sevda.kerimova1@gmail.com*

***Развитие документального потока по вопросам законодательства в области экономики***

***Резюме:****Экономика-базис общества, совокупность общественных производственных отношений, система экономических наук. В сфере экономики функционируют многочисленные хозяйственные объекты, в которых осуществляется производственная и управленческая деятельность, организация труда и производства. На развитие экономики оказывает влияние уровень производительных сил и характер производственных отношений, уровень профессиональной подготовленности кадров, эффективность стимулирования их трудовой деятельности. В экономике реализуютсямногогранные интеграционные связи. Имеют место и другие факторы, определяющие состояние, развитие и эффективность экономической деятельности.*

***Development of documentary flow on issues of legislation in the field of economics***

***Abstract:****Economics is the basis of society, the totality of social production relations, the system of economic sciences. In the economic sphere, there are numerous economic facilities in which production and management activities, the organization of labor and production are carried out. The development of the economy is influenced by the level of productive forces and the nature of production relations, the level of professional preparedness of personnel, the effectiveness of stimulating their labor activity. In the economy, multi-faceted integration ties are realized. There are other factors that determine the state, development and effectiveness of economic activity. Considering the importance of economic legislation, this work focuses on the thematic structure of the documentary flow on these issues.*

***Açar sözlər****: iqtisadi, hüquqi, informasiya, bazar iqtisadiyyatı, əmək, birja, səhmdar, maliyyə, vergi, sahibkarlıq, qanun.*

***Ключевые слова:*** *экономическая, юридическая, информация, рыночная экономика, труд, биржа, акционер, финанс, налог, предпринимательство, закон.*

***Keywords:*** *economic, legal, information, market economy, labor, stock exchange, shareholder, finance, tax, business, law.*

Ölkənin hüquqi sisteminin formalaşmasına daha çox təsir göstərən normativ aktlar Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Nazirlər

Kabineti, Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri və başqa mərkəzi icra hakimiyyəti orqanları tərəfindən qəbul edilir. Müasir mərhələdə iqtisadi-hüquqi fəaliyyət coşqun yaradıcı hüquqi işdə təzahür edir. Son illərdə bu iqtisadi islahatların ardınca davam edir. Bu fəaliyyət öz xarakterinə görə çoxsəviyyəlidir və yalnız yuxarı qanunvericilik orqanlarınını deyil, həm də hökumətin, nazirlik və idarələrin, yerli idarəetmə orqanlarının da funksiyasına çevrilir.

Müasir sahibkarlıq fəaliyyətinin qanunvericilik bazasının inkişafının başlanğıcı 1992-ci il 15 dekabr tarixli "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasinin Qanununun və 1999-cu il 4 iyun tarixli "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasinin Qanununun qüvvəyə minməsi ilə əlaqədardır. Bu qanunlar müstəqillik illərində ilk dəfə olaraq, təsərrüfatın keçmiş sosialist üsulu ilə idarə olunması ilə təsərrüfatın formalaşan bazar iqtisadiyyatı şərtləri ilə idarə olunması arasında hüdud rolunu oynayırdı.

1992-ci il 15 dekabr tarixində "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Burada beynəlxalq hüquq baxımından keçmiş sovet dövründə qəbul olunmuş qanunlarla müqayisədə çox fərq vardı. Bu qanunda ilk dəfə olaraq normativ-hüquqi anlayışı, "Fərdi və şərikli şəkildə həyata keçirilən sahibkarlıq" anlayışı verilmişdir. Bu qanunda göstərilirdi ki, sahibkarlıq fəaliyyətiməhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirilən müstəqil təşəbbüskarlıq fəaliyyətidir.Qanunda sahibkarın statusu daha konkret müəyyən olunmuşdur. 4 iyun 1999-cu il tarixli "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasinin Qanununda "Kiçik sahibkar" anlayışı ifadə olunmuşdur. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 610 saylı fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı" fəaliyyətə başlamışdır. Bu proqramda da qeyd olunduğu kimi, Azərbaycan Respublikasında sahibkarlara kömək milli fondu, kiçik və orta sahibkarlığın inkişafı agentliyi və regionlarda sahibkarlığın inkişafı mərkəzləri yaradılmışdır.

Sahibkarlığın inkişafı üçün mühüm olan "Sahibkarlıq fəaliyyəti haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Müəssisələr haqqında", "Əmək birjası haqqında", "Lizinq kompaniyaları haqqında", "Haqsız rəqabət haqqında" qanunlar və digər normativ aktlar qəbul olunmuşdur. Xüsusi olaraq, 1999-cu 28 dekabr tarixində qəbul edilmiş Mülki Məcəlləni qeyd etmək lazımdır. Mülki Məcəllənin məqsəd və vəzifələrindən biri "sahibkarlıq fəaliyyətini dəstəkləmək; sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmaqdır" [1, 3]. Mülki Məcəllədə təsbit olunmuş müddəalar hazırki dövrdə iqtisadiyyatın hüquqi cəhətdən tənzimlənməsinin əsas mənbəyi olaraq çıxış edir və bütövlükdə sahibkarlıq hüququnun yeni nəzəri konsepsiyasının formalaşdırılmasında vacib rola malikdirlər [2].

Sahibkarlıq sahəsində dövlət nizamlanmasının və nəzarətin dəqiq sistemi olmalıdır. Bu proses qanunvericilik aktları ilə möhkəmlənməlidir. Nəzarətin belə formalarından biri də auditdir. Audit-müəssisənin verdiyi maliyyə haqqında informasiyanın səhihliyinə müstəqil nəzarətdir. Belə informasiya hesabatın,

balansın, müəssisənnin təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi üçün lazımdır. 16 sentyabr 1994-cü il tarixli “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənə qədər bu prosesin özlüyündə heç bir lazımi hüquqi əsası yox idi. Bundan sonra “Auditor fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi və əvvəlki qanun qüvvədən düşdü.

Dövlət və bələdiyyə müəssisələrinin özəlləşdirilməsi iqtisadi islahatların əsas hissəsidir. Özəlləşdirmə ilə əlaqəli suallar ölkə qanunvericiliyində geniş əks olunmuşdur. Ölkədə iqtisadi münasibətlər özəlləşdirmə haqqında xüsusi sənədlərlə nizamlanırdı. Özəlləşdirilmənin aparılması haqqında qanunverici əsas 10 avqust 2000-ci il tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı” və 23 dekabr 2000-ci il tarixli "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanunu olmuşdur. Lakin sənədlər tez-tez yenilənir, dəyişikliyə uğrayır. Məsələn, 19 may 2016-cı il tarixində Azərbaycan **Prezidenti** dövlət əmlakının özəlləşdirilməsi prosesinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında fərman imzalamışdır.

“Səhmdar cəmiyyəti haqqında”12 iyul 1994-cü il tarixli Azərbaycan Respublikasinin qanunu bazar münasibətləri dövründə cəmiyyətin iqtisadi strukturunu təyin edir. Müasir dövrdə elə bir vəziyyət yaranmışdır ki, ölkə iqtisadiyyatında aparıcı rol oynayan çoxsaylı təsərrüfat obyektlərinin fəaliyyəti qanunla nizamlanmışdır. Çünki real həyatın tələblərinə uyğun qanunvericiliyin icrasına tələbat yaranmışdır.

İqtisadiyyatın ən çox vergi tariflərində dəyişiklik baş verir. Bu sahədə çoxlu tamamlamalar, göstərişlər vardır. Onlar alqı və satqının həcminin dəqiq planlaşdırılmasına imkan vermir. Bu sahədə mövcud olan normativ sənədlər əsas çatışmazlıqların üzə çıxarılmasına kömək edir. Lakin müxtəlif ölkələrdəki vergi sistemlərinin inkişafı göstərmişdir ki, vergi sistemi əsasən qanunilik, ədalətlilik və bərabərlik prinsiplərinin təmiun edilməsi nəticəsində öz imkişaf yolunu tutmuşdur. Vergi sisteminin təkamül etməsi vergitutma məsələlərinin həm vergi ödəyiciləri, həm də dövlət üçün təkmilləşdirilməsi yolu ilə baş verir. Qanunilik, ədalətlilik və bərabərlik prinsiplərinin hər zaman yeniləşən məzmunu hazırkı dövrdə vergi sistemində şəffaflığın qorunub saxlanılmasını, İKT-dən geniş istifadəni, vergi yükünün ədalətli və bərabər bölgüsünü və ölkədə mütərəqqi vergi mədəniyyətinin yaradılması məsələlərinin aktual olmasını şərtləndirir[3, 55-56].

Vergi siyasətinin əsas xüsusiyyətindən biri budur ki, istehsal sferasının müəssisələri üçün düşünülmüş vergi stimulları istehsalın azalmasının qismən qarşısını alır. Bu ticarət fəaliyyətini istehsal fəaliyyətindən daha çox qazanclı edir. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi çox vacib məsələdir, belə ki, vergiqoyma sistemi bir çox hallarda uzun müddətli iqtisadi siyasəti müəyyən edir.

Müstəqillik əldə etdiyimiz zamandan ölkədə iqtisadi vəziyyətin qeyri-stabil inkişafı maliyyə və bank sferası da daxil olmaqla, bütün iqtisadi strukturların qarşılıqlı fəaliyyət göstərməsini təyin edir. Qanunvericilik dövlət və kommersiya

strukturlarının maraqlarını təmin etməyə xidmət edir. Bu, iqtisadiyyatı stabilləşdirməyə imkan verir.

Müair şərasitdə 1997-ci il 13 iyun tarixli "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi əhəmiyyət kəsb edir. İqtisadiyyatda bazar münasibətlərinin inkişafı, qanunvericiliyin inkişafı fonunda sözsüz ki, bu qanunun xüsusi əhəmiyyəti vardır.

İqtisadiyyat sahəsində qanunvericilik məsələləri üzrə sənəd axınının mövzu strukturu növbəti əsas bəndlərdə təqdim oluna bilər: özəlləşdirmə; maliyyə bazarı (kapital bazarı, investisiya fəaliyyəti, investisiya fondu, qiymətli kağızlar bazarı, valyuta bazarı); əmək bazarı (əhalinin məşğulluq problemi, əmək birjası, sosial sığorta, əmək münasibətləri); dövlətin iqtisadiyyatı bazar şərtləri ilə nizamlaması (təsərrüfat hüququ, sahibkarlıq hüququ, arbitraj, məcburi hüquq, kommersiya sirlərinin qorunması, antimonopoliya qanunvericiliyi, ticarət hüququ); vergiqoyma; innovativ siyasət, yeni texnologiyalar bazarı, informasiya məhsulları və xidmətləri bazarı; basar şərtləri ilə qiymətqoyma; maliyyə-kredit sistemi (banklar və bank fəaliyyəti, təsərrüfat orqanlarının maliyyəsi, mühasibat işi, audit, maliyyə hesabatı, sığorta işi); təsərrüfat orqanlarının müasir formalarаı (səhmdar cəmiyyətlər, holdinqlər, kooperativlər, birgə kiçik müəssisələr); xarici iqtisadi fəaliyyət; aqrar hüququ; mülkiyyət. Bu sahə üzrə sənəd axını çox dərin fərqləndirilir.

Son illərdə hüquqi məsələlər üzrə məcmuələrin nəşri geniş vüsət almışdır. Onları iki qrupa bölmək olar: 1) sahibkarlıq fəaliyyətinin müxtəlif aspektləri üzrə qanunvericilik aktlarının daxil olduğu ümumi xarakterli məcmuələr; 2) Hər hansı konket sahə üzrə qanunvericiliyi əks etdirən sahəvi xarakterli məcmuələr. Misal olaraq: "*Azərbaycanda kiçik sahibkarlıq-2009: statistik məcmuə*.- Bakı: 2009.- 342 s."; "Aqrar-sənaye sistemində fəaliyyət göstərən sahibkarlıq strukturlarının rəqabət qabiliyyətliyinin yüksəldilməsi.- Gəncə: 2016.- 22 s."; "*Azərbaycanda sahibkarlığın inkişafının bazar mexanizmləri: [monoqrafiya]* /AMEA, İqtisadiyyat İn-tu.- Bakı: Elm, 2008.- 300s."; "Keçid iqtisadiyyatında özəlləşdirmə problemi (Türkiyə təcrübəsi və Azərbaycanda özəlləşdirmə).- Bakı: 2006.- 26 s.; "*Özəlləşdirmənin nəzəri-metodoloji problemləri və retrospektiv iqtisadi təhli [Mətn]: Dünya təcrübəsi və Azərbaycanın timsalında* .- Bakı: Elm və həyat, 2001.- 303 s."; "Azərbaycan iqtisadiyyatı və bazar münasibətləri.- Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998.-208 s."; "*Azərbaycan Respublikasının Əmək Qanunvericiliyi*.- Bakı: Qanun, 2004.-592 s."; "*Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu*.- Bakı: 2001.-20 s." və s.

İqtisadiyyat sahəsində qanunvericilik məsələləri üzrə informasiyalar dövri nəşrlərin səhifələrində dərc olunur ("Qanun" jurnalı, "Azərbaycan" qəzeti). Hüquqi məsələlər üzrə sənəd axını ilə tanış olmaq üçün AMEA-nın ildə 4 nömrə 250 ədəd tirajla Azərbaycan və rus dillərində nəşr etdiyi "AMEA-nın Xəbərləri (iqtisadiyyat seriyası), AMEA-nın İqtisadiyyat İnstitutunun nəşr etdiyi "İqtisadiyyat İnstitutunun elmi əsərləri", "İqtisadiyyat və həyat" və s. jurnalları misal göstərmək olar.

İqtisadiyyat sahəsində qanunvericiliklə istiqamətlənməni informasiya mənbələri olan məlumat bazaları həyata keçirə bilər. Bu bazalara misal olaraq,

www.e-qanun.az, www.vesconsultancy.com, www.stat.gov.az, www.economy.gov.az, unec.edu.az, www.preslib.az, az.strategiya.az və s. göstərmək olar.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2011, 778 s., s.3
2. *Məmmədli, S.H.* **Sahibkarlıq hüququnun anlayışı haqqında.**https://dejure.az/az/article/sahibkarliq-huququnun-anlayisi-haqqinda
3. Yusifov, C.R. Vergitutma nəzəriyyələrində ədalətlilik, bərabərlik və qanunilik prinsiplərinin təkamülü //Azərbaycanın Vergi jurnalı.-№3(117).-2014.-s.55-56

# KİTABXANALARDA HEYDƏR ƏLİYEV İRSİ ÜZRƏ BİBLİOQRAFİK İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ PROBLEMLƏRİ

***Günel Bağırova-Hüseynova***
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, dissertant*
*gunel.bagirbeyli@mail.ru*

***Проблемы организации библиографической информационной службы по наследию Гейдара Алиева в библиотеках***
***Резюме:*** *В статье рассматриваются вопросы организации службы библиографической информации в библиотеках по наследию Гейдара Алиева. В информационных бюллетенях, подготовленных библиотеками, изучалась проблема отражения наследия Гейдара Алиева, опыт проведения выставок, посвященных Гейдару Алиеву, организованных библиотеками. Был изучен опыт работы Национальной библиотеки имени М.Ф.Ахундова, Центральной Научной Библиотеки НАНА, Президентской библиотеки Администрации Президента Азербайджанской Республики.*
***Organization problems of bibliographic information service on Heydar Aliyev's heritage in libraries***
***Summary:*** *The article examines the organization of bibliographic information service in libraries of Heydar Aliyev's heritage. In the information bulletins prepared by the libraries, the problem of reflection of the heritage of Heydar Aliyev was studied and the experience of organizing exhibitions dedicated to Heydar Aliyev was studied by the libraries. The article studied the experience of the National Library named after M.F Akhundov, the Central Scientific Library of ANAS, the Presidential Library of Administrative Department of the President of the Republic of Azerbaijan.*
***Açar sözlər:*** *Heydər Əliyev irsi,biblioqrafik informasiya xidməti, məlumat bülleteni, kitab sərgiləri*
***Ключевые слова:*** *наследие Гейдара Алиева, библиографическая информационная служба, информационный бюллетень, книжные выставки*
***Keywords:*** *Heydar Aliyev's heritage, bibliographic information service, information bulletin, book exhibitions*

Durmadan artan sənəd kütləsi arasında dolğun informasiya almaq üçün hər bir tələbatçı biblioqrafik xidmətə müraciət etməli olur ki, biblioqrafik xidmət biblioqrafik fəaliyyətin iki əsas tərkib hissəsindən birini təşkil edir.

Biblioqrafik fəaliyyət bütün tip kitabxanalarda həyata keçirilir və aşağıdakı istiqamətlərdə aparılır:

- kitabxananın soraq-biblioqrafiya aparatının (SBA) təşkili;
- müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibi;
- biblioqrafik informasiya xidməti (BİX);

- soraq-biblioqrafiya xidməti (SBX);
- tovsiyə biblioqrafiya xidməti;
- biblioqrafik biliklərin təbliği;
- biblioqrafik iş sahəsində elmi-tədqiqat və metodik fəaliyyət. (2,s.4)

Cəmiyyətin tələbatına uyğun olaraq müasir biblioqraf yeni xidmət növləri axtarır və onları inkişaf etdirir. Sorğuların ödənilməsinə yönəlmiş dolğun sənəd fondunu komplektləşdirməsi, kitabxana fondunu bütünlüklə açan kataloq-kartoteka sistemini (ənənəvi və elektron) yaratmaq, tələbatçılara mükəmməl kitabxana-biblioqrafiya xidmətinin təşkilini nəzərdə tutur.

Yeni ədəbiyyat haqqında tələbatçılara operativ biblioqrafik informasiyanın çatdırılmasını nəzərdə tutan biblioqrafik informasiya xidmətinin fərqli biblioqrafik xidmət və fərqləndirilməyən biblioqrafik informasiya xidməti olmaqla iki növündən istifadə olunur.

Kitabxanalarda aparılan fərqli biblioqrafik informasiya xidmətinin ən mühüm vəzifəsi az vaxt sərf etməklə yeni çapdan çıxmış ədəbiyyatı izləmək üçün mütəxəssisləri informasiya ilə təmin etməyə imkan yaratmaqdır. Aparılan tədqiqatlar onu göstərir ki, məlumat mənbələrinin çoxalması ilə əlaqədar olaraq mütəxəssis yeni çıxan ədəbiyyatı izləməkdə çətinlik çəkir və hər hansı bir məlumatını axtarılmasına iş vaxtının 30-40%-ni sərf etməyə məcbur olur.

Fərqləndirilməyən biblioqrafik informasiya xidməti kütləvi, müəyyən qrup tələbatçılara istiqamətləndirilməyən və onların konkret məlumat tələbatlarını nəzərə almayan xidmətdir. Fərqli biblioqrafik informasiya xidməti isə yeni oxucuların və ya müəyyən qrup mütəxəssislərin uzun müddətli sorğuları və ya tələbatları ilə əlaqədar olaraq həyata keçirilən fərqli xidmətdir. (8, s.105)

Fərqləndirilməyən informasiya xidmətinin yayılmış formalarından biri məlumat bülletenləridir. Burada kitabxanaya daxil olan nəşrlər haqqında müəyyən qayda üzrə məlumat əks olunur və bülletenlərin qarşısına qoyulan tələb onların məlumat fasiləsini minimuma endirməkdən ibarətdir.

Məlumat bülletenlərinin hazırlanması sahəsində çox istiqamətli fəaliyyət M.F.Axundov adına Milli Kitabxana tərəfindən həyata keçirilir. Belə ki, kitabxana oxucuların cari informasiyaya olan tələbatını "Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat" adlı cari biblioqrafik informasiya göstəricisini və "Yeni kitablar" annotasiyalı biblioqrafik göstəricisini hazırlamaqla ödəyir.

M.F.Axundov adına Milli Kitabxananın Analitik Elektron Məlumat Bazasının Təşkili şöbəsi 2006-cı ildən etibarən "Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat" adlı cari biblioqrafik informasiya göstəricisi hazırlayaraq çap etdirir(3, s.3).Məqsəd Mədəniyyət və Turizm Nazirliyinin, onun strukturunda olan kitabxana, muzey, teatr və digər idarə-müəssisələrin rəhbər işçilərinə, aparıcı mütəxəssislərinə Azərbaycan və rus dillərində kitabxanaya daxil olan dövri mətbuatda müvafiq mövzu üzrə dərc edilən məqalələr haqqında operativ məlumat verməkdir. Biblioqrafik informasiya göstəricisində materialların tam elektron mətnini Milli Kitabxananın saytı (http://www.anl.az) və elektron kataloqu vasitəsilə açıb oxumaq mümkündür. (3, s.3)

Göstəricinin baş redaktoru professor Kərim Tahirov, redaktorları D.Sadıxova, və N.Səlimovadır. Heydər Əliyev irsinin öyrənilməsi baxımından önəmli olan vəsaitin 2006-cı ildən bu günə qədər vəsaitin ayda bir dəfə olmaqla 139 nömrəsi çap olunmuşdur.

Belə ki, "Mədəniyyət, incəsənət, turizm, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat. Cari biblioqrafik informasiya göstəricisi"nin 2017-ci ildə nəşr olunan 12 buraxılışında ulu öndərin irsini əks etdirən ümumilikdə, 86 adda məqalənin biblioqrafik təsviri və tam mətni verilmişdir.

Cari biblioqrafik informasiya göstəricisinin 2016-cı il buraxılışında Heydər Əliyev irsinə dair 131 adda məqalə, vəsaitin may və dekabr buraxılışlarında müvafiq olaraq "Heydər Əliyev-93" və "Heydər Əliyevin anım günü" adlı başlıqlar öz əksini tapmışdır.

"Mədəniyyət, incəsənət, turizm, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat. Cari biblioqrafik informasiya göstəricisi"nin təhlili mədəniyyət, incəsənət, turizm, bədii ədəbiyyat və ədəbiyyatşünaslığa dair M.F.Axundov adına Milli Kitabxananın fonduna daxil olan və Heydər Əliyev irsini özündə əks etdirən məqalələrin sayı haqqında fikir söyləməyə imkan verir. Belə ki, biblioqrafik göstəricinin son 5 illik buraxılışlarını təhlil edərsək, məlum olur ki, Milli Kitabxananın fondunda Heydər Əliyev irsinə dair göstərilən istiqamət üzrə 2013-cü ildə nəşr olunmuş 125 adda, 2014-cü ildə nəşr olunmuş 38 adda, 2015-ci ildə nəşr olunmuş 23 adda, 2016-cı ildə nəşr olunmuş 131 adda, 2017-ci ildə nəşr olunmuş 86 adda məqalə komplektləşdirilmişdir.

Oxucuların biblioqrafik informasiya təminatı üçün Milli Kitabxana 2006-cı ildən "Yeni kitablar" annotasiyalı biblioqrafik göstərici nəşr etməyə başlamışdır. Vəsaiti hazırlamaqda məqsəd oxucu və mütəxəssisləri Milli Kitabxanaya daxil olan yeni ədəbiyyatla tanış etməkdir.

"Yeni kitablar" göstəricisinin 2006-cı il buraxılışı ildə 2 dəfə nəşr olunmuş, 2007-ci ildən etibarən isə kitabxanaya daxil olmuş kitabları əhatə edən göstəricinin buraxılışı ildə 4 dəfə çap olunub oxucuların istifadəsinə verilmişdir. (5)

Biblioqrafik göstəricinin baş redaktoru professor Kərim Tahirov, tərtibçiləri L.Talıbova və L.Bağırovadır. Göstəricinin 45 buraxılışı çapdan çıxmışdır.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədi ilə göstəriciyə müəlliflərin və sərlövhələrin əlifba göstəricisi daxil edilmişdir. Burada verilən hər bir məlumatın qarşısında onun həmin buraxılışda aldığı sıra nömrəsi qeyd olunur. Məs, biblioqrafik göstəricinin 2017-ci il 3-cü buraxılışında sıra nömrəsi 934 olan ədəbiyyat "Heydər Əliyev: Təhsil. Bilik. Məktəb /Azərb. Müəllimlər İn-tu; tərt. Ə.İsmayılov; red. və məsl. A.Naxçıvanlı.- Bakı: Müəllim, 2006.- 395, [2] s.- [Ar2006/2200]" adlı ədəbiyyatdır. Və bu ədəbiyyat haqqında informasiya "sərlövhələrin əlifba göstəricisi"ndə "Heydər Əliyev. Təhsil. Bilik 934" başlığı altında qeyd olunur. Burada "[Ar2006/2200]" həmin ədəbiyyatın Milli Kitabxananın fondunda bu şifrə altında yerləşməsi haqqında məlumatı özündə əks etdirir.(5)

Məlumat bülletenlərinin hazırlanması sahəsində geniş təcrübəyə malik kitabxanalardan biri də Prezident Kitabxanasıdır.

2004-cü ildən etibarən Prezident Kitabxanası tərəfindən "Yeni kitablar" annotasiyalı biblioqrafik göstərici hazırlanmağa başlamışdır (6). Biblioqrafik göstəricinin 2004-cü ildə 2 nömrəsi çap olunmuşdur ki, bunlardan biri kitabxana fonduna 2003-cü ildə daxil olan və kitabxananın elektron kataloquna daxil edilən ədəbiyyatın biblioqrafik təsvirini əks etdirir. 2005-ci ildən başlayaraq artıq göstərici rüblük olmaqla ildə 4 dəfə nəşr olunurdu. Ümumilikdə 43 nəşri çıxan biblioqrafik göstəricinin 2014-cü ildən nəşri dayandırılıb. Buna səbəb Prezident Kitabxanasında "Yeni kitablar" elektron biblioqrafik göstəricisinin hazırlanması olmuşdur.

Prezident Kitabxanası tərəfindən hazırlanan cari məlumat bülletenləri Heydər Əliyev irsinin əks olunması baxımından önəmli yer tutur. Belə ki, "İqtidar.Müxalifət. Xalq" məlumat bülletenində ulu öndərin bülleteninin adına uyğun sahə ilə bağlı Prezident Kitabxanasının fonduna daxil edilən 341 adda Azərbaycan dilində və 32 adda rus dilində olmaqla, ümumilikdə 373 adda məqalənin, "Tarix. Mədəbiyyət. Elm" məlumat bülletenində 1219 adda məqalənin, "Azərbaycan iqtisadiyyatı" bülletenində 452 adda məqalənin biblioqrafik təsviri daxil edilmişdir.

Oxuculara kitabxana-biblioqrafiya xidmətinin təşkili məqsədilə Azərbaycan Elmlər Akademiyası Mərkəzi elmi kitabxanası aşağıdakı adlarda cari biblioqrafik bülletenlər nəşr etdirirdi.

1. Mərkəzi elmi kitabxanaya Azərbaycan və rus dillərində daxil olan kitablar (ildə 4 dəfə nəşr edilir).

2. Mərkəzi elmi kitabxanaya daxil olan yeni xarici ədəbiyyat (ildə 2 dəfə).

3. Mərkəzi elmi kitabxananın sifariş etdiyi xarici dövri mətbuatın kataloqu (ildə 2 dəfə).

4. Mərkəzi elmi kitabxanaya ictimai elmlər üzrə Şərq dillərində daxil olan yeni kitablar (ildə 1 dəfə).

5. Mərkəzi elmi kitabxanaya Şərq dillərində daxil olan jurnal məqalələrinin siyahısı (ildə 2 dəfə). (7)

Cari məlumat bülletenlərinin qarşısında duran ən mühüm tələblərdən biri onların nəşr operativliyindən ibarətdir. Mərkəzi elmi kitabxananın nəşr etdirdiyi cari məlumat bülletenlərinin məlumat fasiləsini nəşr olunduğu dövr üçün optimal hesab etmək olardı. 2004-cü ildən artıq bülletenlərin hamısı birləşdirələrək MEK-in fonduna yeni daxil olan ədəbiyyat bülleteni adı ilə nəşr edilməyə başladı. Bu isə Məlumat biblioqrafiya, Elmi-texniki informasiya, nəşriyyat işləri şöbələrinin birləşdirilib "Biblioqrafiya" adı altında fəaliyyət göstərilməyə başlaması ilə əlaqədar idi. (7)

Hal-hazırda AMEA Mərkəzi Elmi Kitabxanası tərəfindən kitabxana fonduna daxil olan kitabları əks etdirən aylıq bülleten hazırlanır. Bu bülletendə kitabxana fonduna daxil olan ədəbiyyat "Kitablar", "Jurnallar", "Avtoreferatlar" və "Dissertasiyalar" başlıqları altında qruplaşdırılır və ədəbiyyatın təsviri müəllifinə, sərlövhəsinə, nəşr yerinə və nəşr ilinə görə aparılır. Ədəbiyyat əlifba sırası ilə düzülmüşdür.

Fərqləndirilməyən biblioqrafik-informasiya xidmətinin digər forması olan "Məlumat günləri", "Mütəxəssislər günü", "Sərgi-baxışlar" kitabxana oxucularını yeni daxil edən ədəbiyyatla tanış etməyin səmərəli formalarıdır. Elmi-texniki kitabxanalarda meydana gəlmiş bu iş formaları hal-hazırda bütün kitabxanalarda geniş yayılmışdır. Bunların üstünlükləri onlardan ibarətdir ki, oxucular kitabxanaya yeni daxil olan materiallarla bilavasitə tanış olmaq imkanı əldə edirlər.

Fərqləndirilməyən biblioqrafik informasiya xidmətinin ən geniş yayılmış forması sərgi-baxışlardır. Kitabxana əlaqədar sahələr və ya aktual problemlər üzrə fondda olan sənədlərlə bilavasitə tanışlıq üçün sərgi-baxışlar təşkil edir.

Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası elmi kitabxanalar arasında aparıcı kitabxana kimi fəaliyyətində ölkədə gedən sosial dəyişiklikləri əks etdirən informasiya təminatını həyata keçirir. Bunu əyani şəkildə MEK-in təşkil etdiyi tematik sərgilərin mövzusunda görmək olar. Məsələn, Azərbaycanın neft strategiyası; Azərbaycan xarici nəşriyyatda; Xəzərin problemləri; İnsan və təbiət; Azərbaycanın etnoqrafiyası; Azərbaycanın dekorativ-tətbiqi incəsənəti; Xəzər keçmişdə və gələcəkdə; Qafqazın geosiyasəti; Dağlıq Qarabağ münaqişəsi; Təbiət fəlakət qarşısındadır; Gender və qadın problemləri; Azərbaycan dili və dövlətçilik; Beynəlxalq terror və s.

MEK-də təşkil olunan mövzu sərgiləri  oxuculara lazımi informasiyanı əldə etmək üçün böyük rol oynayır və bu sərgilərin əksəriyyəti AMEA-nın Elmi-Tədqiqat İnstitutlarının apardıqları tədqiqat işlərinə cavab verən sərgilərdir. (1, s.83)

AMEA MEK-in sərgi fəaliyyətinin mühüm hissəsi olan ayrı-ayrı şəxsiyyətlərin yubileyinə həsr olunmuş sərgilərin tərkib hissəsini təşkil edən sərgilərdən biri də Ulu öndər Heydər Əliyevə həsr olunmuş sərgilərdir.

AMEA MEK tərəfindən müstəqillik illərində ümummilli lider ilə bağlı çox sayda sərgi təşkil olunmuşdur.

2010-cu ildə may ayının 7-də Ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə konfrans-sərgi keçirilib. Konfrans zamanı respublikanın görkəmli alimləri – akademiklər Arif Həşimov, Ağamusa Axundov, Budaq Budaqov, Vasim Məmmədəliyev, müxbir üzvlər Akif Musayev, Teymur Kərimli və b. çıxış edərək böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycan elminin inkişafı sahəsindəki çoxşaxəli fəaliyyətini, apardığı islahatların nəticələrini, zəngin ictimai-siyasi xidmətlərini qeyd etməklə onun dövlət quruculuğu, demokratiyanın inkişafı və qanunçuluğun möhkəmləndirilməsindəki böyük rolunu vurğulamışlar. Konfransda ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 40 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan elmi" kitabının təqdimatı olub. Tədbir zamanı Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş ədəbiyyat sərgisində ənənəvi və virtual formada 560 nüsxədən çox ədəbiyyat nümayiş etdirilib. (7)

Eyni zamanda 11 may 2011-ci il tarixində Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin elm və mədəniyyət konsepsiyası" mövzusunda elmi sessiya, 9 dekabr 2011-ci ildə Heydər Əliyevin

xatirəsinə həsr olunmuş "Zirvədən zirvəyə və əbədiyyətə" mövzusunda konfrans-sərgi keçirilib. (7)

2016-cı ildə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan "Heydər Əliyev və kitabxana – nəsillərdə yaşayan ənənə" adlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan MEK-in direktoru Leyla İmanova rəhbərlik etdiyi elmi təşkilatın nümunəsində 1993-cü ildən 2003-cü ilə qədər Azərbaycan Respublikasının Prezidenti olan Heydər Əliyevin kitabxanalara göstərdiyi diqqətdən danışıb. Bildirilib ki, kitabxananın sərgi salonunda və Akademiklər zalının Ulu öndər Heydər Əliyev və ölkə Prezidenti İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən guşəsində Ümummilli Lider irsinə dair 252 adda kitab saxlanılır.(7)

Sərgilərin təşkil olunması sahəsində fəaliyyət göstərən kitabxanalardan biri M.F.Axundov adına Milli Kitabxanadır. Milli Kitabxanada keçirilən kütləvi tədbirlər, sərgilər, mühazirələr, kitab və elektron məlumat bazalarının təqdimatları, elmi konfranslar ədəbiyyatın təbliğində mühüm rol oynayır. İl ərzində oxu zallarında, not nəşrləri və səsyazmaları şöbəsində, konfrans zalında mütəmadi olaraq yeni ədəbiyyat sərgiləri təşkil edilir.

Milli Kitabxanada hər il Heydər Əliyev irsinə həsr olunmuş kitab-sərgiləri keçirilir.

| | Sərginin keçirildiyi tarix | Sərginin adı |
|---|---|---|
| | 2002-ci il 10 may | “Yaşa prezidentim yaşa!” |
| | 2006-cı il 12 dekabr | “Heydər Əliyevin xatirə günü” |
| | 2007-ci il 7 may | “Heydər Əliyev çağdaş kitabxana quruculuğunun banisidir” |
| | 2007-ci il 11 dekabr | “12 dekabr-Xatirə günü” |
| | 2008-ci il 10 may | “Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır. |
| | 2009-cu il 10 may | “Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır. |
| | 2009-cu il 17-19 may | “Heydər Əliyev milli kitabxanada” |
| | 2009-cu il 8 dekabr | “Heydər Əliyevin xatirəsi” |
| | 2010-cu il 7 may | “Ulu öndər Heydər Əliyev-87” |
| 0 | 2010-cu il 10 may | “Heydər Əliyev. Yaddaşlarda qalan lider” |
| 1 | 2011-ci il 5 may | “Heydər Əliyev. Yaddaşlarda qalan lider” |
| 2 | 2012-ci il 12 dekabr | “12 dekabr-xatirə günüdür” |
| 3 | 2014-cü il 13 iyun | “Milli Kitabxanaya hədiyyə etdiyi kitablar” |

| | | |
|---|---|---|
| 4 | 2014-cü il | “Heydər Əliyev və kitab” |
| 5 | 2014-cü il 10 dekabr | **“Heydər Əliyev - əbədiyyət zirvəsidir”** |
| 6 | 2015-ci il 8 may | “Ulu öndər Heydər Əliyev irsinin tədqiqi məsələləri” |
| 7 | 2016-cı il 4 may | “Ulu öndər Heydər Əliyevin Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi şəxsi kitabları” |
| 8 | 2016-cı il 9 dekabr | Heydər Əliyevin anım günü ilə əlaqədar |
| 9 | 2017-ci il 28 aprel | "Böyük şəxsiyyətin kitab sevgisi" |
| 0 | 2017-ci il 5 may | “Azərbaycanın özü qədər əbədi olan şəxsiyyəti – Heydər Əliyev” |
| 1 | 2017-ci il 10 may | "Heydər Əliyev və gənclik" |
| 2 | 2017-ci il 17 iyun | 15 iyun- Milli Qurtuluş günüdür” |
| 3 | 2017-ci il 18 oktyabr | “Heydər Əliyev və müasir Azərbaycan” |
| 4 | 2017-ci il 6 dekabr | **“Azərbaycanın özü qədər əbədi olan şəxsiyyət - Heydər Əliyev”** |

Ulu Öndər Heydər Əliyevin irsinə həsr olunmuş sərgilərin keçirilmə tarixi və sərginin adı əks olunduğu cədvəldən göründüyü kimi Milli Kitabxanada ümummilli liderin çoxaspektli fəaliyyətini əsk etdirən sərgilər təşkil edilmişdir. Belə ki, 2002-ci il may ayının 10-da Azərbaycan Mədəniyyət Nazirliyi ilə birgə “Yaşa prezidentim yaşa!” başlığı altında kitab sərgisi təşkil edilmişdir. Sərgidə Ümummilli lider Heydər Əliyevin kitabxanaya hədiyyə etdiyi 260 kitab, həmçinin həyat və fəaliyyətinə aid kitablar “fotoalbom” da öz əksini tapmışdır.

2008-ci ildə 10 may tarixində Ulu öndərin yubileyinə həsr olunmuş “Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır” adlı sərgi keçirilmişdir. Sərgidə Viktor Andriyanov və yazıçı H.Mirələmov “Görkəmli şəxslərin həyatı” seriyasında “Molodaya qvardiya” nəşriyyatında çap olunmuş “Heydər Əliyev” Azərbaycan dilində nəşrinin və onun Milli Kitabxana tərəfindən hazırlanmış elektron

versiyasının təqdimatı baş tutmuşdur. Eyni başlıq altında 2009-cu il may ayının 10-da Milli Kitabxanada sərgi açılmışdır.

Heydər Əliyev irsinin öyrənilməsi baxımından önəmli olan sərgilərin təşkil olunduğu mədəniyyət müəssisələrindən biri Prezident Kitabxanasıdır. Beləki, 6 may 2013-cü il tarixində Prezident Kitabxanası ilə Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAC-ın) ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə bağlı fotolar və nəşrlərdən ibarət birgə sərgisi açılmışdır.

2007-ci il may ayının 10-da Kitabxanada ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə tədbir keçirilib. Tədbir boyunca Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə kitabxanada sərgi təşkil edilib.

Beləliklə, məlum olur ki, Heydər Əliyev irsi üzrə oxuculara biblioqrafik informasiya xidmətinin təşkili sahəsində tədqiqat aparılan kitabxanalarda bir çox nailiyyətlər əldə edilmiş, istər məlumat bülletenlərinin hazırlanması və istər sərgilərin təşkili zamanı müasir dövrün tələblərinə cavab verən təcrübə qazanılmışdır.

**Ədəbiyyat**


1. Xanlarova F., Namazova, F. Ənənəvi və müasir sərgilər informasiya xidmətinin bir forması kimi//AMEA MEK elmi əsərlər., 2006.№7, s. 82-88., s. 83
2. Kitabxanalarda biblioqrafik xidmət: ənənələr və innovasiyalar metodik tövsiyələr /tərt.ed. N.Alışova; ixtisas red. və burax. məs. K.Tahirov; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.- 33 s.,s.4
3. Mədəniyyət, incəsənət, turizm, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat. Cari biblioqrafik informasiya göstəricisi: Fevral – 2018 /baş red. və bur. məsul K.Tahirov; bur. haz. Diyarşünaslıq və Analitik Biblioqrafik Resurslarının Yaradılması şöbəsi; red. D.Sadıxova, N.Səlimova /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2018.- 147 s.
4. Yeni kitablar 2017: biblioqrafik göstərici /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; baş red. K.Tahirov; tərt. ed.: L.Talıbova [və b.].- Bakı, 2017.- № 2.- 230 s.
5. Yeni kitablar 2017:biblioqrafik göstərici /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; baş red. K.Tahirov; tərt. ed.: L.Talıbova [və b.].- Bakı, 2017.- № 3.- 240 s.
6. Yeni kitablar: annotasiyalı biblioqrafik göstərici. 2014, № 4 (43).- Bakı, 2014.- 112 s.
7. AMEA Mərkəzi Elmi Kitabxanasının hesabatları
8. Библиографическая работа в библиотеке: организация и методика. Учебник: М, 1990, с.155. .s.105-127

# AZƏRBAYCANDA SƏNƏDLƏRİN BİBLİOQRAFİK UÇOTUNUN TARİXİNƏ DAİR

***Əminə Cəfərova***
*Azərbaycan Milli Kitabxanasının elmi katibi, BDU-nun dissertantı*

***Об истории библиографического учета документов в Азербайджане***
***Резюме:*** *В статье освещаются вопросы издания первых образцов национальной библиографии, научного и культурного пространства, деятельности издательств и развития книгопечатания в Азербайджане. Подвергаются научно-теоретическому анализу история создания и деятельность Азербайджанской Государственной Книжной Палаты, насущные проблемы издания книг и периодической печати, история создания архивного фонда печатных изданий. Дается информация о первых изданиях палаты и деятельности Азербайджанской Государственной Книжной Палаты с первого дня ее возникновения и до начала Великой Отечественной Войны.*
***On the history of bibliographic registration of documents in Azerbaijan***
***Abstract:****The article highlights scientific and cultural environment, the activities of publishing houses and the development of book printing, the issues of publishing the first samples of the national bibliography in early 20th century in Azerbaijan. The history of the creation and activity of the Azerbaijan State Book Chamber, the publication problems of books and periodicals, the history of the creation of the archive fund of printed publications were scientific-theoretically analyzed. Also informed about the first editions of the Chamber and the activities of the Azerbaijan State Book Chamber from the its foundation until the beginning of the Great Patriotic War.*
***Açar sözlər:****milli biblioqrafiya, cari biblioqrafiya, məcburi nüsxə, Dövlət Kitab Palatası, kitab salnaməsi*
***Ключевые слова:****национальная библиография, текущая библиография, обязательные экземпляры, Государственная Книжная Палата, книжная летопись*
***Keywords:*** *national bibliography, current bibliography, obligatory copies, State Book Chamber, book annal*

XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifinin, mədəniyyətin, mətbuatın, kitab nəşri və kitabxana işinin inkişafı üçün əlverişli şərait yaranmışdı. Belə ki, milli şüurun oyanması sahəsində xüsusi dirçəliş baş vermiş, milli şüurun təşəkkülü, formalaşması və inkişafı sahəsində mühüm işlər görülmüş, milli məktəblərin sayı artmış, milli mətbuat təşəkkül tapıb inkişaf etmiş, kitab nəşri və yayılması böyük vüsət almış, mədəni-maarif müəssisələri, kitabxanalar və qiraətxanalar şəbəkəsi xeyli genişlənmişdi.

Azərbaycan kitab mədəniyyəti və nəşriyyat işi tarixində olduqca mühüm rol oynamış, milli Azərbaycan kitabının formalaşmasında faydalı işlər görmüş

nəşriyyatlardan biri 1905-1917-ci illərdə fəaliyyət göstərmiş Orucov qardaşlarının elektrik mətbəəsidir. Orucov qardaşları mətbəəsi öz dövrünün ən müasir çap maşınları, çap işinin son nailiyyətləri olan mətbəə avadanlığı ilə təmin edildiyindən poliqrafiya baxımından ən keyfiyyətli kitablar nəşr etmək imkanına malik idi. Orucov qardaşları öz nəşriyyatçılıq fəaliyyətində kitab çap etməklə yanaşı, onun təbliğinə, daha çox tələbat olan kitabları çap etməyə üstünlük verirdilər. Onlar həmçinin nəşr etdikləri hər bir kitabı satmaq, onları oxucuların diqqətinə çatdırmaq üçün nəşriyyat kataloqları nəşr edirdilər. Nümunə üçün qeyd edək ki, mətbəə 1912-ci ildə "Bəradərani Orucov kütübxanəsinin əsamulkütübü" adlı ticarət kataloqu çap etmiş, 1913-1914-cü illərdə kataloq təkrar nəşr edilmişdir. Bu kataloqlar mətbəənin kitab mağazalarında olan kitablarını alıcılar arasında təbliğ etməklə yanaşı, XX əsrin əvvəllərində Azərbaycan kitabı haqda məlumat verən biblioqrafik mənbə kimi böyük mədəni əhəmiyyət kəsb edərək Azərbaycanda müvafiq dövrdə kitab nəşri ilə bağlı ilkin təsəvvürlərin formalaşmasına da təsir etmişdir. Bu kataloqlardan məlum olur ki, Orucov qardaşları Azərbaycanın görkəmli şair və yazıçılarının, elm, mədəniyyət və incəsənət xadimlərinin, maarifçilərinin əsərlərini çap etməklə öz doğma xalqı qarşısında böyük xidmətlər göstərmişlər. [7,19]

Nəşriyyat və kitab ticarəti xarakterli kataloqların nəşri davam etdirilirdi. Bu kataloqların məqsədi təzə nəşr olunan və mağazalarda olan kitablar haqqında məlumat verməkdən ibarət idi, kataloqlarda ayrı-ayrı nəşriyyatlar tərəfindən buraxılan kitablar əks olunurdu. Azərbaycan Dövlət nəşriyyatı 1924-cü ildən başlayaraq bir neçə kataloq çap etdirmişdir. Bunlardan "Azərnəşrin ticarət qismi əxbarı" (1924), "Kitabların kataloqu" (1926, 1927), "Azərbaycan Dövlət Nəşriyyatı kataloqu" (1926), "Dövlət nəşriyyatı. Azərnəşr bülleteni, iyun-dekabr 1927-ci il, №1, yanvar-iyun 1928-ci il №2" (1928) kimi çap kataloqlarını qeyd etmək olar. Belə kataloqların buraxılması sonralar davam etdirilir. "Ucuzlaşmış kitabların kataloqu"(1929), "Azərnəşr kataloqu" (1933), "Azərfirqənəşr- 1935-ci ildə çıxmış kitabların kataloqu" (1936), "Yeni və əsgi əlifba ilə çıxan kitabların və məcmuələrin siyahısı" (1931) və başqaları belələrindəndir. Bu cür kataloqların hər birinin əvvəlində nəşriyyatlar və kitab ticarəti müəssisələri haqqında məlumat verilməsi bunu kitab nəşri və kitab ticarəti biblioqrafiyasına aid edir. Lakin kitab çapının inkişafı, ondan istifadənin təminatı milli biblioqrafiyanın yaradılması üçün zəmin yaradırdı. Nəşriyyat və kitab ticarəti xarakterli kataloqlarla yanaşı, dövri mətbuatı əks etdirən, onlardan bəzilərinin tərkibini açan analitik biblioqrafik göstəricilər də çap olunurdu. XX əsrin əvvəllərində Azərbaycan dövri mətbuatı ilə əlaqədar 3 mühüm biblioqrafik göstərici çap olunmuşdur. Bunlardan biri Bakıda çıxan dövri mətbuatla, digər ikisi isə jurnalın və ardı davam edən nəşrin məzmunu və tərkibini açan analitik biblioqrafik vasitələrdir. Hər 3 buraxılışda jurnal və qəzetlərin biblioqrafik təsvirləri qısa annotasiya ilə tamamlanırdı. [4,30]

Azərbaycanda mədəni inqilab nəticəsində elm, maarif və mədəniyyətin inkişaf etməsi, çap əsərlərinin getdikcə çoxalması, mövzu dairəsinin genişlənməsi, oxucu marağının və sorğusunun gündən-günə mürəkkəbləşməsi biblioqrafik fəaliyyətin təkmilləşdirilməsi, çap olunan kitabların və digər çap məhsullarının qeydə alınması, onlardan istifadənin asanlaşdırılması məqsədilə çap məhsulları

haqqında cari biblioqrafik informasiya verən vəsaitlərin hazırlanması problemləri Dövlət Kitab Palatasının yaradılması ideyasını ortaya çıxardı. Çox mürəkkəb, tarixi bir dövrdə fəaliyyətə başlayan Azərbaycan Dövlət Kitab Palatası respublikada milli biblioqrafiyanın əsasını qoydu.

Tarixə nəzər salsaq qeyd etmək olar ki, Azərbaycanda Kitab Palatasının yaradılması ideyası keçmiş sovetlər birliyinin Kitab Palatası direktorlarının 1924-cü ildə keçirilmiş I müşavirəsindən sonra meydana gəlmişdir.

Azərbaycan Respublikası Xalq Maarifi Kommissarlığının kollegiyasının 1924-cü il sentyabr tarixli iclasında Xalq Maarifi Kommissarı Mustafa Quliyev digər respublikalarda olduğu kimi Azərbaycanda da Dövlət Kitab Palatasının yaradılması məsələsinin müzakirəsini qaldırmış, belə bir idarənin respublika üçün əhəmiyyətini qeyd etmiş, Ali Siyasi-Maarif İdarəsinə müvafiq dekret layihəsini hazırlayıb Azərbaycan Respublikası Xalq Maarifi Kommissarlığına təqdim etməsini tapşırmışdı. [4,31]

Dekret layihəsi Ali Siyasi-Maarif İdarəsi tərəfindən hazırlanaraq 1925-ci ilin yanvar ayında təqdim edilmiş, Azərbaycan Respublikası Xalq Maarifi Kommissarlığı layihəyə bir sıra düzəlişlər etmişdir. 1925-ci il fevral ayının 5-də "Azərbaycan SSR Xalq Maarif Komissarlığı yanında dövlət kitab palatasının təşkili və mətbuat nüsxələrinin təqdim edilməsi haqqında" qərar dərc olunmuşdur.

Respublikada biblioqrafiya işinin təşkilini tənzimləmək, ölkədə fəaliyyət göstərən qəza (nahiyə) mədəniyyət mərkəzlərini və keçmiş SSRİ ərazisindəki dövlət kitabxanalarını məcburi nüsxələrlə təmin etmək məqsədilə verilən qərarda deyilirdi: "Azərbaycan SSR-də Dövlət biblioqrafiyası işinin qoyuluşunu tənzimləmək və Azərbaycan qəza (nahiyyə), mədəniyyət mərkəzlərinin və SSRİ ərazisindəki dövlət kitabxanalarının mütləq mətbuat nüsxələri ilə təmin etmək məqsədilə Xalq Komissarlar Soveti qərara alır:

1. Xalq Maarif Komissarlığı yanında Dövlət Kitab Palatası təşkil edilsin (Ali Siyasi-Maarif İdarəsi).

2. Azərbaycan SSR ərazisində yerləşən poliqrafiya müəssisələrinə (tipoqrafiya, litoqrafiya, sipoqrafiya, sürətli çap maşınları və s.) bir vəzifə olaraq tapşırılsın ki, onlar çap etdikləri bütün əsərlərin (tirajından asılı olmayaraq təkrar çapları da buraya daxildir) hərəsindən əvəzsiz olaraq 50 nüsxə Dövlət Kitab Palatasına təqdim etsinlər. Bu məqsədlə sərf edilən daşınma və göndərmə xərcləri həmin müəssisələrin öz hesabına ödənilsin.

3. Bu qərarı həyata keçirərkən Dövlət Kitab Palatası təcili olaraq həmin qərarın 2-ci bəndinə əsasən çap məhsullarından aldığı mütləq nüsxələri qəzaların, respublikanın mədəni mərkəzlərinə və müttəfiq respublikaların Dövlət kitabxanaları üçün bölüşdürmək və təmin etmək işinin təşkilinə başlamalıdır.

4. Bu qərarla əlaqədar olaraq “Rusiyada Mərkəzi Kitab Palatasına Azərbaycan SSR Nəşriyyatından mütləq nüsxə göndərmək haqqında” Qanun ləğv olunsun.

5. Həmin qərar dərc olunan gündən həyata keçirilsin”.

Bu qərar nəticəsində respublikada biblioqrafiya işi dövlət əhəmiyyətli bir iş səviyyəsinə qaldırıldı, milli dövlət biblioqrafiyasının inkişafı üçün lazımi şərait yaradıldı.

Binanın və bəzi təşkilat işlərinin müəyyən qaydada olmaması səbəbindən Azərbaycan Dövlət Kitab Palatası qərarda nəzərdə tutulan vaxtda öz fəaliyyətinə başlaya bilməmiş, onun fəaliyyətə başlaması 1925-ci ilin oktyabr ayına kimi ləngimişdir. Bu müddət ərzində bəzi hazırlıq işləri aparılmışdır.

Azərbaycan SSR Maarif Nazirliyi Kollegiyasının 8 mart 1925-ci il tarixli iclasında palatanın fəaliyyətə başlamasına hazırlıqla əlaqədar məsələlər müzakirə edilmişdir. Bunlardan biri ştat məsələsi idi. Kollegiya Baş Siyasi-Maarif İdarəsinin təklifi ilə palataya üç ştat vahidi-müdir, texniki ştat və ekspeditor verilməsi haqqında qərar qəbul etmişdir. Beləliklə, 1925-ci ilin oktyabrında Azərbaycan Dövlət Kitab Palatası İsmayıliyyə binasındakı (hazırda AMEA-nın Rəyasət Heyətinin yerləşdiyi bina) bir otaqda fəaliyyətə başlamışdır.

Azərbaycan ərazisində nəşr olunan çap məhsullarını qeydə alaraq biblioqrafik jurnal şəkilində çap etmək, əldə etdiyi məcburi nüsxələri planında nəzərdə tutduğu respublika, rayon kitabxanalarına paylamaq və s. Azərbaycan Dövlət Kitab Palatasının 1925-1928-ci illərdə qarşısında duran mühüm vəzifələr, palatanın əsas funksiyaları idi.

Kitab Palatasının fəaliyyətinin ilk illərində qarşıda duran vəzifələri aşağıdakı kimi ümumiləşdirilir:

- Azərbaycan Respublikası ərazisində çıxan çap əsərlərinin rəsmi qeydini aparmaq və onların haqqında ardıcıl cari biblioqrafik informasiya vermək;
- Azərbaycan çap əsərlərinin toxunulmaz arxivini yaratmaq;
- Məcburi nüsxələri nəzərdə tutulan respublika, rayon və keçmiş ittifaq kitabxanalarına göndərmək;
- Ayrı-ayrı kitabxanalara metodiki köməklik göstərmək;
- Çap məhsulu haqqında statistik məlumat hazırlamaq.

Azərbaycan SSR Ali Siyasi Maarif İdarəsi qarşısında duran həll edilməmiş məsələlərdən biri kitabxana və qiraətxanaları müntəzəm surətdə ədəbiyyatla təmin etmək idi. Bu məsələnin həlli birbaşa yeni təşkil edilmiş və öhdəsinə çox mühüm vəzifələr verilmiş Kitab Palatasının üzərinə düşürdü. Kitab mübadiləsi, Avropa ölkələrindən ədəbiyyatın alınması, Azərbaycan kitabxanalarını kitabla təchiz və təmin etmək kimi mühüm vəzifələr palatanın qarşısında dururdu.

Qanun üzrə Azərbaycanda çap olunan bütün kitab, məcmuə və qəzetlərdən 50 nüsxə palataya gətirilərək respublika üzrə 18 kitabxana və 18 qiraətxanaya plana uyğun olaraq paylanılırdı.

Cari dövlət uçot-qeyd biblioqrafik informasiya mənbələrinin yaradılmasında əsas baza məcburi nüsxələrdir. Kitab Palatasının yaradılması haqqında olan qərarda palataya Azərbaycan ərazisində çıxan bütün çap əsərlərindən 50 nüsxə göndərmək haqqında göstəriş verilmişdir. Sonralar məcburi nüsxələr haqqında bir neçə qərar olmuşdur. Məsələn, Azərbaycan hökuməti 1934-cü il avqust ayının 19-da "Azərbaycan Kitab Palatasına çap əsərləri nüsxələrinin təqdim edilməsi haqqında" yeni qərar qəbul edərək pulsuz məcburi nüsxələrin sayını 65-ə çatdırılmışdır. Keçmiş SSRİ Rabitə Komissarlığı isə 1935-ci il yanvar ayının 13-də "Müttəfiq respublika kitab palatalarına çap əsərlərindən məcburi nüsxələrin pulsuz göndərilməsi haqqında" Əmr vermişdir. Azərbaycan hökuməti öz növbəsində 1936-cı il yanvarın 9-da "Azərbaycan Dövlət Kitab Palatasına çap əsərlərindən nüsxələrin təqdim olunmasına nəzarət edilməsi haqqında" qərar qəbul etmiş, bununla da Kitab Palatasının ümumi fəaliyyəti üçün əsas baza olan məcburi nüsxələrin vaxtında və dürüst göndərilməsi təmin olunmuşdur. [4,35]

Azərbaycan Dövlət Kitab Palatası aldığı pulsuz məcburi nüsxələrdən ikisini daxili işləri üçün saxlayır, qalanlarını müvafiq müqaviləyə əsasən keçmiş müttəfiq respublikaların dövlət kitabxanalarına və şəhər, rayon kitabxanalarına göndərirdi. O, bu vəzifəni 1940-cı ilə kimi yerinə yetirmişdi. Məhz buna görə də Azərbaycan hökuməti 1940-cı il yanvar ayının 20-də məcburi nüsxələr haqqında daha bir qərar qəbul etmiş və bununla pulsuz göndərilən məcburi nüsxələrin sayı 5-ə endirilmişdi. Onlardan üçünü keçmiş Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutuna, Azərbaycan Respublika EA kitabxanasına və M.F.Axundov adına Azərbaycan Respublika Kitabxanasına (hərəsinə bir nüsxə olmaqla) göndərirdi. Bir nüsxə Palatanın arxivinə verilirdi, digər bir nüsxədən biblioqrafiyalaşdırma və statistik məlumatın hazırlanması proseslərində istifadə olunurdu.

Azərbaycan Dövlət Kitab Palatası fəaliyyətə başladığı ilk günlərdən müttəfiq respublikaların kitab palataları ilə sıx əlaqə yaradır, onlarla təcrübə mübadiləsi aparırdı ki, bu təcrübə mübadiləsinin Kitab Palatasının fəaliyyətində çox böyük rolu olmuşdur. İlk növbədə, 1925-ci ilin oktyabrında RSFSR Mərkəzi Dövlət Kitab Palatası, daha sonralar Gürcüstan, Özbəkistan, Türkmənistan, Tatarıstan, Rusiya, Ukrayna, Belarusiya respublikalarının kitab palataları ilə müqavilə bağlayaraq respublikalarda çıxan çap məhsullarının mübadiləsinə başlanmışdır. Bağlanmış müqavilələr əsasında Azərbaycan SSR Kitab Palatası digər respublikaların kitab palatalarının nəşr etdirdiyi vəsaitləri alır və onlardan öz fəaliyyətində isitfadə edir, öz nəşrlərini də digər ölkələrə göndərirdi. Bir il ərzində palata tərəfindən 70 min kitab göndərilmişdir.

Fəaliyyətə başladığı ilk illərdə Kitab Palatasının qarşısında duran ən çətin məsələlərdən biri də xaricdən kitab gətirilməsi idi. Bunun üçün, ilk növbədə, palatanın digər ölkələr tərəfindən tanınması lazım idi.

Kitab Palataları qurultayında bu məsələ də həll edilmiş, palata Ümumittifaq elmi müəssisələr və xarici ölkələrlə mədəni əlaqələr cəmiyyəti tərəfindən tanınmışdır. 1925-ci ilin noyabrın 28-də palata cəmiyyətlə saziş bağlayır. Bu sazişə əsasən cəmiyyət Azərbaycan SSR Dövlət Kitab Palatasının xarici ölkələrlə mübadiləsinə yardım göstərirdi. Beləliklə, Kitab Palatası Amerika, Almaniya, Fransa, İngiltərə, Türkiyə kimi inkişaf etmiş ölkələrdən ədəbiyyat almaq imkanı əldə edir. [8,3] 1927-ci ildə cəmiyyət vasitəsilə Kitab Palatasına 3243 nüsxə kitab daxil olmuşdur. Eyni zamanda bir sıra xarici ölkələrdən biblioqrafiya məsələləri üzrə 16 adda material alınmışdır.

Qısa zaman kəsiyində Azərbaycan SSR Kitab Palatası Brüsseldəki Beynəlxalq Biblioqrafiya İnstitutu, Nyu-Yorkdakı Kütləvi kitabxana, Pekin kitabxanası, Tokiodakı İmperator kitabxanası, Parisdəki Asiya muzeyi və başqa xarici müəssisələrlə əlaqə saxlaya bilmişdir.

Lakin sonralar Kitab Palatasının bütün təşəbbüslərinə baxmayaraq xarici ölkələrlə mədəni əlaqə cəmiyyəti ona diqqəti azaltmış və XX əsrin 30-cu illərində onun xarici ölkələrlə kitab mübadiləsi tamamilə kəsilmişdir.

Palatanın ən mühüm vəzifələrindən biri Azərbaycan mətbuat arxivinin yaradılması olmuşdur ki, 1925-ci ildə palatanın nəzarət nüsxələri əsasında arxiv fondu yaradılmışdır.

Azərbaycan Dövlət Kitab Palatası əsas vəzifəsi olan yerli çap əsərlərinin qeydiyyatı, onlar haqqında cari biblioqrafik informasiya verilməsi işinə 1926-cı ilin yanvar ayından başlamış, 1942-ci ilə kimi davam etmiş, salnamənin nəşri yalnız müharibə illərində müvəqqəti olaraq dayandırılmışdır. 1946-cı ildən salnamənin nəşri davam edir.

Bu məqsədlə palata respublikada ilk dövlət biblioqrafiyası orqanı olan (biblioqrafik jurnal) Azərbaycan dilində "Azərbaycan Kitab Palatasındakı kitabların siyahısı", rus dilində «Летопись Азербайджанской Государственной Книжной Палаты» nəşr etdirmişdir.

İlk kitab salnaməsi 4 çap vərəqi həcmində çap olunmuşdur. Bu salnaməyə 1925-ci ilin yanvarından 1926-cı ilin martına qədər Azərbaycanda çap edilmiş kitablar daxil idi. Salnamə rübdə 1 dəfə buraxılırdı, respublikada dövri mətbuatı, kartaları, notları, kitabçaları, kitabları özündə əks etdirən yeganə orqan idi. Belə bir əsaslı və rəsmi cari biblioqrafik nəşr geniş oxucu kütləsi, kitabxana fondlarının komplektləşdirilməsi və biblioqrafik xidmət prosesi üçün çox böyük əhəmiyyət kəsb edirdi.

Vəsait 1927-ci ildən Azərbaycan dilində "Azərbaycan Dövlət Kitab Palatasının kitabiyyatı" adı ilə rüblük, 1928-ci ilin yanvarından həm rus və həm də Azərbaycan dilində "Azərbaycan mətbuat kitabiyyatı" adı ilə ayda bir dəfə nəşr olunmuşdur. "Azərbaycan mətbuat kitabiyyatı" 1925-1928-ci illərdə kitablarla bərabər jurnalları da qismən əks etdirmişdi.

1929-cu ildə Bakıda kitab palataları direktorlaının müşavirəsi keçirilmişdir. Elə həmin il Kitab Palatasının təşkilati mənsubiyyətində və ümumi fəaliyyətində müəyyən dəyişikliklər baş vermiş, palata Xalq Maarif Komissarlığının Ali Siyasi-Maarif İdarəsinin tabeçiliyindən Baş elmi müəssisələr idarəsinə (Qlavnauki)

verilmiş və bu da onun biblioqrafık elmi mərkəz kimi formalaşmasına səbəb olmuşdur.

1939-cu il aprel ayının 28-də Kitab Palatası haqqında yeni Əsasnamə qəbul olunmuş və Əsasnamədə palatanın qarşısında duran vəzifələr belə ümumiləşdirilmişdir:

1. Azərbaycan Respublikasında çıxan bütün çap əsərlərinin biblioqrafik qeydə alınması;

2. Azərbaycanda çıxan çap əsərləri haqqında geniş biblioqrafik informasiya vermək: bu məqsədlə “Kitab salnaməsi”, “Qəzet məqalələri salnaməsi”, “Jurnal məqalələri salnaməsi” və annotasiyalı kartoçkaları çap etdirmək;

3. Mərkəzləşdirilmiş kataloqlaşdırma işini həyata keçirmək;

4. Biblioqraf kadrlar hazırlanmasına təsir göstərmək;

5. Biblioqrafiyanın metodiki məsələlərini işləmək;

6. Biblioqrafiya və kitabşünaslıq biliklərini yaymaq;

7. Dövlət orqanlarına, müəssisə və təşkilatlara biblioqrafik xidmət göstərmək.

Bu əsasnamə Kitab Palatasının qarşısına cari biblioqrafik informasiya nəşrlərini genişləndirmək vəzifəsini qoymuşdur.

İlk dövlət biblioqrafiyası orqanı olan “Kitab letopisi”ndə jurnallar haqqında qismən məlumat verilsə də, oxucu kütləsinin respublikanın qəzet və jurnallarında dərc olunan məqalələrə dair biblioqrafik informasiyaya böyük ehtiyacları var idi. Ona görə də jurnal və qəzet məqalələri üzrə dövlət biblioqrafiyası orqanlarının da nəşri mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri idi.

Beləliklə, palata 1928-ci ildən jurnal məqalələrinin biblioqrafiyalaşdırılmasına başlamış və 1920-1930-cu illərdə Azərbaycan Respublikası ərazisində çıxan jurnalların məqalələrinə dair biblioqrafık göstərici hazırlayaraq “Azərbaycan SSR məcmuələr külliyyatı (1920-1930)” adı ilə 1932-ci ildə nəşr etdirmişdir. Burada jurnallar, elmi əsərlər, xəbərlər və başqa elmi müəssisə nəşrləri əhatə edilmiş və onlarda dərc olunmuş məqalələrin analitik təsviri verilmişdir.

On illik bir dövrün jurnal və məcmuələrinin tərkibini açan bu əsaslı biblioqrafik informasiya mənbəyində birinci ümumi xarakterli məsələlər olmaqla elmin, mədəniyyətin, xalq təsərrüfatının müxtəlif sahələri üzrə materialların biblioqrafik təsvirləri sistemli şəkildə əks olunmuşdur.

“Azərbaycan SSR məcmuələr külliyyatı”nın 1931-1932-ci illərə aid ikinci və üçüncü buraxılışları 1933 və 1934-cü illərdə nəşr olunmuşdur. Lakin Kitab Palatası “Jurnal məqalələri salnaməsi”nin və “Qəzet məqalələri salnaməsi”nin rəsmi dövlət biblioqrafiyası orqanları kimi ardıcıl çap olunmalarını 1938-ci ildən həyata keçirə bilmişdir. “Jurnal məqalələri salnaməsi” üç ayda, “Qəzet məqalələri salnaməsi” isə ayda bir dəfə 500 nüsxə ilə çap olunmuşdur.

Böyük Vətən Müharibəsinə qədər “Jurnal məqalələri salnaməsi”ndə həmin dövrdə Azərbaycan ərazisində Azərbaycan və rus dillərində çıxan “Aqitator bloknotu”, “Azərbaycan tibb jurnalı”, “Gənc bolşevik”, “Müəllimə kömək”, “Partiya işçisi”, “Propaqandist”, “Revolyusiya və kultura”, “Sovet quruluşu”, “Fəhlə-kəndli müxbiri”, “Azərbaycan filialının xəbərləri” adlı jurnallarda dərc edilən məqalələrin biblioqrafik təsviri öz əksini tapmışdır.

“Qəzet məqalələri salnaməsi” isə “Kommunist”, “Ədəbiyyat qəzeti”, “Gənc işçi”, “Yeni yol”, “Şərq qapısı”, “Kirovabad bolşeviki”, “Azərbaycan bədən tərbiyəsi”, “Müəllim qəzeti” kimi qəzetlərdən götürülmüş ən mühüm məqalələrin biblioqrafik təsvirləri əks olunmuşdur.

Azərbaycan Kitab Palatası salnamələrin biblioqrafik təsvirlərin qruplaşdırılmasında keçmiş RSFSR Kitab Palatasının təcrübəsinə əsaslanmışdır. İlk illər “Azərbaycan mətbuat salnaməsi”ndə şöbələr olduqca bəsit və qeyri-dəqiq idi.

Salnamənin hər bir nömrəsinin adı əks etdirdiyi xronologiyaya uyğun idi. Məsələn, “Azərbaycan Dövlət Kitab Palatasına 1925-ci ilin dekabrına qədər daxil olan mətbuatın siyahısı”. Belə bir sərlövhə altında isə kitabların biblioqrafik təsviri müəyyən sistem üzrə verilirdi. Azərbaycan dilindəki buraxılış 4 hissədən ibarət idi. Birincisi “ictimaiyyat”, ikincisi “adsız”, üçüncüsü “məcmuələr”, dördüncüsü “təzə əlifba (latın) ilə nəşr olunmuş mətbuat” adlanmış və bu 1927-ci ilə kimi dəyişmədən davam etmişdir.

Rus dilində isə “Kitab və kitabçalar” və “Dövri nəşrlər” adlı iki bölmə verilmiş, bölmələr daxilində biblioqrafik təsvirlər elm sahələri üzrə qruplaşdırılmışdır. 1927-ci ildən başlayaraq Azərbaycan və rus dillərində olan hissələrdə tətbiq olunan təsnifatda fərqlər xeyli azalmış, təsnifat xeyli təkmilləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, Kitab Palatası həm də metodiki işləri həyata keçirmiş, vəsaitlər çap etmiş, kitabxana işçiləri üçün qısa müddətli kurslar təşkil etmişdir.

XX əsrin 30-cu illərinin sonlarına yaxın Kitab Palatası respublika çap əsərlərinə dair biblioqrafik illiklərin yaradılmasına başlamış, 1940-cı ildə “1939-cu il üçün Azərbaycan SSR Kitab məhsulu illiyi” adlı bir vəsait çap etdirmişdir. Vəsaitdə kitablar və dövri mətbuat haqqında da biblioqrafik informasiya verilmişdir. Respublika ərazisində Azərbaycan və rus dillərində nəşr edilmiş bütün çap əsərlərini əhatə edən illik biblioqrafik göstəricinin materialları təsnifləşdirmə sistemi dövlət biblioqrafıyası orqanlarının o dövrdəki nəşrlərinin quruluşuna uyğun gəlirdi. Bu vəsait ilin çap əsərləri haqqında biblioqrafik axtarışda mühüm əhəmiyyətə malik olmuşdur.

Palata fəaliyyəti müddətində respublika çap əsərləri haqqında statistik məlumat vəsaitlər də nəşr etmişdir. 1931-ci ildə “1930-cu il Azərbaycan mətbuat hasilatı (statistik məlumat)” adlı ilk statistik xülasəni çap etdirmişdir.

Biblioqrafik xülasədə həm kitablar, kitabçalar və həm də dövri mətbuat haqqında 5 bölmə üzrə (l.Dillər; 2.İctimai istiqamət; 3.Məzmun; 4.Onluq təsnifat; 5.Nəşriyyatlar) statistik məlumat verilirdi.

İkinci dəfə statistik məlumat 1932-ci ildə Kitab salnaməsinin birinci nömrəsinə əlavə kimi çap olunmuşdur. Kitab illiyinin və statistik məlumatın nəşrində uzun müddət fasilə əmələ gəlmiş və onların ardıcıl nəşrinə 1960-cı ildən başlanılmışdır.

Keçən əsrin əvvəllərində Azərbaycanda qurulmuş yeni ictimai siyasi quruluş bütün sahələrin geniş inkişafına zəmin yaratmışdır. Savadsızlığın ləğvi, yaradılmış dərnəklər, milli şüurun oyanması kitabxana işi və kitab çapının da inkişafına, çap olunan əsərlərin ildən-ilə artmasına təkan vermişdir. Ötən əsrin əvvəllərində bir sıra nəşriyyatlar tərəfindən buraxılmış çap kataloqlarının, çap əsərlərinin qeydiyyatını aparan Xalq Maarif Komissarlığının nəzdində Dövlət Kitab Palatasının ilkin fəaliyyətinin təhlili nəticəsində dövrün elmi-mədəni dirçəlişi haqda ümumi mənzərəni, kitab və dövri nəşrlərin çapı sahəsində baş vermiş prosesləri izləmək mümkün oldu. Bu elmi təhlil onu deməyə əsas verir ki, XX əsrin əvvəllərində Kitab Palatasının təşkili və fəaliyyətinin təkmilləşdirilməsi həm respublikada kitab və dövri nəşrlərin çapı üzrə statistik rəqəmlərin və arxiv fondunun meydana gəlməsinə, həm biblioqrafik informasiya hazırlamaqla bu barədə geniş ictimaiyyətin məlumatlandırılmasına, həm də kitab çapı sahəsində müxtəlif elm sahələri üzrə mövcud olan problemlərin həllinə səbəb olmuşdur. Odur ki, Kitab Palatası bir sıra problemlərə baxmayaraq növbəti illərdə fəaliyyətini davam etdirmişdir.

**Ədəbiyyat**


1. 50 il: yaddaş: 1925-1975. Azərbaycan Dövlət Kitab Palatası.- Bakı, 1975.- 29 s.
2. Azərbaycan Kitabxana Ensiklopediyası.- Bakı: [M.F. Axundzadə adına Milli Kitabxana], 2015.-630 s.
3. Əliyev, Z. 1920-ci illərdə Azərbaycanda ümumi biblioqrafiya //Kitabxanaşünaslıq və biblioqrafiya.-2000.- №1.- S. 80-91.
4. Əliyev, Z. Azərbaycan biblioqrafiyasının tarixi /Zöhrab Əliyev.-Bakı: Bakı Universiteti nəşriyyatı, 2007.-190 s.
5. Əliyev, Z. Azərbaycanda biblioqrafiya işinin inkişafı (1920-1958) ped. elm. nam. (biblioqrafiya ixtisası üzrə) alim. dər.al. üçün dis. /Zöhrab Əliyev.- Bakı, 1962.-247 s.
6. Xələfov, A. Azərbaycanda kitabxana işinin tarixi: dərslik. II hissə.-Bakı: Bakı Universiteti nəşriyyatı, 2007.-552 s.
7. Xələfov, A. Kitabxanaşünaslığın tarixi və metodologiyası/Abuzər Xələfov.-Bakı: Bakı Universiteti nəşriyyatı, 2014.-552 s.
8. Sultanlı, Ə. Dövlət kitab palatası //Kommunist.-1927.-13 may.-S. 3.